AZƏRBAYCAN

4'2015

1923-cü ildən çıxır

AZƏRBAYCAN YAZIÇILAR BİRLİYİNİN AYLIQ ƏDƏBİ-BƏDİİ ORQANI

Baş redaktor: **İntiqam QASIMZADƏ**

Baş redaktor müavinləri: **Südabə AĞABALAYEVA**
Əsəd CAHANGİR

Məsul katib: **Tofiq MAHMUDOV**

REDAKSİYA HEYƏTİ: **Ağasəfa, Vilayət Quliyev, Firuzə Məmmədli, Məmməd Oruc, Vaqif Bəhmənli, Vahid Əziz, Seyran Səxavət, Saday Budaqlı, Əli Əmirli, Yaşar, Asim Yadigar, Elçin, Əjdər Ol, Musa Yaqub, Afaq Məsud, Rüstəm Kamal, Ənvər Əhməd, Kamil Əfsəroğlu, Vaqif Yusifli, Fəxri Uğurlu, Paşa Əlioğlu, Əli İldırımoğlu**

Redaksiyanın ünvanı:
Bakı - Az1000
Xaqani küçəsi, 25

Telefonlar:
Redaksiya –
498-78-10
493-28-32
493-28-34
Mühasibat –
493-29-41

Çapa imzalanıb:
30.03.2015
Sifariş 847
Tiraj 600
Kağız formatı
70x108 1/16 - 6,5
kağız vərəqi
12 çap vərəqi
16,8 şərti çap vərəqi

E-mail:
intigam.gasimzade@gmail.com

Qiyməti
1 manat 50 qəpik

Bakı şəhəri,
"Azərbaycan"
nəşriyyatının mətbəəsində
ofset üsulu ilə çap olunur

Çap olunmuş yazılar qəbul edilmir.
Əlyazmalara rəy verilmir.

BU SAYIMIZDA:

NİZAMİ CƏFƏROV -"Ayrılarmı könül candan…" .....……..3

P o e z i y a

MƏMMƏD İSMAYIL - Şeirlər.....21
RAMİZ QUSARÇAYLI - Şeirlər 85
SALEH QURBANOV - Şeirlər.....104
RÜBAİL - Şeirlər 107
YUSİF NƏĞMƏKAR - Şeirlər 128
RAFİQ YUSİFOĞLU - Şeirlər 133
NAZİR RÜSTƏM - Şeirlər.....142
FAİQ HÜSEYNBƏYLİ - Şeirlər.....145
PƏRVİZ AXUND - Şeirlər.....149

N ə s r

SEYRAN SƏXAVƏT - Qaçaqaç (roman-memuar - ardı) 31
KAMİL ƏFSƏROĞLU - İştah, Kuklalar güləndə (iki hekayə).....92
ƏLÖVSƏT BƏŞİRLİ - Etiraf (hekayə).....155
MƏMMƏD NAMAZ - Qərib axşamlar (mənsur hekayə).....160
ZEMFİRA MƏHƏRRƏMLİ - Beş saniyənin hökmü (hekayə) 164
TAHİR MÖHLƏT - Uşaq qəlbi (hekayə).....166
MƏNSURƏ ELDARQIZI - Qanlı kəmər, Ad gününün sevinci (iki hekayə).....168

P u b l i s i s t i k a

TEYYUB QURBAN - Sənədlərin dili ilə 112

M i k a y ı l R ə f i l i - 1 1 0

NİZAMƏDDİN ŞƏMSİZADƏ - Ədəbi tənqidimizin Rəfili statı.....138
NAZİM HİKMƏT - M.Rəfiliyə.....141

X a t i r ə l ə r , d u y ğ u l a r

QƏŞƏM NƏCƏFZADƏ - Şəkillər “Altı qızın biri Pəri”.....153

B i z i m t ü r k d ü n y a m ı z

SEYRAN SÜLEYMAN (Krım) - Şeirlər.....170

T ə n q i d v ə ə d ə b i y y a t ş ü n a s l ı q

QƏZƏNFƏR PAŞAYEV - Hüseyn Kürdoğlunun poetik dünyası.....174
EŞQANƏ BABAYEVA - İztirab çəkən ruhun dramı.....184

S ö z x ə z i n ə m i z d ə n

PAŞA ƏLİOĞLU - Əlyazmalar İnstitutunun yeni nəşrləri.....188

K i t a b r ə f i 190

Nizami CƏFƏROV

"Ayrılarmı könül candan..."

AZƏRBAYCANÇILIQ İDEOLOGİYASI... VƏ SƏMƏD VURĞUNUN AZƏRBAYCANÇILIQ İDEALLARI

Milli ideologiya bütün hallarda milli ideallardan doğulur. Və milli ideallar milli ideologiyanın inkişafı, təkmilləşməsi, ictimai şüuru təmərküzləşdirərək real siyasi qüvvəyə çevrilməsi üçün həmişə tükənməz mənbədir.

Azərbaycan xalqının ümummilli lideri, azərbaycançılıq ideologiyasının (və fəlsəfəsinin!) inkişafında (və həyata keçirilməsində!) müstəsna (tarixi!) xidmətləri olan Heydər Əliyev həmin ideologiyanın (və fəlsəfənin!) yaradıcılarından biri olan Səməd Vurğuna xüsusi qiymət verirdi. Xalq şairinin məşhur misralarını müstəqil Azərbaycan dövlətinin yüksək kürsüsündən özünəməxsus intonasiya (qürur və kövrəkliklə!) əzbərdən deyən ümummilli lider bütün Azərbaycan xalqını həyəcanlandırmışdı…

El bilir ki, sən mənimsən,
Yurdum, yuvam, məskənimsən,
Anam, doğma vətənimsən;
Ayrılarmı könül candan,
Azərbaycan, Azərbaycan!..

* * *

Azərbaycançılıq ideologiyası və ya məfkurəsi Azərbaycan xalqının milli özünüdərkinin (milli şüurunun!) əsas göstəricisi kimi, XIX əsrin sonu - XX əsrin əvvəllərində təşəkkül tapsa da, XX əsrin sonu - XXI əsrin əvvəllərində mükəmməl bir mənəvi-siyasi hadisəyə - bütöv bir millətin özünütəsdiq enerjisinə çevrilmişdir.

Bizim fikrimizcə, həmin ideologiyanın təşəkkül tapıb formalaşması (mükəmməlləşməsi) tarixini daha aydın təsəvvür etmək üçün, ən azı, aşağıdakı üç xronoloji məqam və ya impulsun metafizikasını qarşılıqlı əlaqədə nəzərdən keçirmək lazım gəlir:

- birincisi ideologiyanın qaynaqlarından ibarətdir ki, buraya Azərbaycan xalqının bütövlükdə formalaşması (və bundan irəli gələn özünüdərk!) tarixi daxildir;

- ikincisi, XIX əsrin sonu - XX əsrin əvvəllərində, kifayət qədər mürəkkəb ideoloji axtarışlar, müzakirələr və mübahisələr dövründə azərbaycançılıq ideologiyasının təşəkkülüdür;

- üçüncüsü, bütün XX əsr boyu həmin ideologiyanın müxtəlif təzyiqlərə, qadağalara məruz qalsa da unudulmaması, milli ictimai şüurda qorunub saxlanması və, nəhayət, XX əsrin sonlarına doğru milli (rəsmi) ideologiyaya çevrilməsidir.

Burada birinci məqam - impuls, əgər belə demək mümkünsə, azərbaycançılıq ideologiyasının tarixinin «tarixəqədərki dövr»üdür. Və həmin «dövr» nəzərdən keçirilməsə, ideologiyanın etnik- ictimai fundamenti, yəni onu doğuran təbii milli ehtiyacın əsasları diqqətdən kənarda qalmış olardı ki, bu da təşəkkül və təkamüllə bağlı bir sıra məsələlərin düzgün həllini çətinləşdirər və ya o qədər də düzgün olmayan (populist!) qənaətlərə gətirib çıxarardı.

İkinci məqam - impuls, ən azı, üç baxımdan əlamətdar olub, müvafiq şəkildə aşağıdakı üç suala aydın cavab verməyi tələb edir:

1. Azərbaycançılıq ideologiyası XIX əsrin sonu - XX əsrin əvvəllərində təşəkkül taparkən hansı tarixi (etnik, ictimai-siyasi, mədəni-mənəvi və s.) qaynaqlara əsaslanmışdır?

2. XIX əsrin sonu - XX əsrin əvvəllərində azərbaycançılıq ideologiyası necə bir ictimai-siyasi, intellektual şəraitdə, hansı mübarizələr prosesində təşəkkül tapdı?

3. Nə üçün bu ideologiya, millətin tarixi ideallarına tamamilə uyğun olduğu halda, mövcud təzyiqlərə davam gətirə bilməyib geri çəkilməli oldu?

Bu suallara düzgün cavab vermədən üçüncü məqam - impulsun nəinki metafizikasını, heç «daxili» dialektikasını da aydın dərk etmək mümkün deyil. Çünki təşəkkül tapıb az-çox formalaşdıqdan sonra XX əsrin sonlarına qədər müxtəlif (xüsusilə xaricdən!) təzyiqlərə məruz qalan azərbaycançılıq ideologiyasının taleyinin təməlləri XIX əsrin sonu - XX əsrin əvvəllərində qoyulmuşdu. Və həm uğurlar, həm də qüsurlar (ziddiyyətlər!) həmin dövrdən (təşəkkül dövründən) gəlirdi.

Hər bir milli (daha doğrusu, ümummilli!) ideologiya xalqın və ya millətin bütün tarixi boyu, tədricən və müxtəlif xarakterli ideya-düşüncə mübarizələri, münaqişələri prosesində (kontekstində!) müəyyənləşir. Ona görə də nə zaman təşəkkül tapıb formalaşmasından asılı olmayaraq (əslində, bu da xalqın tarixi taleyindən irəli gələn müəyyən qanunauyğunluğa tabedir), hər bir milli ideologiyanın mənşəyi xalqın və ya millətin tarixinin, yaxud tarixi yaddaşının ən qədim dövrlərinə qədər gedib çıxır.

Azərbaycan xalqının heç bir mübahisəsiz qəbul edilən ilk eposu «Dədə Qorqud»dur. VII- XI əsrlərin əhvali-ruhiyyəsini əks etdirən (XI-XVI əsrlərdə «redaktə» olunan) bu əsərin fəlsəfəsi göstərir ki:

1) Azərbaycan xalqı türk mənşəli (və tipologiyalı) bir xalqdır,

2) türk mənşəli Azərbaycan xalqı müsəlman mücahididir;

3) Azərbaycan türk mücahidləri dünyəvi düşüncə (və həyat) eşqindədirlər.

Bu həqiqətləri Xətib Təbrizi, Nizami Gəncəvi, Xaqani Şirvani, İmadəddin Nəsimi, Şah İsmayıl Xətai (daxil olduqları ümumtürk etnik-mədəni kontekstlərilə birlikdə) sübut etdilər ki,

1) azərbaycanlılar türkdür;

2) azərbaycanlılar müsəlmandır;

3) azərbaycanlılar müasir dünyanın övladlarıdır.

Və sonra «Koroğlu» eposu yarandı…

«Koroğlu» da dedi ki, biz: a) türkük; b) müsəlmanıq; c) bu dünyada heç kimdən əskik deyilik (ancaq bu sonuncu iddia artıq «metafora» idi).

Hələlik, demək olar ki, heç bir tarixçinin (prof. Y.Yusifovdan başqa) qəbul etmədiyi Aratta dövlətini, hər kəs üçün mübahisəli olan (etnik tərkibi bilinməyən) Manna, Midiya, Albaniya dövlətlərinin etnik tarixini bir qırağa qoysaq və tam bir təvazökarlıqla Atabəylərdən (səlcuqlardan) başlayıb Səfəvilərə qədər gəlsək, görərik ki,

1) azərbaycanlılar nə ərəb, nə iranlı, nə də iber-qafqazlı deyillər - türkdürlər;

2) nə atəşpərəst, nə iudaist, nə də xristian deyil - müsəlmandırlar;

3) ya dünya hakimiyyəti, ya da dünyada normal hakimiyyətin olması iddiasındadırlar.

Tarix göstərir ki, bu səviyyədə «iddia» ancaq etnosa (onun enerjisinə!) aiddir!..

XVI əsrin sonu, XVII əsrin əvvəllərindən etibarən azərbaycanlılar türk dünyasından ayrılırlar… Və tək qalırlar…

Bundan sonra belə bir ziddiyyətli vəziyyət əmələ gəlir:

a) azərbaycanlılar türkdürlər;

b) azərbaycanlılar türk deyillər;

c) azərbaycanlılar həm türkdürlər, həm də türk deyillər…

Və bu cür ziddiyyətin tarixi metodoloji «əsas»ı o oldu ki, azərbaycanlılar müsəlman oldular…

Ümumiyyətlə, türklərin müasir dünyada özlərini nə üçün atəşpərəst, buddist, iudaist, xristian və s. deyil, məhz müsəlman kimi təqdim eləmələri heç bir mübahisə törətməsə də, müəyyən suallar doğurur…

Hər şeydən əvvəl ona görə ki, türklər parçalandılar… Və o qədər parçalandılar ki, hətta slavyanlar da, hər hansı ciddi inama sahib olmadıqları (və əlaqəyə girə bildikləri inanclarla həmrəylikləri hesabına!) ümumtürk coğrafiyasına hökm etdilər… O slavyanlar ki, arxalarında xristian mənəvi-ideoloji (və hərbi!) kompleksi dayanmışdı… Onlara (qarşı) nə ərəblər, nə də iranlılar deyil, məhz türklər dayandıqları (və islamın namusunu qoruduqları!) üçün tarix «müsəlman» adını türklərə verdi…

«Onda Səməd Vurğun yoxuydu» (Nəriman Həsənzadə) hələ…

Azərbaycançılıq ideologiyasının ümumi (və bir sıra hallarda deklarativ) mənzərəsi XIX əsrin sonu - XX əsrin əvvəllərində müəyyənləşmişdir.

Önə çıxan ilk mütəfəkkir Əli bəy Hüseynzadə (Turan) oldu… Və o, millətin ideoloji fəlsəfəsini elan etdi:

1) türkləşmək;

2) müsəlmanlaşmaq;

3) müasirləşmək (avropalaşmaq).

Niyə?..

Ona görə ki, milli özünəməxsusluğunu, demək olar ki, itirmiş bir millətin (o millətin ki, bunun ona haqqı var idi!) düşünmək imkanı əlindən alınmışdı…

Azərbaycan Xalq Cümhuriyyətini, Avropa düşüncəsi ilə yanaşı, «Dədə Qorqud»dan, «Koroğlu»dan gələn inersiya yaratdı!.. O inersiya ki, türklük, müsəlmanlıq və müasirlik (Avropa) dəyərlərinə tamamilə uyğun idi…

Əli bəy Hüseynzadənin, Əhməd bəy Ağayevin, Məhəmməd Əmin Rəsulzadənin artıq millətin iddiası səviyyəsinə qaldırdıqları ideologiya danılmaz bir hadisə idi… Ancaq suallar da az deyildi…

Sualların ən əsası ondan ibarət idi ki, türk (və müsəlman) dünyasından təcrid olunmuş Azərbaycan ayaq üstə dura biləcək, ya yox?

Cavab isə aydın idi: Yox!..

…Bəs, milli enerji?..

Azərbaycan Xalq Cümhuriyyəti süqut etdi…

«Hakimiyyət»ə kommunist milli lider Nəriman Nərimanov gəldi. O Nəriman Nərimanov ki, azərbaycançılıq ideologiyasının səmimi bir əsgəri idi.

Ancaq səmimi əsgərlərə qeyri-səmimi komandirlər nəzarət (və hökm!) edirdilər… Hakimiyyəti Vladimir İliç Lenindən bugünə qədər mahiyyəti bilinməyən bir metodla almış İosif Stalin nəzarəti altında olan bütün xalqlar, o cümlədən də türk xalqları üçün hər kəsin qəbul etməli olduğu «tarix» (və tale!) müəyyənləşdirmək qərarına gəldi… Və ömrünün sonuna qədər həmin qərarı necə istəyirdisə, o cür həyata keçirdi…

Ancaq azərbaycançılıq ideologiyası hətta Stalinin dövründə də öz təbii (ancaq implissit!) təkamül dövrünü yaşamaqda davam etdi.

«Onda Səməd Vurğun» varıydı «daha» (Nəriman Həsənzadə)!..

Azərbaycançılıq ideologiyası aşağıdakı təkamül mərhələlərindən keçmişdir:

1) XX əsrin 20-ci illərinin əvvəllərindən 30-cu illərinin sonlarına qədər;

2) XX əsrin 40-cı illərinin əvvəllərindən 60-cı illərinin sonlarına qədər;

3) XX əsrin 70-ci illərinin əvvəllərindən 80-ci illərinin sonlarına qədər;

XX əsrin 20-ci illərindən başlayaraq, Azərbaycan türk dünyasını birləşdirəcək (və kommunist hərəkatının avanqardı olacaq) bir ölkə kimi qəbul edilirdi. Hətta Atatürk Türkiyəsi də Azərbaycanın «ardınca» getməli idi…

30-cu illərin əvvəllərindən Türkiyə (və Atatürk!) bundan imtina etdi…

Azərbaycançılıq ideologiyasının ən vacib tərkib hissələrindən biri olan «türkləşmə»yə qarşı mübarizə başlandı. Elə bir mübarizə ki, millətin adından etnogenezinə qədər əhatə etdi.

Ancaq nəinki XX əsrin əvvəllərində, hətta həmin əsrin 20-ci illərində yetişmiş ziyalılar (Mirzə Cəlildən Seyid Hüseynə, Hüseyn Caviddən Səməd Vurğuna qədər) bilirdilər ki, azərbaycanlılar türkdürlər. Və onların türkləşməyə ehtiyacları yoxdur…

Müsəlmanlığa (ümumən dinə) qarşı mübarizə isə bundan daha qabaq başlamışdı.

Yalnız müasirlik qalırdı… Bu isə kommunist (sovet!) ideologiyası tərkibində mümkün idi ki, onun da dili rus dili olmalı, vətən deyəndə yalnız degenerat Sovetlər Birliyi nəzərdə tutulmalı idi.

Bu isə siyasi konyuktur idi ki, Azərbaycanda nəinki fəlsəfə, heç ideologiya səviyyəsinə qalxmadı…

Elə bu zaman II Dünya müharibəsi başlandı… Sovet ordusu İrana girdi… Və Azərbaycan (bütöv Azərbaycan!) vətənpərvərliyi milli ictimai şüura elə bir təsir göstərdi ki, bugünə qədər qarşısını almaq mümkün deyil. Səməd Vurğun, Süleyman Rüstəm, Rəsul Rza, Mirzə İbrahimov (və Əziz Əliyev) kimi milli tarixi şəxsiyyətlərin o illərdə gördükləri işlər həm də (və əsasən) ideoloji iş idi ki, onu daha çox azərbaycançılıq adlandırmaq olar.

Təəssüf ki, o zaman Azərbaycanın Şimalı ilə Cənubunu birləşdirmək mümkün olmadı… Ancaq Dünya (və Tarix) bir daha şahid oldu ki, Azərbaycan bir yox, iki hissədən ibarətdir. Və bu hissiyyat azərbaycançılıq ideologiyasının nəinki potensiyasına, hətta «aktiv»inə daxil olmalı idi. Və oldu!..

Stalinin ölümündən sonra başlayan yeniləşmə («istiləşmə») tarixi azərbaycançılıq ideologiyasının təkamülünə elə bir ciddi imkanlar açmasa da, 60-cı illərin sonu - 70-ci illərin əvvəllərindən etibarən həmin ideologiya

Azərbaycan ziyalılarının özünütəsdiq şüuruna (mənəviyyatına!) çevrildi ki, onların da önündə respublikanın başçısı Heydər Əliyev gedirdi. O Heydər Əliyev ki, sadəcə olaraq millətin içərisindən çıxmamışdı, onun ruhundan (və intellektindən!) doğulmuşdu. Və o Heydər Əliyev ki, tarix (tale!) ona millətin idealları önündə getmək imkanı (və səlahiyyəti) vermişdi.

Heydər Əliyev millətin (və milli şüurun) yatmış hüceyrələrini hərəkətə gətirdi. Sovetlər Birliyinin «ucqar»ı (Nəriman Nərimanov) olmuş bir respublikanı ölkəyə (və Vətənə!) çevirdi. Yazıçını, bəstəkarı, mügənnini, rəssamı, idmançını, mühəndisi, kənd təsərrüfatı işçisini, ümumən hər kəsi (hər bir azərbaycanlını!) ruhlandırdı. Və hamını (hətta tarixi!) oyadıb ölkəni vahid bir orqanizm halına gətirdi ki, bu, azərbaycançılıq ideologiyasının təntənəsi demək idi.

Elə bir təntənə ki, onun ardınca milli müstəqilliyin gəlməsi tamamilə təbii idi…

* * *

Ümummilli lider Heydər Əliyevin milli dövlət quruculuğu siyasətində ən mühüm prinsiplərdən biri də Azərbaycan xalqının milli mənəvi-ideoloji irsini canlandırmaq, tarixi təfəkkürünü bərpa etmək, ictimai-fəlsəfi yaddaşı təzələməklə möhkəm (və möhtəşəm) fundament üzərində yüksəltmək idi. Və ümummilli lider dəfələrlə göstərmişdi ki, milli mənəvi-ideoloji irsin, tarixi təfəkkürün, ictimai-fəlsəfi yaddaşın bir fenomeni də Səməd Vurğun yaradıcılığıdır. Bu, yalnız bədii yaradıcılıq və ya ədəbi-estetik hadisə deyil, bütöv bir dünyagörüşü, milli ideologiya və ya fəlsəfənin tarixi təzahürüdür ki, bir xalq (millət!) səviyyəsində onu unutmaq, yaxud ona laqeyd yanaşmaq, neovulqar iddialarla «sovet şairidir», «kommunizmin tərənnümçüsüdür» deyib üzərindən keçmək qəbahət olardı.

Azərbaycan poeziyasında azərbaycançılıq ideallarının (və ideologiyasının) ilk dəfə bütün genişliyi, dərinliyi (və məhsuldarlığı!) ilə təzahür etdiyi kontekst ilk xalq şairi Səməd Vurğunun yaradıcılığıdır. Və məlum

olduğu kimi, «Azərbaycan ədəbiyyatı tarixində «sovet epoxası» deyilən dövrün böyük poeziyasını yaradanların siyahısında Səməd Vurğunun adı xüsusi ehtiramla çəkilir. O, Vətənin və poeziyanın yaddaşında təkrarsız poetik şəxsiyyət, milli və beynəlmiləl ictimai xadim, elm və sənət təşkilatçısı, qeyri-adi şair, dramaturq, mütərcim və mütəfəkkir kimi yaşayır» (Yaşar Qarayev).

Səməd Vurğun dünya miqyaslı bir şair idi; belə ki, «bütün dünya bu poeziyada öz əksini tapırdı. Lakin dünyanın da mərkəzi bu poeziyada - Azərbaycan idi» (Yaşar Qarayev).

Və «tamlığa, sonsuzluğa o, yalnız ömür adlı zamanda yox, həm də Azərbaycan adlı məkanda - Vətəndə nail olub» (Yaşar Qarayev).

Səməd Vurğun yaradıcılığa XX əsrin 20-ci illərinin ortalarında başlamışdı… Və Yaşar Qarayev tamamilə doğru olaraq göstərir ki, «Səməd Vurğunun poeziyası da, bioqrafiyası da bilavasitə xalqın tarixinin və taleyinin iradəsidir. Onun gəncliyi müsibətdə, ölüm və qanlı keçmişindən ayrılan və əzablar içində təzədən doğulan ölkənin ilk gəncliyi ilə eyni tarixi dövrə təsadüf edir. Yeni epoxa ictimai-siyasi həyatda aprel çevrilişi ilə, çağdaş milli poeziyada isə Səməd Vurğunla və onun təmsil etdiyi ədəbi nəsillə başlayır».

Şairin ilk şeirlərindən biri «Cavanlara xitab» adlanırdı. Və həmin şeirində gənc şair öz həmyaşıdlarına bir ağsaqqal ədası ilə müraciət edirdi:

Mənim düşkün könlüm sizdən eləyir
Bu fərz olan təmənnanı, cavanlar.
Unutmayın bəşər sizdən diləyir
Elm, ədib, həm irfani cavanlar.

…İstəsəniz, ölkəmiz abad olar,
Ellərin məhbusları azad olar,
Onda da Vurğunun könlü şad olar,
Verər sizə can qurbanı, cavanlar.

Bu maarifçi vətənpərvərlik, heç şübhəsiz, siyasi konyukturdan xali deyildi, ancaq nəzərə alsaq ki, gənc Səməd Vurğunun əsas peşəsi müəllimlik idi, onda müraciətin maarifçi-vətənpərvər səmimiyyətinə də şübhə etmək doğru olmazdı.

Ölkəsinin abadlığından, ellərin azadlığından doğulacaq könül şadlığını arzulayan (və bunun üçün canını qurban verməyə hazır olan) gənc şairin pedaqoq sadəlövhlüyü ilə yanaşı, ideya-pedaqoji inamını da nəzərə almaq lazımdır.

20-ci illərin ortalarında yazılmış (və Əhməd Cavada ünvanlanmış) «Göygöl» şeiri komsomolçu və ya kommunist şairin müsavatçı həmkarına vətənin (və dövrün) etnoqrafik (və siyasi) idealları mövqeyindən verdiyi cavab idi.

Və bu, artıq bir şair-pedaqoqun deyil, şair-ideoloqun müraciəti idi. Və gənc Səməd Vurğun siyasi-ideoloji obraz-terminologiya səviyyəsində mübarizəyə qalxmışdı… Elə bir mübarizəyə ki, hətta təbiət gözəlliyinin şah əsərlərindən biri olan Göygölü də «düşmən»ə qısqanırdı:

Qucağında bir vaxt bəslədi sizi,
Görmədi sizləri vəfalı Göygöl.
Nişan vermə ona ayı, ulduzu,
Artıq unutmuş o xəyalı Göygöl.

…Neçə illər bundan qabaqkı çağı,
O solğun bağçanı, o viran bağı
Xatırlamazmısan, ey «böyük dahi»?
Yaşarmı sizinlə səfalı Göygöl?..

…Gözəlliyi bəlli, məşhuri-cahan,
Qismət olmaz bir də sizlərə inan.
Sizlərə çəkilən o dağa dərman
Verməyəcək, gəzsən mahalı Göygöl.

Həm 20-ci, həm də 30-cu illərdə Səməd Vurğunun azərbaycançılıq (vətənpərvərlik) idealları (fəlsəfəsi!) özünü ən çox Vətənin (Azərbaycanın) coğrafiyasının bütün genişliyi, eyni zamanda konkretliyi ilə təqdim, təsvir və tərənnümündə özünü göstərir:

Dağlarından qopar havalı yellər,
Ah, o sərin yellər, səfalı yellər;
Dağıdıb huşumu divanə eylər,
Vüsalın hər kəsə səadət, Şuşa!
(«Şuşa»).

Yaxud:

Bu yerin dağları hər gün bəzənər,
Bəzənər, sanki xəyalımla tanış;
Nə qədər fitri gözəl bir yaranış
Ki, dəyişməm onu heç bir gözələ.
(«Şəki»).

Yaxud da:

Yenə gördüm səni, Dilcan dərəsi,
Yadıma çox köhnə zamanlar gəlir.
Ömür dedikləri bir karvan yolu,
Nə canlar gedərək nə canlar gələr.

Anasını uşaqkən itirmiş gənc bir istedadın (şairin!) Vətənə «Ana» deməsinin ən vulqar (sosioloji!) mənası da, yəqin ki, ən ideoloji (siyasi!) məzmunundan daha səmimidir…

Ey vətən! Ey ana! Açıldı yolum,
Ümidim sənəmi, qurbanın olum?
Nədəndir demədin heç mənə:- «Oğlum,
Dolandın nerələr, de hankı yerlər?

- deyə ana vətənə müraciət edən şair bəzən Vətənin hüdudlarını Qafqazdan Altaylara qədər genişləndirir:

Bir qəlb ki, çalxanar, hər zaman coşar,
Tufanlar keçirən dəryaya bənzər.
Qafqazda çırpınar, Altaya qoşar,
Dağlardan atılan bir yaya bənzər.

Of!.. Bu yerlər yazıq ruhuma dardır,
Kəsilmiş yollarım dumandır, qardır.
Vaxta ki, bu hüdud, bu sərhəd vardır,
Ömür dedikləri röyaya bənzər.

Sən, ey mərhəmətsiz, duyğusuz casus!
Ey sərvət dünyası, sən sürün, sən sus!..
Bəşər qardaşlığı tərk etmiş, əfsus!
Hər əməl dumanlı xülyaya bənzər…

Burda osmançılıq ideyası (və fəlsəfəsi) yoxdurmu?.. Və bunun bir xülya olduğuna işarə yoxdurmu?.. Hər ikisi var!..

Səməd Vurğunun 20-ci illərdə qələmə alınıb Qafqaza (Qafqaz vətənpərvərliyinə) həsr olunmuş bir neçə şeiri var ki, onlardan birində etnoqrafik-intim (psixoloji) rənglər daha tünddür:

Bilməm nə xəyal ilə oyandım yenə erkən,-
Bir quş ki, uça düzlərə, səhralara azad,
Axşamları öz yurduna həsrətlə dönərkən
Çırpınmağa başlar yenə ruhumdakı fəryad.

Qafqaz! O xəyal şəhpəri röyama gələrkən
Bir səs mənə qalx, qalx deyə qəmlərdə gülümsər.
Yalqız quzu madər deyə ağlar və mələrkən
Bir pəncə əzər qəhr ilə vicdanımı yeksər.

Əlbət, məni təqib edəcəklər ki, bu fəryad
Bədbinlərə məxsus, bizi şad etməyəcəkdir.
Ehvah ki, min pəncədən olsam da həp azad,
Məndən o vətən zövqü uzaq getməyəcəkdir.

Yada salaq ki, bu şeiri yazanda Səməd Vurğun hələ «Qafqazın ağ saçlı qartalı» deyildi, çox gənc idi…

20- ci illərin sonunda yazdığı başqa bir şeirində şair deyir:

…O yerdə ki, günəş gülər, dəniz gülər, göy gülər;
O yerdə ki, sarı bülbül yaz gününü qarşılar;
O yerdə ki, qüşlar oxur sölənilən türkülər
Andırır ki, o torpağın zəngin təbiəti var.
Axşamları, səhərləri çox xoş olur… O diyar
Hər könülə ilham verər, hər yolçunu saxlayar.
O, Qafqazdır ki, şairlər vurulmuşdur nazına,
Könül oynar ixtiyarsız təbiətin sazına…

…Köçəridir xalqmızın çox hissəsi əzəldən,
Nə söylədimsə doğrudur, yaratmadım bunu mən.
Günəş azca qızan kimi çəkilərdik bağlara,
Dağlar bizə mehribandır, sığınaraq dağlara
Üç ay yayı keçirərək göy yaylaqlar başında
Yurd salırıq o yerlərin torpağında, daşında…

Bu sözləri (Vətəni haqqındakı məlumatı!) şair Moskvada bir konsert axşamı onun kim olduğunu öyrənmək istəyən «bütün varlığilə gümrah, qayğısız, səmimi bir qız»a deyir. Və onu təəccübləndirir…

Şair 30-cu illərdə qələmə aldığı «Qafqaz» şeirində yazır:

Uçurur fikrimi boşluqlara, bax,
Göyü xəncər kimi dümdüz yararaq
Uzanan dik qayalar, silsilələr;
Qara yellər ona dörd yandan əsər,
Ağ buludlar onu bərk-bərk sarmış…
Dəli Qafqaz! O, baharsız bir qış
Deyə təsvir olunarmış hərdən…
Torpaq olmuş o keçən günlərdən
Sadə izlər görürəm daşlarda,
Ağ dumanlar ağarır qaşlarda…
Hələ dağlar, uçurumlar, dərələr,
O gözəlliklə gülən mənzərələr
Saxlayır yolçunu yoldan gecələr,
Sayrışır göydəki ulduzlu səhər…

Burada şeirin (və şairin!) səviyyəsi vaxtilə Qafqazı tərənnüm etmiş dahi Puşkini (və Lermontovu) keçir!.. Niyə?.. Hər şeydən əvvəl ona görə ki, Qafqazın (yalnız Qafqazınmı?) sahibi danışır…

* * *

1935-ci ildə Səməd Vurğun məşhur «Azərbaycan» şeirini qələmə aldı!..

«Bir metafora kimi Azərbaycan o illərdə ən iri, ən möhtəşəm bədii əksini bu şeirdə tapmışdır. «Ayrılarmı könül candan, Azərbaycan, Azərbaycan» - dillər əzbəri bir beyt bu gün də Vətənə məhəbbət etirafının riyazi düsturu olaraq qalır - «Könül» və «can» bərabərdir. «Vurğun və Azərbaycan» - milli bədii fikirdə son yüzilin ən klassik poeziya tənliyi ilə, şeirdə «Vurğun arifmetikası» isə belə idi! Və həmin tənliyin ən klassik həllini də öz poeziyasında Vurğun özü vermişdi» (Yaşar Qarayev).

Həmin «həll»in əsas məzmunu, mündərəcəsi nədən ibarət idi?..

«Könül və can kimi Vurğun və Azərbaycan da bir-birindən ayrılmaz idi: «Ayrılarmı könül candan?» - bu, kiməsə, yaxud nəyəsə yönələn ritorik sual deyil, şeirlə vətən arasında «elani-eşq» və «əhdi-peyman» idi. Təsadüfi deyil ki, bir bədii metafora kimi Azərbaycan Vurğuna qədər hələ heç bir şeirdə bu qədər bütöv, bu qədər tam olmamışdı. Heç nə bu rəmzi əbədi vəhdəti parçalamağa qadir deyildi» (Yaşar Qarayev).

Bu şeir ilahi bir istedadın (ruhun!) təzahürü idi… Və Səməd Vurğunun bu şeiri olmasaydı, onun yaradıcılığını, bəlkə də, şübhə altına almaq olardı…

Ancaq inanıram ki, «Azərbaycan» şeirini axıracan oxumuş (və dərk etmiş!) bir əhli-bəşər Səməd Vurğunun vətənpərvərliyinə (və azərbaycançılıq fəlsəfəsinə!) şübhə eləsin.

Azərbaycan dilinin (türkcəsinin) tarixən (və təbii olaraq!) müəyyənləşmiş öz leksik-semantik sistemi var… Mən hamının ixtiyari şəkildə dərhal anlayacağı və ya anladığını güman edəcəyi olduqca «neytral» bir anlayışdan - sadəcə, lüğət tərkibindən danışmaq istəmirəm, söhbət leksik semantikadan (hətta, imkan daxilində, onun sistemindən) gedəcəkdir.

Keçən yüzilliyin 30- cu illərində - müasir Azərbaycan ədəbi dilinin leksik normalarının qərarlaşdığı bir dövrdə meydana çıxmış «Azərbaycan» şeirinin lüğət tərkibi, mənim fikrimcə, həm dövrün müəyyənləşməkdə olan leksik norma axtarıcılığı tendensiyalarının mənzərəsini əks etdirmək, həm də həmin normalaşma prosesinə təsir göstərmək baxımından tarixi maraq doğurmaya bilməz. «Azərbaycan» şeirinin müəllifi (və XIX əsrin sonu - XX əsrin əvvəllərində formalaşmış azərbaycançılıq məfkurəsinin sovet dövründəki davamçısı!) Səməd Vurğunun 20-ci illərdən başlayıb 50-ci illərdə bitən «söz zövqü»nün obyektivliyinə də, yəqin ki, heç kimin şübhəsi ola bilməz.

Ona görə də «Azərbaycan» şeirinin leksikasını bütün sosial-semantik canlılığı ilə yalnız müəllifin (Səməd Vurğunun!) deyil, bütövlükdə Azərbaycan ədəbi dilinin leksik normativliyinin göstəricisi saymaqda yüz il sonra belə məni qınayacaq bir dil (və fikir!) tarixçisi meydana çıxacaqsa, ona minnətdar olardım.

Təxmini hesablamalarıma görə, «Azərbaycan» şeirində 200-dən artıq söz işlənir. Elə sözlər də var ki, təkrarlanır (bu da 350-yə qədər edir)… Təkrarları nəzərə almasaq, həmin 200-dən artıq sözün təxminən 75%- i türk, 15%-i fars, 10%-i isə ərəb mənşəlidir. Ancaq nə fars, nə ərəb mənşəli sözlərdən, demək olar ki, heç biri bugünkü Azərbaycan ədəbi dili üçün yad və ya qeyri-normativ deyil. Yalnız «bəhr» (dəniz) sözünə etiraz etmək olar ki, bu da o qədər ekzopoetik kontekstdə təqdim edilir ki, leksik normativliyin keçən əsrin 30-cu illərində pozulduğu bu gün ağıla gəlmir:

Bir tərəfin bəhri-Xəzər,
Yaşılbaş sonalar gəzər…

Və nə keçən yüzilliyin 30-cu illərinə qədər, nə də keçən yüzilliyin 30-cu illərindən sonra Azərbaycan şeirində, yəqin ki, bu qədər bir-birindən fərqli coğrafiyanı əhatə edən yer adı işlənməmişdir: Araz (lar), Azərbaycan, Xəzər, Muğan, Eldar, Astara, Lənkəran, Afrika, Hindistan, Qazax, Kəpəz dağı, Göygöl, Qarabağ, Bakı. Və Qoca Şərq.

Cəmisi üç şəxs adı işlənir… Xan (Şuşinski) və ümumi şəkildə: nizamilər, füzulilər.

Vətən sözünə cəmisi 3 dəfə təsadüf olunur, ancaq bu anlayışı bilavasitə ifadə edən yurd, yuva, məskən, el, gün, oba, bu yerlər, yaxud dolayısı ilə həmin mənanı verən bu dağlar, durna gözlü bulaqlar, ana (sən bir ana), bu düzlər, ala gözlü gündüzlər, sıra dağlar, gen dərələr, ürək açan mənzərələr, oylağın, aranın, yaylağın, dağların, səngər, göy yaylaqlar, çinarlar kölgəsi, günəş ölkəsi, beşik, günəşin qucağı, şeir, sənət ocağı, hər dağ, dərə, sahillər… və (Qoca Şərqin) qapısı kimi söz və ifadələr bir şeirə sığmayacaq qədərdir.

Və bu, sadəcə, dövrün şairə diktəsi yox (əgər belə olsaydı, analoji nümunələrə də təsadüf edərdik), daha çox Şairin dövrə diktəsidir ki, sonralar nə qədər populyarlaşdığını müşahidə etmək o qədər də çətin deyil.

Səməd Vurğun «Azərbaycan» şeirində Vətəni az qala illərlə görmədiyi anasını tapmış bir uşaq emosiyası (və ehtirası!) ilə sevməyin leksikonunu, frazeologiyasını, hətta leksiko-sintaksisini təqdim edir… Və hamının dilinin əzbəri olan «el bilir ki, sən mənimsən» kimi kifayət qədər sadəlövh bir ifadənin poetizmə çevrilməsi də həmin sevginin nə qədər dərindən gəlməsinin ifadəsidir. Vətənə «ana» deyən maarifçi mütəfəkkirlərin (məsələn, Abbas Səhhətin) hisslərini, duyğularını siyasi-ideoloji bir səviyyəyə qaldıra-qaldıra sələflərinin səmimiyyətinə heç bir xələl gətirməyən Səməd Vurğun daha irəli

gedərək həm Vətəni dəqiqləşdirir, konkretləşdirir, yəni «Azərbaycan! Azərbaycan!..» deyir, həm də ona «anam!» deyir:

…Anam, doğma vətənimsən!
Ayrılarmı könül candan,
Azərbaycan, Azərbaycan!

Ancaq Abbas Səhhətdən, ümumən sələflərindən fərqli olaraq Səməd Vurğunun poetik leksikonunda Vətən həm də tarixi faciə predmetidir:

…Bilinməyir yaşın sənin,
Nələr çəkmiş başın sənin.

Yaxud:

Düşdün uğursuz dillərə,
Nəhs aylara, nəhs illərə…

Və böyük Şair Vətənin başqa bir tarixi faciəsini də dərk etməyə bilməzdi… Ancaq bu faciə Vətənin (və Şairin) imtina edə bilməyəcəyi konyuktur olduğu qədər də qaçılmaz bir «tərcümeyi-hal» idi:

Gözəl vətən! O gün ki, sən
Al bayraqlı bir səhərdən
İlham aldın, yarandım mən…

«Azərbaycan» şeirində Şairin səmimiliyini təmin edən ən mühüm göstəricilərdən biri, övladın Vətənə, yəni “mən”in “sən”ə müraciətidir. Olduqca çoxlu, bütöv bir poetik sistem təşkil edən qrammatik faktları nəzərə almasaq, şeirdə “mən” əvəzliyi altı, “sən” əvəzliyi isə on iki dəfə işlənir. Buraya “mən”in davamı olan (və ümumən xalqı bildirən) “biz” əvəzliyinin də altı dəfə işləndiyini nəzərə alsaq, məlum olar ki, şeirdə polemika və ya mükalimə, yaxud da Səməd Vurğun üslubu üçün səciyyəvi olan müraciət-tribunluq intonasiyası «Azərbaycan»ın leksikasını da müəyyən edir.

Vətən, şeir, nəsil, məskən, tərəf, insan, zülm, məna, sakit, rəng, azad, bahar, dost və s. kimi ərəb, fars mənşəli normativ sözlərlə yanaşı, Şair müəyyən qədər etnoqrafik məzmun-təəssüratlı elə sözlər işlədir ki, o dövrdə ilk baxışda onların ərəb və ya fars mənşəli sözlər qədər normativ olduğuna inanmaq çətindir. Məsələn: sınamaq, dən (saçlarıma dən düşəndə), qınamaq, dolaşmaq (xəyalım dolaşar gəzər), keçmək (keç bu dağdan, bu arandan), yaranışdan (bir səngərdir yaranışdan), acqarına, qan- tər, ocaq (şeir-sənət ocağısan) və s.

Yüzillər boyu Azərbaycan ədəbi dilində işlənən, xüsusi ədəbi nüfuz qazanan ərəb, fars mənşəli sözlərlə yanaşı, bu cür milli etnoqrafik leksikanın ədəbiləşdirilməsi, onlara normativ status verilməsi Səməd Vurğunun (və dövrün!) hünəri idi ki, çox keçmədən müasir Azərbaycan dili lüğət tərkibinin tipologiyasına, xarakterinə çevrildi.

Şeirin dilində ərəb və ya fars mənşəli sözlər türk mənşəli şəkilçilərlə, bir növ, yarımmilliləşdirilir: gəncləşmək, havalanmaq, nazlanmaq və s.

Şair mövcud, ənənəvi frazeoloji vahidləri işlətməkdən daha çox öz (üslubi) frazeologiyasını yaratmağa çalışır: ayrılıq məndən düşəndə; boğar

aylar, illər məni; düşdün uğursuz dillərə; xəyalım dolaşar gəzər; mənzil uzaq, ömür yarı; zülm əlindən qurtulmuşlar; hər üzümdən bir şirə çək; doyunca iç bu bahardan; alqış günəş ölkəsinə; aşıq deyər sərin-sərin; günəşin qucağı; deyilən söz yadigardır; sahillərə sinə gərək və s.

Üslub fərdiliyi (və yeniliyi) ümumən Azərbaycan şeiri üçün səciyyəvi olan bədii təyinlərdə (epitetlərdə) də hiss edilir: durna gözlü bulaqlar, nəhs aylar, nəhs illər, alagözlü gündüzlər, dilbər gəlin, xallı xalça, səhərlərin ülkər gözü, al bayraqlı bir səhər və s.

Və şeirin dilində, əgər belə demək mümkünsə, sel kimi bol-bol işıq gətirən, onu məzmunca nurlandıran çoxlu təntənəli (ancaq səmimi!) sözlər, ifadələr var ki, onları bu bolluqda, bu səmimilikdə yalnız Səməd Vurğun işlədə bilərdi: gündüz, ağ üz, ürək açan mənzərə, dümağ qar, rəng-rəng, pambığımız çiçək-çiçək, səhər-səhər, günəş, çıraq-çıraq, işıqlanmaq, səhərlər, Şərq və s.

«Azərbaycan» şeirinin leksik-semantik sistemində etnoqrafiklik nə qədər güclü olsa da, o, mahiyyəti etibarilə, siyasi-ideoloji məzmunlu əsərdir. Və həmin siyasi-ideoloji məzmunun öz leksikonu olmaqla yanaşı, mətndəki az qala hər sözdə, ifadədə təəssüratı mövcuddur. «El bilir ki, sən mənimsən» misrasından başlamış «Qoca Şərqin qapısısan!» misrasına qədər hər sözdə siyasi-ideoloji məna əks olunur: Azərbaycan, (sakit axan) arazlar, Vətən, (böyük bir) keçmişin (vardır), (uğursuz) dillər, (nəsillərdən-nəsillərə keçən bir) şöhrət, səngər, azad, bizim Bakı və s.

Səməd Vurğunun «Azərbaycan» şeiri ümumən Azərbaycan şeirinə (və dilinə!) xüsusən leksik-semantik sistemi ilə dərhal, heç bir mübahisəsiz ənənəyə çevrilən elə bir yenilik gətirdi ki, neçə on illərdir diqqəti cəlb edən söz, ifadə yeniliyi axtarışları Səməd Vurğun miqyasından, demək olar ki, kənara çıxmır.

Çıxsa da bu səviyyəyə yüksəlmir…

Səməd Vurğunun azərbaycançılıq (hətta demək olar ki, müstəqil Azərbaycan dövlətçiliyi) idealları Azərbaycan tarixində ziddiyyətli rol oynamış respublika rəhbəri Mir Cəfər Bağırova həsr etdiyi şeir-poemasında də kifayət qədər aydın ifadə olunmuşdur:

…Mənim də sevdiyim bu əziz vətən
İlhamlar alacaq gələcəyindən.
Açacaq ağzını qalın kitablar,
Bu ölməz insanlar, bu inqilablar
Bir-bir görünəcək gözlərimizə,
Salamlar verəcək gələcək bizə.
Elçilər gələcək Misirdən, Şamdan,
Günəşli gündüzdən, aylı axşamdan.
Daşacaq Bakıda insanın sayı,
Şuralar Şərqinin ilk qurultayı
Burda başlanacaq!. O gün ixtiyar
Bir mədən işçisi alnında vüqar,
Başının üstündə bir qızıl bayraq
Türkcə salam verib iclas açacaq…

Doğrudur, Tarix mütəfəkkir şairin düşündüyü və ya inandığının əksinə olaraq, uzun illər ölkəyə rəhbərlik etmiş, hər kəsin çəkindiyi birinci şəxs Mir Cəfər Bağırovu milli lider səviyyəsinə qaldırmadı, ancaq Azərbaycan, həqiqətən, dünyanın hər yerindən elçilər gələn müstəqil bir dövlətə çevrildi.

Və Azərbaycan xalqı onun ruhundan doğulmuş Heydər Əliyevin şəxsində öz ümummilli liderini yetişdirdi.

Bu gün Səməd Vurğunun azərbaycançılıq idealları səviyyəsini belə ötüb keçmiş bir Azərbaycan var, ancaq, təəssüf ki, onun dastanını Səməd Vurğun səviyyəsində yaratmalı olan bir şair-mütəfəkkir hələ ki meydana çıxmamışdır.

Şairin azərbaycançılıq ideallarının (və nəticə etibarilə, ideologiyasının) bir mühüm faktı da 30-cu illərin ortalarından başlayan bütöv Azərbaycan ideyasıdır ki, bunun ilk təzahürlərindən biri «Təbriz gözəlinə» yazdığı şeirdir:

Çox da fikir vermə danışıqlara,
Bilirəm, ürəyin mənə bağlıdır…
Nədir o başına örtdüyün qara?
Bizim ki, eşqimiz bir el nağlıdır.

…Nədir bu həsrətin adı, ünvanı?
Baisin evində işıq yanmasın!..
Ah, Araz, ah Araz, vədimiz hanı?!
Bir ürək ikiyə parçalanmasın!..

…Gözlərin dolmasın!.. Dayan bir az da!
Qəlbin də, sevgin də, dərdin də haqdır!..
Azadlıq bayrağı güllü bir yazda
Təbrizin üstündə parlayacaqdır!

Bundan sonra (hələ sovet qoşunları İrana girməmiş) yazdığı başqa bir şeirində deyirdi:

Axma, Araz! Dayan, Araz!
İnsaf eylə bizə bir az…
Bir ürəyi iki yerə
Cəllad kimi bölmək olmaz!

Azəridir mənim adım,
Bağlansa da qol-qanadım,
Dünya bilir şöhrətimi,-
Mən ki, bir qul yaranmadım…

…Təbriz oğlu, Təbriz qızı!
Yadlar yedi haqqınızı.
Bir üsyanla doğacaqdır
Azadlığın dan yıldızı!..

Azərbaycançılıq ideallarının (və ideologiyasının) həmişə çox mühüm tərkib hissəsi olmuş bütöv Azərbaycan məfkurəsi XX əsrin ortalarından sonra həm Şimalda, həm də Cənubda böyük vüsət aldı.

Müharibədən sonra (artıq sovet qoşunları İrandan çıxmış, milli Azərbaycan hökuməti süqut etmişdi) şair məşhur «Yandırılan kitablar»ını yazır…

Cəllad! Sənin qalaq-qalaq yandırdığın kitablar
Min kamalın şöhrətidir, min ürəyin arzusu…

Biz köçürük bu dünyadan, onlar qalır yadigar,
Hər vərəqə nəqş olunmuş neçə insan duyğusu;
Min kamalın şöhrətidir, min ürəyin arzusu…

…Söylə, sənmi xor baxırsan mənim şeir dilimə?
Qoca Şərqin şöhrətidir Füzulinin qəzəli!
Sənmi «türkəxər» deyirsən ulusuma, elimə?
Dahilərə süd vermişdir Azərbaycan gözəli…
Qoca Şərqin şöhrətidir Füzulinin qəzəli!

…Əzəl başdan düşmənimdir üzü murdar qaranlıq,
Hər torpağın öz eşqi var, hər millətin öz adı.
Kainata dəyişmərəm şöhrətimi bir anlıq,
Mənəm Odlar ölkəsinin günəş donlu övladı!..
Hər torpağın öz eşqi var, hər millətin öz adı!

Və şair qəzəbini cilovlaya bilmir:

Bir varaqla tarixləri, utan mənim qarşımda,
Anam Tomris kəsmədimi Keyxosrovun başını?
Koroğlunun, Səttarxanın çələngi var başımda,
Nəsillərim qoymayacaq daş üstündə daşını…
Anam Tomris kəsmədimi Keyxosrovun başını?

Və bir müddət sonra şair «Körpünün həsrəti»ni qələmə alır…

Kim bilir, kim bilir, nə vaxtdan bəri
Bir insan keçməyir bu daş körpüdən.
Elə bil yol çəkir onun gözləri,
Fəqət nə gələn var, nə də bir gedən…

* * *

Şair 30-cu illərin ortalarında - Azərbaycan tarixinin olduqca mürəkkəb, ictimai-siyasi baxımdan ziddiyyətli bir dövründə «Vaqif» dramını qələmə aldı.

«Səməd Vurğunun adı, şəxsiyyəti, milli, poetik «mən»i ilə ən çox bağlı əsər «Vaqif»dir (Yaşar Qarayev).

Hələ «Vaqif» dramından bir-iki il əvvəl «Şairin ölümü» şeirini yazmışdı…

İran ordusunu yeridəndə sən
Dedin ki, yadlara keçməsin vətən!
Dedin, sərçeşmələr, dağlar bizimdir,
Almalı, armudlu bağlar bizimdir.
Dedin ki, türk dili, türk şeiri gərək
Böyük bir ölkəyə qanad gərərək
Üfüqdən üfüqə çapsın atını…

Dünya ədəbiyyatı tarixində Molla Pənah Vaqiflə Səməd Vurğun kimi müxtəlif epoxalarda yaşayıb ruhən, poetexnologiya etibarilə bir-birinə bu qədər sıx bağlı olan iki böyük şair təsəvvür eləmək, yəqin ki, çox çətindir. XVIII əsr Azərbaycan poeziyasında yeni üslub - məktəb yaratmış, şeirin predmetini, ümumən gözəlliyini göylərdən yerə endirmiş sənətkarın

yaradıcılıq şəxsiyyətində nə hikmət vardı ki, XX əsrin milli sosialist (kommunist!) şair-mütəfəkkirini məftun etmişdi?

Səbəb yalnız o idimi ki, Səməd Vurğun da Vaqifin doğulduğu, sözün geniş mənasında təhsil alıb dünyagörüşünün formalaşdığı, böyük söz sənətkarı kimi püxtələşdiyi mahalda, etnoqrafik (hətta, belə demək mümkünsə, etnopoetik!) məkanda dünyaya gəlmişdi?.. Əlbəttə, yalnız bu deyildi. Ancaq heç bir şübhə yoxdur ki, bu, çox mühüm, bəlkə də, əsas amil olmuşdur ki, XX əsrin şairi XVIII əsrdəki sələfinə bu qədər inamla, müəyyən məqamlarda təhtəlşüur bir məhəbbətlə istinad etsin.

Xalq, xüsusilə aşıq poeziyasının yaradıcılıq texnologiyalarını, demək olar ki, zədələmədən bir küll halında yazılı ədəbiyyata gətirmiş, onu bir mahalın estetik zövqü miqyasından çıxarıb bütövlükdə Azərbaycan türklərinin klassik bədii təfəkkürü səviyyəsinə yüksəltmiş, milli ruhu təzələmiş Vaqif şeirdə yenilik (və millilik!) axtaran Səməd Vurğunu, təbii ki, gənc yaşlarından, özünə ustad - müəllim axtardığı ilk illərdən maraqlandırmış, hətta sehrləmişdi. XX əsrin 20-ci illərində, yəni yaradıcılığa başladığı dövrdə Səməd Vurğun Vaqifi, sadəcə təqlid edirdisə, az sonra - 30-cu illərdə Vaqifə vurğunluq artıq etnoqrafik emosionallığını itirmədən, dərk olunmuş, fəlsəfi-estetik məzmun qazanmış bir münasibət idi ki, bunun tarixi təzahürü bu günə qədər müasir Azərbaycan ədəbiyyatının ən möhtəşəm (və populyar) əsərlərindən biri sayılan «Vaqif» dramı oldu.

Necə ki, Vaqif ruhən qidalandığı, pərvəriş tapdığı torpağın miqyasına sığmadı, Səməd Vurğun da o cür öz parlaq istedadını təqdim etmək üçün, tamamilə təbii olaraq, geniş üfüqlər axtardı. Ancaq nə Vaqif, nə də Səməd Vurğun doğulub böyüdükləri mahalın övladlığından heç zaman imtina etmədilər… Yəni yaradıcılıq üçün həmişə zəruri olan yeniliyi, özünəməxsusluğu o yerdə aradılar ki, milli bədii təfəkkür etnoqrafik yaddaşını (Vətəni!) itirməsin.

«Səməd Vurğunun, nə qədər milli olsa da, sosialist (kommunist) bir şairin yetişməsində Vaqifin, axı, hansı xüsusi xidmətləri ola bilərdi?» sualı o qədər də yersiz və ya absurd deyil… Azərbaycanda patriarxal həyat tərzinin (və dünyagörüşünün) xeyli təcavüzkarcasına və ya «hövsələsiz» olsa da, tamamilə haqlı olaraq, təqib edildiyi, aradan qaldırılmağa çalışıldığı (və müqavimət göstərənlərin amansızcasına cəzalandırıldığı) bir dövrdə özünü həmin dövrün şairi elan etmiş Səməd Vurğun «feodal dünyagörüşlü» (həm də yerlisi olan!) XVIII əsr şairini hansı məntiqlə (və cəsarətlə!) özünə ustad seçmişdi?... Nə üçün siyasi-ideoloji dedi-qoduların tüğyan eləməsinə bu qədər imkan vermişdi?..

Düşünürəm ki, Səməd Vurğunun Vaqifə, mürəkkəb tarixi şəraitə baxmayaraq, bu cür «təhlükəli» bağlılığında, nə isə qaçılmaz, mistik məqamlar da yox deyildi. Hərdən «şairlər ordusu səf-səf düzlənsin, yoldaş Mayakovski komandan olsun» desə də Səməd Vurğunun şair ruhunu canlandıran etnoqrafik köklərin təzahürü - «Vaqifin şirin dili» idi. Və o, yeni dövrdə yaşamasına, Azərbaycanda milli intibahın ən böyük nümayəndəsi olmasına baxmayaraq, bizə gəlib çatan əsərlərində bir dəfə də olsun nə «Azərbaycan», nə «Azərbaycan (türk) xalqı», nə də «Azərbaycan (türk) dili» anlayışlarını işlətməmiş şairin adını ana dilinin adı kimi təqdim etməkdən çəkinmirdi. Çünki onun üçün XVIII əsr şairinin xəlqi leksikonu, qrammatikası, üslubu və milli ruhu əsas idi.

XX əsrin əvvəllərinin müxtəlif üslubda böyük Azərbaycan şair-mütəfəkkirinin hətta 30-cu illərdə də öz mövqeyini bu və ya digər dərəcədə qoruyub saxlayan, bir sıra hallarda yeni təzahürlərdə meydana çıxan

üslubları Səməd Vurğunu bir də ona görə qane etmirdi ki, ona doğma olan Vaqif üslubunu XIX əsrin ortalarından gələn bir axınla, faktiki olaraq, unutdurmuşdu. Və bu axın - cəhd mövzulara, ideyalara, qəhrəmanlara qədər təsir göstərmiş, «Azərbaycan sovet poeziyasının banisi»ni «bəs, mənim ölkəmin varlığı hanı?» sualını verməyə məcbur eləmişdi.

Səməd Vurğun sovet poeziyasında, ümumən ədəbiyyatında, əgər belə demək mümkünsə, Azərbaycan konyukturlarını ən yüksək səviyyədə reallaşdırmış bir sənətkar-ideoloq olmuşdur ki, bu özünü Vaqif yaradıcılığına münasibət məsələsində də göstərir… Heç şübhə etmirəm ki, əgər Səməd Vurğunun Vaqifə elmi təhlilə çətin gələn bu cür intəhasız (artıq qeyd etdik ki, bir sıra məqamlarda mistik!) məhəbbəti olmasaydı, XVIII əsrin böyük şairi sovet dövründə bu qədər rahat qəbul oluna, bu qədər populyarlaşa bilərdi. Məhz Səməd Vurğunun şəxsiyyəti, ideoloji-ədəbi nüfuzu inandırdı ki, Molla Pənah Vaqif də Nizami, Füzuli kimi bizim müasirimizdir. Ancaq, allahtərəfi, bu cür «müasirliy»ə Vaqifin daha çox haqqı vardı… Hər şeydən əvvəl ona görə ki, o, ana dilində yazmışdı, həm də XX əsrdəki xələflərinin tamamilə anlayacağı, eyni zamanda ədəbi hadisə olaraq zövq alacağı bir dildə yazmışdı.

Səməd Vurğunun Vaqifə xüsusi önəm verməsi, bir tərəfdən, onun ruhundan doğulması ilə bağlı idisə, digər tərəfdən, ədəbi-estetik ideallarını təsdiq etməsilə əlaqədar idi. Yəni müxtəlif istiqamətlərdən tənqidə məruz qalan şair sübut etmək istəyir ki (və demək olar, edirdi də), onun poetik üslubu kifayət qədər mötəbər köklərə malikdir ki, bunun da birincisi Vaqifin yaradıcılığıdır. Və o da təsadüfi deyildi ki, XX əsr şairini bəyənməyənlər, açıq və ya gizlin tənqid edənlər onun ustadına - XVIII əsr şairinə də hücum etməkdən çəkinmirdilər.

Səməd Vurğun dərindən bilirdi ki, sovet ədəbiyyatında Vaqifin yeri kifayət qədər paradoksal, ideya-estetik dərk baxımından xeyli dərəcədə ziddiyyətlidir… Belə ki, bir tərəfdən, bu böyük şairi xalq (zəhmətkeş kütlələr) arasından çıxdığına, «yadelli işğalçılara» qarşı mübarizə apardığına, hətta Rusiya tərəfdarı olduğuna («beynəlmiləlçiliyinə!») görə sovet ideologiyasına qəbul etdirmək o qədər də çətin deyil; digər tərəfdən isə, milli təfəkkürün (və dilin!) hələ XVIII əsrdə meydana çıxmış bu möhtəşəm hadisəsi elə bir mükəmməl yaddaş (və tarix!) təqdim edir ki, sabah və ya o biri gün sovet ideologiyası, hər halda, anlayacaq ki, bu təfəkkürün (və dilin) bugünkü daşıyıcılarını assimilyasiya etmək mümkün deyil, ona görə də Vaqifə (və nəticə etibarilə, Səməd Vurğuna!) ideoloji hücumlar qaçılmazdır.

Moskva (və Stalin) bütün əsərlərini farsca yazmış dahi Nizaminin Azərbaycan şairi olduğunu «rəsmi olaraq» təsdiq edəndə əsas məqsəd heç də mənasız mübahisələrə son qoymaq, şairi öz xalqına qaytarmaq deyildi. Sovet ideoloqları bilirdilər ki, Nizami fars dilini bilməyən Azərbaycan türklərində milli yaddaşın oyanmasına çox az təsir edə bilər. Eləcə də dili çətin olan dahi Füzuli… «Dədə Qorqud» eposunu, təbii ki, qadağan etmək lazımdır. Vaqiflə nə edək?..

Patriarxal bir şairi, kiçik bir xanlığın «eşik ağası» miqyasından kənara çıxartmadan gözləyək. O zamana qədər ki, «novatorluq» axtarışları öz kosmopolit liberallığı ilə nəinki Vaqifi, hətta Səməd Vurğunu da tarixin arxivinə göndərəcəkdir.

Ancaq belə olmadı… Vaqifin (və Səməd Vurğunun!) «şirin dili», bütün maneələrə rəğmən, müasir Azərbaycan ədəbi dilini formalaşdırdı, müasir ədəbiyyatın, elmin, publisistikanın ifadə-ünsiyyət vasitəsinə çevrildi, tarixin qırılmağa hesablanmış bağları (xronologiyası) bərpa edildi.

Əgər Vaqif yüz ildən çox sürən tərəddüdlərdən, üslub texnologiyası axtarışlarından sonra öz Vurğununu yetişdirməsəydi (və Səməd Vurğun Vaqifi daxilindən gələn romantik bir ehtirasla bu qədər yüksəldib ictimailəşdirməsəydi), görünür, həmin «axtarışlar» bu gün də davam edəcəkdi.

Səməd Vurğun Vaqifi nə dərəcədə müasirləşdirdisə, Vaqif də Səməd Vurğunu o səviyyədə tarixiləşdirdi.

* * *

«Azərbaycan xalqının milli-ictimai düşüncə, əxlaq və mənəviyyat, bədii təfəkkür və intellekt ənənəsi XX yüzilin ortalarında öz təkrarsız əksini bu bədii-tarixi fenomendə - Səməd Vurğun poeziyasında tapır. Qanadlı və romantik bir vətəndaşlıq amalına, bədii-estetik və fəlsəfi ideala xidmətdə miqyaslı, qlobal meyarlar və hüdudlar onu yalnız böyük sələfləri ilə yox, həm də böyük müasirləri ilə müqayisə edəndə görünür» (Yaşar Qarayev).

Etiraf edək… Azərbaycan sovet poeziyasının üç böyük (və populyar!) hadisəsi olub: Səməd Vurğun, Süleyman Rüstəm və Rəsul Rza!

Səməd Vurğun kommunist idi, lakin kommunist olduğundan daha çox azərbaycanlı idi. Və yaradıcılığının (dünyagörüşünün!) təbiətinə və ya xarakterinə dərindən varsaq, görərik ki, ikisindən birini seçmək məcburiyyətində qalsaydı, heç bir tərəddüd etmədən ikincisini - azərbaycanlılığı (və azərbaycançılığı!) seçərdi.

1937- ci ildə şair yazırdı: «Son zamanlar mən «Azərbaycan» adlı böyük bir epopeya yazmışam. Burada mənim vətənimin iki min illik tarixinin əsas mərhələləri və ona azadlıq gətirən sovet illəri öz əksini tapmışdır. Bu epopeya bir-biri ilə bağlı olan otuz poemadan ibarətdir. Epopeya Azərbaycan xalqının azadlıq mübarizəsinə böyük partiyamızın göstərdiyi tarixi xidmətlərə həsr edilmiş «Ordenli qəhrəman» poeması ilə qurtarır».

Yaşar Qarayev tamamilə haqlıdır ki, Səməd Vurğunu təhlil edərkən, onu hərfi-hərfinə anlamaq heç anlamamağa bərabərdir, ona «məxsus istedadın, poetik təfəkkürün əsl miqyası və möhtəşəmliyi «Dünya» və «Yadıma düşdü» rədifli qoşmalarda yox, məhz «Zamanın bayraqdarı», «Komsomol poeması», «İstiqbal tərənəsi» tipli böyük bədii strukturlarda axıra qədər gerçəkləşir və sonacan əyani görünür. Həmin əsərləri zamanın tozlu arxivinə verməyə tələsmək lazım deyil. Əksinə, zamanın, günün tozundan yaranan pərdəni, empirik, hərfi qatı onlardan sözlərin və sətirlərin üstündən silmək, daxildən, içdən gələn saflığı özünün təmizlədiyi «təzə» mətni yenidən oxumaq lazımdır, bu gün əcdad Nizamini, Füzulini hakim rəsmi etiketdən təmizləyərək oxuduğumuz kimi!..»

Heç şübhəsiz, Səməd Vurğun sovet şairi idi…

«Təsadüfi deyil ki, məhz sənətkarlıq xüsusiyyətlərinə görə, Azərbaycanda ilk sovet poeziyası məktəbi də «Səməd Vurğun məktəbi» kimi formalaşmışdı. Məhz bu məktəbin dərsləri bu gün də milli poeziya təhsilində «ali kurslar»ı təşkil edir. Onu, ümumiyyətlə, klassik sovet şeir məktəbinin ən yaxşı ənənələrindən ayrı təsəvvür etmək mümkün deyildir. Belə ki, Səməd Vurğun hər poemasında, hər pyesində o dövrkü «sovet poeziyasının problemləri»ni həll edirdi, dünya şeir hərəkatının ən mütərəqqi inqilabi meyillərini təsdiqləyir və aşkarlayırdı. Məhz onun tərənnüm etdiyi humanizm, beynəlmiləlçilik və azadlıq ideallarının əsrlərdə və qitələrdə davam edən yürüşü bu sözü indi də daha və ucadan deməyə haqq verir» (Yaşar Qarayev).

Lakin (və elə ona görə də!) Səməd Vurğunun yaradıcılığını (və dünyagörüşünü) dəyərləndirərkən, «nə qədər möhtəşəm olsa da, sovet şairidir» deyib üzərindən keçmək və ya nəticə çıxarmaq olmaz. Çünki «o, yer kürəsinə sığmırdı, «sovet ideologiyası»na necə sığa bilərdi? Sonsuzluğa, intəhasızlığa sığmırdı; «bolşevik sxolastikaya» necə sığa bilərdi?» (Yaşar Qarayev).

«Bu gün Səməd Vurğun nə dərəcədə müasirdir?» sualına verilən ən mükəmməl elmi-ideoloji cavablardan biri (bəlkə də, birincisi) Yaşar Qarayevə məxsusdur:

«Bu gün müasir, azad, suveren Azərbaycanda milli idealın, ideoloji və mənəvi həyatın bütün sahələrində qlobal siyasətin baş xəttinə çevrildiyi bir dövrdə Vurğun poeziyası (və ziyası! - N.C.) öz tarixi vətəndaşlıq missiyasını bir daha, yenidən təkrar edə bilir. Məhz əxlaq və mənəviyyat saxtalığına, mənəvi ətalətə qarşı bədii mübarizədə həmişə cəngavər və sərkərdə şairin mübariz poeziyası, onun xalqa və Vətənə, ictimai ədalət və humanizm ideallarına romantik və fədakar bir sədaqətlə xidmət edən siqlətli, monumental qəhrəmanları bu gün də müasir ideoloji döyüşlərdə bizimlə bir sırada addımlaya və vuruşa bilirlər».

Dahi şair-mütəfəkkir yazırdı: «Hər insan, hər şeydən əvvəl, özünəməxsus tarixi olan, özünəməxsus tradisiyalar və milli xüsusiyyətlərə sahib olan konkret bir xalqın övladıdır. Sosializm insanı da müəyyən bir xalq tarixinin həyat zəminəsində yetişmiş, inkişaf yolları keçərək özünün bu günkü yüksək vəziyyətinə gəlib çıxmışdır. Müasir ədəbiyyat xalq idrakından, xalq mənəviyyatından danışdığı zaman onun mənəvi keçmişinə böyük bir hörmət və məhəbbətlə yanaşmalı, tariximizin həyat və mübarizə səhifələrini ilham və ürəklə vərəqləməlidir».

Və əlavə edirdi: «Tarixə olub keçmiş şeylər», «çağırılmış bayatılar» kimi baxanlar idrak və zövqü məhdud insanlardır».

Bu mülahizələrin sosialist və ya kommunist şair-mütəfəkkirdən daha çox, milli bir şair-mütəfəkkirə məxsus olduğunu inkar etmək çətindir.

Səməd Vurğunun azərbaycançılıq vətənpərvərliyinin, ideologiyasının və fəlsəfəsinin formalaşmasındakı xidmətlərini qiymətləndirmək üçün söz, nəticə etibarilə, yenə də ustad Yaşar Qarayevindir:

«Səməd Vurğun Vətən və poeziya sözlərini həmişə bir yerdə, sinonim kimi işlətmiş, bir sənətkar və ictimai xadim kimi bu təlimin cəngavər carçısı, əsgəri və sərkərdəsi olmuşdur. Odur ki, bu gün «Vurğun» sözünün özünü də «Vətən» və «poeziya» sözlərinə qaynayıb qarışmış şəkildə görürük. Onları da bir-birindən ayırmaq qeyri-mümkündür. Nə üçün? Çünki, yenə də şairin öz sualı ilə cavab vermək olar, «Ayrılarmı könül candan!».



Məmməd İSMAYIL

YAZAN MƏN DEYİLƏM BU SƏTİRLƏRİ,
ŞEİR ÖZÜ SƏNƏ YAZILMAQ İSTƏR…

OXUYUB ÇÖPLÜYƏ ATIN BU ŞEİRİ

Kədər bolluğuna nədir gərəkən,
Ömrü nə qədərdir toy-düyünlərin?
Bayram günlərinin kefini çəkən
Dərdini çəkərmi adi günlərin?!

Hər qamış buğumu bir ney olarsa,
Quyuya söylənən sirlər neyləsin?
Dünyanın sevilən yerləri varsa,
Onda sevilməyən yerlər neyləsin?

İnsanın dünyadan qəlbi qırıqdı,
Qırıq olmasınmı qəlb qan içində?
Nədən bənövşənin boynu buruqdu,
Gül niyə açılır tikan içində?!

Bir boğaz, bir kəndir, bir ilmək varsa,
İki tərəflidir bir divar niyə?
Bu zalım dünyada sevilmək varsa,
Bir də sevilməmək dərdi var niyə?

Arası uzaqmı torpaqla dənin,
Toxum dən oldumu, kövşənlər bilər…
Vətəndə olanlar bilməz, vətənin
Qədrini qürbətə düşənlər bilər…

Ağacın açılan qönçəsi sirsə,
Çiçəyi bar olar vaxtı çatanda...
Qulaq ver, qürbətdən səsin gəlirsə,
Sorağın gələcək o dünyadan da...

Gözüm günə düşdü-qadına düşdü
Dünya bir baxışmış, bir baxım sənə.
İşlədim, Allahın yadına düşdüm,
Bir az da borcluyam günahım sənə.

Oxuyub çöplüyə atın bu şeiri,
Açılmaz sirləri çoxsa, dünyanın.
Gəlməyə bir yerdi, gəldik, nə xeyri,
Getməyə bir yeri yoxsa dünyanın.

SƏN EY XƏBƏRSİZLƏRƏ YENİ XƏBƏR GÖNDƏRƏN

Baldan çiçəyə yol yox,
Ömrün ən şirin yolu çiçəkdən bala qədər.
Yolçu uçar, yol uçar…
Hər insanın qanında ucalmaq nüvəsi var,
Qolunda qanadları, canında həvəsi var.
Yoxsa heç uçardımı
nəfəsiylə dolan şar?!

Əgər fikrin çatırsa, əlin çatmayan yerə
Bu birlik mövcud ikən ayrılıq nerdə qalar.
Şar dolduran nəfəsin şarla uçar göylərə,
Bədənin yerdə qalar.

Ürək dərdə öyrənib, öyrənib baş qaxınca
Günahının ipləri sürünür arxasınca.
Dərdi olan dərd çəkər, əlinə xına qoymaz.
Əlinə xına qoyan dərdi yaxına qoymaz…

Yağış qədər, qar qədər
Nəfəsdən nəfəs alıb göylərə qanadlanan
Canı kövrək şar qədər;
Sən ey xəbərsizlərə yeni xəbər göndərən,
Yerin yumurtasını göydə quşa döndərən,
Göyə qanadlanmağa şansımız yoxsa əgər,
Bir ömür nəyə dəyər…

YETMİŞBEŞLİK ŞEİR…

Bir ildə dörd fəsli torpağın, daşın,
Dördündən birini yaşadın sənsə.
Yellərə sovrulan yetmişbeş yaşın
Qışı baharından çoxdu nədənsə…

Çox elə inanma verilən vədə,
Astarı üzündən baha gələcək?!
Gələcək dediyin gələcəkdə də
Yolunu gözləyir tənha gələcək...

Qursa, yuva qurar yaza ana quş,
Quşu aramazlar qış yuvasında.
Sirrini açmada son xəzana quş,
Ayrılıq yurd salar boş yuvasında…

Qədim qalmadı ki qədim qalalar,
O dənizin suyu bu çaya dönməz.
Niyə qanad açan ətcə balalar
Bir də böyüdüyü yuvaya dönməz?!

Nələr çəkdiyini bilirmi, bilsə
Vətəni qürbətə unutduran quş.
Nəyə ümidi var, bəxtə deyilsə
Qurumuş budaqda yuva quran quş.

Getdikcə dirənir yol yoxuşlara,
Yolçusu yorğundu, uzaqdı qürbət.
Köçəri quşlara, qərib quşlara
Hardasa qurumuş budaqdı qürbət….

BU İLDƏ…

Bu il də belə başladı,
Belə bitdi bu il də...
Özünü zaman yolunda
Həlak etdi bu il də…

Nə var sildi silgi kimi
Sonu da yox ilki kimi.
Elə keçən ilki kimi
Fəlakətdi, bu il də…

Bəxtimə çəkdi əlini,
Gəzdim, tapmadım dilini...
Ömrümdən ömür ilini
Tələb etdi bu il də…

Gözə görünməyən vaxtdı,
Bunun nəyi yaşamaqdı?
Budaqda sarı yarpaqdı
Himə bənddi bu il də.

Bilməzsən canı nədəndi
Gəldiyi kimi gedəndi,
Nə belə baxsan vətəndi,
Nə qürbətdi bu il də…

ƏZƏLDƏN YOX İMİŞ SONU BU YOLUN…

Dağlar ağuşunda dumanın, çənin
Bir az aşağıdan axır Qara su.
Ağlını başından alar sevənin
Yollar, Bozuyukla Bursa arası…

Ömür qismətiydi, tale payıydı,
Dünyanı dolduran ilahi hisdik.
Gərək ki payızın orta ayıydı,
Onda ki yolların yolçusu bizdik.

Uzaqda qürbətdən xəbərsiz vətən
İraq gözlərindən qohum-qardaşın.
Şütüyüb gedirdi nəfəs dərmədən
Yasaq sevgilərdən xəbərsiz maşın.

Gözümdə nə çay var, nə çiskinli dağ,
Başımda qürbətin çopur, yad daşı.
Təkər izlərini yaşadar ancaq
Yaşatsa, yolların asfalt yaddaşı.

Peşinə düşəli dağın dağ eşqi
Zirvəyə əl edir təbi yolların.
Çatmadı yaşada bir yasaq eşqi
Gücü nə bu çayın, nə bu yolların…

Bilməm kimin kimi, nəyin nəsiymiş,
Qarğışı tutacaq onu bu yolun.
Payız ayrılığın ev yiyəsiymiş,
Əzəldən yox imiş sonu bu yolun…

BAYQUŞ…

Puh quşu,
Yuxu quşu,
Səsi var, özü yoxdu,
Harda görək bu quşu?
Gedim haraya yozum gözündəki heyrəti,
gecənin gecə quşu quşların bayı bayquş.
Qərib-qürbət ömrümün
Çoxdan hay-hayı gedib, qalıb vay-vayı bayquş.

Gecənin gecə vaxtı burada bir quş zarıyır,
Durub dincəlməyi yox,
Elə yay-qış zarıyır,
Bayquş-bayquş zarıyır.

…Çıxsan çıxmağı yox, gəzsən gəzilmir,
Yolçunu yormaqdı işi yoxuşun.
Axşamdan sabaha səsi kəsilmir

Harası ağrıyır görən bu quşun?!
Mən də bir baxıma gecə quşuydum.
Ömür yoxuşunun yorulmuşuydum…
Qəlbimdə durmaq yox, gözümdə mürgü.
Bayquş sədasında keçdi ömür ki.
Səsində Yusifin kəsik kəndiri,
Gözünə günəşdən pərdə düşən quş...
Bilirəm səni də dərd dilləndirir,
Dərdin mənə gəlsin dərdə düşən quş...

Ya qara baxtı var, ya qara basır,
Taleyin bərələn gözüdü bayquş…
Məkan xarabası, vaxt xarabası,
Bəlkə də dünyanın özüdü bayquş…

QAYITMA

İki qurbanıydıq bir təsadüfün,
Zərurət anıydıq sirr təsadüfün,
Əgər görə bilsən gör, təsadüfin
Sinəmdə boş qalıb yeri, qayıtma.

Havada sahibsiz ətirsən daha,
Gəldiyin kimi də gedirsən daha.
Çoxdan unudulmuş sətirsən daha,
Bəxtimin tərs-avand şeiri, qayıtma.

Enən çağlarını görüb ömrümün,
Külünü yellərə verib ömrümün,
Qürbət diyarlarda qərib ömrümün
Yetmişdən sonrakı sirri, qayıtma.

Mənəm son örnəyi yıxılan bütün
Sinəmdən ah çıxar, başımdan tütün.
İki dili varmış bir tərəddüdün,
Biri qayıt deyir, biri qayıtma.

Necə ki çiynimdə ağılsız baş var,
Necə ki eynimdə yersiz tələş var,
Sən varsan, arxanca bir qara daş var,
Getmisən, bir daha geri qayıtma.

* * *

Ağac kökünə məhkum,
Heyvanın boynunda ip.
Başı sahilə bağlı
Qayıqlar dalğalarda
Çırpınır qərib-qərib…

Dərdin könül zirvəsi,
Dərənin dağ başı var.

Yolun cığır əvvəli,
Çayın bulaq başı var…

Durub əlin qaşında
Sağ əli, sağ başıymış.
Ömrün uzaq başında
Ölüm uzaq başıymış…

TÖKMƏ GÖZ YAŞINI…

Qarabağ! Səsləyir o yerlər məni,
Yuxusuz göz kimi qızarır qürub.
Yerdən güc almayan yersiz erməni
Orda bir ayağı qaçaraq durub.

Hələ Qarabağda baxt qaraçuxa
Tarzənin tarında sarı sim ağlar…
Qürbət dərəsindən bir bulaq çıxar,
Qərib bərəsində yer, yetim ağlar…

Tarixi böyükdü, özündən böyük,
Kağıza, qələmə sığası deyil.
Hardasa böyüyür bir türk oğlu türk,
Bu sənə erməni dığası deyil...

Baxıram, içimdə ruhum boğulur,
Könlümə çəkmədə gördüyüm anı:
Ekrandan ağlayır bir şəhid oğlu,
Qürbətdə varlığım od tutub yanır…

Tökmə göz yaşını, tökmə hüzünlə
Hər damla yağ kimi sinəmi dağlar…
Sən ki tək deyilsən, sənin gözünlə
Yetmiş il əvvəlin Məmmədi ağlar…

AY SAQQALIN AĞARSIN

Hələ ki yol gedirdim cavanlıqla görüşə,
Bəxtimə yağmamışdı hələ ki qarı Qarsın.
Yeri oldu, olmadı hərdən düşərdi işə
Bir cüt ana kəlməsi: Ay saqqalın ağarsın.

Qəlbimə yatmasa da əlim yatırdı işə,
Yapışmışdı vaxt adlı bir kotanın macından.
Soyuğun qanadında zirvələrə qar düşər,
Mənimki başlamışdı başımın yamacından.

Bir yüzə çevrilirmiş, yüz dönüb min olurmuş,
Yüz dəfə deyilənlər bir dəfə çin olurmuş…
Ana, o dediklərin alqışmı, qarğışmıdır,
Saqqalımda ağaran içimdəki qışmıdır?

75 YAŞIM

Darısqal sinifli Əsrik məktəbi
Nə idi yerindən oynadan təbi,
Nəydi gəncliyimin ilk arzuları…
Xəritə önündə Səlim müəllim:
--Dardanel boğazı, Egey suları…
Haçansa…nə vaxtsa… ardı təsəlli…
Nə altmış gələrdi xəyala onda
Nə uzaq yetmişdən söhbət edərdik,
Gəlmişdən-getmişdən söhbət edərdik…

Başıma bəlaymış fikrimdən keçən,
Eh, kimin ağlına gələrdi onda
Bir yol uzanacaq xəritələrdən
Əsrik dərəsindən Dardaneləcən,
Vətəndən qürbətin dar ağacına.
Yeddin harda qaldı, yetmişin harda...
Döndü alın yazın ərəb saçına
Düyünü tərs düşən qasırğalarda...

Çox olsa bu yetmiş, di yetmiş demə,
Bəndədən Allaha niyyətmiş demə…

Haçan…nə zamansa, günün birində
Bəlkə də ölümün ünvanı-yarın;
Olarmı dənizlər qovuşan yerdə
Dərdi çəkilməsin ayrılıqların.

Boğaz qədəhini başına çəkdi,
Çəkdi boğazını Ege dənizi.
Üz vurdu sözündən çıxa bilmədik,
Ölümün hələlik qatdıq başını.
Oturduq diz-dizə, qardaş-qardaşa,
Keçirdik, Məmmədin,taley bədin
Yetmiş beş yaşını-yetmiş yaşını….

MƏNİ OLSA-OLSA DƏLİ SEVƏRDİ...

Nə yanında qaldım, nə yadında mən...
Gəlirsə, bəlalar boşuna gəlməz.
Birinci deyildim həyatında mən,
Sonuncu olmaq da xoşuna gəlməz…

Hərdən pıçıldayır kim isə mənə,
Xeyri nə minnətə, xahişə çəkdin...
Dəyişdiyi kimi kimisə mənə
Məni də kiməsə dəyişəcəkdi!

Əlində qalmışdın daha nələrin,
Başıma bəlaydı bomboş şəklərin.

Axırı çatmışdı bəhanələrin,
Zamanı gəlmişdi boz gerçəklərin...

İynədi itdisə, tapılmaz güvən,
Bəs nədir qayadan geri dönən səs?!
Sevgiyə sərhəd yox, şeytanı sevən
Allahı sevəni sevərmi, sevməz…

İnsan bağlıdırsa verdiyi vədə,
Hələ ayaqdasa sevgi dinləri,
Nə falçı qadını unudar, nə də
Uzaq Koktebeldə keçən günləri…

Haqlı çıxarmı ki, haqlı olanlar,
Kimdi tuş gətirən dərmana dərdi?
Nəyimi sevərdi ağlı olanlar,
Məni, olsa-olsa, dəli sevərdi…

GƏRƏK İNCİMƏSİN ANAMIN RUHU

Qalar gələcəkdə xoş gələcəklər,
Daha xəyallara dalmaq da gecdi.
Soldu çəməndəki güllər, çiçəklər,
Söndürüb şamını yel belə keçdi...

Hər qönçə bir ürək, hər yarpaq bir əl,
Sonunda məni də unutmaz bahar.
Arxamca qohumdan-qardaşdan əvvəl
Soluxan güllərin gözləri baxar...

Duyaram hayını ötən çağların,
Huşumu başımdan qürbət aparsa.
Anam yox, bacım yox, buz bulaqların
Arxamca yaş tökən gözləri varsa...

Payız əllərini çəkər çəmənə
Xəzanın dilində sözün həzini;
Arada küləklər gətirir mənə
Anamın sahibsiz qalan səsini.

İçimdə hüzür yox, gözümdə yuxu,
Yermi var, dağılsın hayana dərdim?
Gərək inciməsin anamın ruhu,
Sən məni doğmusan, ay ana dərdim…

* * *

Dünyada tək bir adam,
bir adam, bircə adam
bilirsə ilk suçunu,
Özgə ələ vermisən,
deməli, öz əlinlə

haçansa ip ucunu…
Ya ekrandan, efirdən,
Ya da durduğu yerdən
Göz eləsə, nə sözün?
Verdiyin ip ucunu
çözələsə, nə sözün?

DARDANEL BOĞAZI...

Baxarsan, deyərsən adicə sudur;
Gözünün önündə mən dura-dura
unutdun.Uzaqdan-uzağa səni
hələ deyirsən ki unutmasınlar?
Adam keçmişini belə unudur.

Türkiyə Azərbaycan,
Çanaqqala Bakımı?
Dərd olub düyümlənib
Boğazında qalmışam Dardanel boğazının
Dəyməmiş heyva kimi…
Keçir gecəbəgündüz dünyanın dar boğazı
Qulağının dibindən.
Yatıb fil qulağında,
Sən, hələ də çibinnən…
Məlul baxışlarından
Vətəndən keçib gələn
O çən mənəm, bilirsən
Nə vətənsiz, nə sənsiz keçinmərəm, bilirsə...

BİLMƏM NƏ PİSLİYİM KEÇDİ Kİ XALQA

Gündüzün əlindən nə çəkir gecə,
Əvvəlin dərdindən axır nə çəkir?
Yaşıl çəmənlərin içindən keçən
Torpağı tapdanan cığır nə çəkir?

Çıxılmaz qalıbdı yorulan yoxuş,
Qaralan nəfəsdi, daralan həvəs.
Quruyan budaqda tənha ötən quş
Kim üçün oxuyur, özü də bilməz.

Boşuna qoşulub vaxt yarışına
Əvvəldən axıra nə gedib çıxar.
Mələklər gül səpər kimin başına
Kimin qarşısına təsadüf çıxar?..

Arxamca əl edib baxmağa nə var,
Gözümü yollardan yığaydın gərək.
Yolumun üstünə çıxmağa nə var,
Bəxtimin çöpünə çıxaydın gərək...

Öyünə bilmədim eşq həyatımla,
Bilməm nə pisliyim keçdi ki xalqa.
Əvvəl həyatımdan keçən qadınlar
Sonra da başımdan keçməyə qalxar...

ŞEİR ÖZÜ SƏNƏ YAZILMAQ İSTƏR…

Hardan axdığını bilir axan su,
Gizli sevgisidir günəşlə qarın.
İllərdən hansıydı, aylardan hansı,
Dəlisi olmuşdum hansı baharın?

Kimin nemətini kim nuş eyləyər
Açan qönçəsimi sözü dillərin?!
Öpüb-qoxlayanı bihuş eyləyər,
Ətrindən xəbəri varmı güllərin?!

Sənsiz baharın da qanı soyuqdu,
Din, ümid gəzməyim imanda, dində
Bəlkə, sözlərin də xəbəri yoxdu,
Necə gözəl olur sənin dilində...

Dilində kilidli tale sirləri
Bülbülün səsini bağça, bağ istər.
Yazan mən deyiləm bu sətirləri,
Şeir özü sənə yazılmaq istər…

Yoxluğa yol açan yollar gileyim
Gəldikcə qısalar məsafə, gəlsən...
Yanıma gəlmirsən, gəlmə, nə deyim,
Barı heç olmasa, insafa gəl sən...

Nə qaldı gözündə, nə diləmişdin,
Uzun kirpiyinin ucu nəm qadın.
Sən məni nə zaman kəşf eləmişdin,
Mən sənin ərköyün kəşfinəm, qadın.

Seyran SƏXAVƏT

QAÇAQAÇ



♦ *Roman-memuar**

VAQİF BƏHMƏNLİNİN XƏTRİNƏ AZƏRBAYCAN XALQINA ŞANLI MƏKTUB

Doqquz yaşlı balaca Vaqif ikinci dəfə doğulmaq istəyirdi - dünyaya gəlməyi ona azlıq eləyirdi, o, ədəbiyyata da gəlmək istəyirdi, ancaq özü bunu bilmirdi…

Hamımız kimi, Vaqifi də dünyaya anası gətirmişdi, pay vermişdi. Ancaq bu qadın heç vaxt onu ədəbiyyata gətirə bilməzdi. Çünki bu çoxuşaqlı ana ədəbiyyatın yol-yolağasına bələd deyildi. Ədəbiyyat, Vaqifin oxuduğu məktəb olsaydı, əlindən tutub aparardı, müəllimlərə də tapşırardı ki, bu uşaqdan muğayat olun, gözünüz üstündə olsun. Belə deyildi, axı…

Vaqif, Qarabağın ən böyük kəndlərindən olan, Araz qırağında özünə yuva bağlamış Böyük Bəhmənli orta məktəbinin üçüncü sinfində oxuyurdu. Nə isə birtəhər idi, elə hey vurnuxurdu, bəzən də özünə yer tapa bilmirdi. Bu ovqat bəlkə də öz balaca yerini tapmaq istəyinin ilkin əlamətləri idi? Balaca Vaqif bunu bilə bilməzdi, uzaqbaşı, bu dünyada cəmisi doqquz il bundan əvvəl döyünməyə başlamış ürəyinin dərinliyində hiss eləyə bilərdi. Anası kimi, Vaqifin də ədəbiyyata gedən yol-yolağadan xəbəri yox idi.

O, hər gün yol ölçürdü; bu yolu yaxşı tanıyırdı, onun hər qarışına, daşına-kəsəyinə o qədər yaxşı bələd idi ki, heç vaxt bu yolda azmazdı. Yolun özü səmtini dəyişib aza bilərdi, ancaq bu yoldan, bəlkə də yüz yaş kiçik olan balaca Vaqif azmazdı - onun üçün yol elə yol idi, meşə deyildi. Bu yol evlərindən məktəbə gedən, məktəbdən də evlərinə gələn yol idi - məktəb yolu. Sonralar Vaqif ədəbiyyata gedən yolu da məktəb yolu kimi tanıdı.

O, bu yolu tanıya-tanıya öyrəşdi, öyrəşə-öyrəşə bərkidi, bərkiyə-bərkiyə addımladı, irəlilədi və gəlib Vaqif Bəhmənliyə qovuşdu; çönüb arxaya baxanda nə görsə yaxşıdı: yolun lap əvvəlində doqquz yaşlı arıq, sısqa Vaqif, ondan xeyli bəridə yerli «Araz» qəzeti müxbir postunun üzvü Vaqif Quliyev və məktəb yolu. Vaqif elə bilirdi ki, bu yol ancaq onların evindən başlayır, məktəbdə də qurtarır; kəndin müxtəlif tərəflərindən məktəbə gələn tay-tuşları da belə hesab eləyirdilər və haqlıydılar, səmimiydilər.

…Gəlin biz də, Vaqifin baxışları kimi, bu yolu geri qayıdaq; Vaqif Bəhmənlinin, «Araz» qəzeti müxbir postunun üzvü Vaqif Quliyevin böyründən

---

Əvvəli jurnalımızın ötən sayında

ötüb keçən və gedib yolun o başında dayanan doqquz yaşlı arıq, sısqa Vaqifin yanında duraq. O, birtəhər idi, elə hey vurnuxurdu, bəzən də özünə yer tapa bilmirdi və bu, mənə qəribə gəlirdi, qəribə gəlirdi ki, belə balaca cana yer tapmağa nə vardı ki? Bir əlcə uşaqdı də… Əslində isə Vaqif hələ o vaxt bir əlcə - yəni bir əl boyda yox, yüz əlcə - yəni yüz əl boyda imiş… Belə olan halda əlbət ki, özünə yer tapmaq çətin məsələydi.

Yolun o başında dayanan doqquz yaşlı, arıq, sısqa Vaqifə deyirəm:

- Gedək saa nağıl deyim.

- Nağılı neynirəm… - üzümə elə baxdı ki…

- Nağıl xoşuna gəlmir?

- Gəlir ee… ancaq neynirəm, axşam nənəm nağıl deyib.

- Bəs, nə istəyirsən?

- Qanfetin var? - Ümidlə üzümə baxdı.

- Qanfet? - bilə-bilə ki yoxdu, yenə ciblərimi axtarıb «yoxdu» deyəndə ümid dolu baxışları xəzan yarpaqları kimi ovulub onun sir-sifətinə, boynuna-boğazına töküldü.

Əlimi qoltuq cibimə atıb elə orda da saxladım, dedim:

- İstəyirsən saa qələm verim…

- Aftamat qələmdi?

- Hə…

- Ver, gedək, - dedi.

O, xeyli qələmə tamaşa elədi, deyəsən, arada bir onu sığalladı da, - “çernil qabından canım qurtardı, onu məktəbə aparıb gətirməkdən canım çürümüşdü” - dedi.

Qələmi şalvar cibinə qoydu və tez də çıxardı:

- Ciblərim yırtıqdı.

Qələmi pencəyinin çöldən olan döş cibinə sancdı, diqqətlə baxdı, deyəsən, dəqiqləşdirmək istəyirdi ki, görsün yaraşır, yoxsa yaraşmır? Və bu qərara gəldi ki, yaraşır. Sevindi - üzümə baxanda gördüm. Mən də bundan sui-istifadə eləyib ona arıq, sısqa bir ərklə dedim:

- Qələmi ora niyə taxırsan?

- Belə qəşəngdi… kəndimizdə hesafdar Astan var ee, o da belə taxır… elə də forsdanır ki… mən də forsdanajam…

Onunla əl-ələ tutuşub getdik arıq, sısqa Vaqifin birinci sinifə getdiyi ilə - sentyabrın birinə… Bu gün cikkildəyən uşaqların, onların ata-anasının, nənə-babasının böyük bir bayramı gəlib Bəhmənlinin bu başından girib o başından çıxırdı. Bu günün səs-küyü və bu səs-küyün mayasındakı sevinc yükü sentyabrın yerdə qalan iyirmi doqquz günündən ağır idi - demək olar ki, bütün Bəhmənli camaatına pay düşürdü. Bu, gələcəyin səs-küyü idi. Uşaqlar ağzı sarılı quş balalarına, məktəbin həyəti isə «Heyvanlar aləmi» televiziya verilişlərindəki quş bazarına oxşayırdı. Bura toplaşan uşaqların hamısının yaxın məsafələrə uçmaq üçün nəzərdə tutulan kövrək qanadları da vardı. Hər kəs bu yükü çiynindən atıb getmək istəmir və kənd camaatı bir-birilə elə şirin-şirin söhbət eləyirdi ki, elə bil ildə bir dəfə görüşürdülər, bu, da sentyabrın birinə düşürdü. Heç zəng vurulandan sonra da dağılışmaq istəmirdilər. Hamısına yaxınlaşıb bircə-bircə soruşsaydın ki, burda niyə durmusunuz, bir ağlabatan səbəb gətirə bilməzdilər, uzaqbaşı deyərdilər ki, durmuşuq dana…

Sentyabrın biri uşaq bayramı idi - uşaqların özü kimi pak, təmiz, sirli-sehirli; əgər arıq, sısqa Vaqif bu gün məktəbə gəlməsəydi, bu bayramın təmizliyi, paklığı, sirri-sehri Vaqif boyda azalardı, kəmi çıxardı. Ancaq Vaqif bu bayrama yuxarıda sadaladığım keyfiyyətlə bərabər bir arıqlıq, sısqalıq da gətirmişdi. Bu mənada bu bayrama bir az arıq-sısqa bayram da demək olardı - Vaqif boyda.

Sentyabrın biri belə böyük bayramdısa, dünən avqustun otuz biri bayram axşamı olmalıydı, axı… Ancaq olmadı, kənd camaatı bayram axşamında ayaq saxlayıb ləngimədən birbaşa bayramın özünə gəlmişdi.

Bayaq məktəbin zəngi çalınanda arıq-sısqa Vaqif elə bildi ki, bu səs ancaq onu çağırır və ondan başqa heç kəsə aid deyil. İçi kitab-dəftərlə dolu bez parçadan tikilmiş məktəb torbasını da götürüb, dünən babası ilə gəlib bələdlədiyi sinif otağına getdi. O, sinfə hamıdan birinci getmək istəsə də, içəri girəndə gördü ki, uşaqların yarıdan çoxu burdadı. Müəllim ayaq üstə idi. Sinifdəki səs-küy məktəb həyətindəki səs-küyün yanında heç nə idi. Müəllim uşaqları oğlan-qız, cüt-cüt partalarda yerləşdirdiyinə görə arıq-sısqa Vaqifə qətiyyən diqqət göstərə bilmədi. Bu, arıq-sısqa Vaqifin nəzərindən yayınmadığına görə müəllimdən bərk incidi, deyəsən, ürəyində ona bir yağlı söyüş də göndərdi və onun aləmində, bu söyüş ünvanına çatan kimi əlavəsini də elədi, əlbəttə ki, ürəyində: «bu, niyə bizi adam yerinə qoymur. Qoy qayıdım evə… Qəbil babama deyəjəm gəlib bunu cırsın…».

Arıq-sısqa Vaqif öz ürəyində Qəbil babasına «dərdini» demək istəyirdi ki, müəllim onun qolundan tutub dedi:

- Vaqif, ağıllı bala, gəl baax, burda otur.

Arıq-sısqa Vaqif yerində rahatlanan kimi qəti qərara gəldi: «Yox, daha Qəbil babama demiyəjəm …»

O vaxt bütün uşaqlar qabaqda oturmaq istəyirdi. Ancaq bu, mümkün olan şey deyildi. Əvvəla, uşaqların hamısı qabağa yerləşməzdi; bir də ki, arxa partalar da dolmalıydı, axı. Belə hallarda tək-tək uşaq öz xoşuynan arxada oturmaq istəyirdi ki, bu da, pedaqoji nöqteyi-nəzərdən şübhəli şəxs qismində görünürdü: bu uşağın ya oxumağa meyli yoxdu, ya da dəcəldi. Ancaq bəzən arxa sırada oturanların da içindən əlaçı şagird çıxırdı. Burda dəqiq heç nə demək mümkün deyil.

Ümumiyyətlə isə, o dövrdə Füzuli rayonunun bütün kəndlərində uşaqlardan kimin harda oturması məsələsi çoxdan həll olunub qurtarmışdı və valideynlər də buna öyrəşmişdilər. «Kəndin aktivləri» deyilən bir anlam var idi. Bura kimlər daxil idi: kolxoz sədri, kolxoz ilk partiya təşkilatının katibi, yəni partkom, baş hesabdar, briqadirlər, ferma müdiri, maqazin müdiri, poçtalyon, lap axırda da məktəb direktoru və o vaxt deyilən kimi «zavuç» - yəni tədris hissə müdiri… Bunlar kəndin aktivləri sayılırdı; yerdə qalanın hamısı passiv hesab olunurdu. Birincilərə aktiv desələr də, ikincilərə heç vaxt passiv demirdilər, eləcə camaat deyirdilər. Camaatı passiv olan, böyük mənada götürəndə isə, xalqı passiv olan bir ölkə hara qədər gedib çıxa bilərdi ki? Biz hamımız bunu gördük.

Bax, bu prinsip, bu sistem məktəblərdə də tətbiq olunurdu: birinci və müəllimə yaxın sıralarda aktivlərin uşaqları, arxa sıralarda isə «passivlərin» balaları. Sosializm cəmiyyətinin bu bölgüsündən, bu münasibətindən iki yüz əlli milyonluq sovet xalqının xəbəri olsa da, Allahın xəbəri yox idi. Çünki Allah, onu tanımadığımıza görə bizimlə əməkdaşlıqdan imtina edib, diplomatik dillə desək, bütün səfirlərini bu nəhəng ölkədən geri çağırmışdı…

Allahın iradəsi, ucalığı ilə bütün «diplomatik» əlaqələrin kəsilməsinə, ona məhəl qoyulmamasına baxmayaraq, sosializm özünün unikal bölgü prinsipini, lap aşağıdan laaap yuxarıya qədər uğurla həyata keçirmişdi. Lap aşağıdakıları bildiniz; laaap yuxarıda, bu «aktiv-passiv» bölgüsünün aktivləri zirvəsində isə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosu heykəl kimi dayanmışdı.

Əlqərəz, arıq, sısqa Vaqif sovetlər ölkəsinin belə bir vaxtında Bəhmənli məktəbində, birinci sinifdə, orta sıraların birində, cır səsi həmişə başına düşən qonşunun qara, arıq qızı ilə yanbayan oturub gözünü müəllimə zilləmişdi.

Müəllim «A» hərfini keçirdi. Sinifdə milçək uçsaydı, eşidilərdi. Müəllim təbaşirlə qara lövhəyə qəşəng bir «A» hərfi yazmışdı - bir cüt göz istəyirdi ki, tamaşa eləsin. Ancaq bir cüt gözün əvəzinə qırx cüt göz baxırdı. Uşaqlar təkcızıq dəftərin bir səhifəsini «A» ilə doldurmuşdu.

Arıq, sısqa Vaqif qonşu qızının dəftərinə baxanda gördü ki, vərəq ağappaqdı. Ona pıçıldadı:

- Sən niyə yazmırsan, aaaz?

- Qələmi tuta bilmirəm ee… - Qız elə bil ki, ondan kömək istədi.

- Niyə tuta bilmirsən? Çolaxsaan? - Arıq, sısqa Vaqif ona belə kömək elədi.

Qız ağlamsındı. Arıq, sısqa Vaqif istədi ona qələm tutmaq öyrətsin, ancaq müəllimdən qorxdu.

Müəllim böyük «A» hərfinin yanında kiçik «a» da yazdı:

- Uşaqlar bax, bu da kiçik «a» hərfidi.

Arıq, sısqa Vaqif qoşa hərflərə diqqətlə baxandan sonra fikirləşdi ki, mən bunları hardasa görmüşəm, ancaq nəbirbillah elədi yadına sala bilmədi. Xatırlaya da bilməzdi, çünki bu cütlüyü birinci dəfə görürdü.

Dərs qurtaran kimi o, torbasını da götürüb düşdü evlərinə gedən yola. Bir də gördü ki, qara, arıq qız böyründədi. Ona dedi:

- Sən niyə mənnən oturursan?

- Müəllim deyib dana.

- Get, ayrı uşaqnan otur.

- Kimnən oturum?

- Odeey… oğlannarın beş-altısına qız çatmadı, get biriynən otur dana…

- Mənnən oturmaq istəmirsən?.. - Qız elə dedi ki…

Arıq, sısqa Vaqif geri verdi:

- Yaxşı, oturursan otur də...

Onlar xudahafizləşmədən dinməzcə ayrılıb hərəsi öz evinə getdi; deyəsən, heç o vaxtkı uşaqlar ayrılanda bir-birilə sağollaşmırdılar, xüsusilə də bu yaşda.

Arıq, sısqa Vaqif həyətə girəndə gördü ki, babası Həsənqulu oğlu Qəbil tut ağacına söykənib. O, nəvəsinə dedi:

- Neçə aldın əə?

- Heş neçə…

- Bəs, niyə?

- Məktəbə gedən kimi adama qiymət vermillər ha… gərək bir az gedib-gələsən, onnan sonra.

Arıq, sısqa Vaqif babasına yaxınlaşdı, dizini də, torbasını da yerə qoyub təkcızıq dəftərini çıxartdı:

- Bax, - dedi, - gör nə qəşəng xəttim var.

Babası dəftəri alıb baxdı və onu əməllicə təriflədi:

- Dəftəri ver maa, saa bir şey göstərim.

O, dəftəri babasından aldı, son səhifədə öz aləmində müəllimdən icazəsiz, yanaşı yazdığı böyük və kiçik «a» hərfini ona göstərib dedi:

- Gəl, biz də böyür-böyürə duraq, bax, ay baba, böyük «A» sənsən, balaca «a» mən… düzdümü?

…Mən bilən əlli üç il bundan qabaq arıq, sısqa Vaqifin dediyi bu sözləri bu gün Vaqif Bəhmənli kimi tanıdığımız şairin ilk şeiri hesab etmək olar - qığılcım boyda bir şeir…

Ancaq nə dünya görmüş Həsənqulu oğlu Qəbilin, nə də yeddi yaşlı arıq, sısqa Vaqifin bundan xəbəri olmadı. Orasını da deyim ki, belə şeylərdən xəbər tutmaq olmur, belə şeylərdən ancaq agah olmaq mümkündü - o da həmişə yox…

İndi isə sözün qanadilə uça-uça getdiyimiz yerdən - biri sentyabrdan qayıdaq gələk doqquz yaşlı Vaqifin yanına. Maşallah, sözün əlində nədir ki… istəsən, bir

suiçim saatda iyirmi birinci əsrdən get, Misir fironları ilə ye-iç, tez də qayıt gəl. Sözün bu heyrətamiz imkanlarından söz sahiblərinə də pay düşür, axı…

Gördük ki, Vaqif elə həmənkidi: birtəhərdi, vurnuxurdu, özünə yer tapa bilmirdi. Qismətində varsa, dünyaya gəlməyə nə var ki; iki nəfər bir gecənin içində bu məsələni həll eləyir - doqquz aylıq səfərin sonunda Yer kürəsi…

Vaqifin on yaşı vardı. Bir gün məktəbdən gəldi, təhnədən para təndir çörəyi götürüb vurdu bədənə, arıq olsa da, yeyimcil idi. Toqqanın altını, daha doğrusu, o vaxt toqqa nə gəzirdi ki… ip… ipin altını bərkidəndən sonra, sizlərə məlum olan birtəhərlik və vurnuxmalar onu apardı evlərinin dalındakı ağacın altına, xəlvətliyə. On-on beş dəqiqənin içində iki şeir yazdı. Sonra bu şeirləri dönə-dönə oxudu, feyziyab oldu. Üzündə sevinclə bərabər küt bir ifadə də vardı. Bəlkə də fikirləşirdi ki, bu nə iş idi mənim başıma gəldi - onun vəziyyəti təxminən belə idi. Sonra vərəqləri dizinin üstünə qoyub şeirlərini sığalladı, hərəsini bir dəfə də oxuyandan sonra onlara ad da qoydu: «Yaz» və «Qış». Ad qoyandan sonra elə bil ki, bir az da arxayınlaşıb məmnun oldu, işini bitmiş hesab elədi.

Ancaq Vaqif bu şeirləri yazanda nə qış idi, nə də yaz - yazın son günləri idi. Bu, təqvimdə beləydi. Əslində isə yazın axırıncı ayı Bəhmənli kəndində yaydan fərqlənmirdi. Bu kəndin, ağcaqanad nəslindən olan mığmığadan korluğu yox idi. Yuxarı kəndlərə baxanda yaz bu yerlərə erkən gəlirdi, beş-on gün ləngiyəndən sonra gedirdi üzü yuxarı - Füzuliyə tərəf. Bu kənddə ən çox ləngiyən fəsil yay idi. Bəri başdan, aşağası bir ay yazın, o başdan da bir ay payızın payına şərik çıxırdı, ömrünü uzadıb beş ay olurdu, elə bil ki, kənddən çıxmaq istəmirdi.

- Ay Vaqif, ay Vaqif, ay Vaqif!

Qəbil kişi idi.Vaqif onun səsini eşidən kimi şeirləri dörd qatlayıb şalvar cibinə dürtdü, istədi babasına cavab verməsin, ancaq arıq, sısqa vicdanı buna yol vermədi. Ağacın dibindən qalxdı, evin böyründən hərlənib gəldi. Babası onu görən kimi soruşdu:

- Hardeydin, əəə?

- Evin dalında…

Qəbil kişi təəccübləndi:

- Evin dalında? Orda nağayrırdın?

- Heş nə…

- Niyə?.. evin qabağı saa darrıq eləyir?

Vaqif babasının bu sözünə qətiyyən məhəl qoymadı, dedi:

- Baba, məni neynirsən?

- Heş nə… neynirəm səni, - cavab verdi.

İndi də Vaqifin üzündə arıq, sısqa bir təəccüb əmələ gəldi. Baba ilə nəvə növbə ilə bir-birini təəccübləndirəndən sonra Vaqif dedi:

- Mən gedim?

- Hara?

- Evin dalına…

Qəbil kişi elə bil ki, bir az əsəbiləşdi:

- Nə tapbısan ee, evin dalında? Gedək maa da göstər. Getmə… gözümün qabağında ol… bııyy…

Vaqif də gəlib babası ilə üzbəüz dayandı, başını qaldırıb dedi:

- Yaxşı… bu da, gözünün qabağı.

Babası onu qucaqlayıb üzündən öpdü:

- Yaxşı, hara gedirsən get, - dedi.

Vaqif isə heç hara getmədi, bitdi babasının gözünün qabağında.

Bu söhbətdən beş-altı gün sonra o, «Azarkeş» adlı bir hekayə də yazdı və belə demək mümkündürsə, şeirdən nəsrə keçdi. Beş-altı günün içində

ədəbiyyatın iki növündə özünü sınadı. İlk hekayəsi özünün çox xoşuna gəlmişdi. Bundan sonra isə o, bir məsələ ilə əlaqədar heç cür qərara gələ bilmirdi, çətinliyə düşmüşdü. İki yol ayrıcında sıxıla-sıxıla qalmışdı; bilmirdi şair olsun, yoxsa yazıçı. Ürəyinin dərinliyində onu da bilirdi ki, bu məsələni özü həll eləməlidi. Çünki nə evlərində, nə kənddə, nə də rayonda elə bir adam ağlına gəlmirdi, gedib onunla məsləhət eləsin. Hardasa duydu ki, bu, o qədər də tələsik iş deyil və fikirləşdi: «yazırıq dana yavaş-yavaş, hansı olar-olar, ikisi də qəşəngdi». Bu onu sakitləşdirdi, keyfi kökəldi. Həyətdəki soluxmuş otun üstündə uzanıb o tərəf-bu tərəfə yumalanırdı. Birdən həyət qapısının çöl tərəfindən babasının səsi gəldi, o, kiməsə deyirdi:

- Əə, sən nə vaxt adam olub ortalığa çıxazsan?

O adam kim idisə, babasının bu sualına cavab vermədi. Vaqif uzandığı yerdən qalxıb həyətə girən babasının qabağına yeridi:

- Baba! Baba!
- Nədi əə?
- Bilirsən, mən yekələndə nəçi olacam?
- Niyə bilmirəm?..
- Onda de görüm?.
- Sən yekələndə, Allah qoysa, raykom olazsan.
- Yox… tapbadın.
- İsbalkom.
- Yox, yox…
- Ləçənnik milisiyə…
- Yoox.
- Praqurul…
- Yox.
- Məhkəmə…
- Yox, bilmədin.
- Ticarətin böyüyü.
- Yox.
- Yaxşı, tay keçib… kəndimizdə qolxoz sədri.
- Yox… tapbadın.
- Tapbadım, onda özün de. - Babası hövsələylə mükaliməni davam elətdirib bu işin axırına çıxmaq istəyirdi.
- Deyim? - Vaqif ətrafına baxıb bic-bic gülümsədi.
- De, dee…
- Baba, mən… şair olacam.
- Nə?!
- Şair…
- Lavarsax-lavarsax danışma, əə…

Vaqif “lavarsax” sözünün mənasını bilməsə də, hiss elədi ki, babası bu işin əleyhinədi. O, tullana-tullana həyət darvazasından çıxıb getdi tay-tuşlarıynan oynamağa.

İndi Vaqifin qarşısında onunla hər yerdə üzbəüz dayanan bir məsələ də vardı; bilmirdi ki, «əsərlərini» kimə göstərib xoş bir söz eşitsin. Əsas o idi ki, o adamı tapsın, ondan sonra işləri yağ kimi gedəcəkdi - ona elə gəlirdi.

Vaqif ayda bir-iki dəfə məktəbdə nə isə itirirdi; ya kitab-dəftər, ya qələm, ya da dəsmal. Buna görə anası ona sağ ol deyib başını sığallamırdı. Ancaq balaca Vaqif bir gün atasını itirəndə gözü yaşlı anası Diləfruz nədənsə doqquz övladının içində üçüncü uşaq olan Vaqifi bağrına basıb hönkürdü, onun başını sığalladı…

Bir gün Bəhmənlidə taxıl zəmisinə od düşür. Camaat tökülüşüb zəmini birtəhər söndürürlər. Onların bu hərəkəti Vaqif Quliyevin ürəyinə sarı yağ kimi

yayılır, o da götürüb bu hadisəni qələmə alır, poçtla Füzuli rayon partiya komitəsinin orqanı olan «Araz» qəzetinə göndərir və yazı çap olunur. Bu məqalədən sonra Vaqif kəndlərində tanınmağa başlayır və bu, onun xoşuna gəlir. Hər dəfə «Araz»da məqaləsi çap olunanda kəndin diqqət mərkəzinə doğru bir addım da atmış olurdu, yaxınlaşırdı. Camaat da ona xüsusi münasibət bəsləməyə başlamışdı: məsələn, Vaqif bir topa uşağın içində harasa gedəndə onlara rast gələn yaşlı adamlar, ancaq ona diqqət yetirir və demək olar ki, onun tay-tuşlarına fikir vermirdilər. Bu, təxminən belə olurdu:

- Vaqif, nə təhərsən?

- Vaqif, yaman yazmışdın ha…

- Sən yazdığın qəzeti cibimdə saxlayıram.

Beləliklə, Vaqif şeirdən nəsrə, nəsrdən də publisistikaya keçmişdi; janrları dişinə vura-vura yol gedirdi, harda məskən salacağını isə bizə gələcək xəbər verəcəkdi. İndiki halda isə onun ədəbiyyatın hansı janrında məskunlaşmağı heç gələcəyin özünə də məlum deyildi - ya qismət…

Necə deyərlər, gəzmək yeri min olar, düşərgə yeri bir…

Vaqif, Böyük Bəhmənlinin diqqət mərkəzinə və həddi-buluğa doğru addımlayırdı. İndi onunla «fəxr eləyənlər» də yavaş-yavaş peyda olurdu - əlbəttə ki, kənd miqyasında. Hətta, gələcəkdə onu rayonun beş-altı sayılıb-seçilən vəzifələrinin birində görmək istəyən babası Həsənqulu oğlu Qəbil də sıyılmışdı, nəvəsi ilə əməlli-başlı öyünürdü. Babasının nəvəsilə öyünməsinin əsas səbəbi isə yaxın keçmişdə Səməd Vurğunun Böyük Bəhmənliyə gəlib Nuğay adlı dostu ilə ova getməsi idi. O vaxt raykom, ispolkom, prokuror, milis rəisi və bir sıra rəhbər işçilər tökülüşüb Səməd Vurğunla görüşməyə gəlmişdilər. Qəbil kişi də özü üçün nəticə çıxarmışdı; deməli, şair, babasının nəvəsinə təklif elədiyi vəzifə sahiblərinin hamısından böyük adam idi. Buna görə də Vaqifin gələcəkdə şair olmasına öz ürəyində xeyir-dua vermiş, «lavarsax» sözünü də özünün şəxsi lüğət tərkibindən və lüğət fondundan silmişdi.

Bir dəfə tay-tuşlarından biri ondan soruşur:

- Ay Qəbil, bu Vaqif, görəsən, kimə oxşadı belə?

- Kimə oxşayacaq? - Qəbil kişi sinəsinə döyüb dedi, - özümə!

- Ay Qəbil, axı, Vaqif şeir yazır?

- Noolsun? Noolsun? Vaqif şeir yazır… mən də başqa şey yazıram. Yazmaq yazmaqdı, fərq eləməz…

Qəbil kişi də yazırdı, ancaq o, özü demişkən, «başqa şey» janrına üstünlük verirdi. Bu mənada, Qəbil kişinin yaradıcılığı çox zəngin idi və konkret çətinlikləri vardı. O, yaratdığı əsərlərin «qəhrəmanları» ilə üz-göz olurdu. Belə ki, Qəbil kişi kənddə, eldə-obada, rayon mərkəzində nə əyri-əskiklik görürdüsə, sarılırdı qələmə, yazıb üzüyuxarı göndərirdi, altına kişi kimi imzasını da qoyurdu. O, hesab eləyirdi ki, xalqına xidmət eləyir. Rayonda bir-iki nəfər də belə yazanlar var idi. Ancaq Qəbil kişinin onları görən gözü yox idi; bu, yaradıcılıq rəqabəti deyildi, torbada pişik balası var idi, bu da onun xoşuna gəlmirdi. Bir dəfə Qəbil kişi Horadizdə, çayxanada qələm yoldaşlarının bir yerdə oturub çay içdiklərini görəndə onlara yaxınlaşıb:

- Yazanda kişi kimi yazın! Altına imza qoyun! Sənəti hörmətdən salmayın! - Demişdi, onlar nə qədər yalvar-yaxar eləsələr də bir yerdə çay içməyi özünə sığışdırmayıb ordan uzaqlaşmışdı.

Haqq üçün orasını da demək lazımdır ki, Həsənqulu oğlu Qəbilin əsərlərinin qəhrəmanları onu uzaqdan görəndə tük, yaxından görəndə isə qulun salırdılar…

Qəbil kişi yüz iyirmi min əhalisi olan Füzuli rayonunda özünü haqq-ədalət carçısı olan birinci kişi hesab eləyirdi; indiki dillə desək, hüquq müdafiəçisi…

Nəvəsi Vaqif yazdıqlarını «Araz» qəzetinə, rayonun Gecəgözlü kəndində müəllim işləyən Mətləb Misirə göndərirdisə, Qəbil kişi əsərlərini Bakıya, Moskvaya… hətta eşitdiyimə görə, bir dəfə də BMT-yə göndərmişdi. Bu mənada onu sənətin ağır artilleriyası, bu artilleriyanın uzaqvuran topu da hesab eləmək olar.

Qəbil kişi həm də dərdli adam idi. Dərdini də özü çəkirdi...

* * *

…Kəhər atın yalmanına yatıb illəri at ilxısı kimi qabağına qatıb qova-qova uzun bir yol keçəndən sonra 1973-cü ilin yamyaşıl düzəngahına yetişdim. Bu düzəngahda atdan düşdüm, kəhər atı buraxdım, o gedib qohum-əqrəbasına qarışdı və, təbii ki, özünü onun belində olduğum illərdən daha yaxşı hiss eləyirdi. Mən düzəngahdan uzaqlaşanda çönüb geri baxdım, yoluma düzəldim - kəhər at arxamca elə kişnədi ki… Kişnəyən kəhər at idi, göy kişnəməmişdi; ona görə də buludlar ağlamadı…

Mən bu yaşıl düzəngahdan birbaşa gəldim «Ədəbiyyat və incəsənət» qəzetinin Zevin küçəsi, dörd, ikinci mərtəbədə gen-bol otaqlarda yerləşən redaksiyasına - yəni iş yerimə. Azərbaycanın çox böyük, böyük olduğu qədər də abırlı şairi Camal Yusifzadə teatr və kino şöbəsinin müdiri, mən də onun ədəbi işçisiydim. Düzünü desəm, burda işləməyim Camalın ürəyincə deyildi, deyəsən, o, nəzərində başqa adam tutmuşdu. Ancaq, sən nəzərdə tutduğunu tut, gör Mirzə İbrahimov nə deyir. Yazıçılar İttifaqında məni Mirzə müəllimin «kadrosu» hesab eləyirdilər. Mənim kimya elmləri doktoru, professor qohumum Ənvər Xudiyev Mirzə İbrahimovun kürəkəni Arif Həsənovla çox yaxın dost idilər. Aydındı də?..

Sonralar biz Camal Yusifzadə ilə elə yaxın olduq ki, aramızdan su da keçmirdi. Demək olar ki, bəzi istisnalarla biz bir-birimizə çevrilmişdik - münasibətlərimizdə çevriliş olmuşdu. Mənə elə gəlir ki, bu cür ünsiyyət çevrilişi olmadan insanlar doğmalaşa bilməz, mümkün deyil! Bu mənada bizim cəmisi üç-dörd ay çətinliyimiz oldu, doğmalaşdıq, birlikdə darıxdıq, birlikdə karıxdıq və bu günə qədər də bir yerdəyik.

- Bir cavan oğlan gəlmişdi, səni soruşurdu, - Camal dedi.

- Nə istəyirdi?

- Heç nə demədi… Dedim bir azdan gələr. Dedi ki, onda hərlənib gələrəm.

- Başqa nə var, nə yox?

- Köhnə hamam, köhnə tas, - Camal dedi və qələmi stolun üstünə atdı.

- Yaxşı, - dedim, - hamamı remont eləməyə gücümüz çatmaz… heç olmasa yığışaq bir təzə tas alaq, bəlkə?

- Seyran, - Camal qarşısındakı yazıya işarə eləyib dedi, - görürsən ki, konfet düzəldirəm də… - yəni imkan ver, işimizi görək.

- Genə odu?

- Bəs kim olacaq? Şefin dostudu də… Bir dənə cümləsi yoxdu ee… - narazı-narazı başını buladı, - təzdən yazıram ee… - Mısmırığı da bir az sallandı.

- Mən də elə bilirəm redaktə eləyirsən… - dedim.

- Redaktəyə gəlir ki?.. Eləyə bilirsən, verim elə? - Üzümə baxdı.

- Yox, yox, sağ ol… - dedim.

Otağın qapısı döyülən kimi ikimiz də təəccüblə bir-birimizin üzünə baxdıq ki, görəsən, bu nə məsələdi belə; bizim qapımızı döyən kim idi ki? El arasında deyildiyi kimi, gələnlərin əksəriyyəti qapını təpiklə açıb yuxarı başa keçirdilər.

- Kimsə hələ təzədi, - Camal mənə dedi. - Gəlin, gəlin! - bunu da qapını döyən adama dedi.

Qapı açıldı, otağa on doqquz-iyirmi yaşında bir oğlan girdi. Camalın proqnozu düz çıxmışdı, «təzə adam» idi. O, salam verdi; indi yadımdan çıxıb, dəqiq deyə bilmərəm, o vaxt onun salamını aldıq, almadıq və əgər aldıqsa, bu, hansı tərzdə oldu. Qapını arxasınca örtəndə bir az çətinliyi də oldu, elə bil heç ömründə qapı örtməmişdi, deyəsən, bir az karıxdı da… Elə o vəziyyətdəcə qapının ağzında dayanıb soruşdu:

- Seyran müəllim kimdi? - Hələ öz yerində durmuşdu.

Nə isə ovqatımın elə vaxtıydı ki, şitdiyim tutmuşdu, siz bunu bir az əvvəl Camalla söhbət eləyəndə də hiss eləmiş olardınız. Camalı göstərib dedim:

- Seyran müəllim odu.

O, duruxub dedi:

- Oxşamır, axı…

- Sən Seyran müəllimi görmüsən? - soruşdum.

- Yoox…

- Bəs, onda nə bilirsən oxşamır?

- Qəzetdə şikilin görmüşəm… - dedi.

Camalın humanist damarı tutdu:

- Deyəsən, mənnən bir şey çıxmadı, indi uşağnan… - Gülümsəyib üzümə baxdı, sonra çönüb qapının ağzında dayanan oğlana məni göstərdi, - Seyran müəllim budu, - dedi, - gəl otur… gəl…

O, keçib əyləşdi. Sonra boğazını arıtdayıb dedi:

- Mənim adım Vaqifdi… - yaman utanırdı.

- Mənim də adım Seyrandı, - dedim.

- Onu demirəm ee… Bəs, Vaqif məni sizə tapşırmayıb?

- Vaqif kimdi? - dedim, - gəl belə eləyək də… deməli, sənin adın Vaqifdi. Sən Vaqifi başqa bir Vaqif mənə tapşırıb, düz başa düşdüm?

- Hə… düzdü. - O, utancaqlığın lap zirvəsindən güclə eşidiləcək bir səslə dedi.

- İndi de görüm o səni tapşıran Vaqif kimdi?

- Xanlarov Vaqif… sizin balaca qardaşınız.

- Həəəə… bunu bayaqdan belə de də… yoxsa…

- İmkan verirsən ki, uşaq sözünü desin… - Camal yenə humanistcəsinə müdaxilə elədi, hətta başını da buladı.

- Vaqifi hardan tanıyırsan? - dedim.

- Mən də Füzulidənəm, Bəhmənnidən… - nə fikirləşdisə, əlavə elədi, - Böyük Bəhmənnidən.

- Çoxdan Bakıda olursan?

- Çoxdan, - dedi.

- Nə iş görürsən?

- Şin zavodunda işləyirdim…

- Çıxartdılar?

- Yoox, - dedi, - universitetə girdim, əyani, çıxartmadılar, özüm işdən çıxdım, - dedi.

- Kitabxanaçılığa girmisən?

- Yoox… jurnalistika fakültəsinə.

- Lap yaxşı, lap yaxşı, - dedim, - indi bura nəyə gəlmisən, əməkdaşlıq eləmək istəyirsən?

- Yox…

- Bəs, onda nə istəyirsən?

- Şeir gətirmişəm… - dedi.

- Neçəsin gətirmisən?

- Bircəciyin, - dedi.

- Bu boyda qəzetə adam bircə dənə şeir gətirər? - Onun üzünə baxdım, - heç olmasa, yeddi-səkkizin gətir ki, heç olmasa, biri keçsin də.

- Seyran müəllim, mən elə o bir şeiri yeddi-səkkiz şeirin içindən seçib gətirmişəm, - dedi.

Cavab xoşuma gəldi, deyəsən, uşaq yavaş-yavaş açılışırdı; indiki dillə desək, bu uşağın açılışı oldu, özü elədi, qırmızı lenti özü kəsdi.

- Lap yaxşı… baax, Camal Yusifzadə bizim gözəl şairimizdi, yəqin ki, onu tanıyırsan? - dedim və bir az da boynuna qoydum ki, cavabı müsbət olsun. O da imanım Allah amanatı, yalan-gerçək qayıtdı ki, tanıyıram.

- Lap yaxşı, - dedim, - indi çıxart şeirini oxu, ikimiz də qulaq asaq, görək o yeddi-səkkiz şeirin içindən nə seçib gətirmisən… Olar? - dedim.

- Niyə olmur, olar… - Vaqifin hazırkı durumu eləydi ki, burda minnət qoymağa yer yoxdu, baxmayaraq ki, intonasiyası bir az qəribə gəldi…

O, ayağa durdu və bayaqdan bəri neçənci dəfə boğazını arıtladı; elə bil şeir yox, mahnı oxuyacaqdı. Qoltuq cibindən dörd yerə qatladığı şeiri çıxardıb açan kimi, konfet düzəldən Camal qələmi bayaqkı kimi stolun üstünə atıb ona diqqət kəsildi. Vaqif dinləyicilərinin hazır olduğunu duyan kimi başladı:

Mənim nənəm sizdədi?

Sənlə keçən günlərim
Ürəkdədi, gözdədi,
Ucalardı cır səsin:
«Mənim nənəm sizdədi?».

Doqqaz dinsə takqa-tak…
Biləydim bu səs nədi.
Soruşardın çaparaq:
«Mənim nənəm sizdədi?».

Nə çəkindin bir kərə,
Nə qəlbini gizlədin.
Qalxdın bizim çəpərə:
«Mənim nənəm sizdədi?».

O günlərin istisi
Bir cüt qoşa izdədi…
İzlərin gəlir səsi:
«Mənim nənəm sizdədi?».

Niyyətimi saxladım,
Yalnız səni gözlədim…
Nənəm gəlin axtarır,
Mənim nənəm sizdədi?

Şeiri oxuyub qurtarandan sonra o, başını qaldırıb nə Camalın, nə də mənim üzümə baxmırdı, elə bil gözləyirdi ki, fikrimizi deyək, sonra.

- Səmimi şeirdi… təbii… dili də axıcıdı, - Camal dilləndi.

Vaqif başını qaldırıb mərhəmət dolu bir nəzərlə Camala baxdı, elə bil heç mən otaqda yox idim.

- Səmimidi… yaxşıdı… - bunu da mən dedim.

Vaqif mərhəmət dolu baxışlarını Camalın sifətindən yığışdırıb işıq kimi mənim üzümə saldı.

- Həə… Camayka, neyniyək? - Camaldan soruşdum.

- Neyniyəzsən… get gir yanına, bu həftə gənclik səhifəsi verəcəklər, xahiş elə, qoy bunu da salsın ora. Arası da sənnən yaxşıdı.

- Bəlkə… - dedim, - bir yerdə girək şefin yanına?

- Yox. Yox. Tək getsən yaxşıdı, - gülümsədi, - o, sənə Mirzə müəllimin kadrosu kimi baxır ee…

O vaxt «Ədəbiyyat və incəsənət» qəzetində şeir çap elətdirmək üçün şairlər aylarla növbə gözləyirdi və bəzən bu müddət ili də keçib gedirdi o tərəfə. Əgər növbəyə duran şairləri canlı şəkildə bir-birinin arxasına düzən olsaydı, Zevin küçəsindən «Azneft» meydanına, yalan olmasın, ordan da Bayıl türməsinə qədər uzanıb gedərdi.

- Camayka, bəlkə, gedim yanına, deyim ki, bu şeiri Mirzə İbrahimov göndərib? Necədi?

- Çox pis… - Camalın cavabı qısa oldu.

- Axı, niyə?

- Ay Seyran, sən onun yanına girib belə desən, şeiri oxumamış, sən otaqdan çıxan kimi götürüb zəng eləyəcək ki, Mirzə müəllim, siz göndərdiyiniz şeiri növbəti nömrəyə saldım.

- Desin də… noolar?

- O olar ki, Mirzə müəllim də deyəcək, nə şeir, ay Yusif? Onda zibili çıxacaq… sənə də yaxşı olmaz, axı…

Camalın dediyi ağlıma batdı, təcrübə özünü göstərirdi də… gör neçə ildi bu sistemdə işləyir.

Mən Yusif Əzimzadənin kabinetinə getməsəydim, gərək Vaqif gedəydi Bayıla, bu uzun növbənin axırına yetişib sonuncu adama deyəydi:

- Bağışlayın, axırıncı sizsiniz?

O da eləmə tənbəllik, Vaqifi istehza ilə süzəndən sonra deyəydi:

- Sən də şeir yazırsan, a bala?

Vaqif də pis olaydı və pis olsaydı da mıxlanıb qalaydı bu sənət, söz növbəsinin o başında… Gözləməkdən gözünün kökü saralandan sonra isə durduğu yerə tüpürüb gedəydi dərsini oxumağa…

O dövr beləydi, bilənlər bunu yaxşı bilir ki, indiki kimi qəzet-jurnal bolluğu yox idi. Ancaq dərindən fikirləşəndə inanırsan ki, nə o dövrün qəzet-jurnal kasadlığı, nə də bu dövrün qəzet-jurnal bolluğu bir şey deyil, çünki hər iki vəziyyət sözün əleyhinə işləyir, sözü hörmətdən salır, söz o günə düşür ki, maşınlarımızın şüşələrini, evlərimizin döşəməsini, ayaqqabılarımızın tozunu sözlə silirik - sözü hər şeyin ayağına veririk və nəticədə söz nəm çəkir, çürüyür… dilimiz çüruntü qoxusu verir, ağzımız iylənir, gül kimi körpə nəvəmizi öpəndə o, üz-gözünü turşudur…

Baş redaktorumuz özü məni çağırmasa, heç vaxt onun kabinetinə ayaq basmazdım. Ancaq indi çağırsa da, çağırmasa da getməliydm.

- Şeiri ver bura görüm, - Vaqifə dedim.

O, bu dəfə şeiri dörd yerə qatlamadı, əlində necə tutmuşdusa, elə də mənə uzatdı.

- Gözlə, gəlirəm, - deyib otaqdan çıxanda fikirləşirdim ki, onsuz da gözləyəcəkdi də, bu vəziyyətdə hara gedəsiydi ki?..

Baş redaktor məni gülə-gülə qarşıladı:

- Gəl, gəl, Seyran, nə yaxşı gəlmisən? - Yəni ki, çağrılmamış…

Onun məni xoş ovqatla qarşılamasından ürəklənib dedim:

- Yusif müəllim, sizdən bir xahişim var…

- Buyur, canım, buyur, buyur… - dedi.

- Yusif müəllim, gərək xahişimi yerə salmayasınız…

- Əgər məndən asılıdısa…

- Ancaq sizdən asılıdı, - mən onun sözünü də kəsə bildim, - Mirzə müəllimgilə getmişdim. Məndən soruşdu ki, baş redaktor sənə necə baxır? Dedim ki, sağ olsun, çox yaxşıdı.

Yusif müəllim necə lazım idisə, eləcə də məmnun oldu, hətta mənə «çox sağ ol» da dedi.

Bütün bu «muss-mus»lardan sonra Mustafa deməyin məqamı yetişdi. Mən dedim:

- Yusif müəllim, bu şeiri oxuyun, balaca şeirdi, xoşunuza gəlsə, gənclər səhifəsinə salın, bu həftə gənclər səhifəsi olacaq.

O, oxumağa başladı, üzünə qonan təbəssüm yalnız şeir qurtarandan bir az sonra uçub getdi:

- Xoşuma gəldi, - dedi, - səmimidi… - üzümə baxdı, deyirsən bu nömrə verək də…

- Əgər mümkünsə, hə…

- Niyə mümkün deyil, öz əlimizdədi də…

Mən yaxınlaşıb onun üzündən öpmək istəyən andaca bu fikrimdən vaz keçdim.

Gen-bol təşəkkür eləyib otaqdan çıxmaq istəyəndə dedi:

- Ayaza denən gəlsin bura…

Ayaz Vəfalı, qəzetimizin məsul katibi, mən çatdırmamış özü içəri girdi, mən də burda idim. Yusif müəllim dedi:

- Ayaz, bu şeiri təcili mətbəəyə göndər yığılsın, növbəti nömrəyə, gənclər səhifəsinə.

Mən bu sözləri öz qulaqlarımla eşitdim, tez otaqdan çıxdım. Şeirin növbəti nömrədə çap olunacağına da, özümün sözükeçən kişi olmağıma da möhkəm inandım - uçurdum…

Uça-uça öz otağıma gəldim. İkisi də üzümə baxıb xəbər gözləyirdi. Camalın üzündəki nigaranlıq Vaqifin sifətinə hopmuş narahatlıqdan bir az az olardı. Mən heç nə demədən astagəl görkəmdə keçib öz yerimdə oturdum. Yavaş-yavaş cibimdən siqaret qutusunu çıxardım, ondan da ləng, bir siqaret götürüb ucunu barmağımın arasında yumşalda-yumşalda damağıma qoyub yandırdım, asta-asta bir-iki qüllab vurandan sonra dedim:

- Vaqif, - və gözlədim ki, o mənə cavab versin, sonra…

- Bəli, Seyran müəllim.

- On qəpiyin var? - soruşdum.

- Xırdam yoxdu, bir manatım var, - o, çaşdı, - gedim xırdalayım gətirim?

- Yox, indi lazım deyil. Bu gün neçənci gündü?

- Dördüncü gün… - Vaqif hələ də heç nə dadmırdı.

- Hə… Altıncı gün xırdalayarsan… qəzet alarsan… şeirin çıxacaq.

İnsan ürəkdən ağlayanda gözlərindən yaş necə tökülürsə, Vaqifin üz-gözündən də sevinc elə tökülürdü; burda nə var ki… olmasın ürəkdən ağlamaq, olsun ürəkdən sevinmək - nə fərqi var ki?..

Camal da Vaqifə qoşulub sevindi. Ancaq mənə elə gəlirdi ki, onların ikisi də məhz mənə qoşulub sevinir. Camal dedi:

- Vaqif, şairlərdən kim xoşuna gəlir?

- Səməd Vurğun, Bəxtiyar Vahabzadə, bir də Tofiq Bayram… babamın dostudu… - dedi.

- Roman-zad oxuyursanmı?

- Hə… «Gələcək gün», «Mehman», «Turaclıya gedən yol», sonra… «Səhər»…

Azərbaycanda sərbəst şeirin, Rəsul Rza məktəbinin nümayəndəsi hesab olunan Camal dedi:

- Nazim Hikməti oxumusan?

- Yox, onu tanımıram ha, ancaq Hikmət Ziyanın adın eşitmişəm.

Camal qımışdı:

- Bəs, rus ədəbiyyatından?..

- Maksim Qorki… «Ana» romanı… bir də «Polad necə bərkidi?»
- Xarici ədəbiyyatdan da ki… - Camal əlini üzmüşdü.
- Oxumuşam, - Vaqif dedi, - Şekspir, sonra “Hamlet”.
- Əli Kərimin adını eşitmisən?
- Onu çox adam demişdi ma... kitabın tapdım oxudum. «Franqmentlər» şeirini beş-altı dəfə oxudum, heç nə dadmadım… ancaq «Qaytar ana borcunu» çox xoşuma gəldi.

Camal Vaqifin oxucu zövqünü müəyyənləşdirəndən sonra yenə başladı «konfet» düzəltməyə…

O vaxt «Ədəbiyyat və incəsənət» qəzetində çap olunmaq hər kişiyə qismət olan şey deyildi. Söhbət heç burdakı uzun söz növbəsindən də getmir. Məsələ burasında idi ki, aylarla növbə gözləyirsən və sənin məqamın yetişir; poeziya şöbəsi müdirinin bəyəndiyi şeiri baş redaktor bəyənmir, atır bir kənara. Belə hallar da olurdu, özü də tez-tez. Bax, bütün bunlara görə o qəzetdə çap olunan bir şeirlə, elə bil ki, müəllifinə pasport verilirdi və ədəbi mühitdə qəbul olunurdu. İnşallah, on səkkiz yaşlı Vaqifin bu şeiri uğur gətirib ona pasport verəcək - ən azı ədəbiyyatda doğulması barədə «doğum haqqında şəhadətnaməsi» hazırdı...

İndi qalırdı doğum haqqında şəhadətnaməni yumaq. Vaqifin böyük kişi bilib yanıma gəlməsi də məni «yumaq» məsələsinə təhrik eləyirdi. Özünə hörmət eləyən hər kəs mənim kimi hərəkət eləyər, yarımçıq iş görməzdi.

- Camayka, - dedim.

Camal elə bil ona müraciət etməyimi gözləyirdi. Qollarını göyə qaldırıb yana açdı, ürəkdən gərnəşəndən sonra qələmi bir tərəfə tullayıb üzünün yarımxoşbəxt ifadəsinin arxasından dilləndi:

- Bu zibildən də belə qurtardıq… Aparaq verək Pakizə xanıma yazsın, - qalxıb otaqdan çıxdı, tez də qayıtdı, başını bulaya-bulaya keçib öz yerində oturdu.
- Noolub, Camayka? - soruşdum.
- Noolacaq? Pakizədi də, deyir mən bunu nə təhər yazım, qapqaradı, salamat yeri yoxdu yazının… - İmzasına baxandan sonra, - yenə odu? - dedi.
- Odu… - dedim, Pakizənin bir balaca səbbi alındı. - İşə düşmüşük də, vallah.
- Camayka…
- Hə, nə var?
- Camayka, deyirəm, bəlkə, Vaqifin bu məsələsini qeydiyyatdan keçirdək, hə… üçümüz…

Vaqif başa düşmədi ki, söhbət nədən gedir, nə qeydiyyat? Ancaq bu, indi o qədər də vacib deyil. Camal susurdu. Mən dedim:

- Gedək restorana, «Novbahara», orda yaxşı jarko verirlər… hava da soyuq… - Əllərimi bir-birinə sürtdüm.

Vaqif indi başa düşdü ki, söhbət nədən gedir, dedi:

- Gedəyin bizə… nənəm kənddən toyuq göndərib.

Nə Camal, nə də mən Vaqifin ürəkdən gələn bu təklifinə fikir vermədik, o da elə bildi ki, yersiz danışıb. Camaldan səs çıxmasa da, məndən çıxdı:

- Hə… Camayka, nə deyirsən?
- Bu gün işim var, saxlayaq başqa vaxta…
- Bu günün işini sabaha qoya-qoya gedirik, nə bu gün qurtarır, nə də sabah, elə üst-üstə yığılır. - Onda, şef, - Camala dedim, - icazə verirsən biz… - Vaqifə baxdım.
- Gedin, gedin… İşim olmasaydı… - Camal axırıncı iki kəlməni mənim könlümü almaq üçün dedi, baxmayaraq ki, buna ehtiyac yox idi - mən könlümü ona çoxdan vermişdim.

- Fikrini dəyişsən, gələrsən, - dedim.
- Çətin…
Mən dizimdən bir az aşağı olan içi tüklü kurtkamı geyinib Vaqiflə bərabər aşağı düşdüm. Natəvanın heykəlinin yanından sağa burulub «Novbahar» restoranına gəldik.
- Paltonu çıxart, - Vaqifə dedim.
- Üşüyürəm ee, - dedi.
- Restoranda paltolu oturmaq olmaz, axı, - dedim, - görürsən, hamı kəstumda oturub. Çıxart, çıxart, bir azdan qızışarsan…
O, dinməz-söyləməz soyunub paltosunu qarderoba verdi. Keçib boş stolların birində əyləşən kimi qəşəng, suyuşirin xidmətçi qız bizə yaxınlaşıb xoş gəldin eləyəndən sonra menyunu stolun üstünə qoyub:
- İndi gəlirəm, - dedi.
Xidmətçi qızın bu hərəkəti Vaqifə qəribə gəldi, başı ilə menyüyə işarə eləyib dedi:
- O nədi heylə?
- Menyü… - dedim.
- Menyü nədi ki?
- Burda yeməklərin adı, qiymətləri yazılır.
- Özü niyə demir ki yeməklərin adını, ərinir?
- Yoox, ərinmir, restoranda belə olur, - dedim.
Qız əlində qələm-kağız qayıdıb gəldi:
- Buyurun, eşidirəm.
Mən Vaqifin üzünə baxıb onunla məsləhətləşmədən sifariş verdim:
- İki jarko, pendir, göyərti, pomidor-xiyar, yarım litr də araq.
- Araq hansından olsun? - Qız soruşdu.
- Ordjenekidze arağı var?
- Var…
- Gətir…
Qız uzaqlaşanda Vaqif onun arxasınca baxa-baxa dedi:
- O niyə yazdı ki siz dediklərinizi, huşu-başı yoxdu ki?
- Var… - güldüm, - restoranda belədi də… Heç restoranda olmamısan?
- Yox. Bircə dəfə Qəbil babamnan Horadizdə lülə-kabab yemişik… çay da içdik.
Sifarişimiz gəldi, səliqə-sahmanla stolun üstünə düzüldü - stol hazır idi, biz də hazır idik və başladıq. Mən arağı açıb on səkkiz yaşlı gənc şair Vaqif Quliyevə dedim:
- Sənnən bir söz soruşacam, ancaq düzünü de. Düzünü ha! De görüm, heç araq içmisən?
Cavab çox ləngimədi:
- Dilimə də vurmamışam, - dedi.
- Bəs, bir ildi Bakıdasan, şin zavodunda işləmisən… Kənddə demirəm ee, Bakıda, burda…
- Nə bilim, vallah… yox… olubsa da yadımnan çıxıb.
- Niyə, huşun-başın yoxdu ki? - soruşdum.
- Var ee… nə bilim, vallah…
- Mənnən içərsən? - Qəfil soruşdum.
- Nə bilim, vallah…
Bayaq onun dediyi sözdən bir balaca şübhələnmişdim: «Olubsa da yadımdan çıxıb». Ancaq yanıla da bilərdim.
- Özün bil, - dedim, - içkiyə məcburiyyət yoxdu. Bu içki belə şeydi ki, içən də düz eləyir, içməyən də…
Özümə araq süzdüm:

- Yaxşı, çörəyini ye, - dedim.

O, jarkonu iyləyib dedi:

- Yaxşı bişmişə oxşayır.

- Ye, nuş olsun, - dedim.

Bir az ağnağaz eliyəndən sonra badəmi götürüb onun haqqında söz demək istəyəndə Vaqif əlimdəkinə baxıb dedi:

- O stəkan yüz qramlıqdı?

«Yüz qram» sözünü onun dilindən eşidən kimi barmağımı dişlədim… aha, hərif ilişdi: o, bu söz birləşməsini kənddə eşidə bilməzdi, kənddə "yüz qram" sözü heç vaxt işlənmir.

- Yox, yetmiş qramlıqdı, - dedim, - onu çaşdırmaq istədim. O, isə çaşıb-eləmədi, sözündən də belə çıxdı ki, badə yetmiş yox, yüz qramlıqdı.

- Mənnən incimirsiniz ki? - Vaqif dedi.

- Yoox, incimirəm, - dedim.

- Yox, görrəm ki, incidiniz… yaxşı, yüz qram sizinən… - Şirin-şirin üzümə baxıb duydu ki, deyəsən, kənd bicliyi keçdi və bundan bir az da məmnun göründü, arxayınlaşdı.

Onun da badəsinə araq süzdüm:

- Götür, - dedim.

O, badəni səliqə-sahmanla götürdü; bu yaşda hər adamın əli badəyə yatmır, axı, necə ki, birinci sinifdə hər uşağın əli qələmə yatmır, qələm tuta bilmir. Üzümə baxıb dedi:

- Qəbil babam deyib ki, araq içsən, özümü güllələyəcəm.

- Səni? - Qəsdən soruşdum.

- Yox ee, özünü… məni çox istəyir.

- Qəbil babanın neçə yaşı var?

- Altmışı keçib…

- Onda eybi yoxdu… qoy güllələsin… - Bu sözlər yumru-yumru buz dənələri kimi ağzımdan çıxıb onun üzündə əridi.

O, boğazını arıtlayıb gülümsədi, hətta bir anlıq mənə elə gəldi ki, deyəsən, bu uşaq mənnən məzələnir…

- Vaqif, - dedim, - sənin böyük gələcəyin var, ancaq gərək Camal müəllim dediyi kimi, çox oxuyasan, çalışasan, rus ədəbiyyatından, dünya ədəbiyyatından xəbərdar olasan. Təkcə Səməd Vurğunun ətəyindən yapışmaqla bir şey çıxmaz. Elə yerindən duran onun ətəyindən yapışır. Onun ətəyindən yapışan o qədərdi ki, axırda yazıq kişinin ətəyi əllərdə gedəcək. Səməd Vurğundan o tərəfə Nizami var, Füzuli var, Nəsimi, Mirzə Fətəli Axundov, Sabir var… Çoxdu… Səməd Vurğundan bu tərəfə Rəsul Rza var, axı… Əli Kərim var, axı… Sözümün canı odur ki, çox oxumalısan, lap çox. Əgər belə eləsən, gələcəyin səndən heç vaxt üz döndərməz. Bu gün sənin həyatında heç vaxt unuda bilməyəcəyin bir gündü. İki gündən sonra bizim qəzetdə şeirin çıxacaq, hamı səni tanıyacaq… Bəri bax, neçənci ilsən?

- Min doqquz yüz əlli beşdənəm.

- Ananın adı nədi?

- Diləfruz…

- Bax, - dedim, - anan səni min doqquz yüz əlli beşdə Bəhmənlidə doğub, «Ədəbiyyat və incəsənət» qəzeti də səni min doqquz yüz yetmiş üçüncü ildə, iki gündən sonra ədəbiyyat aləmində doğacaq.

- Bu söz xoşuma gəldi, - o, səmimi idi.

- Ona görə də gərək çox çalışasan. Sənin sağlığına!

- Çox sağ olun, Seyran müəllim… Allah kürəyində dursun.

- Sağ ol…

- Sağ ol…

İçdik.

...Vaqifin yanaqları yaz günəşinin istisindən təzə-təzə yetişməyə başlayan çiyələk kimi, yavaş-yavaş qızarırdı. Və bu çiyələk yavaş-yavaş yetişdikcə Vaqif də yavaş-yavaş yetişib olurdu yeməli. Bu şirin uşaq bir az da şirinləşmişdi. Uşaq deyəndə ki, aramızda cəmisi doqquz yaş fərq vardı. Ancaq o vaxt bu, çox böyük fərq sayılırdı, indiki kimi deyildi. İndinin uşaqları, lap iyirmi-otuz yaş böyüklərnən özlərini tay-tuş kimi aparırlar. Əgər səndən yaşca böyük adam sadəlik eləyib özünü uşaq kimi aparırsa, bu, çox yaxşıdı; yox, əgər səndən yaşca çox kiçik olan birisi sənnən özünü tay-tuş kimi aparırsa, bu, çox pisdi - rəzalətdi, qəbahətdi və nəticəsi göz qabağındadı…

Vaqif yeməyə bərk girişmişdi, başını aşağı salıb eşirdi. Belə getsə, bir azdan, kino qurtarandan sonra yazılan «filmin sonu» sözləri, Vaqifin tər-təmiz, iri nimçəsinin tən ortasında cüzi dəyişikliklə belə yazılacaqdı: «Jarkonun sonu».

Doğrudan mən, sonralar gəzib-dolaşdığım Londonda, Parisdə, Barselonada, Moskvada, San-Fransiskoda, Yevlaxda, Tehranda və s. belə dadlı «jarko» yeməmişəm - Vaqif neyləməliydi ki?... Halal xoşu olsun!

Onun tər-təmiz boşqabının ortasına «Jarkonun sonu» yazılan kimi dedim:

- Vaqif, qoy birin də gətirsin…

Etiraz elədi:

- Yoox ee, deyəllər bunlar ac-lələvindilər ki… biabır olarıq… - güldü.

- Qələt eləyəllər, - dedim, - yaxşı, qoy birin də gətirsin, yarı bölərik…

- Yaxşı, - dedi. Əvvəlcə boşalıb tər-təmiz qalmış nimçəsinə, sonra da mənə baxıb gülə-gülə əlavə elədi, - biz balaca olanda bişmişi yaxşı yemiyəndə nənəm deyirdi ki, kim boşqabındakını axıracan yeyib sivirsə, nişanlısı göyçək olacaq… - güldü və, deyəsən, iştahasına bəraət qazandırmaq istədi - mən belə başa düşdüm.

Mən arağı götürüb özümə süzəndən sonra Vaqifə dedim:

- Ver, otuz qram da sənə süzüm.

- Otuz qram? - üzümə baxdı.

- Yetmiş qram indi içdin, otuz da bu… Yüz olsun də, - mən onun üzünə baxmadan dedim.

- Mən də sağlıq demək istəyirdim, hayıf…

- De də… getmirik ki… hələ burdayıq, - gülümsədim və hiss elədim ki, deyəsən, torbada pişik balası var.

- Mən demək istədiyim sağlıq otuz qramlıq deyil axı, - uğundu getdi.

- Bəs, neçə qramlıqdı?

- Yüz, - dedi və elə bil ki, bir balaca utanan kimi oldu - utanmadı ha, utanan kimi oldu…

Onun da badəsini doldurdum, badə dolub qurtarandan sonra dedi:

- Bəsdi, bəsdi… - Gec idi.

Deyəsən, bu, onun adəti idi; o, görüşdüyümüz vaxtdan indiyə qədər neçənci dəfə boğazını arıtladı, təbəssümünün işığını üzümə salıb dedi:

- Seyran müəllim, olar mən sağlıq deyim?

- Olar, olar… - İki dəfə dedim ki, ürəkli olsun, baxmayaraq ki, onsuz da getgedə ürəklənirdi - özündənürəklənmə prosesi gedirdi.

Əvvəlcə əlindəki badəyə ani nəzər saldı, sonra gülümsədi:

- Seyran müəllim, - dedi, - Allah sizi maa çox görməsin. Siz yaxşı adamsınız, sadə adamsınız. Babam maa tapşırmışdı ki, o kişinin yanına getməmişdən qabaq onun bir şeirini tap əzbərlə, görüşəndə özünə deyərsən, şairlər belə şeyi xoşduyurlar. Mən də əzbərlədim. Ancaq babam demişdi ki, öz şeirini o kişiyə göstərməmişdən qabaq, onun şeirin oxu, sonra. Ancaq redaksiyada utandım deməyə… olar indi deyim?

- Hansı şeirdi ki?

- Sizin bir sarı kitabınız var ee, ordan götürdüm, «İlk məhəbbət - son məhəbbət», su kimi içirəm, qəşəng şeirdi. Mənim kənddə bir dostum var, o şeiri yazıb poçtnan göndərib istədiyi qıza, deyib ki, özüm yazmışam, saa yazmışam. Qız da kənddəki qızdara deyib ki, bəs məni istiyən oğlan şeir yazır. Hə… Deyim o şeiri?

- De…

Vaqif şeiri çox gözəl dedi, elə dedi ki, elə bil özü yazıb.

- Sağ ol, Vaqif, çox sağ ol, - dedim, çünki o, üzümə baxıb bu təşəkkürünü məndən almaq istəyirdi, mən də verdim.

- İndi, Seyran müəllim, Allah kürəyində dursun, mən sizi çox istəyirəm, elə babam da çox istəyir… Sizin sağlığınıza, var olasınız…

- Çox sağ ol, Vaqif, - dedim və içdik.

Vaqifdən arxayın olsam da, özümdən asılı olmayaraq, yenə ona nəzər saldım: «Araz suyu və turşumayan sir-sifət». İkisi də öz əvvəlki yerində idi.

«Jarko-2» də təşrif gətirdi. Mənim işarəmlə xidmətçi qız onu Vaqifin qabağına qoyanda o, üzümə baxdı.

- Sən ye, - dedim, - bir azdan mən də kömək eliyəcəm…

Vaqif bir az da yeyib toxtadı, ancaq dəqiqləşdirə bilmədim ki, birdəfəlik dayandı, yoxsa hələ ardı var?..

- Vaqif, o qızın nənəsi tez-tez gəlir sizə?

- Heç qapıdan-bajadan əl çəkir ki… - Vaqif gülümsədi.

- Gündə-günaşırı nə var ee, sizdə? - dedim.

- Heç nə… gəlir, nənəmnən söhbət eləyirlər…

- Nə barədə danışırlar ki? - soruşdum.

- Vallah, mən onnara qulaq asmıram ha… - üzümə baxdı, - nə məsələdisə, neçə ildi danışırlar, qurtarmır, deyəsən, çox yekə mövzudu. Gələn kimi də nəvəsi qonur çəpərimizə, dil-qəfəsə qoymadan deyir ki, nənəm sizdədi, nənəm sizdədi? Bax, heylə…

- Sən də şeir yazdın…

- Hə… yazdım, - dedi.

- Qızın bu şeirdən xəbəri var?

- Yoox… şeir-zad bilən şey deyil, qandığı qrafa yoxdu…

Deyəsən, Vaqif özünü mənə çox yaxın adam hesab eləyirdi; əlini pencəyinin qoltuq cibinə salıb dörd yerə qatlanmış kiçik formatlı bir qəzet çıxardıb dedi:

- «Araz» qəzetidi, burda şeirim çıxıb, oxuyum?

- Hə, hə… oxu.

Artıq, siz də bunu bilirsiniz, o, boğazını arıtdayıb - şeiri oxumağa başladı:

- Bələkdən baş qaldıran
Körpə uşaqdı tumurcuq.
Budaqdan baş qaldıran
Yeni budaqdı tumurcuq…

Üzümə baxıb gülümsədi:

- Səkkizinci sinifdə yazmışam, adı da «Tumurcuq»du, - dedi və üzümə baxanda gördüm orda yazılıb ki, «bu, nə təhər şeirdi?» Mən də cavab verdim:

- Yaxşıdı, - dedim, - fikir var, bənzətmə var… o yaş üçün yaxşıdı… hiss də var.

Gözünü gözümdən çəkməmişdi, deyəsən, yenə məndən nəsə «qopartmaq» istəyirdi - qopartdı da, dedim:

- Çox yaxşıdı…

Vaqif məndən istədiyini alandan, mən də ona istədiyini verəndən sonra, ətrafdakı bütün stollara bir-bir nəzər saldı, elə bil, kimisə axtarırdı - bax heylə…

Əslində isə heç kəsi axtarmırdı və axtarmazdı da - ən azı ona görə ki, o dəqiq bilirdi ki, burda tay-tuşlarından, tanışlarından heç kimə rast gələ bilməz:

- Bura yaman qəşəngdi, - dedi.

Xidmətçi qız bizə yaxınlaşıb nədənsə üzünü Vaqifə tutdu:

- Bir şey lazımdı?

Vaqif isə mənə baxdı, yəni ki, siz boyda adam dura-dura, bu niyə məndən soruşur ki… Qızın məhz ona müraciət eləməsi bir az da Vaqifə ləzzət eləmişdi, üz-gözündən görünürdü.

Qız başımızın üstünü kəsdirib cavab gözləyirdi:

- Vaqif, - dedim, - bir şey istəyirsən?

O, əlini qarnına sürtüb gülə-gülə:

- Doymuşam, - dedi, - partdıyıram.

Xidmətçi qız bizim stoldan öz sualına belə bir cavab aldı və çıxıb getdi.

- Vaqif, sizin kənddə ən yaxşı şair kimdi?

O, gözlərini döyə-döyə qalmışdı, bir az çaşmışdı. Üzündəki təbəssümün köməyi ilə vəziyyətdən çıxdı:

- Mənəm, - dedi.

- Nə bilirsən?

- Kənddə mənnən başqa şeir yazan yoxdu, axı… - güldü, - «Tumurcuq» şeirim qəzetdə çıxanda uşaqlar da həvəsə düşdülər, beş-altısı başladı şeir yazmağa. Hıqqana-hıqqana bir-iki şeir yazannan sonra tərgitdilər.

- Niyə, bəs?..

- Nə bilim, vallah… Yazırdılar, gətirib maa göstərirdilər ki, oxu, gör nə təhərdi? Mən də bəyənmirdim.

- Nə deyirdin ki?

- Deyirdim bədii cəhətdən zəifdi.

Gülmək məni tutdu, o, maraqla üzümə baxanda dedim:

- Elə beləcə də deyirdin ki, «bədii cəhətdən zəifdi»?

- Hə…

- Sən bu sözləri hardan bilirdin?

Ani fikrə gedəndən sonra cavab verdi:

- Mən şeirlərimi kənddən göndərirdim poçtnan «Azərbaycan gəncləri» qəzetinə, ordan da, maa cavab gəlirdi ki, «bədii cəhətdən zəifdi». Qəzetin maa dediyini mən də uşaqlara deyirdim, onlar da dinmirdi. O sözləri kənddə mənnən başqa heç kim bilmir ha… - güldü, - «bədii cəhətdən zəifdi».

- Bəs, uşaqlar sənnən incimirdilər?

- O qədər də yox… biri vardı, on gün küsülü qaldıq…

- Sən onnan küsmüşdün, yoxsa o sənnən?

- Mən onnan küsmüşdüm ee…

- Niyə?

- Bir gün böyük tənəffüsdə maa dedi ki, istəmirsən bizim kənddən sənnən başqa da şair çıxsın…

- Elə buna görə küsmüşdün?

- Yox ee… axırda da maa qayıtdı dedi ki, səni görüm xayın yarası tökəsən. Mən də küsdüm…

- Xayın yarası nə təhər olur ki?

- Bilmirəm ha… nənəmdən soruşdum, o da bilmədi.

- Vaqif, səni yormadım ki? - dedim.

- Yoox… yox… - ətrafa baxdı, - bura qəşəngdi, - dedi.

- İndi, maşallah, yekə kişisən, - dedim, - məktəbdə oxuyanda da belə sakit idin, yoxsa nadinc uşaq olmusan?

Vaqifin sifəti gözümün qabağındaca dəyişdi, gözləri yol çəkdi - uzun bir yol; təxminən, «Novbahar» restoranından Bəhmənli kəndinə qədər. Mən onu

tələsdirmədim, qıymadım, qoy getdiyi yerdən qayıtsın gəlsin, sonra baxarıq. Kədər pərdəsi onun üzünün nurunu örtsə də, bu nazik pərdənin altından işıq süzülürdü. İşıq süzüldükcə pərdə də yavaş-yavaş əriyirdi - bu pərdəni əridən işığın istisiydi… Yanaqlarının qızartısı da bir balaca boğulmuşdu.

Belə adi sualın qənşərində Vaqifin qeyri-adi vəziyyətə düşəcəyini ağlıma gətirməzdim - ancaq ağlıma gəlməyən, başıma gəlmişdi. Ondan gizlətməyə çalışsam da, özüm də birtəhər olmuşdum - boynuma alıram. İki damla göz yaşı onun sifəti ilə axıb çənəsində qovuşdu, bir az da böyüdü, onun əlinin üstünə düşdü, bəlkə də düşdüyü yer boyda yandırdı da. Bu yumru, duzlu, təmiz damcılar onun üzünün nurunda bir-birinə paralel olan iki şırım açmışdı. Vaqif bu vəziyyətdə qaldıqca, o şırımlar dərinləşirdi - su axdıqca arx dərinləşən kimi.

Mən ona qıydım; onu getdiyi yerdən yarımçıq qaytarıb gətirmək istədim:

- Vaqif… nooldu sənə?.. - dedim.

O, damcıların yandırıb deşdiyi əlini əlimin üstünə qoyub nəm baxışlarını sifətimə zillədi, elə bil özü özümdən yox, əli əlimdən imdad diləyib kömək istəyirdi. Elə susurdu ki, elə bil bir də danışmayacaqdı. O, deşilmiş əlinin yanıq yerini gözünə sürtüb yaşını sildi, burnunu çəkdi, zorla gülümsədi - deyəsən, bunu, mənim xatirimə elədi, xətri xoş olsun.

Sükutu iki yaxın adamın arasına girən mərdimazar adama oxşatdım - elə bil bir almanı yarı bölmüşdülər, yarısı Vaqifin, yarısı mənim…

O, yenə əlini əlimin üstünə qoydu, bir adam olduq - elə bil deyəcəyi sözü ikimizin adından demək istəyirdi, dedi də:

- Seyran müəllim, başına dönüm, yaman pis oldu…

Mən bütün gücüm və varlığımla, Vaqif kimi zorla gülümsəyib qırmızı yalan dedim:

- Hər şey yaxşıdı, əladı! - Baş barmağımı da qaldırdım.

- Yox dana, oturduğunuz yerdə qanınızı qaraltdım, yaman pis oldu… yəqin mənnən incidiniz?..

- Qətiyyən! - Bu dəfə ürəkdən gülümsədim və qırmızı yalan demədim, o da mənə inandı. Bu inamı görən kimi də «hücuma» keçdim, - heç mən sənnən inciyərəm, sən mənim qaqamsan…

Bu sözlərdən sonra indiki Vaqif əridi və oldu bayaqkı Vaqif. Əsl məqamı idi, mən araq süzdüm:

- Vaqif, - dedim, - sənin sağlığına… Nə sözün olsa qulluğunda hazıram, utanma. Yaxın adamına söz demək istəməyən adamlardan xoşum gəlmir, onlardan həmişə şübhələnirəm. Başa düşdün?

- Hə… hə…

- Axı, sən mənim qaqamsan. - Qanım ona elə qaynayırdı ki…

- Siz də mənim ağsaqqalım, böyüyüm, - dedi.

Bir-birimiz üçün kim olduğumuzu müzakirə edib öz aramızda razılığa gəldik və hər ikimiz bu razılaşmadan çox məmnun olduq. Sən demə bu şifahi razılaşma, protokol dili ilə desək, o gündən qüvvəyə minəcək və ömrümüzün sonuna qədər «əsli ilə düz» olaraq qalacaq, fəaliyyət göstərəcək. O vaxt heç birimiz bunu bilmirdik…

Mən bu sətirləri yazanda o tarixi razılaşmadan qırx bir il, iki ay keçmişdi. Bu gün də hər şey o günkü kimidi, bir şeydən başqa: «Novbahar» restoranını sökmüşdülər. Hər dəfə ordan keçəndə elə bilirəm ki, söküntü işlərində böyük təcrübə qazanmış bu adamlar, Vaqiflə mənim münasibətimi, mərhəmliyimizi sökmək istəyiblər, ancaq bacarmayıblar, gücləri ancaq «Novbahar»a çatıb. Böyük, nəhəng binanı söküb dağıtmaq adamlar arasındakı təmənnasız münasibəti sökməkdən min dəfə asandı - təxminən su içmək kimi bir şeydi. Burda nə çətin şey var ki? Bombanı yerləşdir binanın özülünə, çəkil bir kənara,

düyməni bas, binanın «tikəsi» də ələ gəlməsin. Ancaq insan münasibətlərində, bu dağıdıcı inşaat təcrübəsi keçmir, yaramır. Yenə də bombanı qoyurlar insan münasibətlərinin özülünə, bir kənara çəkilib arxayın-arxayın düyməni basırlar, ancaq partlayış olmur. Çünki təmənnasızlıq təcrübəli sapyor kimi bu bombanı zərərsizlərdirmişdi - çürütmüşdü…

Vaqif içəndən sonra yenə başını aşağı salıb öz işiynən məşğul idi - eşirdi; deməli, «ardı var»mış. Halal xoşu olsun. Elə adamlar var ki, gərginlik keçirəndən sonra onlara güclü iştah gəlir, bu barədə ya oxumuşam, ya da eşitmişəm - deyəsən, Vaqif də onlardandı. Ancaq az əvvəl siz də şahid oldunuz ki, elə biz oturanda o, iştahdan-zaddan korluq çəkmirdi. Deməli, iştah məsələsində heç nə onu öz yolundan döndərə bilməzdi və bu, xoşuma gəlirdi.

Vaqifin bayaqkı vəziyyətinin səbəbini bilmək istəyim mənə dinclik vermirdi. Məqam gözləyirdim ki, soruşum və bu məqamı Vaqif özü gətirdi:

- Seyran müəllim, bayaq dediniz ki, məktəbdə oxuyanda nətəhər uşaq olmuşam, - gülə-gülə üzümə baxdı, - çox nadinc uşaq olmuşam, məktəbi dağıdırdım ee. Gündə-günaşırı babamı məktəbə çağırırdılar ki, ay Qəbil kişi, sənin bu nəvən məktəbi dağıdır. O da müəllimlərə deyirdi ki, haranı dağıdıb ee, ha baxıram, gözümə bir şey dəymir, axı, göstərin remont eləyək… - ani fikrə getdi, deyəsən, bir az da kövrəldi, - düüz üçüncü sinifə qədər… - gözlərini döydü.

- Üçüncü sinifdə nooldu, ağıllandın? - Mən ərklə dedim.

- Yoz, atam… öldü. - Səsi qırıldı, sonra səsinin qırıq yerini düyünlədi, - məktəbi dağıdanda ona arxayın olurdum dana. O, öləndən sonra əlim-qolum boşaldı. Düzdü, babam həmişə deyir ki, heç kimdən qorxma, heç nəyi vecinə alma… deyir, ancaq əmələ gəlmir. O vaxtdan hər şeydən qorxuram… bu qorxu indi də canımdan çıxmayıb, yəqin ki, heç vaxt da çıxmayacaq. Ona görə də bir iş görəndə yüz dəfə ölçürəm, bir dəfə biçirəm. Hətta elə olur ki, o qədər ölçürəm, ölçürəm, bir də görrəm biçməyə nə vaxtım qalıb, nə də həvəsim - heylə də olur…

- Heç kəsdən nə qorx, nə də vecinə al! - Mən bu sözləri ona mütləq deməliydim, - Ürəkli ol! - Deyəsən, o, mənə söykəndi, inandı, mən bir az da ruhlandım. - Bilirsən Vaqif, indi mən sənnən böyüyəm də…

- Ağsaqqalımsan… Allah kürəyində dursun…

- Qulaq as. İnsan Allahdan qorxmamalıdı, onu sevməlidi. O adam Allahdan qorxur ki, xirtdəyə qədər zibilin içindədi, başı güclə görünür.

- Yaxşıdı ee… başı gücnən görünür. - Vəcdə gəlib tez də sakitləşdi.

- İnsan həm də qorxmalıdı, özündən qorxmalıdı. Çünki adamın özü özünə elədiyi pisliyi heç kəs ona eliyə bilməz! Gərək başını aşağı salıb adam balası kimi yaşayasan, çox sadədi, mürəkkəb bir şey yoxdu. Onda hər şey öz yoluynan gedir, özün də rahat olursan. Rahat adam da heç kimdən, heç nədən qorxmur. Yolu budu… Sonra özün də görəzsən…

Dediklərim onun ağlına batdığına görə hiss eləyirdim ki, o, mənə çox diqqətlə qulaq asıb. Bu, mənim çox xoşuma gəldi və onu mənə elə söhbətimizin məsafəsi qədər yaxınlaşdırdı. Ancaq bizim aramızdakı Seyran-Vaqif məsafəsi çox uzaq idi.

Vaqifə o qədər sual verib o qədər cavab aldım ki, indi o, ovcumun içindəydi. Ən azı dünənə nisbətən bu gün onun haqqında çox şey bilirdim; ata babası Cuvarlı Salman bəydən tutmuş kiçik qardaşı Yadigara qədər - bu da, balaca məsafə deyildi…

- Çay içəkmi?

- İçək, - dedi.

Xidmətçi qız çay gətirməmişdən qabaq stolun üstünü yığışdırmaq istəyəndə dedim:

- Eybi yoxdu… qoy qalsın, sonra yığışdırarsan.

Birdən-birə vaxta heyfimiz gəldi, aşağısı beş-on dəqiqə yığışdırmağa sərf olunacaqdı. Bu söhbətdə heç kəsin yanımızda olmasını da istəmirdim.

- Vaqif, deyirsən kənddə səni şair kimi əməlli-başlı tanıyıllar də.

- Seyran müəllim, mənə ibtidai sinifdə dərs deyən Rza müəllim ölmüşdü. Hamı onu çox istəyirdi. Mən onun ölümünə bir şeir yazmışdım, kəndimizin radio qovşağında oxudum. Bütün kənd - böyükdən kiçiyə hönkür-hönkür ağladı. Nənəm də ağlamışdı. Maa dedi ki, şeir demirdin ee, elə bil ağı deyirdin. Əsas onnan sonra hörmətim qalxdı. Ancaq «Araz» qəzeti o şeirimi çap eləmədi…

- Niyə?

- Orda biri vardı… Maa dedi ki, ibtidai sinif müəllimi olub də, nə böyük şeydi, Lenin deyil, Stalin deyil! Elə pis oldum ki… Çölə çıxanda özümü saxlaya bilmədim, ağladım… Hamı da kənddə gözləyirdi ki, «Araz»da çıxacaq… o da çıxmadı. Mən də kəndin ortalığına çıxmadım, elə bil nə isə günah iş tutmuşdum, utanırdım.

- Vaqif, dedim, - sən yox, o sözü sənə deyən adam utanmalıydı, sənin əvəzinə o utanmalıydı. Ancaq o cür ürəksiz adamlar heç öz yerlərinə utanmırlar, qalmışdı sənin əvəzinə. Lenin deyil, Stalin deyil… danışığa bax də… Onları tanıyıram, kim idi onu deyən?

Vaqif üzümə baxdı, baxışlarındakını dilinə də gətirdi:

- Demək istəmirəm ee, yaxşı dəyil…

- Olsun, - dedim və bu da xoş gəldi. Ağzıbütöv oğlandı də, bunun nəyi pisdi ki? Bəlkə də özünün bayaq dediyi kimi qorxusundan demədi. Eybi yox, adamlar bəzən qorxudan da ağzıbütöv olur, buna adət eləyib bütövləşə-bütövləşə gedir - olur bütöv adam. Bu da pis deyil - təki bütöv olasan - dad yarımçıq əlindən.

Vaqifin üzünün nuru gözqamaşdırandı, mən onu bütün parlaqlığı ilə indicə gördüm. Elə bil onun üzünü ana südü ilə yumuşdular. Bu nur bütün ömrü boyu onun yolunu işıqlandırıb bələdçisi olacaqdı - bələdçisi işıq olan adam, hara gedir getsin, heç vaxt nabələd olmur, əksinə, yol ona tanış gəlir.

İndi özüm də bilmədən mən elə bir bucaq altından baxırdım ki, o, çox doğma gəlirdi mənə. Doğmalığın işığı o qədər güclü olur ki, heç atom elektrik stansiyası da onu əvəz eliyə bilməz. Tez-tez eşidirik ki, filankəsi tok vurub öldürüb. Ancaq doğmalığın işığı, enerjisi insanlara ölüm yox, həyat gətirib.

Elə bil mənim də gözümün işığı çoxalmışdı; hardan biləydim ki, illər keçəcək və qarşımda oturan bu oğlan «gözümün işığı» olacaqdı. Belə şeyləri bilmək olmur ha, gərək duyasan - ancaq mən heç duymurdum da…

Mənim gözümün işığı onun üzünün nuruna qarışdı, biz qan qardaşı olduq - işıq qardaşı. Bilirsiniz necə? Apaçi tayfalarında belə bir adət var: təzə tanış olan iki nəfər əllərini xəncərlə çərtib kəsdikləri yeri üst-üstə qoyurlar, qanları bir-birinə qovuşur, qardaş olurlar - bax heylə… İndiki halda onun üzünün nuru, mənim gözümün işığı qovuşan kimi…

…Mən bu fikrə o vaxt «Novbahar» restoranında tələm-tələsik gəlməmişdim; bu, mümkün olan, bir dəfə görüşməklə başa gələn şey deyildi. Gərək aradan illər keçəydi, mən bu gün dayandığım yerdən pəncəsi üstə qalxıb geriyə - o illərin arxasına baxaydım, görəydim, gördüklərimi dilimə gətirəydim. Bu gündə dayanıb pəncələri üstə dikəlsən də, nəhəng dağlar kimi silsilələnib sıralanan o illərin arxasına baxıb orda nəsə axtarmaq, tapmaq çox çətindi - adamın boyu çatmır ee…

Yazının bu yerində aşağıdakı cümlələri dilimə gətirə bilərdim - təxminən belə: «Biz restorandan çıxanda quşbaşı qar yağırdı; hər tərəf ağappaq olub göz qamaşdırırdı, elə bil qış nəhəng bir dərzi kimi şəhərə kəfən biçir, öz işini bəri başdan görüb arxayın olmaq istəyirdi…» və sair. Ancaq yazdım,

«Novbahar» Vaqifin çox xoşuna gəlmişdi. Biz qələmin hesabına orda qalası olduq və uzun illərdən sonra gəlib «Novbaharı» da, Vaqif Bəhmənlini də, Seyran Səxavəti də, o qəşəng, şirin xidmətçi qızı da söküb dağıtdılar, heç izi də qalmadı…

Qoy bu hissənin sonu ağlamalı olsun…

Ancaq bu dediklərim sadəlövh oxucular üçün nəzərdə tutulub, bizdə bu sarıdan bolluq-bostanlıqdı, axı…

Barmaqla sayılacaq həssas, sərrast və qəddar oxucular üçün isə bu parça üç abzas bundan qabaq «…adamın boyu çatmır ee…», bax, orda qurtarıb…

* * *

Deyirlər ki, nağıl dili yüyürək olar. Qırmızı yalandı! Niyə? Çünki nağıl vəziyyətdi - vəziyyət heç vaxt yüyürə bilməz. Heç eşitmisiniz deyələr ki, filankəsin vəziyyəti yüyürür? Yəqin ki, yox. Heç eşitmisiniz deyələr ki, filankəsin dili yaman yüyürəkdi? Yəqin ki, yox. Yüyürən dil deyil - Sözdü! Yüyürməkdən həmişə qan-tərin içində olur, bəzən iki tərəfli sətəlcəm olur, Sözün yükü yalan olanda bu ağırlığa dözməyib bağrı çatlayır, ölür, Sözün yükü həqiqət olanda dirilik iddiası və ədası ilə boy-buxun göstərib dünyanın hər yerindən görünür - uca dağların zirvəsindən də, dərin dərələrin dibindən də… Söz həmişə qaçaqaçdadı - ancaq hamısı yox. Sözün də adamlar kimi tənbəli, cəldi, yarımcanı, dirisi, sırtığı, satqını, kiçiyi, böyüyü olur. Və Sözün gözümüzün qabağına gələn bu mənzərəsini adamlar yaradıblar. Burda mürəkkəb heç nə yoxdu, əksinə çox sadəydi. Yəni Söz yerinə düşəndə cəld, diri və böyük olur, yerinə düşməyəndə tənbəl, yarımcan, sırtıq, satqın olur. Məsələn, götürək «əclaf» sözünü; bu söz əclafın birinə deyiləndə nə qədər gözəl eşidilir və görünür. Ancaq bu söz yaxşı bir adam haqqında deyiləndə adının mənası qədər eybəcərləşib hörmət-izzətini itirir, gözdən düşür. Dünyada gözdən düşməkdən də ağır heç nə yoxdu. Gözdən düşən söz eynək deyil ki, yerdən götürüb təzədən gözünə taxasan.

Xalq adamlardan, dil də sözlərdən ibarətdir. Bu mənada xalq sözü mənə mücərrəd görünür, adamlar isə reallıqdır; yaxud dil sözü mənə mücərrəd görünür, sözlər reallıqdır. Xalq küll halında heç vaxt qaça bilməz - qaçan adamlardı. Dil də heç vaxt yüyürə bilməz - yüyürən sözlərdi.

Əgər nə vaxt desələr ki, məsələn, Çin xalqı yüyürür… Onda Çin dili də yüyürəcək, elə bizim nağıl dili də.

Təsəvvür eləyirsiniz də, milyarddan çox adam yüyürür. Gülməlidi? Özünüz qərara gəlin…

Xahiş edərdim ki, bütün bunları Sözün boynumuzdakı haqqını xatırlatmaq cəhdi kimi qəbul edəsiniz. Ən azı, lap ən çoxu da ona görə ki, Dünyanı nə xalq, nə də dil yaradıb - Dünyanı Söz yaradıb:

- Ol! - Dünya da Ol-ub…

Əlqərəz… Söz yüyürək olar. 1973-cü ilin noyabrında Sözün əlindən tutub yüyürə-yüyürə gəlib yetişdim 1974-cü ilin noyabr ayına. Səfər üstə idim. Tərcüməçi kimi İrana gedib orda iki il işləməli idim. Uçurdum. İran dünyanın qədim dövlətçilik ənənəsi və böyük mədəniyyəti olan, son dərəcə maraqlı və zəngin bir ölkəsidir. Bir tərəfdən də sovet balasının Şahənşah ariyamehr Rza şah Pəhləvi ilə bir ölkədə iki il yaşamaq şansı - çox maraqlı olacaqdı. Şahları və padşahları ancaq nağıllarda eşitmişdim - hamısı da zülmkar; görək bu, nə təhər adamdı?

Mən İran səfərim haqqında otuz beş il bundan qabaq çap etdirdiyim «Daş evlər» romanımda geniş yazıb başınızı ağrıtmışam və ikinci başağrısına ehtiyac görmürəm.

Vaqiflə «Ədəbiyyat və incəsənət» qəzeti - «Novbahar» restoranı marşrutu ilə başlanan tanışlığımız, bir il müddətində nə qədər yol getmək mümkün idisə, getmişdi, şaxələnmişdi, bir az da zənginləşmişdi. Bu yol uzandıqca bizim münasibətimiz də uzanırdı, şaxələnirdi, zənginləşirdi. Vaqifin işləri onun və mənim ürəyim necə istəyirdisə, elə də gedirdi. Mərkəzi mətbuatda mütəmadi çıxış eləyirdi və onu yaxşı tərəfdən tanıdırdı. O, ədəbi mühitə isnişirdi, doğmalaşırdı. Bu mühitdəki saf adamlar da ona biganə deyildi. O, çox oxuyurdu, bu baxımdan kolxoz kitabxanasının kasıbçılığı arxada qalmışdı. Bəlkə də Vaqif fikirləşirdi ki, kaş Camal Yusifzadə məni bir il bundan əvvəl yox, indi sorğu-suala çəkəydi, onda bilərdi ki, nə var, nə yox? Ancaq o gün bir də heç vaxt geri qayıtmayacaq, Camal da o sualları ona verməyəcəkdi. Camal, Vaqif yaşda uşaqlara həmişə nə yazırsan yox, nə oxuyursan sualını verirdi və haqlı idi.

Hamı olmasa da, əksəriyyət elə bilirdi ki, məni İrana Mirzə İbrahimov göndərir. O cür hesab eləyənlər soruşanda deyirdim:

- Sağ olsun Mirzə müəllim, mənə atalıq eləyir də kişi.

O cür hesab eləyənlərə qəsdən belə deyirdim; xüsusilə də məni gözü götürməyənlərə. Hətta onlardan birisi üzümə qarşı, ancaq gülə-gülə dedi ki, «Seyran, maşallah, İttifaqa gəldiyin bir ildi, İrana gedirsən. On beş ildi burda can çürüdürəm, bir addım da qabağa getməmişəm, yerimdə sayıram». Özünü gizlədə bilmədi; mən də onun qıpqırmızı, ətli sifətinə gülüb eləmədən dedim:

- Mirzə müəllim deyir ki, Seyran, hələlik get İranda bir-iki il işlə, sonra səni Avropaya göndərəcəm.

- Avropaya? - Onun qıyıq gözləri alacalanıb ətli sifətini eybəcərləşdirdi.

- Hə! - üzümə süni bir təəccüb ifadəsi verdim, - nədi ki? - soruşdum.

- Demədi ki, Avropanın harasına?

- Deyəsən, Fransa dedi.

- Sən fransızca da bilirsən ki?

- Fars dilindən də yaxşı bilirəm. - Yalan dedim. Fransızca birdən üçə qədər də saya bilmirdim.

O, əl çəkmirdi:

- Demədi Fransada hansı təşkilatda işləyəcəksən?

- Dedi ee, ancaq yadımdan çıxdı. Mən heç o sözü eşitməmişdim.

- Yunesko demədi ki?

- Hə… hə… ay sağ ol, onu dedi.

- Yaxşı, yaxşı, nə deyirəm get, get, - o, əlini əlinə çırpıb şappıldadandan sonra uzaqlaşdı.

Əslində isə, mən Moskva şəhər sovetində xarici əlaqələr idarəsinin rəisi işləyən Sedıx Konstantin İvanoviçin vasitəsi ilə İrana gedirdim. Özü də, Yazıçılar İttifaqında on beş il can çürüdən o qırmızı sifətə dediyim kimi sovet səfirliyinə yox, layihə institutunda sıravi tərcüməçi işləyəcəkdim…

Son vaxtlar, demək olar ki, hər gün bir yerdə olurduq - Camal, Vaqif, mən.

...Dənizkənarı parkda, Lenin muzeyi ilə üzbəüz çayxanada oturmuşduq - bura həm də redaksiyamıza yaxın idi. Noyabr ayından əsər-əlamət yox idi, hava Camal kimi mülayim idi, külək də əsmirdi. Keçən il bu vaxt qar dizdən idi. Camal dedi:

- İnşallah, iki gündən sonra…

- Hə, - dedim, - Moskvaya, orda üç-dörd gün qalandan sonra Tehrana, ordan da İsfahana…

- Seyran, - Camal ciddi sifət alıb gözünü qarşısındakı stəkana zillədi, - tay orda mənnən işlədiyin kimi eləmə, əməlli-başlı işə giriş, qoy birinci gündən səni yaxşı tanısınlar, - güldü, - tay orda Mirzə İbrahimov yoxdu ee, - ani fikrə

getdi, - ancaq bilmək olmaz, - dedi, - bu kişi elə adamdı ki, ora da əli çatar… Zarafatsız, işdən bərk yapış…

- Baş üstə, şef! Qarşıma qoyulan məqsəd və vəzifələri əzmlə yerinə yetirib sovet adamının şərəfli adını, ləyaqətini qorumaqla kommunist ideyalarını həyata keçirəcəyimə söz verirəm!

- Düzələn deyilsən də… - Camal gülüb Vaqifə baxdı, elə bil onu özünə tərəfdaş eləmək istədi.

Mən ətrafa göz gəzdirib dedim:

- Deyirəm ki, Camayka, biz təkcə meyxanələrdən yox, həm də çayxanələrdən çıxmışıq ee…

- Hə də… meyxanəyə girmək asandı, çıxmaq çətindi. Çayxanəyə girmək də asandı, çıxmaq da… uzağı bir manat… - Camal dedi.

- Çox müdrikanə bir yanaşmadır, - sonra üzümü Vaqifə tutdum, - sən bilirsən ki, İran skripkalarını dünyada əl-əl axtarırlar?

- Yox, - Vaqif dedi, - nədi ki? - Üzümə baxdı.

- İstəyirsən İrandan sənə bir skripka alım gətirim?

Vaqif çaşdı, onun əvəzinə Camal dilləndi:

- Vaqif, sən buna fikir vermə… bunda belə şeylər tez-tez olur…

Camal düz deyirdi, məndə belə şeylər olur. Ona görə də əl çəkmədim:

- Vaqif, - dedim, - skripka istəmirsən?

- Axı, mən çala bilmirəm… - Nədənsə Camalın üzünə baxdı.

- Öyrənərsən də, - dedim.

Camal, əgər belə demək mümkündürsə, dözmədi:

- Əə, uşaqnan işin olmasın də…

- Baş üstə, şef! Bəs, uşaqnan işim olmasın, - çönüb Vaqifə baxdım, - böyüynən işim olmasın, - Camala baxdım, - bəs, kimiynən…

Camal sözümü kəsdi:

- Özünnən… özünnən işin olsun… Skripkanı da özünə alarsan.

- Çala bilmirəm, axı, Camayka.

- Eybi yox, öyrənərsən, - dedi.

Çayxanada bir-birinə qarışıb anlaşılmaz olan sözlərdən tütün qoxusu gəlirdi. Hamı söhbət eləyirdi. Hər stol ətrafında oturan adamlara oxşayırdı, elə bil bu adamlar stollarını evlərindən gətirmişdilər, gedəndə də götürüb aparacaqdılar. Tütün qoxusu verən sözlər tüstüdən boğulurdu, öskürürdü, bir qurtum çay içib özünə gəlirdi.

- Camal müəllim, - Vaqif qəfil dedi, - Nazim Hikmət nə böyük şair imiş, oxuduqca oxuyursan, doymursan… Tamam başqa cür yazır ee. Adam onun şeirlərini su kimi içir.

Camal elə sevindi ki, elə bil Vaqif Nazim Hikməti yox, onun rəhmətlik atası Yusif kişini tərifləyirdi.

Bununla Vaqif həm də onu demək istəyirdi ki, «Camal müəllim, sizin məsləhətinizə əməl eləyirəm, çox sağ olun».

- Nazim başqa bir dünyadı… - Camalın müdaxiləsi qısa oldu və elə bil onun bu cavabı özünə də azlıq elədi, - həyat heç… öz yerində, ancaq mütaliənin verdiyini heç nə verə bilməz… Bəs, indi nə oxuyursan?

- Elə Nazim Hikməti, - Vaqif dedi, - qopa bilmirəm ha, əlimdən düşmür.

- Qopmaq lazımdı, - Camal dedi, - oralarda çox qalmaq da olmaz… qalırsan, qalırsan öyrəşirsən, sonra çıxa bilmirsən - bu da, təhlükəlidi.

- Yox ee, Camal müəllim, istəyirəm hələ bir az oralarda qalam…

Camal güldü, şəhadət barmağını qartal dimdiyinə oxşayan burnunun üstünə sürtüb mənə dedi:

- Sabah işdən sonra «Novbahar»ın bufetində görüşəkmi?

- Bufetdə niyə ki? - dedim.

- Restoranlıq deyiləm… Vaqif, sən də gələrsən.

Mənim yaşıdlarım yaxşı bilir ki, «Novbahar» restoranına bitişik novbaharın bufeti deyilən bir yer vardı. Çox məşhur yer idi, orda kimə desən rast gəlmək olardı. Tələbə olanda, orda İlyas Əfəndiyevlə Tofiq Kazımovu da görmüşdüm. İlyas müəllim qəşəng kişi idi, ancaq Tofiq Kazımovun gözləri parıldasa da, burnu Camalın burnuna oxşayırdı. O vaxtlar idi ki, «Sən həmişə mənimləsən» tamaşası aləmə səs salmışdı.

Camalın təklifi xoşuma gəlsə də, məkan o qədər də ürəyimcə deyildi; ancaq neyləmək olar, necə ki, məkan mənim ürəyimcə deyildi, restoran da Camalın cibincə deyildi.

Vaqif elə bil ürəyimi oxuyub dedi:

- Camal müəllim, dünən təqaüdümü almışam…

Camal o saat onu başa düşüb sözünü kəsdi:

- Sən yum. Tələbəsən… - dedi, Vaqif də yumdu.

Çayxananın mənzərəsi elə həmənki idi, dəyişməmişdi, əksinə, bir az da tündləşmişdi. Camal dedi:

- Çatan kimi məktub yaz, bilək ki, hardasan… ünvanını da…

- Baş üstə, şef!

- Darıxacam, - o, üzümə elə baxdı ki… ölənə qədər gözümün qabağından çəkilməyəcək. Mən bu vaxta qədər bu cür baxmaq görməmişdim, sonralar da görmədim… Baxış şəkil deyil ki, çıxardım göstərəm. Baxışı baxışnan tutarlar.

Vaqifi Camala bərk-bərk tapşırdım, baxmayaraq ki, Camalın özünü kiməsə tapşıran lazım idi. Çünki onun istedaddan başqa kimsəsi yox idi. O vaxt istedad işin heç yarısı da deyildi - lap fərz eləyək yarısı idi; əgər adamın olmasaydı, sənnən nə isə yarımçıq bir şey əmələ gəlirdi; hamı da səndən dad çəkirdi ki, «dad, yarımçıq əlindən».

Atam-anam, bacılarım-qardaşlarım mənim İrana getməyimlə fəxr eləyirdilər, Camal Yusifzadə isə sevinirdi. Fəxr eləməklə sevinmək başqa-başqa şeylərdi. Çünki fəxr eləməyin içində bir özünü reklam da var, ancaq sevinməkdə bu yoxdu.

…Aşağıda yazacağım sözlərin hamısını bir yerə yığdım; onlarla birgə qaça-qaça təyyarəyə minib Moskvaya, ordan da qaça-qaça təyyarəyə minib Tehrana, ordan da qaça-qaça avtobusa minib İsfahana, ordan da qaça-qaça iki il işləyəndən sonra Tehrana, ordan da qaça-qaça təyyarəyə minib Moskvaya, ordan da qaça-qaça təyyarəyə minib Bakıya qayıtdım. Hava limanında məni Camal qarşıladı - təkcə onu xəbərdar eləmişdim.

…Sözlər qan-tər içində hərəsi bir tərəfdə yayxınıb uzanmışdı - dincəlirdilər; sizə zarafat gəlməsin, yüyürə-yüyürə iki illik məsafəni beş dəqiqəyə qət etmişdilər:

- Bax, buna deyərəm yüyürmək - Söz yürüşü!

Əlli beş il bundan qabaq, orta məktəbdə oxuyanda fizika kitabından öyrənmişdim ki, işıq ən sürətli şeydi. 2015-ci il yanvar ayının ikisidi, bu gün də alimlər elə hesab eləyirlər və işıqdan daha sürətli bir şey tapıb ortalığa çıxarda bilməyiblər. Ancaq mənə elə gəlir ki, Fikir İşıqdan milyardlarla dəfə sürətlidir. Məsələn, oturmusan Ağcabədidə; bir anın içində Fikrində ola bilərsən Vaşinqtonda - Ağcabədi-Vaşinqton marşrutu ilə. Sən Fikirdə sürətə bax də! Söz də Fikirdi, ən azı Fikirin qabığıdı. Belə çıxır ki, Fikrin sürəti Sözün sürətinə bərabərdi, çünki onlar bir-birinin içindədi. Və buna əsaslanıb deyə bilərəm ki, əgər mən Söz - Fikir birliyinin sürəti ilə deyil, İşıq sürətilə İrana getsəydim belə tez qayıdıb gələ bilməzdim - hardasa İsfahan-zad tərəflərdə ilişib ləngiyərdim… Və indiki halda özümə sərf eləyəni deyəcəm:

- Yaşasın Söz qüdrəti!

- Yaşatsın Söz sürəti!

…Şeyləri maşının yük yerinə yığıb arxa oturacaqda əyləşdik. Sağ əlim Camalın çiyninə qonmuşdu.

- Hə, Camayka, Bakıda nə var, nə yox?

- Köhnə hamam, köhnə tas, - dedi.

- Hamamı təmir eləməyə gücümüz çatmaz, bəlkə, heç olmasa təzə bir tas…

O, axıramacal sözümü kəsdi:

- Tas almağa lüzum yoxdu, - güldü, - köhnə vərdişlərindən əl çəkmirsən də, - dedi.

- Tay ağıllanmışam, - dedim, - əl çəkəcəm…

- Nə vaxt?

- Sənnən əl çəkəndə…

Bu sözdən sonra Camalın dodağı qaçdı.

- Vaqif nə təhərdi, Vaqulya?

- Maşallah, yaxşıdı… «Bakı» qəzetində şeirləri çıxmışdı, xoşuma gəldi… üç-dörd gün qabaq…

- Redaksiyada nə var, nə yox?

- Köhnə hamam, köhnə tas… onlar da darıxıblar… Sənnən məktub gələndə hamısı yığışırdı, oxuyurdum, qulaq asırdılar… darıxıblar…

- Necə darıxıblar? - dəqiqləşdirmək istədim.

- Darıxıblar də… kim necə bacarırsa elə… - dedi.

- Həə… Camayka yaxşısan… heç dəyişməmisən.

- Ancaq sən çox dəyişmisən.

- Necə? Necə dəyişmişəm?

- Yaxşılığa… Burdan gedəndə güzgüyə baxmışdın?

- Nədi ki?.. - Maraqlandım, çünki güzgünün bura nə dəxli var idi? Ancaq Camal boş söz deyən adam deyildi, axı.

- Sənin üzünün ifadəsi həmişə sərt olub də… ancaq indi baxıram, görürəm elə bil üzünü İranda ütülüyüb göndəriblər… yumşaq, həlim, mühit öz işini görüb, belə yaxşısan… - üzümə baxdı, gülümsədi.

Adamlar gülümsəyib qurtarandan sonra sir-sifətlərində, gözlərində bir-iki dəqiqə bu təbəssümün yeri qalır və yeri də adama xoş gəlir; Camalda isə başqa cürdü, onun təbəssümü yalnız gülümsədiyi anda görünürdü, yeri qalmırdı, sifətindəki kədər hər şeyi udurdu. Bu, mənə həmişə ağırlıq gətirib ağrıdırdı.

- Camayka, evlənmək məsələsindən bir xəbər yoxdu ki?

- Var, - dedi. Mən sevindim, yaşı otuzu çoxdan keçmişdi, ancaq hələ də subay-salıx idi və onun bu subaylığının sultanlığa qətiyyən dəxli yox idi.

- Qız kimdi? - Onu özümə sıxdım.

- Qız yoxdu, ev də yoxdu… həvəs var, - dedi, - o da yavaş-yavaş azalır… ancaq hələ var, bir dəfə evlənməyə çatar…

- Hər şey yaxşı olacaq, Camayka… düzdü? - Mən istəyirdim ki, Camal hər şeyin yaxşı olacağını təsdiqləsin, rahatlaşaq.

Camal da bunu hiss elədi, deyəsən bir az da mənim xatirimə dedi:

- Əlbəttə, yaxşı olacaq, - az da olsa, özünün inanmadığına məni inandırmağa çalışdı, mənə elə gəldi.

Şəhər üçün çox darıxmışdım. Beş-altı gün işə çıxmadım, dincəlirdim - guya ki, İranda yox, daş karyerində işləmişdim. Şəhərin altından girib üstündən çıxdım, yavaş-yavaş səbbim də alınırdı. Hər gecə dostları başıma yığıb təzə «İnturist»də havalanırdım - kef eləyirdik. Rayonda yaşayan qohumumun pasportu ilə «İnturist»də bir otaq da götürmüşdüm. Yuxarıda, məşhur «Almaz» maqazinin arxasında bir mənzil də kirayələmişdim. Qudurmuşdum də… Hara girəcəyimi bilsəm də, çıxacağımı bilmirdim. Bilə-bilə ki, bu pulların kökü suda deyil, elə xərcləyirdim.

Aradan bir-iki ay keçəndən sonra bir gün Vaqif yenə gəlib çıxdı:
- Fakültədə sizinən görüş keçirmək istəyirik, - dedi.
- Nə vaxt?
- Gələn həftənin beşinci günü.
- Noolar…. Lap yaxşı, - dedim.
- Axşam saat beşdə…
- Olar, - dedim.
- Bərk hazırlaşmışıq.
- Mən də hazırlaşaram, - dedim.
O, güldü.
- Sizə nə hazırlaşmaq, - dedi, - mümkün olsa bir az da İrannan danışarsınız, uşaqlar çox maraqlanırlar.
- Danışarıq… İrannan da danışarıq, Turandan da, - dedim, - nə desən eləyərəm.
Vaqif çox rahat, qayğısız görünürdü:
- Görüşdən sonra da qonaqlıq olacaq. Tələbələrdən beş-altı nəfər, bir də siz gedib bir yerlə oturarıq, - dedi.
- O da gözüm üstə… - dedim.
- Yoox ee… qonaqlığı özümüz eləyirik, - gülümsədi.
- İndi hələ gedək ora çıxaq… sonra baxarıq, - mən də gülümsədim, - görüşü necə planlaşdırmısınız?
- Deməli, əvvəlcə sizin həyat və yarıdıcılığınız haqqında məruzə olacaq, onnan sonra uşaqlar çıxış eləyəcəklər, sizin şeirləri deyəcəklər, sonra da sözü verəcəyik sizə… sual-cavab da olacaq, - gülümsədi, - siz gəlin, çox yaxşı olacaq ee, görəzsiniz də…
Xalaxətrin qalmasın soruşdum:
- Nə bilirsən yaxşı olacaq?
- Bilirəm də… həm də uşaqlarımız sizi çox istəyirlər, axı, əsas da budu.
Öz aramızda bu məsələni həll eliyəndən sonra dedim:
- Təzə şeirlərin var, nə yazırsan?
- Var, çoxdu, elə onu da demək istəyirdim ki, imkan olsa, bu yaxınlarda gəlim sizə, təzə şeirlərimi oxuyum.
- Sənin imkanın var gəlməyə? - soruşdum.
- Var, - dedi.
- Mənim də var.
O, məmnun olub gülə-gülə dedi:
- Dərsdən qaçıb gəlmişəm ee, mən gedim.
- Dərsdən də qaçırsan ki? - Özümü valideyn kimi apardım.
O, yenə güldü:
- Qaçıram, - dedi, - elə dərslər var ki, heç bizə lazım deyil, axı…
- Məsələn… - dedim.
- Məsələn… «Siyasi iqtisad», neynirəm ee onu, hesabdar olmuyajam ha…
- Hə… - dedim, - heylə dərsləriniz çoxdu?
- Var… Partiya tarixi… Elmi ateizm… Elmi kommunizm…
Özümdən asılı olmayaraq qol saatıma baxıb dedim:
- Yaxşı, get, ancaq elə elə ki, sonra çətinlik olmasın, tərs damarına düşər müəllimin…
- Siz narahat olmayın, o müəllimin arası mənnən sazdı. - Arxayın-arxayın dedi.
- Nə bilirsən?
- Bilirəm də... Hamını adıynan çağırır, ancaq maa şair deyir.
Vaqif çıxıb gedəndən xeyli sonra da onun işığı iş otağımdan çəkilməmişdi. Mənə elə gəldi ki, bu işığın qoxusu da var - işıq qoxusu. Buna o qədər inandım

ki, bu işıq qoxusunun bənzəri də ağlıma gəldi: gözü şehlə dolu Nərgiz gülünün qoxusu - Nərgiz gülünün işığı da var, axı... Bütün bunlardan sonra ürəyimdə Vaqifin ünvanına bir alqış qaynadı:

- Allah üzünün işığını söndürməsin...

Bu alqışla daban-dabana bir qarğış da gəldi:

- Gözü götürməyənin gözü pırtdasın...

Və inandım ki, bu qarğış o alqışı öz balası kimi qoruyacaq. Belə də olur, bu sizə qəribə gəlməsin - qarğışın balası alqış...

...Göylərdən bir az aşağı yenib deyə bilərəm ki, Vaqif bir yerə iş dalınca gedəndə mən onun yanında olmuram ki, deyəm bizim uşaqdı - özü də mən elə hər yerdə bu sözü deyə bilmərəm, axı. Vaqif hara gedirsə getsin üzünün işığı onu "tapşırırdı" ki, bizim uşaqdı - İşığın uşağı...

Siz məni qınamayın; insan qəlbi dolu qab kimi bir şeydi, vaxtaşırı boşalmayanda iylənir... Və bu iyin bir adı da, deyəsən, ölümdü. Çünki yeri düşən Söz gəlirsə, gərək deyəsən, ürəyinə salmayasan, əks halda sözlər ürəyə yığılıb daşlaşır. Yoxsa siz elə bilirsiniz ki, daş ancaq adamın böyrəyində, öd kisəsində olur - xeyr! Bir də Söz duza qoymaq üçün deyil, axı. - Söz şorabası... Yox bir...

Beşinci gün saat beşin yarısında Zevin küçəsi ilə dənizə əks istiqamətdə gedib Nizami heykəlinin yanından ötüb Kommunist küçəsiylə yuxarı qalxdım. Sergey Mironoviç Kirov adına Azərbaycan Dövlət Universitetinə yaxınlaşanda uzaqdan gördüm ki, Vaqif əlində böyük gül dəstəsi tutmuş bir qızla qapının ağzında dayanıb. Bildim ki, gül dəstəsi mənim üçün alınıb, bilmədim ki, qapının ağzında niyə durublar, adətən gülü bizə həmişə çıxış elədiyimiz zalda verirlər axı. Onların bu vəziyyəti mənə çox gülməli gəldi - elə güldüm də. Fikirləşdim ki, bəlkə, iki dəstə gül alıblar, birini qapının ağzında, o birisini də görüşün axırında verəcəklər - bundan başqa ağlıma heç nə gəlmədi. Mən yolu keçib onlara yaxınlaşanda gözlərimə inanmadım. Vaqifin üzünün işığından əsər-əlamət qalmamışdı; elə bil kimsə səliqə-səhmanla onun üzünə qara plyonka çəkmişdi - indi maşınların pəncərələrinə çəkirlər ee, bax ondan. Onun üzünün nuru qalmışdı qara plyonkanın altında, işartısı da gəlmirdi. Yanındakı qızın da rəngi boğulmuşdu. Özümü o yerə qoymaq istəmədim, alındı da:

- Salam Vaqulya, salam, - dedim, - bu qızla məni tanış elə...

Qız mənə əl verib adını desə də o andaca yadımdan çıxdı, elə bil ki, heç eşitməmişdim. Qızın əlində tutduğu bu gül kimi uşaqlara noolub, görəsən - sifətlərində də bir şey yazılmamışdı ee...

Elə bil kimsə Vaqifi darmadağın eləmişdi, yüz yerə səpələnmişdi; O səpələndiyi yerlərdən özünü güc-bəla ilə toplayaraq bir balaca bütövləşəndən sonra dedi:

- Seyran müəllim... vəziyyət... çox pisdi, - başını qaldırıb üzümə də baxmadı.

- Noolub, axı, Vaqulya...

- Heç bilmirəm nətəhər deyim?

- Nə təhər bilirsən heylə de... - Əlimi onun çiyninə qoydum.

- Sizinən görüşə icazə vermədilər...

- Kim icazə vermədi ki?..

- Razılığın almışdıq ee... elan-zad da vurmuşduq. Bir saat bundan qabaq məni çağırıb dedi ki, olmaz.

- Bəs, demədin ki, niyə olmaz? - Diqqətlə ona baxdım.

- Ona heylə söz demək olar? Camaat onnan tük salır... - dünyanın ən əlacsız adamı kimi üzümə baxdı.

- Kimdi ee, o?

- Şirməmməd müəllim...

- Şirməmməd?

- Hə... Şirməmməd Hüseynov... dekanımızdı.

Mənə çox pis təsir eləsə də, yenə özümü o yerə qoymayıb Vaqifi mütləq qucaqlamalıydım ki, uşaq özünə gəlsin, bu pərtlik ondan götürülsün. Elə də elədim; ancaq bir şeyi qətiyyən başa düşmədim... Onun adını tələbkar bir müəllim kimi tələbələrdən çox eşitmişdim, ancaq şəxsən tanış deyildik. O, hadisənin üstündən təxminən otuz beş il keçəndən sonra tədbirlərin birində növbəti dəfə görəndə ondan soruşdum ki, Şirməmməd müəllim, siz dekan işləyəndə belə bir iş olub, bu nə məsələydi ki? O, mənə dedi:

- Ay Seyran, nə bilim, vallah, gör üstündən nə qədər vaxt keçib, elə bir şey yadıma gəlmir, qocalmışam...

Ancaq onun yadına düşsə də, düşməsə də bu iş olmuşdu, axı, və bu günə qədər, elə bir cidd-cəhdlə axtarmasam da, o müəmmanın cavabını tapa bilməmişəm.

- Bu gülü də sizə almışdıq... sən Allah, bizi bağışlayın... neyniyək, qoymadı da... - Vaqif dedi, gülü qızdan alıb mənə verdi, - aparın evə, - dedi, - bəlkə, axşam gəldim sizə...

- Mütləq gəl, dedim.

İstədim gül dəstəsini Vaqifin yanındakı qıza bağışlayım, ancaq çöndüm, fikirləşdim ki, elə bilər bərk incimişəm, qəlbinə dəymiş olaram.

- Əla güllərdi, - dedim, - gözləyəcəm.

- Yaxşı, - dedi.

Onlarla sağollaşıb taksiyə mindim, avtobusda əlimdə gül getmək mənə birtəhər gəlirdi. Diqqət mərkəzində olanda sıxılıram, elə bilirəm ki, daim nəzarət altındayam. Bu vəziyyət heç vaxt ürəyimcə olmayıb və həmişə mənə elə gəlib ki, diqqət mərkəzində olan adamlar azad ola bilməz - mən də xasiyyətcə azad adam idim, axı... Və bu azadlığın özümdən başqa heç kəsə dəxli yox idi...

* * *

Bu, iyirminci əsrin o vaxtı idi ki, Vaqif Bəhmənlinin "Bahar-payız arası" ilk şeirlər kitabı dörd min tirajla çapdan çıxmışdı. Ədəbi ictimaiyyət onun bu kitabına, böyük bir kənd əsgərlikdən qayıdan oğlunu necə qarşılayarsa, elə qucaq açdı. O vaxtkı ədəbi mühit ərazisinin bir parçası olan, bəlkə də mərkəzi sayılan Filarmoniyanın qala divarına bitişik çayxanasında əks-səda yaratdı, qəzetlərdə məhəbbət dolu peşəkar rəylər çap olundu. Ədəbi mühit onun ilk şeirini necə qarşılamışdısa, ilk kitabına da belə reverans elədi.

Vaqif ilk kitabının ilk nüsxəsini mətbəədən götürüb mənim yanıma qaçmışdı, bəlkə də uça-uça gəlmişdi.

- Kitabım çıxıb, - dedi. - Qadınların qaz pilətəsinin üstündə unutduğu böyük çaydan kimi qaynayıb daşırdı, buğlanırdı.

Kitabın "üzündən" öpüb üz qabığını üzümə sürtəndə gözümün yumulduğunu da hiss elədim. Gözümü açanda Vaqifin gözləri dolmuşdu - Allah onu Azərbaycan poeziyasına gözü dolusu versin...

Sonralar Vaqif, mənim onun kitabı ilə öpüşmə mərasimini belə poetikləşdirmişdi:

Öpdü kitabımı Seyran Səxavət,
Bir ovuc Füzuli torpağı kimi...

Kitabın içindən arxayın olduğuma görə üz qabığına diqqət kəsildim; bahar elementlərinin tən ortasındakı nar payızı təmsil eləyirdi. Sadıxyan soyadlı

erməni rəssamı kitaba verdiyi tərtibat yumşaq məntiqi ilə xoşuma gəldi; əgər bu erməni, o kitabın üz qabığına manqal şəkli çəksəydi, yenə xoşuma gələcəkdi - buna da bir məna verib əsaslandıracaqdım, əsas kitabın dünyaya gəlməsi idi; gəlmişdi, xoş gəlmişdi...

Vaqif Bəhmənli. Yeri gəlmişkən, deyim ki, Vaqif adını ona ata-anası vermişdi - məlum məsələdi, Bəhmənli təxəllüsünü isə mən vermişdim - mən də ona bir şey verməliydim, axı. Nəticədə o, Vaqif Quliyevdən Vaqif Bəhmənliyə çevrildi. Mən bu təxəllüsü ona təklif eləyən kimi razı olmuşdu. Çünki ona elə gəlirdi ki, Vaqif Quliyevdən şair olmaz, ancaq Vaqif Bəhmənlidən olar. O, hardasa haqlı idi, elə mən özüm də Xanlarov soyadımdan, Qasım Qasımzadənin təklifi ilə əlli il bundan qabaq, böyük məmnuniyyətlə imtina eləyib Seyran Səxavət olanda fikirləşmişdim ki, həə, bax indi mənnən bir şey çıxacaq...

Biz redaksiyadan çıxıb Neftçilər prospektinə keçdik, bulvarda xeyli gəzişəndən sonra əyləşdik. Vaqif dedi:

- Seyran müəllim, ağlıma iki fikir gəlib.

- İki fikir? - Onun üzünə baxdım.

- Hə... ikisi birdən, - güldü, - son vaxtlar fikirlər iki-iki, üç-üç gəlir ağlıma, - elə gülürdü, keyfi kök idi də.

- İkisini də birdən deyəzsən, yoxsa bir-bir?

- Yoox, bir-bir... ciddi məsələdi, - elə özü də bir balaca ciddiləşdi.

- Bəlkə, gedək çayxanada...

- Yoox, elə bura yaxşıdı, ora çox səs-küydü, - dedi.

- Yaxşı, eşidirəm.

Boğazını arıtlayıb bir az da mənə yaxın oturdu.

- Sizin birinci kitabınızdan sonra qəzet-jurnallarda çıxan şeirləriniz sizdə var? Evdə...

- Yox, - dedim, - heç birini saxlamamışam...

- Əlyazmalar da yoxdu?

- Yox... - ona baxdım, - neynirsən ki?

Vaqif bir az bikefləyən kimi oldu:

- Yaxşı, eybi yoxdur, - dedi, - gedib on-on beş gün oturaram Axundov kitabxanasında, onların hamısını böyük bir dəftərə köçürərəm, gətirib verərəm sizə... - üzümə baxdı.

- Neynirəm ki? - dedim.

- Kitab halında çap elətdirək da... niyə itib-batsın ki?

- Həvəsim yoxdu ee, - dedim, - hələ onu da dəqiqləşdirməmişəm ki, bundan sonra yazı-pozu ilə məşğul olacam, yoxsa yox... Gör mən neçə vaxtdı yazmıram; yadırğamışam, əlim də qələmə yatmır...

Onun üzünə baxmasam da, hiss elədim ki, çox məyus oldu. İkimizin arasında çömbələn sükutu da o qovdu:

- Seyran müəllim, siz mütləq yazmalısınız. Heç elə şey olar? O cür şeirlər yazan adam birdən-birə niyə susmalıdır ki? Seyran müəllim, siz mütləq yazın, - məni qucaqladı, üzünü üzümə söykədi, az qala pıçıldadı, - Seyran müəllim, qurban olum... yazın.

O, elə deyirdi ki, guya mən yazmasam, o, özü də yaza bilməyəcək, ya da ki, Azərbaycan ədəbiyyatı mənsiz zəlil günlərə qalacaq. Mən özüm də birtəhər olmuşdum. Əlimi onun çiyninə qoyub dedim:

- Fikrim var ki, bu yaxınlarda bir hekayə yazam. Yaza bilsəm, yazacam, əgər...

Vaqif sözümü ərklə kəsdi:

- Yazazsınız, - dedi.

- Görək də...

Təxminən bir həftədən sonra Vaqif yenə gəldi:

- Bax, - dedi, - sizin itmiş şeirləriniz hamısı burdadı, qırx dörd dənədi, - əlindəki dəftəri açıb göstərdi.

O, şeirləri muncuq kimi dəftərə düzmüşdü, səliqə-sahmana söz ola bilməzdi. Dəqiq yadımdadı, muncuq kimi sətirlərə baxanda, nə isə sevindim, elə bil içim təprəndi, varlığım yumşaq və rahat hisslərlə dolub-daşdı. Bu hisslər mənə tanış gəldi. Deyəsən, əvvəllər də bu hissləri yaşamışdım - mən yenidən doğulurdum... Şeirləri gözlərimlə gördüm, tanıdım - şeirləri gözlərimlə tanıyandan sonra inandım; inandım ki, onları mən yazmışam.

Zəlzələ sözü dilimizə düşəndən çox-çox qabaq bu hadisə baş verəndə Azərbaycan adamları deyirdilər ki, yer tərpənib. Mənim də içimdə yer tərpənmişdi. Əgər belə olmasaydı, Vaqif Bəhmənli ilə söhbətimdən bir ay sonra "Ədəbiyyat və incəsənət" qəzetində "Çayçı Rəşid" adlı hekayəm çıxmazdı. Əgər belə olmasaydı, "Azərbaycan" jurnalında silsilə hekayələrim, povestlərim, romanlarım çap olunmazdı. Əgər belə olmasaydı. Məşədi Əzizbəyov adına Akademik Dövlət Dram Teatrında, Lənkəran Dövlət Dram Teatrında, Füzuli Dövlət Teatrında pyeslərim tamaşaya qoyulmazdı. Əgər belə olmasaydı, bir-birinin ardınca televiziya tamaşalarım ekranda görünməzdi; əsərlərim dünyanın bir çox xalqlarının dilinə tərcümə olunmazdı; ən yaxın keçmişdə "Azərbaycan" jurnalında çap olunmuş "Nekroloq" əsərim Yusif Səmədoğlu adına ilin ən yaxşı romanı mükafatına layiq görülməzdi. Və üstəgəl unutduqlarım...

Bütün bunlara görə, bu gün Azərbaycan poeziyasında Fərhad kimi külüng çalan, yox, bu ifadə çox köhnəlib, yapon istehsalı olan cəld ekskavator kimi işləyən nəhəng şairimiz Vaqif Bəhmənliyə minnətdaram. Gördünüz də, dünənin uşağı Vaqif mən azmışı necə öz yoluna qaytardı. Adamın öz yolu heyif deyil... Adamın öz yolu Allahın yolu kimi rahat olur. Mənim aləmimdə İnsanın bir adı da Yoldu. Adamın öz yolu heç vaxt nabələd olmur, lap gözüyumulu da olsa, səni öz yerinə çatdırır, sən öz yerini tanıyırsan, öz yerini bilirsən. İnsan isə öz yerində güclü və rahat olur...

Bir gün yenə dünənin uşağı gəldi, salam-kəlamdan sonra qoltuğundakı qovluğu stolumun üstünə qoyub qatmasını açdı:

- Seyran müəllim, - dedi, - sizin şeirlərinizdi, hamısını makinadan çıxartdırmışam. Aparın verin "Gənclik" nəşriyyatına, Əzizə xanım da sizin xətrinizi çox istəyir. Vallah, plana-zada salmamış çap eliyəcək.

- Birdən eləmədi?

- Eləməsə, adımı dəyişərəm, - Vaqif inamla dedi.

- Adını?

- Hə...

- Yaxşı, - dedim, - tutaq ki, Əzizə xanım çap eləmək istəmədi, sən də adını dəyişməlisən... adını nə qoyazsan?

- Zülfalı, - dedi, uğundu getdi, - Zülfalı Bəhmənli, qəşəng də səslənir.

Məni də gülmək tutmuşdu:

- Bu ad hardan ağlına gəldi belə?

- Bəs, o sualı ma vermək sizin ağlınıza hardan gəldi? Bu ad da mənim ağlıma elə ordan gəldi. - Güldü, papkanı açıb bağladı, - mən buna nə qədər əziyyət çəkmişəm, bir həftə Axundovda ələm-yesir olmuşam, - deyib mərhəm, şirin baxışları ilə üzümü yudu.

- Yaxşı, - dedim, - sabah işə gələndə birbaşa gedərəm ora, sonra...

Vaqif düz deyirdi, "Gənclik" nəşriyyatının direktoru Əzizə Əhmədova xətrimi çox istəyirdi, həm də erkək tinətli, xanım-xatın qadındı - sözünün də ağası idi, söz verdisə, qurtardı, get papağının dalını qaldır, gəz özünçün.

- Yaxşı, mən qaçdım, - Vaqif dedi.

- Hara qaçırsan ee, işdə nə var?

- Seyran müəllim, mən olmasam, qəzet batar ee... - dedi və güldü ki, yəni zarafat eliyirəm, - istəyirsiniz axşamüstü görüşək?

- İşdən sonra çayxanada...

- Filarmoniyanın bağında, yoxsa?..

- Elə orda... - dedim.

- Yaxşı, mən qaçdım.

"Allah səni saxlasın, ürəyə bax ee bunda..:" mən onun arxasınca fikirləşdim. Bu anda güzgüyə baxsaydım, bəlkə də üzümdə işıq görərdim, ancaq görmədim. Çünki mən güzgüyə ancaq dəlləkxanada başımı qırxdıranda baxıram.

"Sovet kəndi" Azərbaycan kommunist partiyası mərkəzi komitəsinin qəzeti idi. Baş redaktoru Nəriman Zeynalov həm də Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsində dərs deyirdi. Vaqif işləmək istəyirdi, universiteti də qurtarmışdı. Gənclərin böyük dostu, gözəl şairimiz, ancaq şeir şöbəsinin müdiri kimi qəddar ad çıxarmış (əslində tələbkar) Tofiq Bayramı da qabağıma salıb, bəlkə də üzümə tutub "Sovet kəndi" qəzetinin redaksiyasına getdik. Yaxşı ki, Nəriman Zeynalov yerində idi, əks halda, Tofiq Bayramı ikinci dəfə bura gətirmək müşkülə dönərdi. Qəbul otağına girən kimi katibə soruşdu:

- Sizə kim lazımdı?

Tofiq Bayram gur, yoğun səsiylə, bu səsə uyğun bir ərk və arxayınlıqda dedi:

- Bizə heç kəs lazım deyil, biz Nəriman Zeynalova lazımıq!

Qız özünü necə itirdisə, dik qalxıb əllərinin ikisini də qapıya tərəf uzatdı:

- Buyurun... buyurun keçin, - dedi.

Nəriman Zeynalov Tofiq Bayramı qapıda görən kimi dik qalxdı. Mən Tofiq Bayramın arxasında görünmürdüm. Baş redaktor bizi çox gülərüz, mehriban qarşıladı. Daha doğrusu, bizi yox, Tofiq Bayramı. Mən bunu yazmasam, düz çıxmazdı. Çünki o boyda kişinin hörmət-izzətinə, belə səmimi qarşılanmasına şərik çıxmaq kişilikdən deyildi.

Birdən Nəriman Zeynalov məni də gördü:

- Sən niyə bu kişinin arxasında gizlənmisən? - dedi, - görmədim...

Tofiq Bayram mənim əvəzimə cavab verdi:

- Bunların hamısı arxamca gəlir, baxça uşaqları kimi... Qabaqda gedən nəhəng olanda, arxada gələnlər görünməz! - dedi.

Tofiq Bayram qaynar çayı içə-içə üzünü baş redaktora tutdu:

- Maşallah, nə böyük kabinetin var, - ətrafı nəzərdən keçirib əlavə elədi, - burda iyirmi şair otura bilər... Hə...

Nəriman Zeynalov gəlişimizin məqsədini bilən kimi üzü bir az da işıqlandı, gülümsəyib dedi:

- Vaqif Bəhmənlini yaxşı tanıyıram, ona dərs demişəm, diplom işində də rəhbəri olmuşam, çox istedadlı, çox tərbiyəli-qanacaqlı uşaqdır. Mən elə bilirdim onu rayona göndəriblər...

- Yox, Nəriman müəllim, Bakıda qaldı, - mən söhbətə müdaxilə elədim.

- Nə yaxşı Bakıda qala bilib? - Mənə baxdı.

- Məmməd Arazdan xahiş elədim, "Azərbaycan təbiəti"ndən bir tələbnamə verdi, o da qaldı Bakıda.

- O jurnalda iş yoxdu ha... yer yoxdu, - dedi.

- Elə Məmməd müəllim də demişdi ki, Seyran, tələbnamə verim, qoy qalsın Bakıda, heyifdi o uşaq, ancaq bizim jurnalda iş yoxdu...

- Vaqif özü də gəlsəydi, onu işə götürərdim, - Nəriman Zeynalov dedi.

Tofiq Bayramdan yoğun və gur bir etiraz gəldi:

- Yox də, - dedi, - qoy elə bilsin ki, sən onu bizə görə işə götürmüsən. Onda bir az məsuliyyət hiss eləyər.

- Qoy belə olsun, - Nəriman Zeynalov razılaşıb, gülümsədi.

Tofiq Bayram o saat ayağa durdu:

- Yaxşı, Nəriman, çox sağ ol, biz gedirik. Vaqif nə vaxt gəlsin? - Deyəsən, məsələni lap dəqiqləşdirmək istədi.

- Sabah saat onda burda olsun.

Tofiq Bayram Nəriman Zeynalovun kürəyinə əlini qoyub mənə baxa-baxa dedi:

- Var olsun belə kişiləri! Yaşasın!

Nəriman Zeynalovun könlü xoş oldu, biz də yerdən göyə qədər razı qaldıq. O vaxtlar yerdən göyə qədər razı qalmaq çətin məsələ idi, camaat heç yerdən dizinə qədər razı qala bilmirdi...

Kabinetdən çıxan kimi Tofiq Bayram sağ əlini sinəsinə şappıldadıb dedi:

- Gördün də lələşi?! Hörmət-izzəti...

- Gördüm, Tofiq müəllim, gördüm, Allah sizi bizə çox görməsin, - dedim.

- Bunu bildik... bəs, sonra? - Üzümə baxdı.

- "Araz" restoranı necədi?

- Yox! - dedi, - mən "Araz"lıq kişiyəm?!

- Bəs, hara?

- Ancaq "Novbahara"! - dedi.

- Fərqi yoxdur, - dedim.

- Fərqi çoxdur, - dedi, - bir azdan fərqi görəzsən...

O vaxt nə Tofiq Bayramın, nə mənim, nə də Vaqif Bəhmənlinin özünün ağlına da gəlməzdi ki, illər keçəndən sonra o, "Sovet kəndi"nin baş redaktoru olacaq. Odur ki, televiziya işçiləri demişkən, kanalı dəyişməyin...

Vaqifin ürəyinə düz dammışdı, Əzizə Əhmədova ilə görüşüm də uğurlu oldu. O, qovluğun içini vərəqləyəndən sonra dedi:

- Bir kitabımızı plannan çıxardıblar, indi komitəyə məktub yazaram, onun yerinə sənin kitabını çap eliyərik, - ala gözləri güldü, - sənin güclü, həssas qələmin var, ancaq son vaxtlar mətbuatda görünmürsən. Hə... "Çayçı Rəşid"i oxudum, çox gözəl hekayədi.

- Sağ olun, Əzizə xanım.

O, qovluğun üzünə baxıb dedi:

- Bəs, kitabın adı nə olacaq?

- İstəyirəm "Subay planetim" olsun.

- Lap yaxşı, gözəl şeirdi, Bəkir Nəbiyev qurultayda o şeiri yarım saat tərifləmişdi, yadımdadı.

Əzizə xanım stolun üstündəki qələmlərdən birini götürüb qovluğun ağappaq üzünə kitabın adını yazıb gülə-gülə:

- Mübarəkdi, - dedi.

- Sağ olun.

Mən işə gələndən yarım saat sonra telefon zəng çaldı, dəstəyi götürdüm, Vaqif idi:

- Seyran müəllim, salam.

- Salam.

- Nooldu, nəşriyyata dəydiniz?

- Dəydim...

- Nooldu?

- Yaxşı oldu... bu il çap eliyəcəklər, - dedim.

- Gördünüz, Seyran müəllim... Hərdən Vaqif Bəhmənlinin də məsləhətinə qulaq asmaq lazımdı... təbrik eliyirəm, yaxşı, sağ olun. - O, bərk sevindi. Doğrudan da məsləhəti öz bəhrəsini vermişdi və bəlkə də, ən çox ona görə sevinirdi.

...Vaqif mənim yanıma gələndə heç vaxt qabaqcadan zəng eləmir, birbaşa təşrif gətirir; tapanda görüşürük, yerimdə olmayanda Camaldan soruşur, o da deyir ki, Allah bilir hardadır, qayıdıb gedir. Hətta bəzi hallarda Camalın "Allah bilir"lə başlayan cavabı onun xoşuna gəlmirdi. Onu da fikirləşirdi ki, neyləsin Camal, onnuq burda nə iş var ki... O, demir, bu da bilmir də.

Bir gün saat on ikiyə qalmış zəng vurmuşdu ki, işin axırında gələcəm, vacib işim var.

- Çox vacibdi? - mən soruşmuşdum.

- Çox vacibdi, ciddi məsələdi.

- Yəni bir narahatlıq yoxdu ki?

- Yoox, yox, ancaq məsələ çox ciddidi.

- Yaxşı, gələrsən, görək də... - demişdim.

- Siz qətiyyən narahat olmayın ee, yaxşı məsələdi, ancaq ciddidi. Elə işdi ki, sabaha qoymaq olmaz...

Dünya proletarlarının papası və rəhbəri Vladimir İliç Leninin sözləri hardansa gəlib beynimə ilişdi:

- Bu gün tezdi, sabah gecdi!

Düzü, bir balaca narahat oldum: "Gərək deyəydim ki, telefonda ucundan-qulağından de görüm nə məsələdi?" Saata baxdım, görüm ki, onun gəlməyinə nə qədər qalıb - beş saat.

Bu beş saat həftənin başqa günlərindəki "beş saat"dan xeyli ləng və astagəl olsa da, axır ki, keçdi getdi; başqa çarə də yox idi. Zaman arxadan itələyirdi.

Vaqif həmişəki kimi otağa girmədi, bu dəfə yalnız başını içəri salıb dedi:

- Gedək?

"Azərnəşr"in Nizami Gəncəvi heykəlinin sol tərəfində yerləşən çayxanasına getdik. Məsləhət belə olmuşdu, çünki orda bizim uşaqlar nadir hallarda peyda olardılar. Vaqif demişkən, "ciddi məsələni" ancaq oranın sakit bir guşəsinə çəkilib həll eləmək olardı - ikilikdə.

Vaqifi birinci dəfə belə görürdüm, kefi yaxşı olsa da, həm də birtəhər idi - belə olmur, axı... Bu, mənə bir az təəccüblü göründü, qəribə gəldi. Belə olan halda, yəqin ki, mən ondan birbaşa mətləbə keçməyini istəyə bilməzdim, odur ki, uzaqdan başladım:

- Hə... Vaqulya, qaqulya, nə var, nə yox, işlərin necə gedir, - dedim.

- Yaxşıyam ee, - dedi, - ancaq bir məsələ var, onnan ötrü gəlmişəm, ciddi məsələdi.

Mən ona ürəyini boşaltmaq üçün meydan vermək istədim:

- Ciddi məsələ... lap yaxşı, biz də elə ciddi adamlarıq da, Vaqulya, - dedim.

- Heç bilmirəm hardan başlayım? - Üzümə baxdı.

- Başdan da başlaya bilərsən, ortadan da, lap axırdan da... Öz əlimizdə deyil? Ürəyin hardan istəyir, ordan da başla getsin.

Boğazını arıtladı, bu, onun adəti idi - üstündən də bir qurtum çay içib lap təmizlədi, fikrə getdi, axır üzümə baxmadan dedi:

- Ailə qurmaq istəyirəm...

- Nə?

- Ailə qurmaq, - üzümə baxdı.

Mən də onun üzünə baxdım:

- Bəhmənlidə elə belə deyirlər: ailə qurmaq?

- Yoox, orda ayrı cür deyillər.

- Nə təhər deyillər? - soruşdum.

- Deyillər ki, evlənmək istəyirəm.

- Sən də belə de də... belə de ki, mən də başa düşüm, görüm nə istəyirsən, - güldüm, o da mənə qoşuldu, - bəs, qızlar ailə qurmağa nə deyir?

- Ərə getmək...
- Aaay sağ ol! İndi qayıdaq söhbətimizin əvvəlinə, de görüm nə istəyirsən.
Onu tutan gülmək Vaqifi özünə gətirmişdi, dedi:
- Evlənmək istəyirəm...
- Bıy nə yaxşı, nə yaxşı, ay Vaqif, şad xəbər olasan, - deyib üzündən öpdüm.
Deyəsən, Vaqif də bir az inandı ki, onun nə demək istədiyini, mən, bax, elə indicə başa düşdüm, ancaq bu ani belə göründü, sonra da keçib getdi.
Mən deyə bilməzdim ki, evin yoxdu, nə evlənməkbazlıqdı, çünki özüm də kirayədə yaşayırdım. Vaqifin bir şeirindən iki misra yadıma düşdü:

Kirayədə yaşadığım evlərin
Darvazası balacaydı - əyildim.

Bu sətirlər Camala da, Vaqifə də, mənə də, rayondan gəlib taleyini Bakı ilə bağlayan cavanların hamısına aid idi - əyilə-əyilə yaşayırdıq, bu, bizlərin taleyi idi. Bir çoxları bu vəziyyətə dözə bilmədi, əyilə-əyilə yaşamaqdan taleləri də əyildi; bəzilərində düzəldi, bəzilərində isə paytaxtdan, kəndlərinin qəbiristanlığına qədər elə əyri qaldı...
Vaqif ürəyimi oxumuşdu:
- Neyniyək, evimiz yoxdu, ancaq arxayınam... - dedi.
- Kimə arxayınsan?
- Allaha, - dedi.
- Allaha arxayın ol, - dedim, - bu çox yaxşıdı, ancaq arada bir "Baksovet"ə də dəy... İnşallah, yaxşı olar.
Çayxanada bizdən başqa üçcə nəfər var idi, onları da tanımırdıq; belə götürəndə elə ikimiz idik.
- Vaqif, - dedim, - sən birinci dəfə evlənirsən?
- Birinci dəfədi... - təəccübləndi.
- Bəs, onda nə bilirsən ki, evlənmək ciddi məsələdi?
- Niyə bilmirəm? Ordan-burdan eşitmişəm... - dedi.
- Ordan-burdan eşitməyinən iş olar? - Bunu ürəyimdə dedim və, təbii ki, o da eşitmədi.
- Qız tapbısan?
- Hə, varımdı, - dedi.
- Yaxşı tanıyırsan?
- Beş il bir yerdə oxumuşuq, universitetdə...
- Adı nədi? - Bunun mətləbə qətiyyən dəxli olmasa da, soruşdum.
- Rəhilə, adı Rəhilədi...
Vaqifin söhbətlərindən belə çıxdı ki, o, üç-dörd gündən sonra məzuniyyətə çıxır və bu müddətdə də məsələni həll eləmək istəyir.
- Elçiliyə gedən adamların tərkibini müəyyənləşdirmisən? - Quru-quru soruşdum.
- Hə, - dedi, - babam, sən, Əli Bayramlı tərəfdə bir dayım var - o, nənəm. yəni anam, biz tərəflərdə anaya nənə də deyirlər, Almaz xanım, bir də dayım arvadı. Ancaq, Seyran müəllim, məsələ bir az başqa cürdü ee...
- Nə cür?
Onun qanının qaraldığı göz qabağında idi:
- Nənəm kənddə bir arvada deyib ki, sənin qızını alacam oğluma. Üzük-zad da alıb taxıb qızın barmağına ki, görsün barmağına yekə deyil ki... Sonra da çıxardıb aparıb ee, deyib elçi gələndə gətirəcəm.
Kirpiklərini döyəcləyə-döyəcləyə gözləri xeyli yol çəkdi, elə bil Bəhmənli tərəfə baxırdı:

- Gərək qabaqcan nənəmi başa salaq, - dedi.
- Bəs, başa salmamısan?
- Yox, - dedi.
- Niyə?
- Mən başa sala bilmərəm. Bajıma deyirmiş ki, mən ağzımdan çıxan sözün yiyəsiyəm. Bax, belədi... Kəndin də, yalan olmasın, yarısı bilir...
Xeyli fikirləşib götür-qoy eliyəndən sonra dedim:
- Heç bilmirəm hardan başlayım?
- İstəyirsiniz əvvəldən başlayın, istəyirsiniz ortadan, istəyirsiniz lap axırdan, öz əlimizdə dəyil, əsas odur ki, mənim işim düzəlsin... - dedi və gülüb getdi.
- Niyə, qız səni istəmir ki, - dedim.
- İstəyir.... - dedi, - ancaq nənəm qoymur, axı. Özünün dediyi kimi, ağzından söz çıxıb.
- Baban onu başa sala bilməz?
- Yox ee, bu iş ancaq sizdikdi, babamı eşitməyəcək.
- Yaxşı, Vaqif, de görüm o kənddəki qıznan söhbətin-zadın olub?
- Yox ee, heç görsəm, tanımaram da.
- Maa düzünü de ha! - Baş barmağımla bu neçə ildə ilk dəfə onu hədələyib düz gözünün içinə dedim.
- Seyran müəllim, siz mənim böyüyümsünüz, mən ölərəm, ancaq sizə yalan deməərəm. - Bu sözləri deyəndə Vaqif o qədər səmimi idi ki, az qalırdım ürəyimi çıxardıb verəm ona.
Günaha da batmaq istəmirdim, axı, qorxurdum. Tamadalar demişkən, "iki gəncin əbədi birləşməsi naminə" üçüncünü avaragor, gözüyaşlı qoymaq olmazdı, axı. Təbii ki, Vaqif onların ikisini də birdən alıb, ikisini də birdən xoşbəxt eləyə bilməzdi - bu, harda görünüb ki? Burda məhəbbətdən, arzu-istəkdən doğulmuş bir səhv olub - ana səhvi. Dərindən fikirləşəndə, bu səhv vaxtından xeyli əvvəl doğulmuş körpə kimi yaşaya bilməz, məhv olar... Vaxtından əvvəl dünyaya uşaq gətirəndə anaları qınamırlar - biz də, bu ananı qınamayaq. El arasında belə uşaqlara yarımçıq deyirlər. Analar yarımçıq uşaq doğduqları kimi yarımçıq səhv də eləyirlər - yarımçıq səhv... Allah günaha yazmasın.
- Seyran müəllim, siz bərk durun ee, anam tərs arvaddı, - Vaqif dedi.
- Başa düşürəm, - dedim, - tərs arvaddı... ancaq vəziyyət elə yerə gəlib çıxıb ki, gərək biz onu düzünə çevirək də... Sən bu məsələni çoxdan bilirdin?
- Yox ee, bu yaxınlarda eşitmişəm, bajım dedi. İstəyirəm ki, bu iş anamın xeyir-duası ilə olsun ee, - gözləri bulandı, - doqquz uşaq olmuşuq, ata da yox, o bizi nə zillətinən böyüdüb... kirpiyiynən od götürüb...
- Narahat olma, - dedim, - bir şey fikirləşərik.
Yarımçıq səhv eliyən bu ana əvvəlcə səhvini boynuna almalıdı, sonra da bu səhvindən imtina eləməlidi. Çünki insan boynuna almadığı şeydən necə imtina eliyə bilər ki... Əslində, məsələ o qədər də sadə deyildi. Burda iki yol var: ya Vaqif anasının biabır olmamasına görə istədiyi qızı gözüyaşlı qoyub görmədiyi qızla evlənməliydi, ya da anası, yuxarıda dediyimiz mənada biabır olmalıydı ki, bu uşaqlar bir-birinə qovuşsun - məsələ beləydi və bu işi də mən yoluna qoymalıydım.
- Yaxşı, Vaqif, de görüm bu səfərimizi necə planlaşdırmısan? Mən belə başa düşdüm ki, qız qapısına getməmişdən əvvəl oğlanın anasının qapısına getməliyəm də.
- Seyran müəllim, indi belə olub də... neynəmək olar, - ümidlə üzümə baxdı, - deyirəm Almaz xanımı da götürək gedək dayımgilə, Almaz xanım qalsın onlarda, biz çıxaq gedək Bəhmənliyə, siz nənəmnən danışın, razılaşın, sonra babamı da, nənəmi də götürüb qayıdaq dayımgilə, bir gecə orda qalaq, ordan da çıxın gedin elçiliyə...

- Birdən nənə razı olmasa, nə təhər olacaq? - dedim.

- Görsəniz ki, nənəm iki ayağını bir başmağa diriyib elə dediyini deyir... - Vaqif burda ilişdi, - özünüz bir söz tapın deyin də... Sizə yaman inanıram ee...

Vaqif boynuma qoymurdu, o, doğrudan da mənə inanırdı və mən bu inamı doğrultmalıydım - mənim də geriyə yolum yox idi - onun anası kimi. Vaqif bu dolaşıq və pırtdaşıq məsələnin həllində mənə nə boyda inanırdısa, mən də onun anasını bax, elə o boyda inandırmalıydım, yoxsa bu görüşün heç bir faydası olmayacaqdı, mən bu "döyüşdə" məğlub olacaqdım. Şişirtmirəm ee, özünüz təsəvvür eləyin də...

- Deməli, Vaqif, Bakı - Əli Bayramlı yanındakı "Talışstroy" - Böyük Bəhmənli, təzədən "Talışstroy", ordan da dünyanın ən gözəl şəhərlərindən biri olan Zərdab, düz başa düşdüm?

- Düzdü... - dedi.

- Avqustun əvvəli, Zərdab, meşələr, dağlar, buz bulaqlar... - yarıciddi tərzdə dedim bunu.

Vaqif özündə güc tapıb elə ürəkdən güldü ki, mənə də ləzzət elədi. Elə bil o, mənim də əvəzimə gülürdü - iki adamlıq. Axırda mən də ona qoşuldum, ancaq yenə öz fikrimdə qaldım:

- İlan mələməz yerlərdi ee, oralar. - Amma bunu ciddi dedim.

- Neyniyim, taleyim belə gətirib də, - təzədən uğundu.

... Biz Bəhmənliyə çatanda axşamüstü idi və düzünü deyim ki, buraların istisi az qalırdı adamın gözünü çıxarda. Zərdab bəlkə də Bəhmənlinin yanında toyagetməli idi.

Anası məni bağrına basıb o üzümdən - bu üzümdən öpdü, çox istiqanlı qarşıladı, uçmağa qanadı yox idi. Adamın Allahı var, xətrimi çox istəyirdi. Ancaq bu cür qarşılanma mənim o qədər də ürəyimcə deyildi. Çünki, mən bura demək olar ki, davaya gəlmişdim və bu cür qarşılanmadan sonra mən humanistlik göstərib ona güzəştə gedə bilərdim ki, bu da, bizim bütün planlarımızı alt-üst eliyərdi. Ona görə də bir balaca quru olmağa çalışırdım ki, bu da çətin idi.

- Yol keçirdiz, yoxsa Bakıdan birbaşa bura gəlmisiz? - Anası dedi.

- Yox, birbaşa gəlmişik, - nisbətən soyuq cavab verməyə çalışdım, nə dərəcədə alındı, orasını bilmərəm.

- Səhərdən qazan asmışdım, çolpa bişirmişəm, - dedi.

- Yox, - dedim, - sənnən işim var, sonra baxarıq.

- Elə deyirsən ki, elə bil elçi-zad gəlmisən, qabaqcadan söhbət, sonra...

- Elə heylə bir şeydi, - dedim.

Vaqif dedi:

- Mən tükana dəyib gəlləm, - aradan çıxdı.

Uşaqlar hərəsi bir tərəfdə, çöldə-bayırda idilər - kənd uşaqları evə girmirlər ha, ancaq yatandan-yatana, acandan-acana peyda olurlar.

Vaqifin anası ilə bir saatdan artıq çənə-boğaz olsam da, dediyini deyirdi, qabaqcadan gözlədiyim kimi, iki ayağını bir başmağa dirəmişdi. Bir cümləni tutuquşu kimi əzbərləmişdi: "Ağzımdan söz çıxıb".

- Diləfruz xanım, sənin ağzından söz çıxıb deyibən Vaqif gözümüzün qabağında bədbəxt olmalıdı? O, heç o qızı görməyib, axı... Özünün istədiyi var... Sən neçə ildi onlara söz vermisən? Hə?

- Altı aydı, - dedi.

- Ancaq Vaqif beş il bundan qabaq söz deyib. Beş ili dağıtmaq asandı, yoxsa altı ayı?!

- Ağzımdan söz çıxıb... - əlavəsini də elədi, - deyirsən kənddə biabır olum?

- Uşağı bədbəxt eləmə, Diləfruz, - birinci dəfə idi ki, onun adından sonra həmişə işlətdiyim "xanım" sözünü də ixtisara saldım.

- Vallah, mən bir söz deyə bilmərəm, - bu dəfə üzümə ya baxmadı, ya da baxa bilmədi.

- Nə söz deyəzsən, mən bura elçi gəlməmişəm ki?! O uşaq da yazıqdı. Deyir, anam məni nə zillətnən böyüdüb. Deyir, istəyirəm anam mənim bu işimə xeyir-dua versin. Mən də dedim ki, bəs, verməsə, nağayrazsan? Dedi ki, Seyran müəllim, sən öl, verməsə elə subay öləjəm. - Axırıncı cümləni özümdən uydurdum.

Diləfruz xanım əlləri ilə gözünü örtüb hönkürdü, başını çiynimə söykədi, tir-tir əsirdi, pis olmuşdum, bilmirdim ki, bu vəziyyətdə nə qədər qalacağıq. Arada otağın qapısı açıldı, tez də örtüldü, bəlkə də Vaqif idi.

Göz yaşını silə-silə məndən bir-iki metr aralanıb xeyli üzümə tamaşa elədi, mən onun belə baxdığını heç vaxt görməmişdim. Bəlkə də bu, ondan irəli gəlirdi ki, heç vaxt belə vəziyyətə düşməmişdi, axı. O, iki addım mənə tərəf gəlib dayandı, üzümü əllərinin arasına aldı, alnımdan öpəndən sonra zorla gülümsəyib:

- Onun yiyəsi sənsən, - dedi, - nə təhər istəyirsən, qoy heylə olsun... - dedi, - Allah ikinizin də kürəyində dursun, özbaşına iş görəndə axırı belə olar... Mən birtəhər yola verərəm...

- Hər şey yaxşı olacaq, görəzsən, - dedim, - çox yaxşı olacaq.

Vaqif Bakıdakı söhbətimizdə mənə necə inanırdısa, Diləfruz xanım da Bəhmənlidə elə inanıb bir az rahatlaşandan sonra dedi:

- Yaxşı, indi çörək yeyəzsiniz?

- İndi yeyərəm, - dedim, - bostanda yemişiniz var?

- Hər şeyimiz var, - deyib üzünün bütün nurunu tökdü ortalığa.

Gecəni Bəhmənlidə qaldıq. Səhər Vaqifin dayısıgilə yollandıq. Onun dayısı Akif "Talışstroy" deyilən böyük trestin müdiri idi. Gülərüz, sadə, aralıdan baxanda içi görünən, orta yaşlı, şəffaf bir kişi idi. Məsləhət oldu ki, orda gecələyək və səhər tezdən Vaqifin təklif elədiyi tərkibdə Zərdaba yola düşək. Babası Həsənqulu oğlu Qəbil nümayəndə heyətinin fəxri başçısı hesab olunsa da, icraçı direktor statusunda mən idim. Zərdabın mərkəzinə çatandan sonra soraqlaya-soraqlaya rayon mərkəzindən uzaq olmayan, böyründən böyük bir kanal keçən Salahlı kəndinə, ordan da gələcək gəlinimizin doğulduğu evin həyətinə yetişdik. Bizi təmtəraqsız-filansız qarşıladılar, deyəsən, belə komanda verilmişdi - başqa nə fikirləşməliydim ki?.. Qızın atası yanağından qan daman, qıpqırmızı və şaqqalı bir kişiydi. Qadınlar və kişilər başqa-başqa otaqlarda oturmuşduq. Qızın atasına nə deyirdiksə "vallah, mənlik bir iş yoxdur, onu nənəsi saxlayıb, nənəsi bilər" deyirdi. Deyəsən, Bəhmənlidə yağışdan çıxıb Salahlıda yağmura düşmüşdüm.

Dedim:

- Ay qardaş, kişi kişiynən söhbət eliyər də...

- Vallah, buraların ağbirçəyi də, ağsaqqalı da odu, nənəsi... - dedi.

- Nə bilim, biz tərəflərdə, - dedim, - ağbirçək arvaddan olur, ağsaqqal kişidən.

- Bilmirəm, burda belədi, - dedi.

Uzun çənə-boğazdan sonra qadınların otağından, buraların həm ağbirçəyi, həm də ağsaqqalından qətiyyən ürəyimizcə olmayan bir xəbər gəldi:

- Gedin, bir aydan sonra gəlin.

Mən cin atına minmişdim, düşürdən yox idi. Ancaq qız qapısının şah qapısı olduğunu da çox eşitmişdim. Bütün bunlara baxmayaraq, qızın atasına dedim:

- Ağsaqqalla görüşə bilərəm?

O, gözlərini döyə-döyə təəccübləndi:

- Kiminən?

- Ağsaqqalınan də... qızın nənəsiynən.

- Hə... başa düşdüm, - deyib otaqdan çıxdı.

Qızın nənəsi şəxsiyyətli, xanım-xatın, özünə arxayın, əsli-kökü Qarabağdan olan dolu bir qadın idi. Eyvanda ikimiz söhbət eliyirdik, mən onu nə qədər dilə tutsam da, tükü də tərpənmədi.

- Vaqif məşhur şairdi, mən də yazıçıyam, - dedim, - bizi get-gələ salmayın, onlar bir-birini...

Sözümü balınan yox, bıçağınan, özü də dərhal kəsdi:

- Mən şair-zad... Lap Həsən bəy Zərdabi də gəlsə, xeyri yoxdu. Gedin bir aydan sonra gələrsiniz! - Məni eyvanda tək qoyub getdi qadınların yanına.

Əlim ağzımda qalmışdı. "Bunlar nə təhər şeydi, əə, belə? Deyəsən, məzənnə qaldırıllar..." Ən çox da qızın atasından acığım gəldi, zalım oğlunun ağzında dili yox idi, elə bil suluğ udub. Əgər bunlarda hər şeyi arvadlar həll eliyirsə, onda Vaqifin günü qara olacaq - iki daşın arasında bunu da fikirləşdim.

Suyu süzülə-süzülə maşınlara minib geri qayıtdıq - necə qarşılamışdılarsa, elə də yola saldılar. Hamımız ağzımıza su almışdıq, pərtlik qırmızı palçıq kimi sifətimizə yaxılıb bizi tanınmaz eləmişdi.

Əgər Vaqif gələcək qohumları barədə ucundan-qulağından bir söz deməydi, balabanda qandırsaydı, bizə o qədər yer eləməzdi. Həsənqulu oğlu Qəbil, dörd yüzdən artıq işçisi olan dayısı Akif, elə mən özüm, biznən gələn qadınlar, üstümüzdə də Vaqif Bəhmənlinin adı - daha bunlara nə lazım idi ki?.. Çox gərgin olsam da qəfil bir atalar sözü qanımın arasına girdi: "Oğlan evi alınca, qız evi ölüncə..." Eybi yoxdu, sağlıq olsun.

Düz bir ayın tamamında, nümayəndə heyətinin tərkibində heç bir dəyişiklik olmadan qız qapısına gəldik. Hər şey birinci dəfə olduğu kimi təkrar olunurdu. Yavaş-yavaş artan bu gərginliyin tən ortasında o da yadıma düşdü ki, keçən dəfə bizə Allahın bir stəkan suyunu da vermədilər, dilimiz ağzımızda yanırdı, boğazımız qurumuşdu - yezid uşağı yezid. Qız atasının qırımından belə başa düşdüm ki, deyəsən, bunlar bizi üçüncü dəfə bu qapıya gətirmək istəyirlər. Bir siqaret yandırıb dibinə qədər sümürəndən sonra otaqdan çıxdım, qadınların otağından halal-hümbət həyat yoldaşım Almaz xanımı çağırdım eyvana, bir kənara çəkildik, dedim:

- Almaz, girirsən içəri, deyirsən ki, kişilər razıdı, Allah xeyir versin, üzüyü taxırsan qızın barmağına, o aldığın yaylığı da bağlayırsan başına. Sonra gəlirsən kişilərin otağına, deyirsən ki, qadınlar razıdı, Allah xeyir versin. O konfet qutusunu da stolun üstünə qoyub çıxırsan. Bildin?

- Bildim.

- Di, tez ol. Yoxsa mən bir də bu qapıya ayaq basan deyiləm, tez ol.

Üç-dörd dəqiqə keçməmiş Almaz xanım əlindəki konfet qutusu ilə içəri girib əli ilə bağladığı qırmızı lenti gülə-gülə açıb dedi:

- Qadınlar razıdı, Allah xeyir versin! Allah xeyir versin! - Otaqdan çıxdı.

Əməliyyat baş tutmuşdu. Qızın nənəsi çınqırını da çıxartmamışdı, risk böyük idi. Lap sonralar, qızın nənəsi Səfurə xanım bu əməliyyatdan hali olandan sonra mənim haqqımda deyirmiş ki, elə birinci dəfə görəndə gözüm ondan su içmirdi...

...Təzə "İnturist"in sol qanadındakı yüz əlli nəfərlik zalda Vaqif Bəhmənlinin toyu idi. Adət-ənənələrimizin əleyhinə olaraq toyda pul yığmaq yuxarıdan qadağan edilmişdi. Ancaq aşağı bildiyin eliyirdi, yuxarı baş ağrıdırdı. Toya dəftər qoymamışdıq, ancaq yetirən mənə yaxınlaşır, pulu cibimə dürtüb sakitcə içəri girirdi. Ciblərim bir cüt balaca saman çuvalı kimi yavaş-yavaş şişirdi. Mən qapının ağzında dayanmışdım. Qonaqlar mənə yaxınlaşıb xeyir-dua verir, cibimdə qeydiyyatdan keçirdilər. Bu, qətiyyən xoşuma gəlmirdi. Azərbaycanımızın böyük şairi Xəlil Rza mənim xahişimlə toya tamadalıq

eliyirdi. Mən "icraçı direktor" statusunu hələ özümdə saxlamışdım. Ancaq məmnunluqla onu da hiss eləyirdim ki, bildirçinin bəyliyi darı sovulana qədər olduğu kimi, mənim də icraçı direktor statusumun ömrü toy sovulana qədərdi. Əslində bu toyda pul yığmaq mənim işim deyildi, heç xoşuma da gəlmirdi, yaraşmazdı da - ancaq vəziyyət yaraşdıranda adama hər şey yaraşır...

Axır ki, Bakı - "Talışstroy" - Bəhmənli - Zərdab - Bakı marşrutu ilkin təyinatı baxımından sona yetdi, nəqliyyatçıların dili ilə desək, biz bu xətdən çıxdıq.

O vaxtdan qırx ilə yaxın müddət keçsə də, bir dəfə də Zərdaba ayağım düşməyib...

* * *

İlin-günün o vaxtıydı ki, Vaqif Bəhmənli Elçin Əfəndiyevin təsis etdiyi "Vətən" cəmiyyətində "Odlar yurdu" qəzetinin baş redaktoru işləyirdi. Buna qədər o, "Sovet kəndi" qəzetində on il şöbə müdiri, "Kommunist" qəzetində də şöbə müdiri olmuşdu. Mənim işlədiyim "Ulduz" jurnalının redaksiyası "Baksovet" metrosu ilə üzbəüz qədim binada yerləşirdi. Vaqifin iş yeri ilə bizim aramız heç yüz əlli metr də olmazdı.

Həmişə o, mənim yanıma gəlirdi, işlədiyi yerlərdə bir dəfə də onun qapısını açmamışdım. Saat üçə beş-on dəqiqə işləmişdi. Elə bir işim də yox idi. Qalxıb qədim stildə olan liftlə aşağı düşdüm, sağa burulub Vaqifin iş yerinə qalxdım. Kabinetini tapıb qapısını döydüm.

- Gəlin, - dedi.

Mən də qapının ağzında bir an ayaq saxlayan kimi yerindən dik qalxdı, əlini əlinə vurub gülə-gülə dedi:

- Tay mənim sözüm yoxdu! Bax, elə indicə durub sizin yanınıza gəlmək istəyirdim... ürəyə bax, ee!

Mənə mürəbbəli çay verdi, evdən gətirmişdi, canına baxan idi.

- Gedək bulvara? - dedim, - Hava da yaxşıdı.

- Gedərik ee, ancaq siznən işim var.

- Eşidirəm, - dedim.

- Seyran müəllim, qısa deyəcəm. Məsələ belədi, "Sovet kəndi" qəzetində baş redaktor yeri boşdu. Siz Sabir Rüstəmxanlıya desəniz, o da Müzamil Abdullayevə desə, məni ora baş redaktor qoyallar. Sabir müəllim sizin sözünüzdən çıxmaz.

- Bəs, Müzamil necə, Sabirin sözündən çıxar, çıxmaz?

- Çıxmaz... - dedi.

- Nə bilirsən?

- Dəqiq bilirəm.

Vaqifə həmişə inanmışam. Saatıma baxıb qalxdım:

- Onda mən getdim.

- Hara?

- Sabirin yanına... gözlə gəlirəm.

O vaxt Sabir Rüstəmxanlı nazir işləyirdi, deputat, sözükeçən adam idi. Müzamil Abdullayev də kənd təsərrüfatı naziri idi, "Sovet kəndi" qəzeti də bu nazirliyin orqanı idi.

Piyada getdim, yaxın idi. On-on iki dəqiqədən sonra Sabir Rüstəmxanlının qəbul otağında, onun katibəsinin hüzurunda idim.

- Hara? - Katibə təəccüblə soruşdu, yəni salamsız-kəlamsız, bir söz demədən... bu nədi belə?

- Ora, - dedim, - Sabirin kabinetinin qapısını göstərdim.

- Ora olmaz! - katibə hikkə ilə dedi.

- Axı, mənə deyiblər ki, olar, özü də həmişə olar.

- Kim deyib?

- Sabir, - dedim və içəri keçdim.

Xoş-beş, on beşdən sonra Sabir dedi:

- Nə yaxşı gəlmisən, ay Seyran, sənnən çıxmayan iş... Mən nazir olannan birinci dəfədi də... - üzümə baxdı.

- Sənə işim düşüb, ona görə gəlmişəm, yoxsa...

- Bilirəm, bilirəm, - o, sözümü kəsdi, - işin düşməsə gəlməzsən, - güldü, - əgər mənnən asılıdırsa, gözüm üstə.

- Yalnız sənnən asılıdı! - dedim.

- Onda hesab elə ki, işin düzəlib.

Vaqif mənə necə demişdisə, mən də Sabirə elə dedim. Bircə əlavə elədim ki, elə bil mənim üçün eləyirsən.

O, hökumət telefonunun dəstəyini qaldırdı, bir an dayanıb üzümə baxdı, - bəlkə, elə sənin üçün eliyim bu məsələni, hökumət telefonu, xidməti maşın, qırx nəfərdən artıq işçi, katibə... biz də kömək eliyərik gedib işləyərsən də... - gözünü gözümə zilləyib cavab gözləyirdi.

- Yox, - dedim, - Sabir, çox sağ ol. Mənim üçün qəzet buraxmaq gecdi, hövsələm yoxdu.

Sabir Rüstəmxanlı hökumət telefonu ilə Müzamil Abdullayevə zəng vurdu, hal-əhval tutandan sonra mətləbə keçdi, arada bircə dəfə onu dedi ki, hə, yaxşı tanıyıram və sağollaşdılar.

Telefonun dəstəyini üstünə qoyub dedi:

- Vaqifə deynən, sabah saat on birdə olsun Müzamilin kabinetində; dedi ki, gəlsin, nazir müavinini qoşum ona, aparsın, qəzetin kollektivinə təqdim eləsin. Həll olundu.

Mən qalxıb Sabir Rüstəmxanlını öpdüm və oturmadım:

- Gedirəm, - dedim.

- Hara? Bax, sən beləsən ee, iş düzələn kimi aradan çıxırsan, cavanlıqda da beləydin də...

- Vaqifin yanına... - dedim, - qoy sevinsin... Çox sağ ol, Sabir, böyük iş gördün.

Gülə-gülə dedi:

- Özünə ağlın getməsin, həmişə qulluğunda hazıram.

Sabirin yanından çıxıb uçurdum. Məni uçurdan qanadlarım deyildi, içimdəki şad xəbər idi. Deyəsən, mən şad xəbəri aparmırdım, şad xəbər məni aparırdı; bu mənim sürətim deyil, içimdəki xəbərin sürəti idi. Bu ovqatda şad xəbərdən savayı başqa bir mətləb də vardı; növbəti dəfə özünü Vaqif Bəhmənliyə göstərmək istəyi, "gördün də bu sarı ləleşi?.. Beş dəqiqənin içində səni baş redaktor elədim" nə gizlədim, bu da vardı...

Vaqifin kabinetinə yaxınlaşanda qapısı açıq idi. Elə qəfil ağlıma gəldi, qaş-qabağımı sallayıb içəri girdim. Stulda əyləşib başımı buladım, baxışlarım onun cavab gözləyən gözləri ilə toqquşan kimi dedim:

- Sabir dedi ki, dünən gəlsəydin, düzələrdi... - Vaqifin sifətinə nazik bir kədər çökdü, - başqa adam gedir ora...

"Dünən gəlsəydin..." Vaqif bilirdi ki, Rəsul Rza demişkən, dünən yüz il sonradan daha uzaqdı və heç zaman dünən olmayacaq.

- Dünən sizin yanınıza gəlmək istəyirdim ee, mənim başım batsın, - əlini yüngülvari başına şappıldatdı, başını buladı, gözlərini döyəndə ona dedim:

- Gələydin də...

- Mən adamam ki?.. - Hirsindən adamlığını da şübhə altına qoydu, üzündəki nazik kədər pərdəsi bir az da qalınlaşıb ikiqat oldu.

- Yaxşı, mən gedim, - deyib durdum.

- Məni də apar... Gözləri bir cüt körpə gözü kimi yalvardı.

- Apara bilmərəm... - Mən ilk dəfə ondan imtina eliyirdim.
- Yaman istəyirəm ee, bir yerdə olaq, - dedi.
- Sən bilirsən mən hara gedirəm?
- Yox...
İkimiz olsaq da mən ətrafa baxıb astadan dedim:
- Mən... elə yerə gedirəm ki, səni ora apara bilmərəm, bildin?
- Bildim ee... ancaq onu sabaha saxlamaq olmaz?
- Yox.
- Niyə ki? - O, əl çəkmirdi.
- Ona görə ki, sabaha saxlayanda bax, belə olur, adama deyillər ki, dünən gəlsəydin...
- Düzdü, - deyib fikirli-fikirli başını buladı və mənimlə getmək sevdasından əl çəkdi.
Mən qapıdan çıxanda ayaq saxlayıb ona dedim:
- Hə... yadımdan çıxmamış, bir söz də deyim sənə, sabah saat on birdə olursan Müzamil Abdullayevin kabinetində... səni... baş redaktor təyin eliyəcəklər "Sovet kəndi"nə.
Burdan beləsini yazıb eliyən deyiləm, zəhmət çəkin, özünüz təsəvvürünüzə gətirin. Sizə kömək məqsədi ilə bircə onu deyə bilərəm ki... yox, heç onu da demirəm, özünüz... Ərköyün oxucunun axırı çox pis olur; axırda ya şair olur, ya da yazıçı...
Ağlıma gəlməzdi ki, Vaqif Bəhmənli baş redaktor olandan iki gün sonra ərizə yazıb işdən çıxacam...
Yusif Səmədoğlu "Ulduz" jurnalının baş redaktorluğundan çıxmışdı, onu böyütmüşdülər. İndi onun yerinə gözəl şairimiz Ələkbər Salahzadə işləyirdi. Maaş almağa getdim, gördüm pulumu kəsiblər. Dedilər ki, bir gün işə gəlmədiyinə görə Ələkbər Salahzadənin yazdığı təqdimata əsasən belə olub. Uzun illər Yusif Səmədoğlu kimi rahat, azad adamla işləyənin Ələkbər Salahzadə ilə çalışması, yəqin ki, Allahın da, elə mənim özümün də xoşuma gəlməzdi. Ərizəmi katibəyə verib birdəfəlik getdim. Orasını da deyim ki, Ələkbər Salahzadə çox orijinal bir şairdir. Onun təkcə Səttar Bəhlulzadəyə həsr elədiyi "Əncir ağacı" şeiri bəsdir ki, o, poeziyamızın tarixində qalsın. Ancaq baş redaktorluqla şairlik başqa-başqa şeylərdi, axı...
Vaqif baş redaktor olandan on gün, mən işdən çıxandan üç gün sonra mənə zəng elədi:
- Seyran müəllim, - dedi, - şoferi göndərirəm sizə, zəhmət olmasa gəlin bura, sizinən işim var.
Getdim. Böyük kabinet, katibə... elə bildim buralar hamısı mənimdi - Vaqifi belə görmək mənə ləzzət və rahatlıq verirdi.
Çay içə-içə dedim:
- Hə... buralar xoşuna gəlir?
- Yaxşıdı... əladı, ancaq...
- Nə ancaq? - onun üzünə baxdım.
- Məsələ belədi də, Seyran müəllim, istəyirəm burda qəşəng bir otaq düzəldəm, pərdə-zad - hər şey... Gəlib burda işləyəsiniz - mənnən, - dedi.
- Məən? - Əlimi sinəmə toxundurdum...
- Hə...
- Sən nə danışırsan, ay Vaqif, "Sovet kəndi" hara, mən hara? Bu fikir sənin ağlına hardan gəlib? - düzü mən çox təəccübləndim, - elə buna görə çağırmısan məni?
O, çarəsiz adam kimi üzümə baxıb dedi:
- Siz inciməyin ee, başqa əlacım yoxdu, ona görə əziyyət verdim...
- Bura bax, - dedim, - bir əməlli-başlı de görüm, axı, noolub, nə problem var?

Ehtiyac olmasa da, o, boğazını artlayıb dedi:

- Seyran müəllim, işləməyə imkan vermillər?

- Kim vermir, axı?..

- Burda, bir-iki qoca qurd var, onlar, - dedi.

- Yaxşı, mən gəlib burda neyniyəcəm, axı?

- Siz gəlsəniz, onlar özlərini yığışdırallar, mən də rahat işləyərəm... çəkinərlər sizdən, - üzümə baxdı, - eşşəyə minmək bir ayıb, düşmək də bir ayıb.

- Bir dayan görüm ee, hara düşürsən? Sənnən ötrü ağız açmışıq, saqqal tərpətmişik ki, düşəsən?.. Dəqiq bilirsən ki, mən gəlsəm...

- Hə. Dəqiq bilirəm... O qoca qurdlardan ikisi söhbət eliyəndə bizim uşaqlardan biri təsadüfən eşidib.

- Nə eşidib?

- Biri o birisinə deyirmiş ki, bilirsən bu kimin adamıdı, Seyran Səxavətin... Onun da dalında Mirzə İbrahimov kimi dağ var, çox dərinə gedərik, aşırdallar bizi...

- Lap yaxşı də, - dedim, - başını aşağı sal, işini gör.

- Yox ee, yenə bildiklərini eliyillər, abırsız adamlardı, ancaq siz gəlsəniz...

Xeyli fikirləşib götür-qoy elədim. Zəhmətimə də, Vaqifə də heyfim gəlirdi - əməlli-başlı karıxmış gördüm onu. Bu redaksiyada işləyən qırxdan çox adamın birinin də ağlına gəlməzdi ki, mən gəlib burda işləyərəm - elə mənim özümün də, lap məni tanıyanların da. Belə bir şey olsaydı, hamı bunu təəccüblə qarşılayıb eşitdiklərinə inanmayacaqdılar. Ancaq Vaqifi də sınmağa qoymaq olmazdı; bunu da fikirləşirdim. Özü də, bir var özün özünü sındırasan, bir də var ki, düdük-müdük. Mən belə şeyə yol verə bilməzdim, buna haqqım da çatmırdı. Əgər bu işə qarışmasaydım, özümü bağışlamazdım. Bir də, axı, onlar kimdi ki, buralarda at oynadırlar? Bu, həm də mənim üçün bir şərəf məsələsi idi; onların Vaqifin üstünə gəlməyini mənim üstümə yerimək kimi qəbul eləyib dedim:

- Yaxşı, sən deyən olsun...

- Allah kürəyində dursun, Seyran müəllim, bilirdim ki, dar ayaqda məni tək qoymazsınız... - kövrəldi, mənim cavabım onun üzünün işığını yandırdı - evinizdə işığı nə təhər yandırırsınız - bax, heylə. Bu işığı söndürməyə heç kəsin haqqı yox idi - mən belə hesab eləyirdim.

İki aya yaxın idi ki, işləyirdim. Vaqif mənim üçün hər cür şərait yaratmışdı. Qəzetin hər şənbə nömrəsində "Kasıb" adlı səhifə buraxırdım, elə bil ki, qəzet içində qəzet. Bu yumoristik səhifənin bütün materiallarını özüm yazırdım. "Kasıb" elə ilk nömrəsindən populyar oldu, hörmət qazandı. Qəzetin rəssamı Bulud da mənim sifarişimlə karikaturalar çəkirdi. Qəzetin oxucularının artdığını redaksiyanın işçiləri də bilirdi - özləri də maraqla oxuyub sağ ol deyirdilər. Bu səhifənin ən fəal oxucusu isə böyük Məmməd Araz idi. Onun redaktor olduğu "Azərbaycan təbiəti" jurnalı məkan baxımından "Sovet kəndi" ilə qonşu idi. Hər beşinci gün mənim otağıma gəlib deyirdi:

- Seyran, səhifə hazırdısa, ver bəri başdan oxuyum.

Məmməd Arazın bu səhifəyə yüksək qiymət verməsi, belə maraq göstərməsi mənə ləzzət verirdi - o boyda kişi...

Vaqifin dediyi qoca qurdlar da otağıma qoşa gəlib "Kasıb"ı çox bəyəndiklərini deyir, qoşa da çıxıb gedirdilər. Hərdən hamının içində onların yazılarına irad da tuturdum - yazılarının dililə, mən onların dilindən tuturdum, onlar da razılaşırdılar - "Sovet kəndi" qəzetində dil nə gəzirdi ki? Bir-iki həftənin içində onların gözünün odunu almışdım. Vaqifin proqnozu düz çıxmışdı, əməlli-başlı çəkinirdilər.

“Kasıb”a gələn oxucu məktublarının sayı "Sovet kəndi"nə gələnlərdən çox idi. Mən bu səhifəni respublika "Kasıblar cəmiyyətinin" orqanı kimi oxuculara

təqdim eləyirdim. Reallıqda olmayan bu cəmiyyətin sədri isə Həsir Məmməd-nəsirov idi, tirajı yeddi milyon, ünvanı Azıx mağarası, baş sağlıqları, hava haq-qında məlumat, idman xəbərləri və sair - əsl normal qəzet kimi. Bu səhifədə "Kasıblar cəmiyyəti" sədrinin yumoristik sərəncamları da hər nömrədə çap olu-nurdu. Bir dəfə belə bir başsağlığı vermişdim: "Respublika Kasıblar cəmiyyəti Azərbaycan Ali Sovetinə, işləməyən qanunların vaxtsız vəfatı münasibəti ilə dərin hüznlə başsağlığı verir. Dəfn mərasimi Dövlət Arxivində olacaq". Ən gülməlisi isə bu olmuşdu: "Kasıb" qəzetində belə bir elan getmişdi: "Respublika Kasıblar cəmiyyəti" böyük şairimiz Mirzə Ələkbər Sabirin sabun bişirdiyi tiyanı axtarır. Kim onu tapıb redaksiyamıza təhvil versə, beş nəfərlik ailənin bir illik dolanışığı həcmində pul mükafatı alacaq". Vaqif Bəhmənli Allah şahididi, o vaxt, təxminən iyirmi günün içində redaksiyaya beş-altı köhnə tiyan gətirmişdilər. Məmməd Araz bu tiyanları görəndə o qədər gülmüşdü ki...

Mən iş otağında, Vaqifin söz verdiyi və elədiyi kimi tək otururdum. Səliqə-sahman öz yerində, lap gəlin otağına oxşayırdı. Dəstəyi qaldırıb zəng eləmək istəyəndə gördüm ki, telefon işləmir. Qalxıb Vaqifin kabinetinə getdim:

- Vaqif, - dedim, - telefonum işləmir, tapşır məşğul olsunlar.

- Belə şeylərə müavin baxır, - dedi, - təsərrüfat işlərinə...

Mən qulaqlarıma inanmadım. Ancaq o, belə demişdi, axı. Pərtliyimi büruzə vermədən:

- Yaxşı, - deyib kabinetdən çıxdım.

Suyu süzülə-süzülə otağıma gəldim. Bıçaq vuran olsaydı, qanım çıxmazdı. Aramızdan su keçməyən bu iyirmi il müddətində onu heç zaman belə quru görməmişdim - elə bil quru ağac idi. Və fikirləşəndə ki, bu qurumuş ağac mənim üçün bir də heç vaxt tumurcuqlamayacaq, tüklərim biz-biz olur, əl-ayağım yerdən üzülürdü. "Belə şeylərə müavin baxır, təsərrüfat işlərinə..." Nə qədər götür-qoy eləsəm də, bu sözləri ona yaraşdıra bilmirdim. Bir anlıq olsa da, özümü atılmış adam kimi hiss elədim və bu, mənə çox ağır gəldi. İçəri girən olsaydı, elə bilərdi ki, mən uzun müddət dağıntılar altında qalmış, təzəcə xilas olmuşun biriyəm. Durub arxadan qapını bağladım, xeyli var-gəl elədim. Bu otaq işləmək üçün gözəl idi, var-gəl eləməyə yaramırdı. Pəncərənin qabağında dayanıb Avakyan küçəsi ilə (indiki Mətbuat prospekti o zaman belə adlanırdı) sağa-sola şütüyən maşınlara tamaşa eləməyə başladım. Bu da məni tez yordu. Bezib yerimdə oturdum və qələm-kağız götürüb işdən çıxmaq haqqında ərizə yazdım, səhhətimlə əlaqədar: qoy qoca qurdlar və yetişməkdə olan gənc qurdlar başqa şey başa düşməsinlər, bunu özümə sığışdırmazdım, yaraşdırmazdım.

Otaqda mənə aid heç bir əşya yox idi. İynəmi yaxama taxıb çıxdım - dərzi kimi. İki qatladığım ərizəni katibənin stolunun üstünə qoyub dedim:

- Bunu yarım saatdan sonra verərsən Vaqif müəllimə.

İstiqanlı, qarayanız, balaca arıq qız üzümə baxıb dedi:

- Seyran müəllim, noolub... özünüzü pis hiss eliyirsiniz? - Narahat oldu, - rənginiz...

- Hə, çox pis... Mən evə getdim, - zorla gülümsəyib otaqdan da, işdən də çıxdım.

Birdən-birə belə böyük vəzifə, əlinin altında qırx nəfər işçi, sənə verilən salamların dəyişmiş təyinatı, dövlət telefonu, xidmət maşını, uzaq ətrafın sənə yüz həştad dərəcə dəyişən münasibəti, buyur-buyur, Vaqif müəllim, sən Allah, keçin yuxarı, yaxın-uzaq ətrafın xahişə gəlməsi, avtomobilin arxa oturacağında sağ tərəfdəki yeri, sürücünün ona göstərdiyi yaltaqlıq səviyyəsindəki qayğısı... və sair, və ilaxır... -Dözə bilmədi də, neyləsin? Eyforiya, Vaqifi özünün də, mənim də əlimdən almışdı - bəlkə də tezliklə qaytardı Vaqifi - Vaqifin özünə də, mənə də. Bəlkə də heç qaytarmadı.

Eyforiyaya düşmək çox asan, çıxmaq çox çətindi; buna bəlkə də illər lazımdı - o baxır adamına, hadisələrin gələcək inkişafına. Qarabağda eyforiyaya düşüb cızığından çıxanlara belə deyirlər:

- Höyüllənmə, a bala!

Qaqaşım höyüllənmişdi...

Allah kürəyində dursun, Vaqif, Vaqulya!

Yuxarıda dediklərimdə heç bir istehza-filan yoxdu, əksinə, öz aləmimdə Vaqifə bəraət qazandırmaq istəyirəm. İndiki halda bu bəraət Vaqifdən çox mənim özümə lazım idi ki, sakitləşəm. Belə vəziyyətdə adam gərək bacardıqca müdrik yanaşa, Vaqifi təmizə çıxardıb hər şeyi şeytanın boynuna yıxa bilə - indiki halda, qarabağlılar demişkən, cırtqozluq keçmir.

Bu, tanışlıq, dostluq, qardaşlıq və mərhəmliyimizin iyirmi illik coğrafiyasında ikinci hadisə idi. Belə baxanda o qədər də çox deyildi, ancaq olmasa, daha yaxşı deyilmi?..

Bir neçə il əvvəl Vaqif Bəhmənli "Kommunist" qəzetində şöbə müdiri işləyəndə, ordan-burdan qulağıma çatmışdı ki, muğam və xalq mahnısı ifaçılığı ilə bağlı böyük bir məqalə hazırlayırlar. Vaqifə zəng elədim:

- Eşitmişəm sizdə belə bir məqalə gedəcək? - soruşdum.

- Hə, - dedi, - özüm hazırlayıram.

- O yazıda İslam Rzayevlə bağlı bir şey var?

- Yox, - dedi.

- Bəs, niyə, - dedim, - İslam Rzayev olmasa, o yazı çox yarımçıq görünər, axı, onu mütləq salarsan ora.

- Yaxşı, - dedi, - baxım görüm, neynirəm...

Vaqif Bəhmənli bir az minnət də qoydu, baxmayaraq ki, nə böyük sənətkarımız İslam Rzayev, nə də mən bu minnətə layiq deyildik. İslam nəhəng xanəndə idi, mən də ərk sahibi olmaqla, həm də haqqı deyirdim.

Bir həftədən sonra məqalə "Kommunist" qəzetində çap olundu. Mən də tapıb oxudum; elə bil ki, ümumiyyətlə, Azərbaycanda İslam Rzayev adlı xanəndə yoxdu. Ən azı onu nəzərə almalıydılar ki, son otuz beş-qırx ildə bütün dövlət konsertlərinin ağırlığı İslam Rzayevin çiynində olub. Xarici ölkələrdə yüz əllidən artıq qastrol səfərində milli musiqimizi təbliğ etməsi də nəzərə alınmamışdı.

Cin atına mindim, burda müdrik yanaşma - filan, belə şeylər yadımdan çıxmışdı. Telefonu götürdüm, gözümü yumub - ağzımı açdım, dişimin dibindən çıxanların hamısını dedim ona. Elə bil telefonun o başındakı suluğ udmuşdu. Ağzını açıb bircə kəlmə də demədi. İndi dəqiq xatırlamıram, deyəsən, lap axırda da dedim ki, sən xəstəsən!

Bu, mənim tərəfimdən Vaqif Bəhmənli barədə ağır diaqnoz olsa da, indiki halda çox sərrast və dəqiq idi. Heç kəs məni bu fikrimdən döndərə bilməz.

Bu söhbətdən sonra, nə az, nə çox, düz iki il onu danışdırmadım. Harada görürdümsə, üzümü çevirirdim və, deyəsən, mən ondan üz döndərmişdim. Onu görəndə elə bil qutuda ilan görürdüm; insan nə qədər karsız ola bilərmiş?! Kişi xeylağında bir təpər olar də! O, böyük, erkək tut ağacına oxşayırdı - barsız. Adamı da nə qədər calaq eləmək olar, axı - belə çıxır ki, bu calaqların biri də tutmayıb? O vaxt belə fikirləşirdim; çünki o, yumru, taykeş pensne eynək kimi gözümdən düşmüşdü... itmişdi...

Məndə də bir xasiyyət var idi. Həmişə onun-bunun üstündə başqaları ilə üz-göz olurdum. Nadir hallarda özümə görə kimnənsə küsüb incimişəm - cəmisi üç-dörd dəfə olub. Mən də belə idim də, özümlə bacara bilmirdim. Elə bu gün, 2015-ci ilin yanvar ayının yeddisində, altmış doqquz yaşımda da, bu xasiyyətimi tərgitməmişəm.

Vaqifin mənə qarşı iki dəfə göstərdiyi biganəlik məni çox yandırmışdı. O vaxtdan illər keçib, yadıma düşəndə o yanıq yeri indi də göynəyir. Axı, mən bu

münasibətə layiq olmamışam... Bunu bir olan Allah da bilir və bəndə Allahın bildiyindən ani də olsa, üz döndərəndə hər şey baş-ayaq olur.

Üzürlü səbəb də yağlı əppək olub göyə çəkilmişdi. Orasını da deyim ki, əgər günlərin birində bu məsələ ilə bağlı üzürlü səbəb tapılarsa, qırx iki il keçməsinə baxmayaraq, mən sevinərdim. Ancaq o üzürlü səbəb təxminən belə olmalı idi: "Vaqif Bəhmənli Stalinin ölümündən vaxtında xəbər tutmamışdı. Səbəb də o idi ki, Stalin 1953-cü ildə ölmüşdü, Vaqif isə 1955-ci ildə dünyaya gəlmişdi - bax, buna deyərəm üzürlü səbəb".

Bu cür görünməz yaraları sağaltmaq üçün ən güclü məlhəm Vaxtdı və onu dünyanın ən nəhəng apteklər şəbəkəsində də tapa bilməzsən. Vaxt apteklərdə satılmaz. Bu məlhəmi Allahın blankında yazılmış reseptlə göylərdən tapmaq mümkündür. Yuxarıda, sağ küncdə səbr kasasının əksi həkk olunan blanklar etibarlıdır...

* * *

Bizim yaxın olduğumuz qırx iki il bir igidin ömrüdü. Bəzən, Allah uzaq eləsin, iki igidə də bəs eləyib - dünyada hər şey olur. Bu illəri mənim ömrümdən çıxsaq, yerdə nə qalır ki, - iyirmi yeddi il; Vaqifin ömründən çıxsaq, on səkkiz il. Axı, bunun nə mənası var; Vaqif tanış olduğumuz ilk gündə də məndən doqquz yaş kiçik idi, indi də elədi. İllərimizin böyük əksəriyyəti bir-birinə qovuşub - buna taleqovuşan da demək olar, suqovuşan kimi...

Mən həmişə onunla öyünmüşəm, onun varlığına sevinmişəm; aramıza İslam Rzayev "girəndə" də, xarab olmuş telefon girəndə də. Adam öyündüyündən inciyər də, yoldan ötənin birindən yox ki - uman yerdən... Ən yaxşısı isə ummamaqdı, onda küsməyə də yer qalmır.

2015-ci ilin əvvəlidi, yanvar ayının da. Bu gün Vaqif Bəhmənli hörmət-izzət və Söz sahibidi. O, sözün qolu zəncirli quludu; bu mənada Vaqif Bəhmənli əslən Sözün quldarlıq dövründəndi. Əgər bu gün onu "azadlığa" qovuşdursalar, o, yenə də hardansa bir zəncir tapıb qollarını bağlayacaq, Sözün sadiq qulu olaraq qalacaq, çünki bu cür tərsinə azadlıq onun üçün ölümə bərabərdir. Vaqif belə hesab eləyir ki, Sözün qulu olmaq Dünyanın ağası olmaqdan yaxşıdı. Vaqif həm də belə hesab eliyir ki, Sözün qulu olmaq Dünyanın ağası olmaqdan qat-qat çətindir.

Vaqif Bəhmənlinin əsərləri rus, özbək, Ukrayna, türk, alman, ingilis, türkmən, gürcü və sairə dillərə tərcümə olunmaqla ölkələri gəzir. Deməli, bir şair olaraq onun əhatə dairəsi "Azərsellin" və "Baksellin" birlikdə əhatə dairəsindən qat-qat böyükdür. Konsentrik çevrələr kimi genişlənə-genişlənə gedən bu dairənin mərkəzi - paytaxtı Sözdü - bu sözün adı Vaqif Bəhmənlidi. Diqqətlə fikir versəniz, görərsiniz ki, Vaqif Bəhmənli adamdan çox sözə oxşayır, çünki o Sözün belindən gəlib...

Onun dünya ədəbiyyatından tərcümə elədiyi şeirlər, hekayələr, povestlər, romanlar Azərbaycan dilinin ərazisində emiqrant kimi deyil, tamhüquqlu vətəndaş kimi yaşayır, sevilir və hər cür qəriblikdən uzaqdır...

Özünü, demək olar ki, ədəbiyyatın bütün janrlarında sınayan, əsasən şair kimi tanınan Vaqif Bəhmənli Sözün test imtahanından ən yüksək balla Allahın "Söz adamı" fakültəsinə çoxdan - ilk şeirini yazanda daxil olub, ancaq diplomu yoxdu, çünki bu fakültə diplom vermir, çünki bu fakültədə ölənəcən tələbə olursan, ömrünün son saniyələrinə qədər oxuyursan, öyrənirsən - lap axırda da ölmək öyrənirsən...

Vaqif Bəhmənli Azərbaycanın və Dünyanın ən zəngin, varlı adamlarındandı - onun bir arvadı, üç övladı, beş nəvəsi, otuza yaxın da kitabı var. Başqa nəvələrinin qulağına çatmasaydı, yazardım ki, onların içində ən çox istədiyi

Səfərdi - eşitsələr də məndən inciməsinlər, babaları belə deyib, mənim də həqiqət naminə həmişə ağzım yırtıq olub...

Səfər haqqında elə səfərin özü boyda balaca bir xatırlama: bir gün babası Vaqif, mən, hörmətli səfər Mərdəkan Dendrari parkında gəzirdik. O, qəfil qabağımı kəsib cibindən beş manat çıxarıb mənə göstərəndən sonra dedi:

- Seyran baba, bax, mənim beş manatım var, nə təhər eləmək olar ki, on manat olsun?

Cibimdən beş manat çıxarıb ona verdim:

- Səfər, bu məsələni ancaq belə həll eləmək olar, - dedim.

- Bilirdim ee, verəzsən, onunçün dedim, - bic-bic güldü.

Əlindəki on manata baxdı, sonra da keçib əsl orijinal babası Vaqifin qabağını kəsdi:

- Baba, bax, mənim on manatım var, nə təhər...

Vaqif onun sözünün dalını gözləmədən, bu məsələni mənim stilimdə həll elədi.

Səfər bir az da ruhlanıb ikinci dəfə mənim qabağımı kəsmək istəyəndə Vaqif bir balaca bozarıb dedi:

- Tay ağ eləmə də, bəsindi.

Şeirimizin devlərindən biri olan Vaqif Bəhmənlinin canı şüşə Səfərdədi. Bir dəfə televiziya çıxışlarımın birində aparıcı mənə sual verdi:

- Seyran müəllim, baba ilə nəvə niyə bir-birini çox istəyir?

Mən şəhadət barmağımı gicgahıma dirəyib dedim:

- Çünki ikisi də bir ağılda olur...

İndi bilmirəm, mənim bu cavabımı Səfər - Vaqif Bəhmənli münasibətlərinə aid eləmək olar, yoxsa yox, ancaq bu, mənim həqiqətimdir. Bəlkə, Səfər deyəcək ki, yox, mən babamdan ağıllıyam - ondan nə desən çıxar...

Mənim Abbas Mirzə Şərifzadə adına Aktyor evində keçirilən əlli illik yubiley təntənəmin aparıcısı, altmış illiyimin altmış nəfərdən ibarət banketinin tamadası da Vaqif Bəhmənli olub. Ailə məclislərində həmişə stolumun başında oturub - ürəyimin başında yeri olan bir adamın, stolun başında olması nəmənə şeydi ki?..

Vaqif Bəhmənli - Seyran Səxavət münasibətlərinin zirvəsində isə yaşı qırx ikini haqlamış bir ənənə dayanır: o, ildə iki-üç dəfə təzə yazdığı şeirlərini mənə oxuyur - mütəmadi. Hər dəfə də iki-üç saat; mən də məmnuniyyətlə qulaq asıram. Bəlkə, bizim yerdə qalan münasibətlərimizi sahmana salan, tənzimləyən, qoruyan da elə budu. Son beş-altı ildə isə ona deyirəm ki, sən Dahisən və görürəm ki, bu sözün, qiymətin ağırlığı onu əzir, suyunu çıxardır - ancaq bu su ilə dünyanın bütün qurumuş ağaclarını suvarıb diriltmək olar! Əlbəttə, bu, mənim uzun illərdən sonra gəldiyim nəticədi və heç kəsə dəxli yoxdu - ancaq dəxli olsa, yaxşıdı. Bunu ona görə deyirəm ki, mən Vaqif Bəhmənli Sözünə misra-misra, beyt-beyt, bənd-bənd, şeir-şeir, poema-poema, kitab-kitab bələdəm. Bələd olduğuma görə bələdçilik eliyirəm. Siz də bələd olun, bələdçi olmasanız da olar - çünki Vaqif Bəhmənli sözünün ən böyük bələdçisi Vaqif Bəhmənli Sözüdü...

Bu yaxınlarda yenə görüşdük. Birnəfəsə yazdığı qırxa qədər təzə şeirini birnəfəsə oxudu, mən də birnəfəsə qulaq asdım - nəfəs dərmədən. Hamısı bir-birindən dəyərli şeirlərdi, hansının daha yaxşı olduğunu Allah da deyə bilməzdi. Bu mənada ən böyük çətinlik orda idi ki, elə bil bir şeir oxumuşdu - hava da bir idi və adamı havalandırırdı. Burda hansı Sözüsə ayırmaq mümkün deyildi - sözlər bir-birinə elə qaynayıb-qarışıb böyük Söz yaratmışdı ki, qranit heykəl təsiri bağışlayırdı və bu qranit heykəldən vergül boyda da nəsə qopartmaq mümkün deyildi. Vaqifin o şeirlərində hər söz balaca bir heykəl idi və Vaqif Bəhmənli bu balaca heykəlləri əridib nəhəng bir heykəl yaratmışdı.

Tale yazıları kimi qəbul etdiyim bu ağır və ağrılı şeirlərdən sonra xeyli susduq. Vaqifin üzünə baxanda inandım ki, o, bu şeirləri əvvəlcə yox, elə indi, mənə oxuya-oxuya, gözləriynən yazır, kirpikləri ilə götürdüyü odu Sözün mayasına qatıb onu mayalandırır...

Peyğəmbərimiz Məhəmmədin - söhbət Məhəmməd Füzulidən gedir - şeirlərini heç vaxt öz dilindən eşitməmişəm, əlbəttə ki, üzürlü səbəbə görə. Rəhmətliyin şeirlərinə rəhmətlik Soltan Nəcəfovun səsində qulaq asmışam, doğrudan, qədim səsilə çox oxuyub, xoşuma gəlib, havalanmışam. Ona görə havalanmışam ki, Məhəmməd Füzuli öz şeirlərini heç vaxt mənə oxumayıb. Allah bilir ki, Füzuli yazdığı şeirləri necə oxuyardı? Yəqin ki, yazdığı kimi...

Bax, bu mənada böyük şairlər hər dəfə öz şeirlərini oxuyanda elə bil təzədən yazırlar.

Bir-iki il əvvəl yaxşı qiraətçi hesab olunan bir aktyorun ifasında Ramiz Rövşənin şeirlərinə qulaq asdım, qətiyyən xoşuma gəlmədi. Mən o şeirlərə bələd idim və şairin öz səsində dəfələrlə qulaq asıb sevmişdim. Təsadüfən Ramiz Rövşənlə görüşəndə ona dedim:

- Ramiz, özünnən başqa kim sənin şeirini oxuyursa, elə bil tərcüməyə qulaq asıram, - razılaşdı.

İndi də Vaqifə qulaq asandan sonra ortalığa çökmüş sükut əriyib getdi, dedim:

- Vaqif, bunnan sonra özünə ayrı oxucu tap, mənim belə ağır yükün altına girən vaxtım keçib, bəsdi...

Vaqif də qızıl-qırmızı qayıtdı ki, Seyran müəllim, siz mənim oxucum deyilsiniz ki, siz mənim dinləyicimsiniz - mən oxuyaram, qulaq asarsınız da, burda...

Mən etiraz elədim:

- Tay sözüm yoxdu sənə, - dedim, - adamın vicdanı olar, mən idman xəbərlərinə qulaq asmıram ee, şeirə qulaq asıram, sən oxuyanda nə günə düşürsən, mən də qulaq asanda o günə düşürəm, - başımı buladım.

... Stolumun üstündə Vaqif Bəhmənlinin otuz altı il qabaq mənə bağışladığı ilk kitabı - ilki; "Bahar-payız arası". Mən ona dedim:

- Sən kimsən?
- Kitabam.
- Yaman tanış gəlirsən...
- Hamı heylə deyir...
- Neçənci ildənsən?
- 1979-dan...
- Səni harda doğublar, kəfşəndə, yoxsa doğum evində?
- "Gənclik" nəşriyyatında...
- Adın çox yekədi, lap ərəb adına oxşayır; payız ibn bahar, əbu arasında... Elə yay qoyaydılar də, baharnan payızın arası Yaydı.
- Adımı özüm qoymamışam ha.
- Qiymətin neçiyədi?
- On beş qəpik...
- Sənin vücudun neçə şeirdən ibarətdi?
- İyirmi iki...
- Bir az danış, qulaq asım də.
- Mən danışa bilmirəm ha...
- Niyə, ağzında dilin yoxdu?
- Elə olub-qalanım dilimdi...
- Onda danış də...
- Biz özümüz danışa bilmirik. Gərək kimsə bizi danışdıra. Özümüz danışanda təngnəfəs oluruq.

- Astma xəstəliyin var?
- Mən xəstələnmirəm.
- Siz hamınız beləsiniz?
- Yox, mənim elə tay-tuşlarım var ki, içindəki söz nəm çəkəndə göbələk xəstəliyi tapır, kiflənir, quruyur, pis iyi gəlir...
- Hansı söz nəm çəkir?
- İçi boş olan.
- Ailəniz böyükdü?
- Bu yaxınlarda otuz nəfər olacağıq.
- Otuz?!
- Hə... Dədəm bir ucdan əkib tökür.
- Dədən kimdi?
- Şairdi.
- Adı nədi?
- Vaqif... Hamı ona Vaqif müəllim deyir, ancaq mən Vaqif deyirəm.
- Bəs, niyə belə arıqsan?
- Dədəmin ilkiyəm də...
- O birilər də sənin kimi çəlimsizdi?
- Yoox, yoğunnuya-yoğunnuya gedirlər.
- Sonbeşiyinizin adı nədi?
- "Hamı".
- O, sənnən çox yoğundu?
- Çoox...
- Bəs, sən kimsən?
- Mən oxucuyam.
- Dədəmin dostusan...
- Nə bildin?
- Dədəm yazır, sən oxuyursan... oxucu?
- Hə...
- Bəs, siz ailədə neçə başsınız?
- Otuz il bundan qabaq iki milyona yaxın olmuşuq...
- Bəs, indi?
- İndi çox az qalmışıq.
- Niyə?
- Hamısı qırıldı... beş-on nəfər qalmışıq.
- Allah rəhmət eləsin.
- Allah sənin də ölənlərinə rəhmət eləsin.
- Lazım deyil, lazım deyil!
- Niyə?
- Biz ölmürük ha.
- Söz niyə ölmür ki?
- Nə bilim, ölmür də...
- Sənin anan var?
- Bizim anamız olmur, ancaq dədəmin arvadı var.
- Adı nədi?
- Tanımıram. Ancaq, o, bizi tanıyır.
- Qardaşlarınla aran necədi?
- Nə qədər nazik olsam da, hörmətimi gətirillər.
- Nə deyillər ki?
- Deyillər ki, sən bizim böyüyümüzsən, sən qabağa düşməsəydin, biz də olmazdıq.
- Sizin üçün ən müqəddəs yer haradı?
- Vaqifin ürəyindən qələminə qədər olan məsafə.

- Niyə?
- Çünki, biz hamımız muncuq kimi o yola düzülmüşük.
- Özünüz düzülmüsünüz?
- Yox, dədəmiz düzüb.
- Sənin üzünə niyə şəkili erməni çəkib?
- Erməni adam dəyil?
- Yox.
- Nə bilirsən?
- Sən Puşkini tanıyırsan?
- Dədəmin dostudu.
- Erməni adam olsaydı, Puşkin yazmazdı ki, "Tı rab, tı trus, tı armyanin..."
- Urusca bilmirəm ha.
- Niyə?
- Əsgərlikdə olmamışam.
- Hə... Puşkin deyir ki, "Sən qulsan, sən qorxaqsan, ermənisən sən ".
- Puşkinin ermənilərinən niyə arası yoxdu?
- Demirsən dədəminən dostdu? Sizə gələndə özündən soruş...
- Mən urusca bilmirəm, axı.
- Eybi yox, Puşkin azərbaycanca bilir.
- Azərbaycanda əsgərlikdə olub?
- Hə... Bəri bax, sənin içində bir şey var?
- İçim doludur.
- Məsələn...
- "Vitrindəki gips adam". Məni aç, oxu, mən də qulaq asım. İyirmi dördüncü vərəq.
- Hə... görək hardadı...
- Saxla, saxla, keçdin...
- Nə bildin?
- Bilmədim... hiss elədim... qayıt geri, bax, budu.
- Yaxşı də, oxuyaq görək.

Vitrindəki gips adam

Dodaqlarında saxta təbəssüm,
Qupquru taxta təbəssüm.
Onun nə vecinə, soy bir adamı,
İstəyirsən gözünün qabağında
döy bir adamı.
Yaxşıdı, vallah,
Gecə-gündüz
Ayaq üstə dayanasan dik,
Heç kəsdən məvacib ummayasan
bir qəpik. -
(Klassik mütilik)
Baxışlarından
Buz kimi soyuq,
Duz kimi ağır
Laqeydlik damır, deyirəm!
Necə var elədi,
Soyuyan deyil,
İsinən deyil
Palto geyindirsələr də

Yayın cırhacırında
Dinən deyil.
Günəş qarsanda yanaqlarını -
“Ay haray,
yandım!” deməz,
"Bişdim" deməz.
Neylon köynəkdə keçirər
Sərt qışı,
"Üşüdüm" deməz.
Bu bədbəxti görüb hamı, -
Onu deyirəm,
Vitrindəki gips adamı.
Üstünə qonan
Bomboz tozu
Çırpmağa qadir deyil
quru əl.
Nə adam kimi adamdı,
Nə heykəl kimi heykəl!
Elə bil
Boşboğaz natiqdi
Qalxıb kürsüyə,
Danışır arxayın-arxayın,
uzada-uzada.
Görən zavmağınan arası necədi?
Yaxşı bir köynək saxlada
bizə də.
Deyirəm bir dəstə
Gül verəsən qucağına,
Yollayasan bu gips adamı
Bir qızla görüşə.
Bu gips adam sevə bilə,
Arada bir küsə, barışa...
Bəs, onda kim əvəz eləyər
Eşqə düşən gips adamı
həmin an?..
... Nə çoxdu
Çayxanada
Boş vaxt keçirən cavan...

1978

Kitab gülümsədi. Üzündəki nar dənələrinin hamısını gözümə zillədi, onun baxışlarının qan-qırmızı rəngi dənələrin özü boyda aşağı axıb üzünə şirə çəkdi. Dedi:

- Dədəm bunu iyirmi üç yaşında doğub.

Kitab, üzündən al-qırmızı şirə süzülə-süzülə, vərəqlərini bir-birinə çırpa-çırpa əlimdən qanadlandı, tuta bilmədim... Uça-uça qalxıb göylərdə qanad çalan bir dəstə göyərçinə qoşuldu...

* * *

Bu gün ikimiz yüz otuz yaşın içindəyik - yetmiş il mənim payıma düşür, yerdə qalanı da Vaqif Bəhmənlinindi. Mən bu sətirləri yazanda onun altmış yaşının tamamına yüz otuz üç gün qalırdı. Vaqif Bəhmənli - 60! Yubiley

gecəsinin keçiriləcəyi məkandakı səhnənin qalın pərdəsinə tən ortadan iri hərflərlə yazılacaq iki kəlməni və bir rəqəmi bəri başdan gözümün qabağına gətirsəm də, bunun reallıq olduğu ilə barışsam da - inanmadım. Hətta onun yaşadığı illərin böyük əksəriyyətinin sıraya düzülüb bir-bir gözümün qabağından sallana-sallana keçib getməsi də, məni inandıra bilmədi, ya da ki, inandırmaq istəmədi. Adətən belə vəziyyətlərdə hamı, hamı haqqında mənim kimi fikirləşir, inanmaram deyir. Bunun incə bir səbəbi var ki, onu dilimə gətirmək istəyirəm. Vaqifin altmış yaşına belə tez gəlib çatması ona görə təəccüblüdür ki, mən onu ilk dəfə, ilkin yaşda necə görmüşəmsə, beynimə elə də həkk olunub, elə də qalıb - bax, mənə inanmağa mane olan da budur. Bu ovqatın mayasında bir şey də var: adam sevdiyi adamı ilk dəfə necə görübsə elə görmək istəyir. Elə bil ilk dəfə gördüyü daha əzizdir, doğmadır və ona daha çox etibar eləyir, nəinki...

Görünür, belə bir ovqatın - yanaşmanın zühur eləməsi məsələsində Zaman da öz işinin öhdəsindən lazımınca gəlib... Hərə öz işini görür də...

Vaqif Bəhmənli mənim küsən yerim deyil, çünki heç vaxt ondan umacağım olmayıb - qıymamışam. Təqvim vərəqlərinin qırmızıya boyanmış günlərində ondan zəng də ummamışam: bəlkə, ona görə ki, həmişə özü zəng eləyib? Bilmirəm! Və mənə elə gəlir ki, bunu bilmək vacib də deyil, çünki mənası da yoxdu...

Bu yaşımda gəldiyim bir qənaətimi də sizinən bölüşmək istəyirəm. Tutaq ki, sən adamları sevirsən. Bu sevgiyə görə heç vaxt, minnəti boyunduruq kimi onların boynuna keçirtməli deyilsən - bu ədəbsizlikdi. Ona görə ki, sən bu sevginlə daha çox qazanırsan (bu, başqa növ qazancdı), nəinki sənin sevdiklərinin hamısı bir yerdə. Körpə sifəti kimi təmiz, körpə gözləri kimi nurlu Sevginin mayasında bütün əzəməti ilə boy göstərən təmənnasızlıq eşqidir. Sevginin insan qəlbinə mərhəmliyi, həmin o qəlb sahibinin Allahdan sonra ən böyük xilaskarıdır. Hətta, bu da ağlıma gəldi və inandım ki, Allah insanı maket şəklində yaradıb yer üzünə atır və bu maketi - yəni adamı bizim görüb adət etdiyimiz canlı şəklinə salan, onu canlandıran, ona can verən, nəfəs verən də sevginin insan qəlbinə olan mərhəmliyinin möcüzəsidir... Vaqif Bəhmənli - Seyran Səxavət, yaxud da Seyran Səxavət - Vaqif Bəhmənli münasibətlərinin kökündə də bu möcüzə dayanır...

Bu yerdə doğmam Vaqif Bəhmənliyə demək istəyirəm ki, xətrini dünyalar qədər istəsəm də, mən səni öz xətrimə sevirəm, mən öz xətrimə səndən ötrü darıxıram, sənin balalarını, nəvələrini öz xətrimə çox istəyirəm - bunların hamısını xətrimin xoş olması üçün eləyirəm, çünki xətrim xoş olanda rahat yaşayıram, güclü oluram, istədiyimi eliyə bilirəm. Xətrim xoş olanda Allah da mənim üçün əlçatmaz yox, əlçatan olur, barmaqlarımın ucuynan da olsa onun ayaqlarının altına toxuna bilirəm... Başa düşdün, qaqulya-Vaqulya?..

Öz xətrimə, öz xətrimə, öz xətrimə... Bir tərəfdən baxanda görürsən ki, burda nə boyda eqoizm varmış. Ancaq bu, müqəddəs eqoizmdir. Günlərin bir günündə, Allah tərəfindən Bəşəriyyətə "müqəddəs eqoizm" diaqnozu qoyulsa, Nostradamusun Dünyanın dağılacağı haqqındakı sayıqlamalarından adamın ürəyi bulanmazdı... Mən, belə bir diaqnoza çox şad olardım, balalarımızdan, nəvələrimizdən, nəticələrimizdən, kötücələrimizdən, yadıcalarımızdan - törəmələr silsiləmizdən arxayın gedərdim...

Vaqif Bəhmənli bu gün Mədəniyyət və turizm nazirliyində şöbə müdiridi. İndiyə qədər on beş dəfə iş yerini dəyişib. Belə fikirləşənlər də ola bilər: adam işini nə qədər dəyişər, axı, bu, ilk baxışdan o qədər də ürəkaçan görünmür, çünki iş yerini dəyişə-dəyişə əvvəl-axır adamın özü də dəyişir - bəzən elə dəyişilir ki, heç tanımalısı qalmır. Bu, doğrudan da belədi, ağlabatan məntiqdi - ancaq Vaqifə aid deyil. Çünki o, on beş yerin hamısında sözünən işləyib -

bunun harası dəyişkənlikdi ki? Bu barədə heç bir söhbət ola bilməz və mənim, bundan bir-iki cümlə əvvəl yazdıqlarımı Vaqifə olan istəyimdən gələn qabaqlayıcı tədbir kimi qəbul etsəniz, haqlı olarsınız...

Vaqifdə məmur qabiliyyəti-qanacağı da yüksəkdir. Mənim onu tanıdığım bu uzun illərdə o, heç vaxt nəyinsə xatirinə öz işini ikinci plana keçirməyib - bilir ki, belə münasibət əvvəl-axır adamın özünü də bir şəxsiyyət olaraq ikinci plana keçirə bilər. Bununla da, Vaqif yaradıcı adamların dövlət işində səhlənkar olmaları, işə barmaqarası baxmaları haqqında deyilən fikirlərin üstündən qırmızı bir xətt çəkir. O, harda işləyibsə yarıdıb və yarıda-yarıda özünü yaradıb - məmur Vaqifi. Əslində, boynuma alım ki, onun bu ikili keyfiyyəti heç vaxt mənə çatmayıb. Ancaq noolsun ki, çatmayıb? Kişinin oğlu belədi də - o, bacarır. Bunun nəyi pisdi ki? Halal olsun! Siz də halallıq verin. İstəyirsiniz heç verməyin. Əslində burda halallıq vermək baxımından heç nə yoxdu. Əgər varsa da, bu halallığı Allah ona çoxdan verib, siz versəniz də, verməsəniz də...

* * *

Vaqifin iş yerindəki kabinetində bir dəfə olmuşam. Hökumət evinin standartlarından biridir, uzaqbaşı iyirmi kvadratmetrdir. Vaqif əyləşdiyinə görə, ora xudmani də demək olar - yadımda belə qalıb. Hövsələnizi basın, onsuz da az qalıb, sona yaxınlaşırıq. Sözümün canı var: şərti deyirəm, dünyada yüz istedadlı şair varsa, yüz də stil mövcuddur, bu, aydın məsələdi. Bəs, Vaqif Bəhmənli necə yazır şeirlərini? Mən nə qədər özümü zorlasam, yaxud zorlamasam da - səmimi olsam da, bu suala həssas və sərrast cavab verə bilmirəm, bu mümkünsüzdü, çünki mən Vaqif Bəhmənlinin Özü deyiləm, ən yaxşı halda Sözüyəm. Bu yaradıcılıq sirrinin qaya əzəmətli ağır qapısını bütün dərinliyi, həssaslığı, sərrastlığı ilə onun özündən başqa heç kəs açа bilməz - çünki bu qapının açarı onun ürəyinin başında gizlənib, onu kim götürə bilər ki?..

Vaqif Bəhmənli necə yazır şeirlərini? Öz dilindən eşidək, inanaq ki, doğuş qədər çətin olduğu kimi, doğulmuş körpəni qoxulayıb öpmək qədər də sadə imiş - Sadə...

Dörd qat bükülürəm söz axtaranda,
Hürgüclü dəvənin beli oluram.
Həqiqət soruşub, düz axtaranda
Topuğu zəncirli dəli oluram -
Mən belə yazıram şeirlərimi.

Sanki bala çıxır, sınır yumurta,
Dərhal pərvazlannam neçə min yerdən.
Yaxa cıra-cıra, üz yırta-yırta
Ölü götürürəm elə bil yerdən -
Mən belə yazıram şeirlərimi.

Oğrunu tuturam qoruqda ikən,
Qoymuram talaya cərgəni, vəri.
Şilləni çırpıram varaqda ikən
Ağzının üstünə nadürüstlərin -
Mən belə yazıram şeirlərimi.

Pud-pud ət kəsilir sanki ətimdən,
"Qarabağ" yazmağa qorxuram, qardaş.

Lap yerə girirəm xəcalətimdən,
Qələmi gözümə soxuram, qardaş,
Mən belə yazıram şeirlərimi.

Araza gurlayan çay demirəm ki,
Yediyim namusdu, burnumdan gəlir.
Qismətə Allahdan pay demirəm ki,
Canımda nə dərd var yurdumdan gəlir -
Mən belə yazıram şeirlərimi.

Hardan artır Allah, xəyanət dölü? -
Doldurur dərəni, qalxır dağa da.
Namərd quyuların gen ağzın görüb,
Lənət oxuyuram qardaşlığa da -
Mən belə yazıram şeirlərimi.

Qəm dərin dəryadı, gedib dərinə
Sözün ağrısını yaxşı duyuram.
Sətirlər sonunda nöqtə yerinə
Bir damla qanlı göz yaşı qoyuram -
Mən belə yazıram şeirlərimi.

Peşəm can hərləmək, boş xəlbirəm ki,
Dəftərim, qələmim, dilim - Allahın.
Sözlərdən Nərdivan düzəldirəm ki,
Yetsin ətəyinə əlim Allahın -
Mən belə yazıram şeirlərimi.

Hə... Necəsiniz? Necədi? Xoşunuza gəldimi? Niyə dinmirsiniz?
Mənim üçün dahiyanədir!!!

* * *

Bu yaşımda da başa düşməmişəm ki, belə adamların Yerdə nə işi var? Bəlkə, onları göndəriblər ki, Yerdəkilərin işini sahmana salsınlar, onların üzünü Allaha tərəf çöndərsinlər - yoxsa, göylər adamının Yerdə nə iti azıb ki?!

O cür adamlar işlərini görüb öz yerlərinə, göylərə qayıtmalıdırlar - ancaq iş də qurtarmır, axı. Böyük və vahid Göndərən onların yolunu həmişə gözləyir. Vaqif Bəhmənli də bu işdən halidi. Bəs, ona görə yazır də, ona görə yazır ki, "Sözlərdən nərdivan düzəldirəm ki, yetsin ətəyinə əlim Allahın..." Bunun başqa yozumu yoxdu, axı...

Sizlərə söz vermişdim ki, pozusu olmayan bu Yazının axırına çıxırıq; sözümün ağasıyam, ancaq gəlin sona doğru birlikdə yaxınlaşaq, tək getməyə kişiliyim çatmır...

Xahiş eliyirəm məhəbbət janrında olan yazımı, Vaqif Bəhmənlinin xətrinə Azərbaycan xalqına yazılmış şanlı məktub kimi qəbul edəsiniz.

Tək əldən çıxan səsi hələ eşidən olmayıb, o, səs deyil, çırtıqdı. Əvvəldən axıra qədər məni tək qoymadığınıza görə, sizə Seyran Səxavət təşəkkürü eləyib qarşınızda diz çökür, əllərimi Allaha tərəf uzadıram və ümid eliyirəm ki, "yetsin ətəyinə əlim Allahın..."

Bu da, Son...



Ramiz QUSARÇAYLI

GECƏLƏR DAĞLARA BAXA BİLMİRƏM

Bu qışın qarını duman əritdi,
Əritdi, özü də yaman əritdi...
Bu qış da ürəyim güman əritdi,
Gecələr dağlara baxa bilmirəm…

Üstümə qayalar, dağlar sürüşür,
Dağları bağlayan tağlar sürüşür,
Bulaqlar sürüşür, -
ağlar sürüşür,
Gecələr dağlara baxa bilmirəm…

Bu Araz, bu da ki, Samur dağları,
Bürüyüb yamyaşıl mamır dağları,
Dağ çəkir sinəmə çadır dağları,
Gecələr dağlara baxa bilmirəm.

Üzülür ağrıdan Ağrının canı,
Gözümdən tökülür Murovun qanı,
Şuşanın dağları kəsir aranı,
Gecələr dağlara baxa bilmirəm.

Qaldırın üstümə uçan dağları,
Uçunur Kəlbəcər, Laçın dağları,
O mənfur buxovdan açın dağları,
Gecələr dağlara baxa bilmirəm.

Bir mehəm, Mehrinin mehrinə acam,
Dərbəndin dumanı dağılar haçan,

Şahəm Şah düzündən Şah dağınacan...
Gecələr dağlara baxa bilmirəm.

Dağdan da ağırdır daş tənhalığı,
Ürək tənhalığı, baş tənhalığı.
Asılıb zirvədən qış tənhalığı
Gecələr dağlara baxa bilmirəm…

Yaz qarı bir daşın donqarı üstə,
İzim yox bu yazın son qarı üstə,
Dərd yağır dərdimin yonqarı üstə,
Gecələr dağlara baxa bilmirəm…

İSTANBUL

Şəhərlərin içində
Bu şəhər öz şəhərim.
Bir az nağıl, bir az mif,-
Bir az da söz şəhərim.

Tarixin baş kitabı,
Kitabların yuvası.
Ayağında dəniz var,
Başında dağ havası.

Hər daşı bir türbədir,
Hər türbədə ocaq var.
Bu şəhəri hər səhər
Allah özü qucaqlar.

Aya Sofya aylanır,
Ay boylanır Çarşıdan.
Düşmən kəssə körfəzi,
Fatih çıxar qarşıdan...

Yer şəhərdi, Göy şəhər,
Şəhər-şəhər kölgəsi.
Ölkələrin şəhəri,
Şəhərlərin ölkəsi.

Seyrantəpə seyrangah,
Boğaz içi, iç yazı.
İki Qitə əlində
Avropanın yaxası.

Bu şəhərin şəklini
Gözlərimə toxudum.
Küçə-küçə tanıdım,
Adam-adam oxudum.

Yerdən boy verir Göyə,
Göydən tutan şəhərim.

Paşam, Şahım, Fironum,
Mənim sultan şəhərim.

GİLƏNAR

Yer Göyə bənd, bəs, Göy nəyə,
Ölləm göynəyə-göynəyə,
İki dünya bir köynəyə
Dar gələsi, ay Gilənar...

"Bəhri divanə" irsimin
Qopuz kimi öz tilsimi.
Eşq özü də iki simin
Bir naləsi, ay Gilənar...

"Baş müxəmməs" şah beytimdi,
"Baş sarıtel" ah beytimdi,
"Kərəmi" mdi, "Dübeyti"mdi
Yar tələsi, ay Gilənar…

"Dərbəndi" dərd dənim kimi,
"Laçını" dağ çənim kimi,
"Yurd yeri"nin mənim kimi
Var dəlisi, ay Gilənar…

Dilimdə o gülün adı,
"Zarıncı"dı, "Qaytarma"dı,
Neyçün məni qaytarmadı,
Bir beləsi, ay Gilənar…

PAYIZ ŞƏKLİ

Nə gözəl əsərdi bu,
Boyalar yumru-yumru.
Yamaclar yastı-yastı,-
Qayalar yumru-yumru.

Boz talada göy yamaq,
Kövşən sarı, yol dümağ,
Cığırlar yumaq-yumaq,
Tayalar yumru-yumru.

Xəzəllər xışıl-xışıl,
İlğımlar işıl-işıl,
Mürgülər mışıl-mışıl,
Röyalar yumru-yumru.

Burda hər şey gül kimi,
Daş açılıb tül kimi,
Çıxarıb ürəyimi
Soyalar yumru-yumru.

Rəngi qaçıb bir qızın,
Gözü dolub payızın,
Sevgilər uzun-uzun,
Dünyalar yumru-yumru.

YAZ ADIMI SON BƏLƏYƏ

Bilirəm, gələn deyilsən,
Gecə...
səni sevəcəyəm...
Özün də bilən deyilsən
Necə səni sevəcəyəm...

Bir gözəlsən, pir deyilsən,
Daha mənə sirr deyilsən,
Bir bədəndə bir deyilsən,-
Neçə səni sevəcəyəm...

Çox ayrılıq əsdi bizdən.
Üşüdülər istimizdən...
Dağ yeriyə üstümüzdən
keçə... səni sevəcəyəm...

Gözlər dolub sellənəcək,
Qum da açıb güllənəcək,
Tənbəl-tənbəl yellənəcək
Küçə... səni sevəcəyəm...

Süz göyləri, dön mələyə,
Yağış yuya, gün bələyə,
Yaz adımı son bələyə,-
heçə... səni sevəcəyəm...

BU ADAM NƏ YAMAN ACDI, İLAHİ

Bu adam nə yaman acdı, ilahi,
Acdı, gözü acdı, qulağı acdı,
İliyi, sümüyü, dalağı acdı,
Gövdəsi, toxumu, calağı acdı,
Bu adam nə yaman acdı, ilahi...

Evdə arvadının balağı acdı,
Qapıda itinin yalağı acdı,
Danası, düyəsi, ulağı acdı,
Bu adam nə yaman acdı, ilahi...

Qışlaqda qışlayır, yaylağı yeyir,
Yaylaqda yaylayır, oylağı yeyir,
Örüşü, meşəni, çaylağı yeyir
Bu adam nə yaman acdı, ilahi...

Sürüb dağ çayını arana gedir,
Aranı döndərib virana...gedir,

Minib vəzifəni tirana gedir
Bu adam nə yaman acdı, ilahi...

O damdan qovursan bu dama girir,
Bu damdan qovursan o dama girir,
Bu adam nə yaman adama girir,
Bu adam nə yaman bicdi, ilahi...
Bu adam nə yaman acdı, ilahi...

QORU

Bu evi bu tavandan,-
Bu damdan qoru,Tanrım.
Nə quşdan, nə heyvandan,
Adamdan qoru,Tanrım.

Bu adam şər buyruğu,
Yüz tələ var qurduğu,
Özünə uydurduğu
Edamdan qoru, Tanrım.

Küydü dil-dil ötdüyü,
Qeybətdi üyütdüyü,
İçində böyütdüyü
Nadandan qoru,Tanrım.

DÜNYA KÖKDƏN DÜŞÜB

Dünya kökdən düşüb, Zakir əfəndi,
Dünyanın simləri yerində deyil.
Kim kimi kökləyir,
kim kimi qırır,-
Kimin də kimləri yerində deyil...

Yuyulmaz Qəzzada hərbin əlləri,
ABŞ-ın lilləri, Qərbin lilləri...
Batıb Suriyada haqqın zilləri
İraqda bəmləri yerində deyil...

Kimdi saya salan türk çabasını,
Səriblər üstünə fars libasını,
Pozdular ərəbin əlifbasını,
"Mim"ləri, "Cim"ləri yerində deyil...

Hər körpə qəbrində can havası var,
Qisas havası var,
qan havası var,
Qiyamət adında son havası var,-
Sonun iqlimləri yerində deyil.

Şərt kəsmir bu şumlar,
bu yabalıqlar,
Oynadır ümmanı xırda balıqlar,

Yer-yerdən böyüyür xarabalıqlar
Göyün təlimləri yerində deyil...

Dünya kökdən düşüb, Zakir əfəndi,
Dünyanın simləri yerində deyil.

QALMAYIB

Bu çay, bu sel, bu yataq,
Axmağa yer qalmayıb.
Çıxıb hündürdən baxaq,-
Baxmağa yer qalmayıb.

Göy pərişan,
Yer əyri,
Düzü kəsmir hər əyri,
İldırım ol, nə xeyri
Çaxmağa yer qalmayıb.

Bu quyunu kim hörüb,-
Divar - divar qan hörüb,
Ağzını şeytan hörüb
Çıxmağa yer qalmayıb.

Dərd eləmə,ay naşı,-
Dərd ürəyin oynaşı...
Tök ətəyindən daşı,
Yığmağa yer qalmayıb.

Yıx özünü çəliyə,
Qal ləliyə-ləliyə...
Burda sən tək dəliyə,-
"Axmağa" yer qalmayıb...

SƏN ARIYA NƏ VERDİN Kİ

Əl uzatdın pətəyinə,
Sən arıya nə verdin ki...
Haram yığdın ətəyinə,
Sən arıya nə verdin ki...

Qəfəs verdin yol yerinə,
Xəzəl verdin gül yerinə,
Şərbət verdin bal yerinə,
Sən arıya nə verdin ki...

Qamarlayıb son şanı da,
Qıymadın boz yovşanı da,
Bezdirmisən kövşəni də
Sən arıya nə verdin ki...

Bezar-bezar bağlar qoydun,
Uralanmış tağlar qoydun,

Anasını ağlar qoydun,
Sən arıya nə verdin ki...

Toza versin, südə versin,-
Nə verdin ki, nə də versin...
Verdiyini ödə,-versin,
Sən arıya nə verdin ki...

ŞAİRİN YASINDA TOY ÇALDIRAN KƏND

Səni basdırmağa gələn az idi,
Çoxunun xəbəri yoxuydu, bəlkə.
Nə şeirin şəhdi var,
nə sözün dadı
Şairi neyniyir bu "şair" ölkə...

Elə bil yadıydı,
bir özgəsiydi,-
Elə bil şairdən öc alırdılar.
Kəndin o başında ağlaş səsiydi,-
Kəndin bu başında toy çalırdılar...

Daha “Yasinə” də yox idi səbri,
Toya tələsirdi kənd adamları.
Torpaqla doldurub qaçırdı qəbri
Sənin əsərinin qəhrəmanları...

Sənə toy tutanlar süzürdü toyda,
Dəstənin başında molla gedirdi.
Məəttəl qalmışdı toy yiyəsi də,
Sənin misraların yallı gedirdi...

Bilirəm, qardaşdı xeyir də, şər də,
Bu şərin içində xeyir vardımı?!.
Bir harın məxluqun öldüyü yerdə
Görən bu adamlar toy çalardımı...

Bir elin dərd-səri hər kəsdən qabaq
Şairin adına yazılır bənd-bənd.
Bəs, kimə ağlayıb yas saxlayacaq,-
Şairin yasında toy çaldıran kənd...

Qol açıb oynayır söz diri-diri,
Ruhun da ruh verir
toyun zilinə.
Ehtiyac içində ölən şairi
Toyla göndərdilər son mənzilinə...

Açır ürəyini yada tənbətən,
Bu xalq öz dərdini naşı oynayır.
Şairi çörəyə oynayan Vətən
Şairi öləndə yaxşı oynayır...

Kamil ƏFSƏROĞLU

İŞTAH

Başını qaldırmasa da, altdan-altdan oğlunun dondurmayla çörək yeməyinə göz qoyurdu. Uşaq elə iştahla yeyirdi, deyirdin bəs, dünyanın naz-nemətini dadır. Ovurdlarını doldurub gəvələyə-gəvələyə gözünün mitiyini axıdırdı, ağlayıb-sıtqıyırdı ki, bəs, sabah nə yeyəcək? Səməd uşağın belə tərssayaq xasiyyətindən baş açmırdı. Təskinliyi bunda tapırdı ki, gədə irəliyə baxan, sabahını fikirləşəndi, gələcəyi var.

- Də, bala, marojnaynan çörək yeməyini orda-burda danışma ha, camaatı bizə güldürərsən, - uşağa öyüd verdi.

Dədəsinin öyüdü uşağın beyninə batmadı, guya deyiləni heç eşitmədi. Elə Səməd də sözü çevirmədi. «Ye bala, ye, qaçqın balasısan. Tapdığına şükür elə…» - özlüyündə mızıldandı. Uşağı qınamırdı, nə haqla qınasın? Qayıdıb deməz, dədə, nə aldın, nə gətirdin ki, yemədim… Dükan-bazara getməyə də abırı qalmamışdı, nə qədər nisyə alver eləyərlər? Bu yandan da havalar düzəlmək bilmirdi ki, əlini bulasın işə-gücə, beşdən-üçdən qazansın. Hərənin çörəyi bir işdən çıxır, onun qazancı da bağlıydı havaya.

Televizorda hava haqqında məlumat verirdilər: «Bakı və Abşeron yarımadasında bu gün hava tutulub-açılacaq, yağmursuz keçəcək…» - ekrandakı nərmənazik qız əzilə-büzülə danışırdı.

Təzə xəbər Səmədin kefini durultdu, çiçəyi çırtladı, az qaldı çırtıq vurub oynasın. «Hava yağmursuz keçəcək…» - eşitdiyini yamsıladı. «Qadanı alım sənin! Aaz, bunu bayaqdan denən dayna! Kaş televizora çıxanların hamısı sənin kimi sözün düzünü danışaydı …» - ekrana sarı çırtıq atdı. Aparıcının çöhrəsinə ilıq bir təbəssüm yayıldı və Səmədə elə gəldi, nazlı-qəmzəli qız onun çırtığından qıdıqlandı, xoşhallanıb gülümsədi. Elə bildi qız yalnız onların televizorunda belə xoşqılıqdı, başqa evlərdə mısmırıqlıdı, qaraqabaqdı.

Təbiətin üzü birdən dəyişdi, elə bil buludları doğrayıb param-parça elədilər, qamçılayıb ürkütdülər və ürkmüş param-parça buludların arasından günəşin ilıq şüaları süzüldü, dünya birdən-birə rəngini dəyişdi, dünya işıqlandı.

- Arvad! - həyat yoldaşını səslədi, - mənim o çörək ağacımı bəri ver, deyəsən, havanın üzü güldü, axı. «Çörək ağacı» göy rəngli plastmas vedrəyə deyirdi. Vedrə bir kökdəydi, çölə atsan, üzünə baxmazdılar, amma Səməd onu göz bəbəyi təki qoruyurdu. Qaçqınçılığın lap başında almışdı, dəyişmirdi, deyirdi düşərli vedrədi. Neçə ildi külfəti, pis-yaxşı, bununla dolandırırdı...

Yaşıllığın arasıyla küçənin o biri başına sarı üz tutdu. Burada, ağaclıqda su kranı vardı, işinə yaxşı yarayırdı. Düşəndə, maşın yuyur, təkər qaraldırdı. Nə verirdilər, «min bərəkət» deyirdi, dursun çənə döysün, kəsəmət kəssin, belə şeylə arası yox idi.

Səkinin qırağında süd rəngində bahalı bir maşın dayanmışdı. Əvvəllər onu buralarda görməmişdi. Deyilənə görə, belə maşınların bir dünya maliyyəti var. «Ay başına dönüm, bunun pulun-parasın nə təhər çatdırıllar?» - özlüyündə sorğu-sual elədi. Tez də bu fikri başından uzaqlaşdırdı. «Nə dərdimə qalıb, yiyəsinə qismət olsun» - ağzını xeyirliyə açdı.

Oturub gözlədi ki, maşının sahibi gəlsin. Fikirləşdi: «Görəsən, bunun yiyəsi kimdi, harda işləyir?». Elə bilirdi yekə maşınların yiyələri də yekəpər olur, yekə yerdə işləyirlər.

Oturduğu yerdəcə mürgüləyirdi.

Motorun səsinə diksindi, boylanıb baxdı, sürücü yox idi. «Tanrımın başına dönüm, bu olan işdi, yoxsa cin-şeytan işə saldı bunu?» - heyrətə gəldi.

Maşının sahibi motoru aralıdan, pultla işə salmışdı. Gödəkboy, cürəfəsiz kişiydi.

Səməd gözünü maşından çəkmədən fağır-fağır dilləndi:

- Qardaş, gərək varsa, maşını yuyum. Dumduru Ceyranbatan suyudu, - ağaclıqdakı kranı göstərdi. - Təkərlərini də qapqara qaraldım...

- Qaraldım yox, denən ağardım, - kişi dedi. - Qara rəngdən, qara kəlməsinnən nə vaxt əl çəkəcək bu millət? Gözün görmür maşının rəngini? - elə ədayla dedi, guya ağ günə çıxmaqdan ötrü ancaq ağ maşın minmək, ağ maşın sürmək gərəkdi.

Səməd onun müəmmalı danışığından bir şey kəsdirmədi. Odur ki, qulaq ardına vurdu, çönüb heç kişiyə sarı baxmadı da. Belə söz-söhbətlərə qulaq asmağa halı hardaydı? Vedrəni əlinə alıb küçənin o biri üzündə dayanmış maşınlara tərəf getmək istəyirdi ki, öz adını eşidib geri çöndü.

- Ayə, dayan görüm! Səməd dəyilsən? A qıvlasız, kəndçini tanımadın, yoxsa? - kişi qımışdı. - Belə olar də… Qaçqın da qaçqını tanımayannan sonra ta kimə ürək qızdırasan?

Səməd durub kişiyə zənn elədi, baxdı ki, suyu şirin gəlir. Dodağını dişlədi. Cin Cəfərqulu idi, qımışmağından tanıdı. Dünyada heç kim Cin Cəfərqulu kimi qımışa bilməzdi, ovurdları dartılır, yanağının almacıq sümükləri lap irəli çıxırdı, üzünə baxanda adamın əti tökülürdü.

Səməd özünü itirdi, həmkəndlisilə rastlaşacağını fikrinə belə gətirməzdi. Sevincəyə düşmüşdü. Əlini əlinə vurdu, istədi desin, Cəfərqulu, üzrlü say, tanımadım, dövlətli olacaqsan. Amma düşündü ki, belə maşının sahibi dövlətli olar, kasıb olmaz. Bu yandan da ağlına sığışdıra bilmirdi ki, vaxtıyla kənddə it oğrusu kimi tanınan Cin Cəfərquluda bu büsat, bu halət hardandı. Kişinin oğlu xeylaq dəyişmişdi, üzünü qırış basmışdı, saçları çallaşmışdı. Dəyişməyən bircə boyu idi, əvvəlki kimi gödəmərək idi. Yox, deyəsən, elə boyu da balacalaşmışdı. Bəlkə də boyunun balacalığını malalamaq istədiyindən qəddini dik tutmuş, dorçununu dartıb durmuşdu. Hələ də qımışırdı.

- Deyirəm, dünyanın işinə bax e.. - Cəfərqulu başını buladı.

Səməd bilmədi kəndçisi nəyə eyham vurur. Sıxıldı, əlindəki vedrəni, əskini bilmədi hara gizlətsin.

- Cəfərqulu, səni gördüm, ürəyim açıldı, - fərəhlə dedi. Bunu gəlişixoş olsun deyə söyləmirdi. Xasiyyətiydi, elindən-obasından bir adam görəndə uşaq kimi sevinirdi, kəndin qoxusunu alırdı onlardan. - Bax, budu ha, yaxında oluram, yataqxanada. Bizim rayon qaçqınları da çoxdu, tək bizim kənddən beş-altı ailə yaşayır. Məmmədrzə kişi, İdris məllim qonşumdu…

Səməd gözləyirdi ki, həmkəndlisi bu xəbərə sevinəcək, amma Cəfərqulu özünü o yerə qoymadı, elə bil o adda adamlar tanımırdı.

Onun dinmədiyini görüb, Səməd təklif elədi:

- Gedək evə, bir istəkan çay içək.

- Ayə, nə çay? Çayı içir pionerlər, bir də pensionerlər, - Cəfərqulu yenə qımışdı.

Səmədin ürəyindən keçdi ki, kaş kəndçisi onu söyəydi, üzünə itin sözünü deyəydi, təki qımışmayaydı, onun bu xasiyyətini əzəldən həzm eləmirdi.

- Əlindəkini tulla qırağa, gəl otur maşına, - Cəfərqulu qapını açdı...

Səməd bilmirdi hayana gedirlər, bu neçə ildə şəhərə hələ də yaxşı bələd olmamışdı. Maşın elə şütüyürdü, az qalırdı yazığın başı dönsün, elə dönürdü də. Cin Cəfərqulu ağ maşını ağ at yerinə çapırdı, şəhərin Ağatlı oğlanıydı.

- Bayaq yaxşı dedin e…

- Nəyi? - Səməd soruşdu.

- Dedin dumduru Ceyranbatan suyuynan yuyacam maşını... - Ayə, yekə kişisən, özünə kişi peşəsi tap, pul qazan. Kim deyib bunu - adamı adam eyləyən parədi… - Cəfərqulu ara vermədən üdüləyirdi, puldan-paradan, var-dövlətdən danışırdı, öz danışığından özü həzz alırdı. Səmədinsə fikri ala dağdaydı, Cin Cəfərqulunu görəndə sevinsə də, onun maşınına minməyinə peşman olmuşdu, şəhəri gəzib dolaşmaqdansa, bir-iki təkər qaraldardı, beşdən-üçdən qazanardı. Gəzmək onun hansı gününə- güzəranına yaraşır?

Yerlisinin hünərinə heyran qalmışdı. «Əzəldən zirək, diribaş idi, daşdan pul çıxardırdı…» - Səməd özlüyündə xatırladı. Daşdan deyəndə, düz alınmırdı, Cin Cəfərqulunun pulu it oğurluğundan çıxırdı. Kənddə-kəsəkdə, çöldə-bayırda cənginə keçən itin başına ip salır, aparıb el yolundan keçən elat adamlarına, tərəkəmələrə verir, xırdabaşa dəyişirdi. Sövdası baş tutanda kefikök qayıdırdı və yol boyu oxuyurdu: «İti verdim, qoyun aldım, dınqır, sazım dınqır…»

Səmədi maraq boğurdu: «Görəsən, Cəfərqulu buralarda nə oxuyur, şəhər yeridi, tərəkəmə yox, qoyun-quzu yox…»

Maşın bahalı bir restoranın qabağında dayandı. Səməd yatsaydı, yuxusuna da girməzdi ki, nə vaxtsa belə yerə yolu düşər. Baxdı ki, Cin Cəfərqulunu burda yaxşı tanıyırlar. Qulluqçular əldən-ayaqdan olmuşdular, hamı da ona «rəis» deyib müraciət eləyirdi.

Cəfərqulu özünü dartıb oturmuşdu. O qədər yemək-içmək sifariş vermişdi, stolda bir qarış da boş yer yox idi.

«Kəndçim niyə belə bədxərclik eliyir, dünyanı basıb yeməyəcəyik ha. Adama bir qarnımız var…» - Səməd narahat oldu. Ürəyindəkiləri dilinə gətirmək istəyirdi ki, Cəfərqulunun səsinə sözü ağzında qaldı.

- Səməd, ye! Ye… - dedi, fikrini tamamlamadı. Mənalı-mənalı irişdi.

Kənddə balaca oğlan uşaqlarına deyərdilər: «Ye, bala, ye, yekəl…». Nədənsə ona elə gəldi kəndçisi də indi bu sayaq bir şey demək istədi. Nə bilsin, bəlkə də demək istəyirdi, eloğlu, ye, ətə-qana gəl, sınıxmısan. Sınıxmasın, neyləsin, qaçqınçılıqdan bəri eyninin açıldığı, üzünün güldüyü olmamışdı.

- Deyirəm araqdan başlayaq, - Cəfərqulu cavab gözləmədən qədəhini doldurdu, Səmədə isə iri çappa stəkanda süzdü.

«Nə təhər də yadında qalıb e…» - Səməd düşündü. Toyda-məclisdə arağı çappa stəkanda içərdi, qaydasıydı. Onun bu fason içməyi çoxlarına ləzzət verirdi. Səməd bunu igidlik hesab eləmirdi, başqa sayaq içməyi təbi götürmürdü. Qaçqınçılıqdan sonra arağı azaltmışdı, ayda-ildə bir dəfə içərdi, ya içməzdi. Deyirdi bu içkidi, meydi, şad günün dostudu, qaçqına-köçkünə yaraşan şey deyil, töhmət götürmək mənə yaraşmaz.

Səməd ağızbaağız dolu stəkana baxıb çaş-baş qalmışdı, bilmirdi neyləsin. Tərəddüdlə əlini stəkana apardı.

- Elli, vallah, buna nəfəs yetirmərəm, - mızıldandı. - O sayaq içmək qaldı kənddə.

- Ayə, fikir eləmə, hesab elə kənddəsən. Vur, getsin! - Cəfərqulu ona ürəkdirək verdi.

Bir anlığa Səmədə elə gəldi doğrudan da kənddədi, ürəkləndi.

- Cəmi qaçqınların sağlığına! - dedi. Kövrəldi, gözlərini yumub arağı birnəfəsə çəkdi başına.

Cəfərquluya ürcah gəlməyi indi könlünü açmışdı, oturub dərdləşəcək, doğma yer-yurdlarını yada salacaqlar. Səməd işini bilirdi, bilirdi ki, yenə kövrələcək, göz yaşını saxlaya bilməyəcək. Öz əlində deyildi, ağlayanda yüngülləşirdi, yoxsa ürəyi partlardı. Əlbət, Cəfərqulu da qoşulacaqdı ona, dərd-sərləri bir deyildimi, noolsun ki, eloğlusu pullu-mallı, varlı-karlıdı, pul-para torpaq, yurd dərdinə məlhəm olan deyil. Onun fikrincə, Cəfərqulu birinci sağlığı boşuna söyləməmişdi, onu danışdıran yəqin ki, qəribçilikdi, el-oba ağrısı, həsrətidi. Özgə necə olmalıdı?

- Gün o gün olsun, hamınız qayıdasınız ev-eşiyinizə! - Cəfərqulu, Səmədin stəkanını yenə silələmə doldurdu. Özü elə də içmirdi, bir qurtum alıb, qədəhi qoyurdu stola.

Səməd eloğlusunun sözlərinə heyrət elədi, zalım balası elə danışırdı, guya onun özü qaçqın deyildi, kəndi-kəsəyi yox idi. Bu tösmərək adamın soyuqqanlığına məəttəl qalmışdı. Bayaqdan elə bilirdi ki, torpaqdan, el-obadan söhbət düşsə, Cəfərqulu kövrələcək, göz yaşlarını saxlaya bilməyəcək. Səməd hətta ona necə təsəlli verəcəyini, nə deyəcəyini də bəri başdan bilirdi. Deyəcəkdi, qardaş, yaman günün ömrü az olar, geci-tezi var, Allah qoysa, qayıdacağıq torpağımıza. Şəxsən mən birinci qayıdacam, qayıdan kimi də başlıyacam öz işimə - kankanlığımı eliyəcəm, əlbət kəhrizlərin gözləri tutulub... Ən çox onun işi görünəcəkdi, gözü açılmış kəhrizlərin suyu həyatı özünə qaytaracaqdı. Hər kəs öz işinə, öz peşəsinə dönəcəkdi. Bəs, Cin Cəfərqulu? O neyləyəcəkdi? Səmədə elə gəldi bu qədər var-dövlətlə Cəfərqulu, əlbət, daha it oğurluğundan əl götürər, adam kimi əməlli-başlı bir işlə məşğul olar. Bu istək, bu ümidlə də dolu stəkanı qaldırdı.

- Qağa, sən deyən sağlığa! Cəmi qaçqın-köçkün qayıtsın yurduna-yuvasına! - gözlərini yumub arağı çəkdi başına. Kababdan daddı. - Cəfərqulu, elli, - dedi, - buranın kababının da tamı yoxdu. Kənddə bircə tikə şüşucu bişirirdin, dadınnan doymaq olmurdu…

- Ayə, hər şeyə fikir vermə, ye, ağzın işləsin, - Cəfərqulu yol göstərdi. Özününsə dilinin altından bircə loxma da keçmirdi, elə bil iştahını əlindən almışdılar. - Sən maa fikir vermə, işində ol. Mənim yeməyimi indi gətirəcəklər, - çönüb ofisianta işarə elədi.

Kiçik nimçədə ağartı gətirdilər, yağsız şora oxşayırdı.

Cəfərqulu şordan bir qaşıq ağzına apardı, bunu elə könülsüz elədi, elə bil zəhər-zəqqutun yeyirdi. Üz-gözünü turşutdu.

- Mənim yeməyim budu, - dedi. - Dünyanın nemətlərinə tamarzıyam, şəkərim var. Çox xayın azardı, adamı xımır-xımır içinnən yeyir…

Kəndçisinin bu halı Səmədin ürəyini ağrıtdı. İstədi desin qaçqınlıq da şəkər mərəzi kimidi, millətin axırına çıxıb, amma nə fikirləşdisə, dinmədi.

Cəfərqulu tamarzı baxışıyla yeməkləri süzdü.

- Səməd, ürəyin istiyəndə bir-iki şiş kabab yeyə bilirsən? - soruşdu.

- Niyə yemirəm? Bolluğuna düşəndə bir-iki yox e, lap beş-altı şiş yeyirəm, yarım litr də araq vururam, - Səməd dediklərini sübuta yetirmək istəyirmiş ki-

mi, yağlı tikəni dişinə çəkdi. Görürdü ki, eloğlusu onun yeməyindən həzz alır, bəlkə, ona baxıb iştaha gələr. Amma onun dilinin altından hələ də heç nə keçmədiyni görüb sıxıldı, əlini yeməkdən çəkmək istəyəndə, Cəfərqulu təkid elədi:

- Sən maa fikir vermə, ye... Səməd, oturub saa baxıram, elə bilirəm özüm yeyirəm. Bu qədər malın-pulun ola, dünyanın naz-nemətinə tamarzı qalasan... Maşallah, sən iştahlısan, ye, çəkinmə, elə bil mənim qarnıma yeyirsən. Maa heylə gəlir, elə bilirəm ağız sənindi, gödən mənim. Neyniyim, mən də bunnan yaşıyıram, bunnan nəfəs alıram. Bu gün saa ürcah olmasaydım, yoldan keçənin birini qulaqlayıb gətirəcəkdim, o, yeyəcəkdi, mən də baxacaqdım… Hava da isti oldu ha, kələyim lap kəsilir, boğazdan yuxarı ağzım qupquru quruyur. Budu, neçə gündü yağışlı-çiskinli keçirdi, bir az babat olmuşdum, hava ki açıldı, təbim xarablaşır. O həkim, loğman qalmıyıb getmiyim, gündə iki paçka dərman atıram.

Səmədin kəndçisinə yazığı gəldi, dərdinin əncamı onda olsaydı, hər şeydən keçər, Cəfərqulunun azarına əlac eləyərdi. Qoy, havalar yağmurlu keçsin, ildırım şaqqıldasın, leysan töksün, Səmədin qazancı əlindən çıxsın, təki eloğlusu bu dərdi çəkməsin. «Yazıq neyləsin, canının hayındadı. Azar-bezar huşunu başınnan alıb, qaçqın olduğu da ağlınnan çıxıb. Allah, sən belə dərddən saxla» - ürəyində dua elədi.

Arağın təsirindən beyni dumanlanmışdı, özünü ələ almağa çalışırdı ki, eloğlusu sərxoşluğunu sezməsin.

Cəfərqulu telefonla danışırdı:

- Allo!.. Cana, mən birdən-ikidən yalan danışmışam? - qımışdı. Çönüb Səmədə göz vurdu. - Allo! Sən ki məni yaxşı tanıyırsan, ceyran. Yox-yox! İndi bərk zanitəm. Türkiyədən krupnı biznesmen gəlib - Səməd bəy - onunla delovoy söhbət eləyirik… Nə qazanc? Ölmüşdü Cəfərqulu qazancsız işə əl bulaya… Hə, heylədi: atmasan, atılarsan, qalarsan lüt-üryan... Yox, vallah, həqiqi sözümdü, İstanbuldan gəlib, oturub mənimlə üzbarı. İnanmırsan?..

Cəfərqulu telefonu Səmədin ağzına yaxın tutub qulağına pıçıldadı:

- Mənim canikimdi, danış, səsini eşitsin, inansın. Denən «Mərhaba, hanım efendi! Nasılsınız?».

Səməd qeyri-ixtiyari Cəfərqulunun dediklərini tutuquşu kimi təkrarladı. Telefonda şaqraq gülüş eşidildi. Diksindi, elə bildi qadın onun təlxəkliyinə gülür. Pıçıltıyla Cəfərquluya:

- İnanmadı, deyəsən, güldü maa, - dedi. Yaxşı artistlik eləmədiyinə görə özünü günahkar bildi.

Cəfərqulu əlini yellədi.

- İnanmaz da, - dedi, - elə danışdın, ətim töküldü. Ayə, bu qədər türk televizyası var, olara baxmırsanmı?

- Qağa, bu televizordu, radiodu, olardan qulağım dolub, bezmişəm. Mən bircə hava məlumatına baxıram, az-çox düz danışan olardı. Sınamışam. Bax, bayaq dedi hava açılacaq, açıldı. Havanın üzü gülməsəydi, mənim çöldə-bayırda nə itim azmışdı, yağışda kimdi maşın yudurdan? Heç yudurtmasınlar, acından ölmüyəcəm ha, gedib vağzalda hamballıq eliyərəm. Yağlı yox, yavan yeyərəm, lap marojna-çörək yeyərəm. Yoxsa, yanlış danışıram, elli? - Səmədin dili topuq vururdu, araq onu tutmuşdu.

Bunu Cəfərqulu da hiss eləmişdi. «Marojna-çörək ee… Bu da təzə çıxıb?» - içində güldü.

- Cəfərqulu, yadındadı?.. - Səməd soruşdu. - Böyük kəhrizin suyu diş tökürdü… Heç nə istəmirəm, kaş o sudan bircə istəkan olaydı, çəkəydim başıma… Min bir dərdin dərmanıydı. Ağzını dirəyib kəhrizinin suyunnan ikicə qurtum içsən, onnan da şəkərin-məkərin çəkilib gedər.

Cəfərqulu astadan ah çəkdi, kəndçisi elə dava-dərman söyləmişdi, onu heç bir aptekdə qızıl pula da tapmazdın.

Eloğlusundan səs çıxmadığını görüb, Səməd söhbətin ağzını ayrı səmtə yönəltdi:

- Elli, bağışla, bir söz soruşum sənnən. Bu restoranın qulluqçuları saa niyə «rəis» deyir, olmuya paqonnu işə girmisən?.. İstəmiyənin gözü tökülsün.

Cəfərqulunun qırımı dəyişdi, dili açıldı, elə bil bayaqdan bu sualı gözləyirdi. Yenə qımışdı və bu qımışmağıyla elə bil yenə Səmədin dədə-nənəsini, yeddi arxa dönənini söydü.

- Ayə, paqon-maqon nədi? Şəhər yerində pullu adamlara «rəis» deyirlər, - Cəfərqulu özünü çəkdi. - Paqonnular mənim əlimə baxır, mən onların yox. Görmürdün, yol polisləri mıx kimi dayanıb maa necə çest verirdilər? İtin balasıdı yalan deyən, istiyirsən bu saat zəng eləyim, bir polkovnik çağırım, gəlsin «smirna» dayansın qabağımızda. Sən məni uşaq-muşaq bilmə e! - Əlini pencəyinin döş cibinə salıb bir paçka sarı «əllilik» çıxartdı. Arasından iki əskinas çəkdi, diliylə isladıb birini sağ, digərini sol çiyninə yapışdırdı. - Paqon budu. Bax, oldum general... Bu paçkanı bu gün qazanmışam, - stolun üstünə səpələdi. - Qazanmışam deyəndə, birinə atmışam, özü də «krupnı» atmışam. Zəmanə dəyişib, athaat zəmanəsidi. Söz var - «düz düzdə qalar» - atalar bunu görüb deyib… Sən də otur gözlə ki, torpaq qayıdacaq, gedib kankanlığını eliyəcəksən, kəhriz işləyəcəksən... Amma bayaq yaxşı dedin - «maşınını dupduru suynan yuyacam…». Sən elə əzəldən duruluq axtaran olmusan, ay evi tikilmiş, bu bulanıq dünyada nə duruluq?..

Cəfərqulu dolu boşqabı Səmədə uzatdı, yazıq-yazıq dedi:

- Lüləkababdan da ye, lüləkababdan! Ye, sənin qarnın, mənimsə gözüm doysun. Hayıl-mayıl olmuşam iştahına. Maşallah!.. Belə baxıram, çinədanın daşı da əridər.

Kəndçisinin eyhamlı danışığı Səmədin kefinə yatmadı, hətta bir balaca ona toxundu da. Əlini yeməkdən çəkdi. Cin Cəfərqulu həsəd ifadə eləyən cin gözlərini ondan ayırmırdı. Elə baxırdı, elə bil fürsət axtarırdı ki, üzbəsurət oturduğu adamın yeganə varını-dövlətini - içindəki rahatlığını, iştahını oğurlasın, bir vaxtlar kənddə-kəsəkdə it-küçük oğurladığı kimi.

Səməd kəndçisinin üzünə zənn elədi, onun ruhsuz, solğun bənizi, kirpikləri tökülmüş qıyıq, çiyid gözləri ölgün görünürdü.

«Allah kiminə mal-pul, üstündə də şəkər azarı verir, kasıba verdiyi isə can sağlığıdı. Bildiyinə şükür…» - Səməd fikrindən ötürdü.

Cəfərqulu «əllilik» paçkasını əlinin dalıyla ellisinə sarı itələdi.

- Səməd, götür bu pulları, iştahını sat maa! - qəfildən dedi.

Səməd əvvəl bir şey kəsdirmədi, karıxıb qaldı. Handan-hana özünə gəldi.

- Nəə?! - soruşdu. Ağlına gələn bu oldu ki, əlbət, kəndçisi keçib zarafata, ya da başını itirib, yoxsa belə naqqallıq eləməzdi.

Cin Cəfərqulu gerçəkləmişdi, dil qəfəsə qoymurdu:

- Ayə, camaat puldan ötrü böyrəyini, ciyərini satır. Saa nolub, sən də iştahını sat. Nolar, eloğlu dəyilik?.. Çöldəki o bahalı maşını da üstəlik peşkəş eləyirəm. Kasıb adamsan, sənin də əlin pul-para görər, sevinər, özünə gün ağlayarsan. Yoxsa, plastmas vedrə əlində düşmüsən küçələrə, təkər qaraldırsan. Hə, di ver əlini, xeyirləşək!.. - Cəfərqulu əlini ona uzatdı. Əli havada qaldı.

* * *

Səmədin belə kökə düşdüyü olmamışdı, başı dönürdü, elə bil yer indicə ayağının altından qaçacaqdı. Səntirləyə-səntirləyə ağaclığa sarı getdi. Kranı açıb başını tutdu buz kimi soyuq suyun altına…

Kolluqda gizlətdiyi «çörək ağacını» - göy plastmas vedrəni çox axtardısa da, tapa bilmədi, əlbət, kimsə çırpışdırmışdı. Cındır vedrə nəyə yarayan idi?

Deyəsən, azca yüngülləşmişdi, başı da dönmürdü. Yataqxananın həndəvərindəki dükana çatanda dayandı, evə əliboş qalxmaq istəmirdi. Əlini cibinə saldı, olan-qalan qəpikləri çıxarıb saydı - dondurmaya və bir kömbə çörəyə yetirdi….

Avqust 2010

KUKLALAR GÜLƏNDƏ

Qulağının dibində tapança açıldı elə bil. Qaçay diksindi, az qaldı ürəyi qopub düşsün ayağının altına. Əlini sinəsinə apardı, ürəyi yerindəydi, vururdu. Vururdu deyəndə, çırpınırdı, elə çırpınırdı, sanki köksünü dəlib çıxacaqdı. Son vaxtlar lap quşürək olmuşdu, neyləsin, yaş o yaş deyildi. Bir də indiki pistonların gubbultusu da ayrıdı, axı, top gurultusundan seçilmir.

Pistonu onun ayağının altına atan balaca oğlan uşağı idi, atası da yanında. Uşaq əməlindən həzz alır, bic-bic irişirdi.

Qaçay ayaq saxladı ki, nəfəsini dərsin, özünə gəlsin. Bir istədi uşağa öyüd versin, amma baxdı ki, valideyn də altdan-altdan qımışır, guya övladı nəsə böyük hünər göstərmişdi.

Qaçayın ürəyindən keçənləri skamyada oturmuş kepkalı kişi dilə gətirdi:

- Qədeş! Bura bulvardı, camaat dincəlməyə gəlir, nöş pozursuz millətin kayfını? Şəhəri voyenni poliqona çöndəriblər, mən ölüm.

Kepkalı kişinin millət adından danışmağından Qaçayın xoşu gəldisə də, özünü o yerə qoymadı, dinmədi. Amma ürəyində onun sözlərinə haqq qazandırdı.

Oğlanın atası eşitdiyinə məhəl qoymadı, halını belə pozmayıb övladına qahmar çıxdı:

- Uşaqdı dayna, xoşu gəleer!

- O, uşaqdı, sən ki uşaq dögülsən, oğluva öyüd verginən, başa sal ki, belənçik olmaz, - kepkalı kişi söz altda qalmadı. - Xətrivə dəyməsin, dart uşağıvın qulağını, deginən…

Oğlanın atası onun sözünü kəsdi:

- Neyneer, piston partladeer dayna… Tək mənim oğlummu partladeer?

Bu suala bənd imiş kimi bulvarın bəri başından daha bir neçə gurultu qopdu. Valideyn dorçununu dartıb ayaq üstə dayanmış Qaçayı, sonra da skamyada oturmuş kepkalı kişini süzdü, yəni gördünüz, şəhərdə piston partladan tək mənim oğlum deyil.

- Dükan-bazarda satılan şeydi dayna, pisdisə, satmaseennər… - bu dəfə sözünü qılıncına gətirdi. - Ağrın aleem, siz şəhərlilər piston tartıltısınnan qorxersiniz, onda görün biz qaçqınlar nəler çəkerdik oralarda. Gecəmiz-gündüzümüz yox idi, top, qrad mərmisi yağış olub yağerdi başımıza. Oturmusunuz şəhərdə kefikök-damağıçağ, rahatlıq axtarersiniz. Nolar sizin də qulağınız partıltı-gurultu eşidəndə, xəncərinizin qaşımı düşər?

Sözarası özünü Mirağa kimi tanıdan kepkalı kişi səbrini basıb gözlədi ki, qaçqın sözünü bitirsin. Deyəsən, qaçqın özü də bu qənaətdəydi, sözü çox uzatmaq fikri yox idi.

- Eloğlu, - dedi, - deyerəm uşağın qulağı partıltıya, gurultuya indidən alışsa yaxşıdı dayna, yekəlib əsgərlik çəkəndə ürəkli, təpərli olar, -

dediklərini haqlı bilib yenə qımışdı. Oğlunun əlindən dartdı, sahilə sarı uzaqlaşdılar.

Kepkalı kişi qaçqının söylədiklərində nəsə bir həqiqət olduğunu düşündüyündənmi, yoxsa nədənsə daha dinmədi, özünü elə göstərdi ki, guya bu deyilənləri eşitməyib. Bəlkə də deməyə söz tapmadığından kirimişdi.

Havadan hələ də barıt iyi gəlirdi, burun deşən təlx iy çəkilmirdi. Dənizdən əsən xəfif gilavar belə bulvarın axşam havasını bu kəsif qoxudan təmizləyə bilmirdi.

Kepkalı kişi deyindi:

- Dinclik tapmaq olmur ki... Əvvəllər bayramın gəlişinə sevinərdik, indi tərsinə olub, nöşün ki, aləm qarışır, bir partapart düşür, gəl görəsən. Kinoda deyir e, alə, bu qədər də barıt qoyarlar? Parij dağıldı ki… İndi o söz olmasın, bu pistonnarın barıtını az qoyun də… Fikirləşmilrlər ki, millətin yaşlısı, xəstəsi də var, axı, yazıqdılar. Bibioğlu «skorıda medbrat» işləyir, mənə deyir, Mirağa qədeş, piston atılanda xəstə üstünə «vızov» birə-beş artır... Bayrama bir aydan çox qalıb, indidən başlayıblar partaparta. Qayınanamın yetmişdən çox yaşı var, bayram gələndə deyir, yeznə, məni tez çıxart şəhərdən, apar kəndə…

Qaçay kepkalı kişinin oturduğu skamyaya çökdü. Əlini hələ də sinəsində gəzdirir, elə bil ürəyini tovlayıb sakitləşdirmək istəyirdi. Mirağanın sözü yerində deməyi kefinə yatmışdı. Onun özü də, düşəndə, sözünü saxlamır, deyir. Amma nə olsun, deməklə iş aşmır: insanların hərəsi bir təbdədi: qananı da olur, qanmayanı da. Qanmayan daha çoxdu və getdikcə də elələrinin sayı artır elə bil. Özü də yaxşı bilirdi ki, onun-bunun danlağıyla bu məsələ düzələn deyil, milləti maarifləndirmək gərəkdi, ciddi iş aparılmalıdı bu yolda. O qədər televiziya kanalı var, amma gəl ki, belə şeylərə məhəl qoyan yoxdu: qaçırlar reklam dalınca, yersiz-mənasız şou göstərməkdən yorulmurlar. Özləri yorulmasalar da, milləti yorurlar, özü də əməlli-başlı yorurlar… Küçəyə siqaret kötüyü, zibil atanlara, avtobusda dilənçiyə pul verənlərə nə qədər irad tutmuşdu Qaçay, bunun üstündə az qala onunla əlbəyaxaya çıxanlar da olmuşdu ki, sən kimsən, şəhərin komendantısan?.. İnsanlar yaman dəyişib, söz deməli deyil, demirsən, olmur, deyirsən, düşürsən qana.

- Eşitdin, bayaq nə dedi qaçqın əmioğlu? - Kepkalı kişi Qaçaydan soruşdu.

Qaçay başını yüngülcə tərpətdi.

- Eşitdim.

- Qədeş, məni qınamaginən, ədəbiyyat məlliminə oxşayırdı a, ağzını açan kimi bildim. Həri, məllimdi, Mirağa canı. Öz uşağına ədəb öyrədə bilmir, başqalarına ədəbiyyat öyrədəcey? Sözüm böyük çıxmasın, mən onun kimilərinə dərs deyərəm, belə necə lazımdı. Alə, gəl onnan soruşginən «Səfillər»i kim yazıb, bilməyəcək, anam qəbri. Başımnan cavabdehəm!

Kepkalı kişinin dərdi tərpənmişdi, ürəyini boşaldıb yüngülləşmək istəyirdi. Qaçqının qarasınca donquldandı.

- Neyneer, piston partladeer… - yamsıladı. - Alə, kor dögülük, biz də görürük ki, piston partladır, bomba partlatmır... Deyir, qoy öyrənsin, yekələndə əsgərə gedəcək… Oğlun yekəlib əsgərə gedənəcən neçəsini infarkt eliyər ki… Söhbət dögül, Mirağa canı, - kepqasını geri itələdi. - Amma onu yaxçı dedi ki, piston-miston dükanda-bazarda satılan şeydi, pisdisə satmasınlar... Həri də, satmasalar, qadağa qoysalar, belənçik də olmaz. Yoxsa, Bakı Bombeyə dönüb. Fikir verdin, qədeş, arada şəhərlilərə də sataşdı a, dedi

piston partıltısana qorxursunuz… Rayonlarda adam qalmayıb, hamı tökülüb gəlib şəhərə. Gərək, bir məktəb açım, kənddən-kəsəkdən gələnlərə dərs deyim - şəhərşünaslıq dərsi, mən ölüm. İndiki şəhər də o şəhər dögül, axı, dəyişib, maşallah olsun!

Qaçay gülümsündü, Mirağanın özünəxas danışığı, maraqlı söhbəti onu ovsunlamışdı. Kişinin oğlu olanı deyir, şəhər doğrudan da çox dəyişmişdi, tikilib-qurulmuşdu, baxanda adamın ruhu təzələnir. Elə insanlar da dəyişmişdilər, amma başqa sayaq dəyişmişdilər və Qaçay insanların bu sayaq dəyişməyinə heyfslənirdi, bu haqda yazılarında da yazmışdı. Yazmışdı ki, insanların dərrakəsi, düşüncəsi, ədəb-ərkanı da şəhərin siması təki yaxşıya dəyişməlidi, nurlu, işıqlı olmalıdı. Gizlətməyin adı yoxdu: adamlar əvvəlki qırımda, əvvəlki hal-xasiyyətdə deyillər, qanısoyuq, etinasız olublar elə bil. İndiki cavanlardan isə danışmağa dəyməz, böyük-kiçik saymırlar, küçədə-bayırda pərtövlük eləyir, ağızlarına gələni danışırlar. Nədən deyirsən danışırlar: bahalı maşından, telefondan, geyimdən… Elmdən, dərsdən-məktəbdən, kitabdan danışan yoxdu…

Kepkalı kişi elə bil onun ürəyindən keçənləri oxuyurdu.

- Alayı nəsil gəlir, - dedi. - Uşağa tərbiyə verməyə valideynin vaxtı var ki? Baş qarışıb biznesə, pul qazanmağa. Uşaq da gördüyünü götürür, görür ki, pulu olmayan batır, Aşqabad batan kimi. Deyim ki, indi məktəb də o təlim-tərbiyəni vermir, qədeş. Alə, bir məktəbdə ki, bayramda müəllimlər üçün şagirdlərdən pul yığalar, orda nə mərifət, nə təlim-tərbiyə olar?.. Sırağa gün burda, bulvarda bir kişi danışırdı: uşaq gəlib ki, bəs, ata, müəllimin ad günüdü, pul yığırlar. Atası da qeyidib ki, qara qəpiyim də yoxdu, deginən adıvı yazsınlar nisyə dəftərinə, ayın axırında verərik. Müəllim də sifariş göndərib ki, nisyə girməz kisəyə... Söhbətə baxginən a... Həri, elənçikdi, indi toya da nisyə yazılanlar var, qaldı məktəb ola. Belə getsə, məktəb bahalıqda Təzə bazardan betər olacey, mən ölüm... Bir az dərinnən fikirləşəndə, deyirsən neft səltənətində «nisyə dəftəri» söz-söhbəti nöş olmalıdı, axı? Elədi, elə dögül, qədeş?

Kepkalı kişi maraqlı adama oxşayırdı, ona görə də Qaçay oturduğu yerdən qalxmağa tələsmədi. Belə baxanda, tələsən yeri də yox idi, bulvara çıxmışdı gəzişsin, dəniz havası udsun. «Altmışı ki, haqladın, gərək gəzməkdən qalmayasan, onnan yaxşı dərman yoxdur» - bu, tək onun qənaəti deyildi, həkimlərin də tövsiyəsidi.

Mirağa üzrxahlıqla soruşdu:

- Qərdeşimsən, bağışlaginən, saat neçə olar?

Qaçay qol saatını kepkalı kişiyə yaxın tutdu ki, özü baxsın, eynəksiz yaxşı seçmirdi.

Kişi gözlərini qıyıb zənn elədi.

- Hələm bir saat var, - mızıldandı. - Bir saatdan sonra Mirağa olacey özgə aləmdə. Fantastikadı, mən ölüm. Haqq-ədalət, iman-insaf deyilən nə varsa, ordadı. Unudursan dünyanın dərd-qəmini. Sonra da özüvü söyürsən ki, alə, həyatda nöş belənçik dögül, nöş dünyanı yalan-palan götürüb gedir, insanlar nöş belənçik «suxoy, ravnoduşnı» olublar? Ora alayı aləmdi, mən ölüm…

Qaçay həmsöhbətinin nədən bəhs etdiyini kəsdirə bilmədi, hardan bilsin, camaatın ürəyinə girən deyildi ki… Amma maraq onu boğurdu. Ürəyində özünü qınadı: «Mən də qəribə adamam, vallah. Şəhər camaatının hara gedib-gəldiyinin hesabını aparmayacağam ha...».

Nəzərini dikdi yeraltı keçidin çıxışına. Adamlar göbələk təki yerdən pırtlayıb çıxırdılar elə bil - tək-tək, iki-bir, üç-bir… Mirağa da o səmtə baxırdı, bu insanların arasında kimisə axtarırdı sanki.

Nəsə dərindən köks ötürdü, nəzərini baxdığı səmtdən ayırmadan dilləndi:

- Hərdən məni fikir aparır, elə bilirəm bu yeraltı keçiddən cavanlığım - on yeddi yaşındakı «stilyaqa» Mirağa çıxacaq: əynində çesunça şalvar, iri vorotnikli polosatı köynək, ayağında lakirovannı modelni tufli, kəkil də düşür alnının ortasına. Pijonluğunnan qalmır, cibinnən «Malboro» qutusu çıxarır, guya importnı siqaret çəkəndi, içindəki mestni siqaretdi - «Prima». Siqaret alışdırır. Ağaca söykənib gəlib-gedənləri güdür… Onun neyləyəcəyini yaxçı bilirəm, nöş bilmirəm, öz cavanlığım dögül bəgəm?.. Yanından keçən rus qızını kruçoka salmaq istəyir, deyir, devüşkə, ay devüşkə, mojno s toboy poznakomitsa?. Qız gülümsəyir, «idi otsuda, pijon» deyib atkaz gedir. «Bu çuvixanın svidanisi var, mən ölüm, yoxsa minnəti olsun ki, Mirağa Monolitski ona söz atır. Söhbət dögül ki…» - özünü sındırmır. Gözü başqasını gəzir - o olmasın, bu olsun…

- Mirağa Monolitski? - Qaçay təəccübləndi.

- Həri!

- Monolitdə yaşayırdınız?

- Yox, alə, hardaydı məndə o bəxt, «Sovetski»də olurdum, köhnə hamam vardı e, onun tinindəki obşi dvorda. Özüm dağlı balasıyam, özü də nəsillikcə qırbasan olmuşuq. O vədə şəhər belənçik dögüldü, evlərin hamısının damı qırdan idi. Hər küçədə iki-üç qır qazanı qeyniyirdi. Məhlədə bir qoca kişi vardı, çox yaşlıydı, lap bu gün-sabahlıq idi. Diyanıb baxırdı qır qazanına. Bir kərəm soruşdum ki, Sədulla baba, nöş belənçik baxırsan? Dedi baxıram ki, görəsən, axirətdəki qır qazanı da belənçik pıqhapıq qeyniyir?.. Dedim kəneşnə. Kişi bir hala düşdü, gəl görəsən. Əlbət, günahları çoxuydu. Nə bilim? Bəlkə də yazıq elə bilirdi ki, o dünyadakı qır qazanını da mən qeynədirəm.

Qaçayın dodaqları qaçdı, Mirağa Monolitskinin söhbətindən əməlli-başlı həzz alırdı.

- Babamın saldığı qıra söhbət yox idi, - Mirağa sözünə davam elədi, - düz beş il qarantiya verirdi. Lüt Kərim deyirdilər ona. İndinin özündə də mənə Lüt Kərimin nəvəsi deyənlər var. Bunnan utanmıram, nöş utanım? Kişi çestni yaşayıb ki, lüt olub. Çestni varlı harda görünüb? Heç yerdə, eləsini hind kinosunda da görə bilməzsən… Qırbasan vardı ki, şah kefində dolanırdı. Seyidağanın həyətində kofe s molokom rəngdə cağ «Zimbala» diyanırdı, amma bizdə üççarxlı velosiped də yox idi, nöşün ki, çestni yaşayırdıq. Seyidağa bu yannan qır basırdı, o yannan oğlu çıxıb damları şişlə deşirdi ki, atası üçün iş olsun. Həri… Bir kərəm vəzifəli bir adamın evinin damını düzəldirdik, babama təklif elədi ki, gəl səni nazirliyə işə düzəldim, babam otkaz getdi. Dedi üç sinif qurtarmışam, mənnən nə nazir olar, nə nazir müavini. O bədbəxt nə bilsin, elə bilirdi nazirlikdə işləyənlərin hamısı nazirdi… Sən deməginən hər nazirliyin özünün kanalizasiyatəmizlə-yəni, qırbasanı varmış... Söhbəti nəyə gətirirdim, qədeş?

- Mirağa Monolitskiyə, - Qaçay xatırlatdı.

- Həri, o vədə, cavanlıqda monolitin damına qır basanda kəlləmayallaq gəlmişdim aşağı, amma burnum da qanamamışdı, nastoyaşi kinoydu, mən ölüm. Qurban olduğum Allahdan gələn qismətiydi: düşmüşdüm ağacların üstünə, rus demiş, «myaqki posadkə». Belə baxanda, əsl möcüzəydi, Ətağa. O vaxtdan məhlədə mənə kliçka yamamışdılar - Mirağa Monolitski. O yıxılan, bu yıxılan, sənəti dəyişdim. Uzağa getmədim, elə Monolitin tinindəcə farsovşiklik elədim, qurşandım alverə. Şəhərin bərkgedən cayıllarını italyanski güllü qalstuknan, iranski svetnoy noskiynən mən obespeçit eləyirdim, yuqoslavski modelni tufliynən isə Şokolad Oqtay. İtin-

qurdun payını çıxannan sonra beş-on manat təmiz qazanırdım, deyirdim aza bərəkət. İndiki kimi dögüldü, indi insanlar alayı cürdü, milyon qazanırlar, amma gözləri doymur. Aza bərəkət deyən yoxdu. Nolub, alə, bu dünyanın malı kimə qalıb? Heç kimə… Bəlkəm, düz danışmıram, qədeş? - soruşdu.

Qaçay razılıq əlaməti olaraq başını yüngülcə tərpətdi.

Bayaqdan dil-dil ötən kepkalı kişi birdən kiridi, elə kiridi, deyərdin bundan belə onun ağzından kəlbətinlə də söz çəkə bilməzsən. Hələ də nəzərini yeraltı keçiddən ayırmırdı. Keçid küçənin o üzündə adamları udur, mədəsi götürmürmüş kimi udduqlarını bəri üzdə qaytarırdı. Mirağa bu adamların arasında hələ də kimisə axtarırdı. Onu qapıldığı hisslərdən ayırmaq istəmədiyindən Qaçay da danışmırdı, o da səssizcə oturub həmsöhbətinin baxdığı səmtə baxırdı. Baxırdı, amma fikri yanındakı kepkalı kişidəydi, gözləyirdi ki, söhbətin dalını gətirsin.

- Əcəb günlər vardı. Eh!.. - Mirağa köks ötürdü. - Deyəcəm, inanmayacaqsan. Uşaqlıqda arzum «lyotçik» - təyyarəçi olmaq idi - Hüseynbala Əliyev. Həri… O vədə indiki kimi dögüldü, məktəbdə yaxcı dərs verirdilər, bircə kərəm dərsdən qalanda müəllim evə gəlirdi, maraqlanırdı. Uşağı gözdən qoymurdular ki, avaralıq eləməsin. Klublar, dərnəklər vardı, mən «Dom moryakov»dakı aviamodelçilər dərnəyinə gedirdim, motorlu samolyot modeli düzəldib uçurdurdum. Uçmaq azarına tutulmuşdum. Rus mahnısı var e - «Orlyata uçatsa letat» - bax elənçik… Amma nolsun, arzum qaldı ürəyimdə, görünür qismət dögülmüş. Nə bilim, Allah bilən məsləhətdi, qismətdən hara qaçaceysən? Heç yerə… Babam Lüt Kərim dedi, Miribala, sənnən samolyotsürən çıxmaz, gəl yanımda muşqulat elə, qazana odun at, sənə morojnıpulu verəcəm. Elənçik, yavaş-yavaş uzaqlaşdım dərnəkdən. Sonrası da ki, bayaq dediyim kimi… - sözünü yarımçıq kəsdi, üzünü döndərdi.

Qaçay da onun baxdığı səmtə çöndü. Bir neçə addımlıqda gombul müştəri eynəkli tərəziçiylə höcətləşirdi. Tərəzi sahibi and-aman eləyirdi ki, onun tərəzisi təki düz işləyən yer üzündə tapılmaz.

- Ay qardaş, - dedi, - mənim tərəzimdə ingilislər özlərini çəkdirir, deyirlər beləsi heç Londonda yoxdu, sən də yapışmısan ki, tərəzin əyri çəkir. Qurana and olsun, misqala söz yoxdu…

Müştəri cəncəl adama oxşayırdı, bildiyini dədəsinə vermək istəmirdi.

- Mən ingilis-mingilis tanımıram, - höcətindən qalmadı. - Saa deyirəm ki, tərəzin düz çəkmir, azınnan üç yüz qram vurur.

Mirağa özünü saxlamadı, aralıdan-aralı söhbətə qarışdı:

- Qədeş! - müştəriyə səsləndi. - Bağışlaginən, adıvı da bilmirəm! Nə yapışmısan o bədbəxtin yaxasınnan? Atan yerində kişidi. Söhbət dögül ki… Myaskombinata ət prinimat eləmir ki, tərəzisi vursun? Sən yüz kilo oldun, ya yüz bir kilo, bunun o binavaya nə xeyiri var? Düz çəkmir, get özüvü alayı yerdə çəkdirginən. Yekə kişisən, əyibdü. - Üzünü Qaçaya tutdu: - Durub kişiynən qram-misqal söhbəti aparır, elə danışır, guya qızıldandı - 583 prob…

Mirağa söhbətə qarışmasaydı, bəlkə də müştəri hələ çox əngə verəcəkdi, var elə tərs, cığal adamlar. Tərəzinin haqqını verib kirimişcə yeraltı keçidə sarı uzaqlaşdı. Yer ağzını açıb bir andaca uddu onu. Tərəzi işlədən yaşlı kişi qalın şüşəli eynəyinin üstündən keçidə tərəf baxırdı, elə bil qorxurdu ki, yer udduğunu qaytaracaq, o cəncəl adam gəlib yenidən özünü onun tərəzisində çəkdirəcək, cığallıq edib ovqatını korlayacaqdı.

Mirağa mənalı-mənalı başını buladı, üzünü Qaçaya tutdu.

- Hər xasiyyətdə adam gəlir bulvara, - dedi. - Məni komendant qoysalar, bu bulvara elə «requlirovka» verərəm, belə necə lazımdı. İnsan elə bəndeyi-

xudadı ki, gərək ipini boş buraxmayasan, boş buraxdın ha, bildiyini eləyəcək, mən ölüm. Söhbəti yoxdu... - sözünü yarımçıq kəsdi, yerindən qurcuxub yaxından keçən kişini salamladı.

- Salamün əleyküm!.. Sənətkara eşq olsun!

Kişi başının tərpətədib onun salamını aldı.

- Hə, gələceysən tamaşaya, Monolitski? - soruşdu. Səsi, danışığı gülməliydi, uşaq yamsılayırdı elə bil.

- Söhbəti yoxdu, - Mirağa cavab verdi. Sənətkar adlandırdığı kişinin dalınca baxdı. - Artistdi, Cırtdanı oynuyur, - dedi.- Fikir verdin onun danışığına, qədeş? - soruşdu.

- Hə, nəsə… - Qaçay gülümsədi.

- Bu bədbəxt, teatrda o qədər kukla oynadıb ki, danışığını çaşıb, həyatda da Cırtdan kimi danışır. Nə bilim, bəlkəm həyatı da teatr yerində görür - kukla teatrı yerində. Alayı aləmdi kukla teatrı. Bir tamaşaya bəlkəm beş-on kərəm baxıram, ləzzət verir, mən də belənçik sənətdən kayf alıram. Yerin məlum, otururam arxa «ryadda», baxıram özümçün, balacalardan çox mən gülürəm. Bilsən, nöş xoşum gəlir, nöşün ki, bu teatrda həmişə haqq-ədalət üstün gəlir. Bəs, necə?.. Bir qarış boyuyla Cırtdan divə elə kəf gəlir, belə alayı cür. Beləncik olmalıdı də, xeyir şərə üstün gəlməlidi, yadımdadı, məktəbdə bu sayaq dərs öyrədirdilər. Adamın ürəyinnən keçir, kaş həyatda da belənçik olaydı. Cırtdanı gətirib buraxasan şəhərə, bircə saat da qala bilməz, anam qəbri. Deyər, bu nədi, alə, mən gəlib haralara düşmüşəm? Bura Bombeydi ki… Həyatdakı divlər hop eləyib udarlar onu, özü də necə lazımdı… Həyat nağıl dögül, alayı aləmdi. Hərdən ürəyimdən keçir, kaş anam məni nağıllarda doğaydı, nağıllarda yaşayaydım, balaca Cırtdan kimi, göstərəydim divlərə, təpəgözlərə yerlərini… Qədeş, bir kərəm sən də yoluvu salginən kukla teatrına, bəyənəcəksən, bilirəm. Uşaqlar kuklaları «jivoy» bilir, divi, təpəgözü görəndə az qalır bağırları yarılsın. Cırtdandan ötrü elə «perejivat» eləyirlər, belə alayı cür. Mənim özüm də haldan-hala düşürəm… Qədeş, açığını deyim, dramteatr var e, oranı meylim çəkmir. İnanmıram ordakıların oyununa, bilirəm ki, artistlik eləyirlər, tamaşadan sonra üz-gözlərinin qrimini silib gedirlər evlərinə. Kuklaların isə bir üzü var, qrimsiz-filansız, göründükləri kimidilər. Onların evi də elə teatrdı... Yaxşı nə qalıbsa, yenə kuklalarda qalıb, bilsən necə çestnidilər? Alayı çür… Mənə gülməginən, balacalar kimi mən də o oyuncaqları «jivoy» bilirəm, inanıram onlara. İndi heç nəyə, heç kimə inam qalmayıb. Belə baxanda, qədeş, kukla bizik, sənsən, mənəm, bax bu insanlardı. Həyatımız da elə kukla teatrıdı: divli, təpəgözlü, Cırtdanlı, canavarlı, tülkülü, dovşanlı…

Yaxında partlayan piston gurultusu onun sözünü ağzında qoydu. Narazı-narazı başını buladı, çiyinlərini çəkdi. Oturduğu yerdən dikəldi.

- Di qal səlamət, qədeş! - dedi. - Mən getdim nağıllar aləminə. Orda kuklalar gülür. Kuklalar güləndə mən də gülürəm…

Kepkasını yanakı qoyub ağır addımlarla teatr binasına tərəf uzaqlaşdı.

Noyabr 2012

◆ P o e z i y a



Saleh QURBANOV

DEYİLMİŞ

Zirvələr kürüdür qarı,
Üstümə yeridir qarı.
Ahımdan əridir qarı,
Dağlar qar yeri deyilmiş.

Hər şey vaxtın köçündədi,
Varındadı, heçindədi.
Canım odun içindədi,
Yanan bir yeri deyilmiş.

O göylərdən gəldi dərdim,
Öz-özünə güldü dərdim,
Nə çəkirəm bildi dərdim,
Dünya sirr yeri deyilmiş.

Arzular illər xəstəsi,
Təntidir canın istisi,
Başımdan çıxır tüstüsü,
Ürək qor yeri deyilmiş.

* * *

Bir azca yalan sat, gecik görüşə,
Gecik, döyəcləyim, vurum kölgəmi.
Gecik, gün qaralsın, sıxılsın canım,
Yenə səbrim kimi yorum kölgəmi.

Axtardı səsini, tapmadı səsim,
Qaldı əllərimdə gül əsim-əsim.
Dedim ayağına tozu dəyməsin,
Gəldiyin yollara sərim kölgəmi.

Ömrüm yaş aparsın yaşın üstündən,
Ötüşsün baharım qışın üstündən,
Asım gözlərimi başın üstündən,
Bəlkə, bal yuxunda görüm kölgəmi.

* * *

Köz-köz olan o lalələr,
Bir ürəyin qoru deyil.
Yaddaşında qan görməsən,
O, Şuşanın qarı deyil.

Dərd göyərdib göy daşları
Qəmlər üzdü yaddaşları.
Şəhid olan göz yaşları
Buludların barı deyil.

A gözlər - qara yuxular,
Canımda sükut sıxılar.
Körpən qəbirdən yıxılar,
Oyan, yuxu yeri deyil.

ÜŞÜDÜ

Göylər, mənə əl uzatma,
Əlim yanımda üşüdü.
Qarışmışam qırışlara,
Vaxt gümanımda üşüdü.

Pay uman yox dərd barımdan,
Bu sellənən yaşlarımdan.
Araz keçdi damarımdan,
Susdu, qanımda üşüdü.

Yol gəlirəm gör nə vaxtdı,
Yer üzünə qanım axdı.
Haqqım Hələbdə dustaqdı,
Dünya canımda üşüdü.

* * *

De ay dünya, tutduqların,
Günahdırmı, savabdırmı?
Bir tərəfdə batan günəş,
Bir tərəfdə sabahdımı?

Ölən ümid, batan nəfəs,
Hər sirrinə bu can qəfəs.
Ürəklərdə qovrulur səs,
Göylər, sənə agahdırmı?

Daş atan əl birindədir,
Çox cavablar dərindədir.
Hələ dünya yerindədir,
Yandırmadı, bu ahdımı?!

DÜŞƏR

Elə məğrurdur ki, Qartal qayası,
Əyilməz, başından papağı düşər.
Yaman qovğalıdır dəli küləklər,
Əl atsa turacın darağı düşər.

Arzusu barlanar var gözləyənin,
Bəxtin budağından bar gözləyənin.
Yuxusu çin olar yar gözləyənin,
Bu gələn baharın ayağı düşər.

Saleh, buludları keçsin inamın,
Bir dolan başına bu bulaq-camın.
Yanağı közərən aylı axşamın,
Yamyaşıl çəmənə çırağı düşər.

ÜZÜLDÜ

Payız dərdi nəfəsini,
Kölgə budaqdan üzüldü.
Saralıbdı yazın üzü,
Ömrü yarpaqdan üzüldü.

Bax mürgülü təpələrə,
Fikirdədi hər bənd-bərə.
Duman enir dərələrə,
Əlləri dağdan üzüldü.

Bulad baxır kövrək-kövrək,
Xəzəllənir dəli külək.
Solub gedir çəmən-çiçək,
Canı torpaqdan üzüldü.

Durnalar uçur bahara,
Səsimdi qaçır bahara,
Həsrət əl açır bahara,
Nəğmə dodaqdan üzüldü.

RÜBAİL

İTİRMƏ

Getsən evimizdə azacağam mən,
Arxanca əlvida yazacağam mən.
Qəlbimdə qəbrimi qazacağam mən,
Amandı, amandı, itirmə məni.

İtirmək asandı, tapmaq çətindi,
Həsrət sədlərini çapmaq çətindi.
Küt gedən kündəni yapmaq çətindi,
Göz görmür, dumandı, itirmə məni.

Yolumuz dərədən qayadan keçir,
Rənglərə boyanır, boyadan keçir.
Yanımızdan bizi oyadan keçir,
Ayrılmaq yamandı, itirmə məni.

İtirsən başqası tapar, yanarsan,
Qəlbindən son ümid qopar yanarsan.
Çətin Rübaili bir də taparsan,
Tapmaq bir gümandı, itirmə məni.

QANDA AĞ YELKƏNLİ QAYIQLAR ÜZÜR

Qanda ağ yelkənli qayıqlar üzür,
O başdan-ayağa həyat daşıyır.
Köpək balığının bağını üzür,
Bəxtəvər qayıqçı xoşbəxt yaşayır.

O qoymur öldürə qardaş qardaşı,
Qüdrəti ölçülür ömürlə, günlə.
Dərdi bu qayğıya doldurub daşı,
Sonra gileyini ürəklə dinlə.

Qanda al yelkənli qayıqlar üzür.
Doğmanı, ögeyi yaxşı tanıyır.
Hər yolayrıcına gözətçi dözür,
Zərbəyə dözməsə qanı qanıyır.

Al yelkən küləyin qucağındadı
Öpüşdən dodağı lalə-lalədi.
Yanan bir həyatın ocağındadı
Yolu addımbaşı bir şəlalədi.

Səhər ağ yelkənlə açılsa belə,
Sürət neçə mildi, bilmirəm düzü.
Ləpələr gülüşlə gəlsələr dilə,
Qürubda al yelkən gözlədir bizi.

BUYNUZ DEYİLƏM HA

Buynuz var içində şərab içilir,
Buynuz var uğrunda candan keçilir.
Buynuz var satmağa kəllə seçilir,
Buynuz deyiləm ha... amma nə buynuz?!

Buynuz var sirrindən baş da baş açmır,
Buynuzsuz olanda dava yaraşmır.
Naşı kəmənd atsa, buynuz dolaşmır,
Buynuz deyiləm ha... amma nə buynuz.

İsgəndər gizlətdi buynuzlarını,
Bilmədi neyləsin dövlət - varını.
Verdi buynuzlara ixtiyarını,
Buynuz deyiləm ha... amma nə buynuz.

Yetən bir əlilə buynuzdan tutur,
O biri əlilə ulduzdan tutur.
Bəzən də buynuzlar buynuzdan tutur,
Buynuz deyiləm ha... amma nə buynuz.

Öldürmək istəyən buynuzla vurar,
Diriltmək istəsə çarəsi qərar.
Öldürmək diriltmək möcüzəsi var -
Buynuz deyiləm ha... amma nə buynuz.

Buynuzluda buynuz qoşadı, təkdi,
Sahibindən uca yüksələcəkdi.
Görən buynuzsuzlar neyləyəcəkdi -
Buynuz deyiləm ha... amma nə buynuz.

Nə qədər oyun var buynuz qurubdu,
Vurmaq gərəkdirsə buynuz vurubdu.
Bizə fil dişini unutdurubdu,
Buynuz deyiləm ha... amma nə buynuz.

KİMDƏN SORUŞAQ

Bir yanı buz dağı, bir yanı ocaq,
Günəş bir bucaqdı, torpaq bir bucaq.
Hansını danlayaq, hansını qucaq,
Doğma kim, yad kimdi, kimdən soruşaq?

Kimdi ev yiyəsi, kimdi baş qonaq,
Dönüb pərvanəyə oduna yanaq.
Aləmə səs salır bir tel, bir çanaq,
Bu sirri mizrabdan, teldən soruşaq?

İl boyu hər yeri dolu daşlayır,
Çiçək harda yatır, harda qışlayır.
Bahar hardan gəlir, hardan başlayır,
Çəməndən soruşaq, çimdən soruşaq?

Şüşədən uzundu bu devin ömrü,
Uzada biləndə çox sevin, ömrü.
Nə qədər olacaq bu evin ömrü,
Tavandan soruşaq, himdən soruşaq?

Hər şeyin yeri var səbrin qabında,
Sevincin, qəzəbin, intiqamın da.
Kim kimə borcludu öz ilqarında,
Qayğıdan soruşaq, kindən soruşaq?

GÜNƏŞ KÜSDÜRƏNİ AY BARIŞDIRIR

Ərzi kim fırladır, kim qarışdırır,
Axan ulduzları yel alışdırır.
Kimdi hakim olan, kim danışdırır,
Günəş küsdürəni, Ay barışdırır.

Bir yanı dərədi, bir yanı qaya,
Göydən ulduz gəlir rəng saya-saya.
Üzünü yumağa əyilir çaya -
Özündən küsəni çay barışdırır.

Ulduz öpüşəndə ildırım çaxır,
Buluddan pərdə çək, tamarzı baxır.
Payızda sel gəlir, sevənlər axır,
Qışda küsənləri yay barışdırır.

Ulduzla fırlanır Yer yavaş-yavaş,
Qəzəblə enəndə göydə yanır daş.
Ulduz tapmayanda özünə sirdaş,
Yer tapır ulduza tay, barışdırır.

Barsız ağac küsür, başını əymir,
Meyvə kal dərilir, kənarda dəymir.

Küsən ox yan ötür, hədəfə gəlmir,
Ox ilə hədəfi yay barışdırır.

Ulduzlar küsəndə yağışlar yağır,
Göz yaşı silməyə sözqanan çağır.
Küsənə verməyə nur payı ayır,
Ulduzlar küsəndə pay barışdırır.

HƏLƏ...

Qarabağı el almayıb,
Yurd zəfərə əl çalmayıb,
Qəbristanda yer qalmayıb,
Hələ ölmək istəmirəm.

İntiqama gedir yolum,
Gərək mən də hazır olum.
Boşalmışdım bir də dolum -
Hələ ölmək istəmirəm.

Qurumayıb köynək qanım,
Göynəyimi necə danım.
Tapdaq altda yüz ünvanım,
Hələ ölmək istəmirəm.

Gələn payızda, yaz deyil,
Murazım var, muraz deyil.
Dərdimdən ölən az deyil,
Hələ ölmək istəmirəm.

Ölməyibdir hələ hünər,
Səbr eləyib gör nə qədər.
Torpağımdan dərs cücərər,
Belə ölmək istəmirəm.

SEÇİLMİR

Keçilməzin harasından keçim mən,
İçilməzin durusu yox içim mən.
Baş açmıram başsızların içindən,
Gülməyindən ağlamağı seçilmir.

İstəyində qiyməti yox minnətin,
Heyrətində ölçüsü yox heyrətin.
Açarı var cəhənnəmin cənnətin,
Açmağıyla bağlamağı seçilmir.

Gül oynadır kül sovuran əlində,
Döymək üçün kəmər saxlar belində.
Dodaqları köz saxlayır dilində,
Öpməyiylə dağlamağı seçilmir.

Qışqıranda qulaq batır səsindən,
Sükut ilə kinli bəhsəbəhsindən.
Kim qazanır uğurundan, nəsindən,
Susmağından çağlamağı seçilmir.

Yaxşılığı yamanlıqdan soyulmur,
Sevinəndə gül ətrindən doyulmur,
Hirslənəndə tikan yana qoyulmur,
Didməyindən yağlamağı seçilmir.

DƏNİZ QIZIL KİTABDI

Dəniz qızıl kitabdı,
Qızıl balıqlar yazır.
Batanların qəbrini
Dəniz suyunda qazır.

Dəniz qızıl kitabdı,
Ləpələri gümüşdən.
Külək sudan nə yapdı,
Xəbər alın gülüşdən.

Dəniz suyunda qızıl,
Dəniz suyunda duz var.
Balıq qızıl yeməsə,
Bu dövlət bizə qalar.

Dəniz qızıl yatağı
Düş dibinə dürr apar.
Dənizə kəm baxanı
Dəniz qızılla boğar.

Dəniz qızıl kitabdı,
Əlifbası tapılmır.
Bizdən görən nə umar,
Təmənnası tapılmır.

Suyundakı qızıldan
Ekvatora kəmər sal.
Qızıl balıqdan alıb
Ovqatına nəmər sal.

SƏNƏDLƏRİN DİLİ İLƏ

Mir Cəfər Bağırovun məhkəməsinə hazırlıq mərhələsində əzablara düçar olmuş ziyalılarımızdan biri də Cəfər Cəfərovdur. ARPİİSSA-da tanış olduğumuz müvafiq sənədlər bunu təsdiq edir. Uzun zaman ədəbi ictimaiyyətdən gizli qalmış qovluqlardakı materiallar göstərir ki, C. Cəfərov təkcə Azərbaycan professional teatrşünaslığının banisi, ədəbiyyatşünas-tənqidçi olmamış, həm də cəsarətli və yenilməz dövlət xadimi kimi fəaliyyət göstərmişdir. C. Cəfərovun öz dəst-xətti ilə yazdığı tərcümeyi-halında deyilir:

"Mən, Cəfər Haşım oğlu Cəfərov 1914-cü ildə Bakı şəhərində tacir ailəsində anadan olmuşam. Atam öz qardaşı ilə birlikdə kiçik baqqal dükanının sahibi idi. 1921-ci ildə vəfat etdi. Ailəmiz böyük qardaşımın öhdəsində qaldı. O, 1921-ci ilədək fərdi ticarətlə məşğul olmuş, sonra isə dövlət ticarəti sistemində çalışmışdır.

1930-cu ildə Bakı Pedaqoji Texnikumunu bitirmişəm. İki il müəllimlik etmişəm. Əvvəlcə Kürdəmir rayonunda kənd məktəbində, sonra isə Bakı şəhərinin Orconikidze (*indiki Suraxanı* **- T.Q.) rayonundakı fabrik-zavod yeddiillik məktəbində işləmişəm. 1937-ci ildə Moskva Pedaqoji İnstitutunun ədəbiyyat fakültəsini bitirmişəm. Bakıya qayıtdıqdan sonra ədəbi fəaliyyətlə məşğul olmuşam. Bir müddət "Ədəbiyyat qəzeti" redaksiyasında və Azərbaycan Dövlət Dram Teatrında çalışmışam. Qəzetdə tənqid şöbəsinin, teatrda ədəbi hissənin müdiri işləmişəm. 1938-ci ilin fevralından Bakı kinostudiyasında ssenari şöbəsinin müdiri vəzifəsində çalışmışam. 1938-ci ilin sonunda Sovet Yazıçılar İttifaqına üzv qəbul olunmuşam və məsul katib seçilmişəm. 1940-cı ildə SSRİ Elmlər Akademiyası Azərbaycan Filialının Ədəbiyyat İnstitutunda baş elmi işçi vəzifəsində çalışmışam. 1940-cı ilin avqustunda orduya həqiqi hərbi xidmətə çağırılmışam. Bir il Zaqafqaziya Hərbi Dairəsi Siyasi İdarəsində xidmət göstərmişəm. Müharibənin əvvəllərində isə zabit rütbəsində cəbhə mətbuatında təlimatçı-ədəbiyyatçı vəzifəsində olmuşam. 1941-ci ilin noyabrında Krım cəbhəsinə göndərilmişəm. Burada 1942-ci ilin noyabrınadək azərbaycanca qəzetin nəşri üzrə redaktor müavini olmuşam. 1942-ci ildən 1946-cı ilin avqustunadək Zaqafqaziya cəbhə**

mətbuatında təlimatçı-ədəbiyyatçı, 1946-cı ilin sentyabr ayından 1947-ci ilin fevralınadək Dördüncü Ordunun Siyasi Şöbəsinin yeddinci bölməsində baş təlimatçı işləmişəm. Həmin il fevralın 27-də ordudan tərxis olunmuşam. 1947-ci il martın 5-dən Azərbaycan K(b)P Mərkəzi Komitəsinin Təbliğat və təşviqat şöbəsinin incəsənət bölməsinin müdiri işləyirəm.

Ordu sıralarında olduğum vaxtlarda hərbi komandanlığın tapşırığı ilə üç dəfə xarici ölkədə olmuşam. 1941-ci ildə və 1944-cü ilin fevralından may ayınadək Təbrizdə, Tehranda (İran) və Bafda (İraq), 1945-ci ilin martından 1946-cı ilin mayınadək yenə də Təbrizdə olmuşam.

1936-cı ilədək komsomol sıralarında olmuşam. 1943-cü ildən partiya üzvüyəm. Evliyəm. Oğlum vardır. Xaricdə yaşayan, eləcə də repressiya olunmuş yaxın qohumum yoxdur.

İmza: C.Cəfərov,
13 may 1947-ci il."

Arxivdə C. Cəfərov barəsində 1947-ci ildən 1953-cü ilədək M. C. Bağırovun imzaladığı qərarlar saxlanılır. Bir neçəsi ilə tanış olun:

"Azərbaycan K(b)P MK-nın Bədii ədəbiyyat və incəsənət şöbəsi müdirinin müavini haqqında

Cəfər Haşım oğlu Cəfərov, 1943-cü ildən ÜİK(b)P üzvü, partiya bileti N5276892, Azərbaycan K(b)P MK-nın Bədii ədəbiyyat və incəsənət şöbəsi müdirinin müavini təsdiq edilsin.

ÜİK(b)P MK-dan xahiş olunsun ki, Cəfərov yoldaşı "Pravda" qəzetinin Azərbaycan SSR üzrə xüsusi müxbiri vəzifəsindən azad etsin.

Azərbaycan K(b)P Mərkəzi Komitəsinin katibi M.C.Bağırov
16 noyabr 1951-ci il"

Bir il başa çatmamış Azərbaycan rəhbəri işgüzar məsul işçinin irəli çəkilməsi barədə qərar imzalamışdır:

"Azərbaycan K(b)P MK-nın Bədii ədəbiyyat və incəsənət şöbəsinin müdiri haqqında

Cəfər Haşım oğlu Cəfərov, 1943-cü ildən ÜİK(b)P üzvü, partiya bileti N5276892, Azərbaycan K(b)P MK-nın Bədii ədəbiyyat və incəsənət şöbəsinin müdiri təsdiq edilsin.

ÜİK(b)P MK-dan bu qərarın təsdiq edilməsi xahiş olunsun.

Azərbaycan K(b)P Mərkəzi Komitəsinin katibi M.C.Bağırov
5 iyul 1952-ci il"

Cəfər Cəfərov barədə sonuncu rəsmi sənədə M.C.Bağırov 1953-cü ildə imza atmışdır:

"Azərbaycan SSR Mədəniyyət nazirinin birinci müavini haqqında

Cəfər Haşım oğlu Cəfərov, 1943-cü ildən ÜİK/B/P üzvü, partiya bileti N5276892, Azərbaycan SSR Mədəniyyət nazirinin birinci müavini təsdiq edilsin.

ÜİK(b)P MK-dan bu qərarın təsdiq edilməsi xahiş olunsun.

Azərbaycan K(b)P Mərkəzi Komitəsinin katibi M.C.Bağırov
18 aprel 1953-cü il"

İki ay keçmiş, 1953-cü ilin iyulunda M.C.Bağırov Kremlin yeni başçıları tərəfindən Azərbaycan rəhbərliyindən uzaqlaşdırıldı. Uzun illər M.C.Bağırovla çiyin-çiyinə işləmiş bəzi vəzifə sahibləri kimi, C. Cəfərovu da cəzalandırmaq uzun çəkmədi. Azərbaycan KP MK Bürosunun 1953-cü il 28 avqust tarixli "Azərbaycan SSR Mədəniyyət Nazirliyi Radio Verilişləri Baş İdarəsinin avqustun 26-da getmiş verilişində çox ciddi siyasi qüsur haqqında" qərarında deyilir: "Bu il avqustun 26-da studiyada qabaqcadan qulaq asmadan, "Ordenli Gürcüstan" adlı gürcü mahnısını efirə buraxmaqla və beləliklə də, xalq düşməni Beriyanı mədh edən əsəri yaymaqla çox ciddi səhvə yol verilmişdir. Bu yaramaz fakt göstərir ki, Azərbaycan SSR Mədəniyyət Nazirliyi (Ələkbərov M., Cəfərov C. yoldaşlar) və Azərbaycan SSR Daxili İşlər Nazirliyinin İkinci İdarəsi (Sultanov A. yoldaş) dəfələrlə onlara edilən iradları nəzərə almamış, respublikanın radio verilişləri, kinoprokat, kitab palatası, kitabxanalar və b.k. fondları əməlli-başlı yoxlamadan keçirməmiş, bu fondlardan xalq düşməni Beriyanın adı ilə bağlı nə varsa, hamısını götürüb ləğv etməmişlər". Qərarı Azərbaycan KP MK katibi Vitali Səmədov imzalamışdır.

Azərbaycan KP MK Bakı Komitəsinin 1953-cü il dekabrın 17-dən 19-dək keçirilmiş otuzuncu konfransından sonra Azərbaycan Yazıçılar İttifaqının plenumu oldu. Plenumda "Azərbaycan Sovet dramaturgiyasının vəziyyəti və vəzifələri haqqında" məsələ müzakirə olunsa da, başlıca tənqid hədəfi Azərbaycan KP MK üzvü, respublika mədəniyyət nazirinin birinci müavini Cəfər Cəfərov idi. Bəzi çıxışlardan parçalara diqqət yetirin:

Şair Zeynal Xəlil - Mədəniyyət nazirinin birinci müavini C.Cəfərov yoldaş teatrda əsər üzərində iş getdiyi məqamda işi dayandırmaq, bədii şura tərəfindən qəbul olunmuş bir əsəri yenidən oxuyub rədd etmək kimi hallara yol verir. Belə çıxır ki, C.Cəfərov "hə" desə, əsər yaşayacaq, "yox" desə, öləcəkdir. Cəfər Cəfərovun "Dramaturgiya və teatrımızın yeni yüksəlişi uğrunda" məqaləsində konfliktsizlik nəzəriyyəsi təbliğ olunur. Cəfər Cəfərov dramaturq İlyas Əfəndiyevin "Bahar suları" əsərindəki konflikti izah edərkən, Alxanla Uğur arasındakı konflikti daha yaxşı və gözəl konflikt kimi qələmə verir və dramaturqdan tələb edir ki, bu iki müsbət adam ("əla" və "yaxşı") arasında ziddiyyəti əsas götürsün.

Tənqidçi Əkbər Ağayev - Teatr tənqidi ilə məşğul olan tənqidçi Cəfər Cəfərovun məqalələrində gənc dramaturqların yaradıcılığına nihilist bir münasibət hiss olunur.

Dramaturq Cabbar Məcnunbəyov - Azərbaycan mədəniyyət nazirinin birinci müavini Cəfər Cəfərov dramaturqlarla teatrın qarşılıqlı yaradıcılıq işi aparmasına mane olur, yeni əsərlərin oxunması, qəbul edilib tamaşaya qoyulması kimi ciddi məsuliyyət tələb edən bir işdə dostbazlıq edir və şəxsi münasibətləri əsas götürür. Mənim yazmış olduğum "Mənim anam" pyesi tamaşaya hazırlandığı bir zamanda Cəfər Cəfərov teatrda işi dayandırmış və Sabit Rəhmanın "Nişanlı qız" pyesini (axırıncı pərdə hazır olmadığı halda) tamaşa üçün qabağa salmışdır.

Yazıçı Hüseyn Mehdi - Ədəbi tənqid və nəzəriyyə sahəsindəki səhvlərin mənbəyi burjua kosmopolitizmində və nihilizmindədir. Bu səhvlərin mahiyyətini dərk etmək üçün tənqidçi Cəfər Cəfərovun teatr və dramaturgiya haqqında yazdığı məqalələri göstərmək kifayətdir. Qeyd etmək lazımdır ki, Azərbaycanda konfliktsiz dramaturgiya "nəzəriyyəsini" yayanlardan birisi Cəfər Cəfərovun özüdür. Cəfər Cəfərov sovet ədəbiyyatımızda hər cür ziyanlı meyllər axtarmaqda daha böyük aktivlik

göstərir. O, yabançı xəlqiliklə mübarizə pərdəsi altında marksist tənqidin prinsiplərinə qarşı tamamilə yanlış bir mövqe tutur.

Azərbaycan SSR mədəniyyət nazirinin birinci müavini C. Cəfərova qarşı hücumlar 1954-cü ilin ilk günlərindən yenidən baş qaldırmışdır. Nazir Məmməd Ələkbərovla Cəfər Cəfərov arasındakı uzun illərin səmimiyyət körpüsü uçulub dağılmışdır. Nazirlikdə keçirilmiş iclasın stenoqramından bir parçaya diqqət yetirin:

M. Ələkbərov - Dünən Mərkəzi Komitədə idim. Yaqubov yoldaşın qəbulunda oldum, onu Yeni il münasibətilə təbrik edəndə sözümü ağzımda qoydu...

C. Cəfərov - Nə üçün?

M. Ələkbərov - Sənin üstündə. Axı, sənin kitabxanada nə işin vardı? Orada Bağırovdan niyə danışırdın? Mən səni başa düşə bilmirəm. Elə çıxır ki, yazıçılar tam haqsızdırlar, sən cəmiyyətimizlə Bağırov arasında konflikt görmürsən! Partiyamızın xəttinə zidd mövqe tutursan!

C. Cəfərov - Əvvəla, mən kitabxanaya həmişə getmişəm, gedəcəyəm də. İkincisi, birinci müavininiz kimi, Mərkəzi Komitənin nazirliyimizə tapşırdığı vəzifələrin yerinə yetirilməsini mən yerlərdə yoxlamalıyam. Respublika kitabxanasında nə görsəm yaxşıdır?! Kitabxanada Mir Cəfər Bağırovu da Beriyaya qatıb jurnal və qəzetlərdə şəklini və adını qaralayıblar. Bu jurnala baxın, biabırçılıq deyilmi? Bağırov barədə heç bir cəza tədbiri olmadığı halda, niyə onun adını bədnam edirik?!

M. Ələkbərov - Bu "Oqonyok"u öz əlinlə cırıb at zibil qutusuna, Yaqubov yoldaşın Xruşşovla söhbətindən xəbərin yoxdur. Qulaq as: "Beriya-Bağırov Hitler-Mussolini kimi cütlükdür".

C. Cəfərov - Bir də bu sözləri dilinizə gətirməyin! Gələcək göstərəcək ki, Hitleri də, Mussolinini də Azərbaycanda axtarmaq lazım deyilmiş! Bu jurnalı da o günlər naminə saxlayacağam!

M. Ələkbərov - Sənin ağlın başında deyil! O jurnalda Bağırovun fotosu var. Nə çərənlədiyini özün bilərsən, mən sənlə bir yerdə işləyə bilmərəm!

C. Cəfərov - İşləmirsən, işləmə! Xudahafiz!

1954-cü ilin yanvar ayında M. Ələkbərov birinci müavini Cəfər Cəfərov barədə Azərbaycan KP MK-nın birinci katibi T.Yaqubova rəsmi məktubla müraciət edir. Bu sənədlə tanış olun:

"Bir neçə gün bundan əvvəl öz işini başa çatdırmış Azərbaycan Lenin Kommunist Gənclər İttifaqının on doqquzuncu qurultayında yazıçılardan Süleyman Rüstəm, Mehdi Hüseynov və Süleyman Rəhimovun qurultay iştirakçıları ilə görüşü zamanı Azərbaycan SSR mədəniyyət nazirinin birinci müavini C. Cəfərovun ünvanına ciddi ittihamlar söylənilmişdir. Adları çəkilən yoldaşlar C.Cəfərovun yaradıcı qüvvələrə, gənc yazıçılara etinasız münasibətindən danışmış, onu burjua nihilizmində günahlandırmışlar. C.Cəfərov haqqında belə ittihamlar, həmçinin, Azərbaycan Yazıçılar İttifaqının ilk partiya təşkilatının yığıncağında və sonuncu plenumunda, Azərbaycan KP MK Bürosunda Yazıçılar İttifaqının mətbu orqanlarının yeni redaksiyası tərkibinə baxılması zamanı səslənmişdir. "Ədəbiyyat və incəsənət" qəzeti bir neçə dəfə C.Cəfərovun yarıdıcılığına dair kəskin materiallarla çıxış etmişdir.

C. Cəfərov yoldaşa qarşı irəli sürülən ittihamlar onun mədəniyyət nazirliyində işlədiyi müddətədək yaradıcılıq fəaliyyətinə aiddir. Lakin

C.Cəfərovun hazırda ən kobud səhvi bundan ibarətdir ki, ona qarşı ittihamlara heç bir yerdə münasibət bildirmir, bunları nə təsdiq, nə də inkar edir.

C. Cəfərov yoldaş mədəniyyət nazirinin birinci müavini kimi yaradıcılıq təşkilatlarının işinə rəhbərlik edir. Bu mühüm sahədə normal, səmərəli fəaliyyətə o zaman nail olmaq mümkündür ki, bəstəkarlar, yazıçılar, rəssamlar və b.k. ittifaqlarla qarşılıqlı normal əlaqələr mövcud olsun. Belə əlaqələr hazırda yoxdur və C.Cəfərov yoldaşın gələcəkdə Mədəniyyət Nazirliyindlə işləməsi üçün çox gərgin bir vəziyyət yaranmışdır.

Yuxarıda göstərilənləri nəzərə alaraq, işin mənafeyi üçün Cəfər Haşım oğlu Cəfərovun tutduğu vəzifədən azad edilməsini Sizdən xahiş edirəm.

Azərbaycan SSR mədəniyyət naziri M.Q.Ələkbərov
23 yanvar 1954-cü il"

Birinci katib yanvarın 23-də aldığı məktubu dərhal dərkənarla Azərbaycan SSR Nazirlər Sovetinin sədri T.Quliyevə ünvanlamışdır. Mədəniyyət nazirinin birinci müavininin məsələsi hökumət səviyyəsində həll edilmiş, arxivdə tanış olduğumuz aşağıdakı qərar çıxarılmışdır:

"Azərbaycan SSR Nazirlər Soveti Azərbaycan SSR mədəniyyət nazirinin birinci müavini barədə nazir M.Ələkbərov yoldaşın yazılı məlumatını nəzərdən keçirərək qeyd edir ki, son vaxtlar partiya və ictimai təşkilatların yığıncaqlarında, Bakı şəhər partiya konfransında, Azərbaycan LKGİ-nin XIX qurultayında, Azərbaycan KP MK Plenumunda Azərbaycan SSR mədəniyyət nazirinin birinci müavini C.H.Cəfərov yaradıcı təşkilatlara rəhbərlikdə, mədəniyyət və incəsənət müəssisələri kadrlarının seçilməsində və yerləşdirilməsində buraxdığı ciddi səhvlərə görə kəskin tənqid edilmişdir. Bu tənqidin tamamilə düzgün olmasına baxmayaraq, C.Cəfərov yoldaş bu günədək cavab verməyi özünə rəva saymamışdır.

C.Cəfərov yoldaşın davranışının qeyri-düzgünlüyünü və gələcəkdə respublika mədəniyyət nazirliyində ona tapşırılan sahəyə rəhbərliyi təmin edə bilməyəcəyini nəzərə alaraq, Azərbaycan SSR Nazirlər Soveti qərara alır:

Cəfər Haşım oğlu Cəfərov yoldaş Azərbaycan SSR Mədəniyyət nazirinin birinci müavini vəzifəsindən azad edilsin.

Azərbaycan SSR Nazirlər Sovetinin sədri T. Quliyev
Azərbaycan SSR Nazirlər Soveti İşlər İdarəsinin müdiri
N.T.Həsənzadə
23 yanvar 1954-cü il"

Hökumətin qərarı Mərkəzi Komitə Bürosunun iclasında bir daha qüvvəyə minmişdir:

"Azərbaycan SSR Mədəniyyət nazirinin birinci müavini barədə

Azərbaycan SSR Mədəniyyət nazirinin birinci müavini Cəfər Haşım oğlu Cəfərovun gələcəkdə bu vəzifədə saxlanılmasının qeyri-məqsədəuyğunluğuna dair Azərbaycan SSR Nazirlər Sovetinin təklifi qəbul edilsin.

Azərbaycan KP MK Katibi T.Yaqubov
6 fevral 1954-cü il"

M. C. Bağırovun qarasına danışmayan əyilməz vəzifə sahibinin işdən qovulmasına dair qərarı imzalamış T.Yaqubovun da dövranı uzun sürmədi. On gündən sonra, 1954-cü il fevralın 17-də Azərbaycan KP MK plenumunun qərarı ilə vəzifəsindən kənar edildi, İmam Daşdəmir oğlu Mustafayev Azərbaycan KP MK-nın birinci katibi seçildi. Həmin il Azərbaycan Yazıçılar İttifaqının rəhbərliyində də dəyişiklik baş verdi. Mirzə İbrahimovun Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri seçilməsi ilə əlaqədar Azərbaycan Yazıçılar İttifaqının martın 18-də keçirilmiş plenumunun qərarı ilə Süleyman Rəhimov İttifaqın İdarə Heyətinin sədri oldu. "Burjua nihilisti" C. Cəfərova yeni hücumlara rəvac verildi.

1954-cü il aprelin 15-də Azərbaycan sovet yazıçılarının ikinci qurultayı öz işinə başladı. C.Cəfərov qurultayın nümayəndəsindən daha çox "müttəhim"i idi. Qurultayda "Azərbaycan sovet tənqidinin problemləri" mövzusunda məruzə edən Məmməd Cəfər Cəfərov C. Cəfərov haqqında danışarkən, sanki dövlət ittihamçısıydı: **"Cəfər Cəfərov 1939-cu ildən bəri əsassız, sübutsuz olaraq Azərbaycan sovet incəsənətində, musiqidə, rəssamlıqda, memarlıqda, xüsusən ədəbiyyatda, şeir və tənqiddə yabançı xəlqiliyin kök saldığını inadla iddia edir, xalq poeziyasının, musiqisinin müsbət ənənələrindən istifadə etməyi sovet ədəbiyyatı üçün böyük təhlükə sayır, milli tradisiyaya bağlılığa xor baxaraq, klassik Azərbaycan ədəbiyyatını və Azərbaycan dilini "aziyaşünaslıqda" təqsirləndirir. Cəfər Cəfərovun ikinci nöqsanı ondan ibarətdir ki, o, bu əsassız, dəlilsiz "nəzəri" uydurmalarını M.C.Bağırovun zorakılığı vasitəsilə əməli işə keçirmişdir. M.C.Bağırov da hər yerdə eyni uydurmaları nöqtəsinə qədər təkrar edərək, Sovet Azərbaycanının ən qabaqcıl yazıçı və sənətkarlarını terrorizə etmək işində Cəfər Cəfərovun saxta "nəzəriyyəsinə" əsaslanmışdır".**

Qurultayın son iclasında C. Cəfərova söz verilmişdir. O, demişdir: "Yoldaşlar, hər cür ittiham dəlil tələb edir. Yoldaş Məmməd Cəfər Cəfərov öz məruzəsində dəlilləri istədiyi şəklə salıb izah edir. Onun birinci dəlili budur ki, guya Cəfər Cəfərov Azərbaycanda konfliktsizlik nəzəriyyəsinin əsasını qoymuşdur. Belə bir şey olmamışdır. Konfliktsiz həyat yoxdur, deməli, konfliktsiz əsər də ola bilməz. Bununla belə, mən sizlərdən soruşuram: tutalım, bu nəzəri fərziyyənin əsasını mən qoymuşam, bunun nihilizmə nə dəxli var? Kim deyir ki, konfliktsizlik nəzəriyyəsi nihilizmin təzahürüdür? Mən hələ demirəm ki, "Pravda" qəzetindəki məqalədə deyilir ki, bu nəzəriyyənin bizdə kök salmasında dramaturq və tənqidçilər müqəssirdirlər. Bəs, nə üçün Azərbaycanda Cəfərovun yaxasından yapışıb, konfliktsizlik nəzəriyyəsinin müəllifliyi onun boynuna qoyulsun? Bu dəlil əsassızdır.

İkinci dəlil bizim "Ədəbiyyat və incəsənət" qəzetində göstərilən dəlildir ki, guya mən kitabımda dostluq münasibətlərinə uymuşam. Hansı dostlar haqqında, hansı tamaşalar haqqında və söhbətin kimlər haqqında getdiyi göstərilməmişdir. Yaxşı, tutalım, buna yol verilmişdir. Lakin bunun nihilizmə nə dəxli var?

Üçüncü dəlil isə bundan ibarətdir ki, mən kitabımda tarixi faktları təhrif etmişəm. Hansıları? Plenumda deyilirdi ki, "İntervensiya" kimi və başqa tamaşalara müsbət qiymət vermişəm. Ancaq bu tamaşalar həqiqətən yaxşı idilər. Bizim teatrda "İntervensiya" pyesinin tamaşaya qoyulduğu vaxtı kim xatırlayırsa, yadında olar ki, onda rus və Azərbaycan teatrları yarışırdılar və Azərbaycan teatr kollektivi gözəl sənətkarlığı sayəsində bu yarışda qalib çıxdı. Yoldaş Dağıstanlı, yəqin ki, bunu xatırlayır. Tutalım ki, bu tamaşalar təhrif edilmişdir, bəs, bunun nihilizmə nə dəxli var?

Nəhayət, məni təqsirləndirirlər ki, kitabımda bütün Azərbaycan dramaturgiyasını səthi təhlil etmişəm və Azərbaycan Sovet dramaturgiyasının ayrı-ayrı müvəffəqiyyətsiz əsərləri haqqında açıq və həvəslə yazmışam... Siz kitabın həcmini görürsünüzmü? (Göstərir). Bu, 300 səhifəlik bir kitabdır. Kitabın yalnız dörddə bir hissəsi bu məsələyə, dörddə üç hissəsi isə müvəffəqiyyətsiz əsərlərə həsr edilmişdir. Kitabın tarixi hissəyə aid yerləri də Azərbaycan dramaturgiyasının yaratdığı tamaşalara həsr edilmişdir. Təhlilin dərinliyini mühakimə etmək isə, mənim üçün çətindir. Bəlkə, məni tənqid edənlər daha dərin yazırlar?

Yoldaşlar, mən bu kitabı bütün qəlbimlə yazmışam... Teatrımızın tarixini yazmağın nə qədər çətin olduğunu siz bilirsiniz. Bizdə resenziya yazan yoldaşlar teatrın işini çox zəif işıqlandırırlar. Teatrın işini işıqlandırmaq isə aktyoru tərbiyə etmək üçün yeganə vasitədir. Mən bu kitabda yazılanları təsdiq edirəm və təsdiq edəcəyəm. Əlbəttə, onda səhvlər var, lakin bir damla da olsun nihilizm yoxdur.

Burada mənim iki məqaləm haqqında söhbət getdi: biri 1948-ci ildə, ikincisi 1951-ci ildə yazılmışdır. 1948-ci ildə yazdığım məqalədə deyilir ki, ədəbiyyatımızda yalançı xəlqilik, birincisi, folklor nümunələrini mexaniki surətdə təhlil etmək vasitəsilə folklordan bədii vasitələri mexaniki surətdə ədəbiyyata köçürməklə, ikincisi, ölüb-getmiş olan ənənə və adətləri göstərməklə təzahür edir. Bunun belə olduğuna poeziya və nəsrimizdən çoxlu sübut göstərmək olar. Mənim göstərdiyim misalları bu mövzuda yazan başqa müəlliflər də öz məqalələrində göstərmişlər. Mən də, həmin yoldaşlar da məqalələrimizi eyni mövzuda, eyni əsasla yazmışıq.

1951-ci ildə çap olunmuş məqaləm Ukrayna şairi Sosyuranın nöqsanlı şeirinə qarşı "Pravda" qəzetində dərc olunmuş məqalə ilə əlaqədar hazırlanmışdı. Həmin məsələni biz nəzərə aldıq və mənə Yazıçılar İttifaqının plenumunda məruzə etmək tapşırıldı. Mən məruzə etdim və onu dərc etdirmək təklif olundu. Mən də çap olunmaq üçün mətbuata verdim. Bu məqalədə əsas fikir ondan ibarətdir ki, ədəbiyyatımızda ayrı-ayrı əsərlərdə olan ideoloji səhvlər bəzən ədəbiyyat arxaizmində çoxdan hamıya məlum olan köhnəlmiş bədii vasitələrdə özünə yer tapır. Mən misallarla göstərdim ki, görün bizdə, xüsusən poeziyamızda nələr baş verir, arxaizmin nədə təzahür etdiyini aydınlaşdırmaq üçün çoxlu miqdarda şeirlər məcmuəsi oxudum və poetik varlığımızı hər cür təhlil etdim.

Süleyman Rəhimov yoldaşın məruzəsində və Druzin (*SSRİ Yazıçılar İttifaqının nümayəndəsi* - **T. Q.**) yoldaşın çıxışında göstərildiyi kimi, ədəbiyyatımızda arxaizm məqsəddən uzaqlaşmaqdan ibarətdir. Məqsəddən uzaqlaşmaq, məruzəçinin dünən qeyd etdiyi kimi, üç formada təzahür edir. Mən bu haqda danışmaq istəyirəm. Mənim 1951-ci ildə yazılmış məqaləmdə Məmməd Cəfərin dediyi konsepsiyaya oxşar bir şey yoxdur. Burada mənim boynuma qoyurlar ki, öz fikirlərimi sübut etmək üçün Belinskinin əsərlərinə müraciət edirəm və şüurlu surətdə onu təhrif edirəm. (*Mətni azərbaycanca və rus dilində oxuyur*). Burada təhrif varmı? Siz özünüz hər bir şeyi məntiqsiz halda təhrif edirsiniz.

Mən Mayakovskinin yaradıcılığında olmuş bəzi nöqsanlar haqqında danışmışam, lakin onun xalqdan ayrı düşdüyünü deməmişəm. Siz isə elə təsvir edirsiniz ki, guya mənim fikrimcə, Mayakovski xalqdan ayrı düşmüşdür.

Ordubadinin romanlarında bəzi sərgüzəşt momentlərinin olduğunu demişəm, lakin onu heç bir şeydə ittiham etməmişəm.

Tənqidimizdə bizi qorxutma üsulları vardır. Məni nihilist kimi ittiham edirlər. O dərəcəyə çatırlar ki, mənə iş vermirlər, məqalələrimi dərc etmirlər və hətta mənimlə salamlaşmırlar.

Süleyman Rəhimov - Bəs, səhvləriniz haqqında özünüz nə üçün danışmırsınız?

Cəfər Cəfərov - Çünki mən bunları səhv hesab etmirəm!"

Arxivdə C. Cəfərovun 1954-cü ilin iyun ayında Azərbaycan Yazıçılar İttifaqı İdarə Heyətinə yazdığı məktub saxlanılır. Məktubda oxuyuruq:

"Mənim nəzəri səhv və nöqsanlarımdan bəhs edilərkən, ən çox ədəbiyyatda xəlqilik məsələsi ilə əlaqədar baxışım üzərində dayanılmışdır. Bu, təsadüfi deyildir. Çünki məhz bu məsələdə mən müəyyən büdrəmələrə və yanlışlıqlara yol vermişəm. 1948-ci ildə yazdığım "Ədəbiyyatda həqiqi xəlqilik uğrunda" adlı məqaləmdə deyilir: "Sovet ədəbiyyatı yeni tipli, yeni keyfiyyətli bir ədəbiyyatdır. Lakin bu yeni ədəbiyyatın ülvi keyfiyyətlərindən birisi onun xalq yaradıcılığı, demokratik və realist ədəbiyyat ənənələri ilə bağlı olmasıdır". Bu fikir, əlbəttə, doğrudur. Lakin məqaləmdə, eləcə də bəzi çıxışlarımda bu doğru fikir çox zaman ya açılmamış, şərh edilməmiş, konkret nümunələrlə aydınlaşdırılmamış bir tezis şəklində qalmış və ya bəzi hallarda təhrif edilmiş, yanlış bir şəkilə salınmışdır. Bir çox əsərlərimdə ədəbi ənənələrdən, xüsusən xalq yaradıcılığından gələn demokratik və realist ənənələrdən geniş istifadə etmək zərurəti düzgün və ehtiraslı bir şəkildə, atəşin bir ürəklə təbliğ edilməmişdir. Əlbəttə, bu, mühüm nöqsandır. Bu o deməkdir ki, ənənələrə münasibətin özündə bir soyuqluq, etinasızlıq vardır".

C. Cəfərovun məktubu Azərbaycan Yazıçılar İttifaqı İdarə Heyətinin 1954-cü il sentyabrın 2-də keçirilmiş iclasında müzakirəyə qoyulmuşdur. İclasın protokolundan bir hissəni diqqətinizə çatdırıram:

Səməd Vurğun - *Mənə elə gəlir ki, məktubu öz əlinlə yazmamısan, digər yoldaşların təsiri ilə hazırlamısan.*

Cəfər Cəfərov - *Axı, siz konkret olaraq kimlərdən danışırsınız? Yazıçılar təşkilatı ona görə mövcuddur ki, hər bir üzvünü istədiyi vaxt dəvət edib, səhvlərini üzünə desin. Ötən iclasda tapşırılmışdı ki, öz səhvlərimi dərindən araşdırım, mən də bunu etmişəm.*

Mən belə güman edirdim ki, MK-ya çağırıldıqdan və vəzifədən azad edildikdən sonra asudə olaram, əksinə oldu, vəziyyətim daha da mürəkkəbləşdi. Səməd, sən ötən iclasda məgər söyləmədin ki, yalançı xəlqilikdən müfəssəl yazım? Mən buna əməl elədim, yazdıqlarımı Əli Vəliyevə də oxudum, təqdir etdi. İndi mənim günahım nədir? Birinci iclasdan keçən son bir ay ərzində heç yerdə olmamışam, heç kimlə görüşməmişəm, evdə oturub yazdığım kitab üzərində işləmişəm. Hə, tək bircə dəfə çimərlikdə Əvəz Sadıqovla rastlaşmışam".

Azərbaycan Yazıçılar İttifaqı İdarə Heyətinin qərarı ilə C. Cəfərov Sovet Yazıçılar İttifaqı üzvlüyündən azad edilir. Mətbuat səhifələrində Azərbaycan Yazıçılar İttifaqı İdarə Heyəti üzvlərinin yekdilliklə qəbul etdikləri qərarın bu abzası ixtisara salınmışdır: "Uzun müddət respublikada rəhbər işdə (Azəbaycan KP MK-da şöbə müdiri, Azərbaycan SSR Mədəniyyət nazirinin birinci müavini) olmuş C.Cəfərov xalqın və partiyanın düşməni M.C.Bağırovun gündəlik himayəsi nəticəsində öz vəzifəsindən sui-istifadə edərək, Azərbaycan xalqının müasir ədəbiyyat və mədəniyyətini qəsdən damğalamış, onun ən yaxşı kadrlarını qamçılamış, onları yalançı xəlqilikdə, savadsızlıqda, ətalətdə, miskinlikdə təqsirləndirmiş, Azərbaycan yazıçıları arasında yaradıcılıq və dostluq əlaqələrinin möhkəmlənməsinə mane olmuşdur".

Göründüyü kimi, Azərbaycanın adlı-sanlı şair və ədibləri M. C. Bağırova "xalqın və partiyanın düşməni" deməklə, SSRİ-nin baş prokurorunu iki il qabaqlamışlar...

1954-cü il sentyabrın 17-də Cəfər Cəfərovun 40 yaşı tamam oldu. Bir həftədən sonra, sentyabrın 25-də "Ədəbiyyat və incəsənət" qəzeti onu "Nihilist" şeirilə "təbrik" etdi. Şeirdə C. Cəfərovun adı çəkilməsə də, son hadisələrdən şeirin onun barəsində yazıldığı hamıya bəlli idi. Azərbaycan Dövlət Universitetinin filoloji fakültəsinin məzunu olan gənc şair Hüseyn Hüseynzadə (Hüseyn Arif) C.Cəfərovu azərbaycanca öz dilimizdə "tənqidçi" deyil, ərəbcə "münəqqiq" adlandırmışdı. Şeiri oxuculara təqdim edirəm:

Nihilist

Münəqqiq adlanan o qəlbi qara,
Qara bir eynək də gözünə taxdı.
Gah alimə söydü, gah sənətkara,
Şübhəylə dolandı, şübhəylə baxdı.

Özgə kölgəsinə pənah gətirib,
Arxadan işığa hücum elədi.
Qoltuğa sığınıb, qoltuğa girib,
Gülə tikan dedi, yaza qış dedi.

Yordu qulaqları, yordu cır səsi,
Dünəni görmədi, bu günü dandı.
Ruhuna gülmədi həyat nəğməsi,
Doğma anasının südünü dandı.

Xor baxdı sevimli obaya, elə,
Füzuli, Səbuhi açmadı onu.
Dandı Vaqifi də o bilə-bilə,
Dandı telli sazı, qoç Koroğlunu.

Böyük əsərdəki kiçik nöqsanı
Qalxıb neçə-neçə yerdə danışdı.
Susdu söz zamanı, söhbət zamanı,
Xeyirdə dinmədi, şərdə danışdı.

Yox, yox, həqiqətlə düzəlməz aran,
Çətinə salan da asanı sənsən.
Ey ömrü boyunca nöqsan axtaran,
Bu günün ən böyük nöqsanı sənsən!

Qırx yaşlı yubilyar doğulduğu gündə Azərbaycan KP MK-nın birinci katibi İ.Mustafayevə məktub yazdı. Bu sənədlə tanış olun:

"Çox hörmətli İ.M.Mustafayev yoldaş!

Qiymətli vaxtınızı aldığım üçün əvvəlcədən üzr istəyirəm. Mən Azərbaycan Yazıçılar İttifaqı İdarə Heyətini inandıra bilmədim ki, haqqımda ədalətsiz qərar çıxarıblar. Mən öz-özümün qənimi deyiləm. Yaxşı dərk edirəm ki, yeganə həyat yolum kollektiv içərisindən keçir, tənqidə qarşı xeyirxah münasibət göstərməliyəm, öz nöqsanlarımı

vicdanla və axıradək etiraf etməliyəm. AYİ İH-yə yazdığım iki məktubum məhz bundan irəli gəlirdi. Mən bu məktublarla Sizin şəxsən tanış olmağınız üçün surətlərini əlavə edirəm.

Mən sovet ədəbiyyatı platformasında olmuşam və olmaqda davam edirəm. Öz ədəbiyyatımız və incəsənətimizin mənafeyindən savayı məqsədim olmamış və yoxdur. Ayrı-ayrı metodoloji səhvlərimi tezliklə düzəltməyə qüvvəm çatar.

İmam Daşdəmiroviç! Mən Mədəniyyət Nazirliyindəki işimdən azad olunmuşam, 8 aydır heç yerdə işləmirəm, mətbuatın qapıları üzümə bağlıdır. "Ədəbiyyat və incəsənət" qəzetinin səhifələrində, iclaslarda və s. aramsız tənqidə məruz qalıram. Bütün bu maneələrə baxmayaraq, qələmi əldən qoymamışam, üç yeni kitab yazmışam: M.F.Axundovun ədəbi-bədii yaradıcılığı (Moskvada nəşr ediləcəyi nəzərdə tutulur), Dobrolyubov haqqında və, nəhayət, bizim çox görkəmli aktyorumuz Hidayətzadə barədə.

Axı, mən niyə yaradıcılıq işimdən ayrı düşməliyəm? Axı, yaradıcı adam öz səhvlərini nitqlərlə, bəyanatlarla, məktublarla deyil, öz yazdığı əsərləri ilə təshih edir. Məni yazdığım yeni əsərlərə görə qiymətləndirmək əvəzinə uydurulmuş faktları bəhanə gətirərək, Yazıçılar İttifaqı üzvlüyündən xaric edirlər. Bu ədalətsizlikdir.

Mərkəzi Komitəyə müraciət etməklə, Sizdən xahiş edirəm ki, mənim məsələmə müdaxilə edəsiniz və yaradıcılıq fəaliyyətimə şərait yaradılmasına kömək göstərəsiniz.

Kommunist salamı ilə:
C.Cəfərov
17 sentyabr 1954-cü il"

1955-ci il may ayının 31-də Azərbaycan KP MK bürosunda C. Cəfərovun məsələsi müzakirə olundu. Açıq məhkəmə iclasında "müttəhim" SSRİ Yazıçılar İttifaqının keçmiş üzvü Cəfər Haşım oğlu Cəfərov idi. Məhkəmədə "SSRİ Baş prokuroru" rolunu Sov.İKP MK-nın Elm və mədəniyyət şöbəsinin müdiri Rumyantsev Aleksey Matveyeviç oynayırdı.

Rumyantsev A.M. - *Məsələni belə qoymaq olmaz ki, biz Cəfərova qarşı çıxış edirik... Bu, Bağırovun xətti idi. Məgər partiya Bağırovun xəttini müdafiə edirdi? Bu, antipartiya xətti idi, bu, inqilabi vəzifələrdən yayınan xəyanətkar Beriya xətti idi... Cəfər Cəfərov məsələsini kollektiv şəkildə həll etməliyik.*

Süleyman Rəhimov - *Azərbaycanda kosmopolitizmə Cəfər Cəfərov başçılıq edirdi, bu təmayülün də himayədarı Bağırov idi. MK bürosu üzvlərinə məlumdur ki, Azərbaycan Yazıçılar İttifaqının ikinci qurultayında Moskvadan gəlmiş qonaqlar, respublikanın partiya və hökumət rəhbərləri iştirak edirdilər. Qurultay öz qətnaməsində Cəfər Cəfərovun çox ciddi səhvlərə yol verdiyini göstərdi. Qurultaydan sonra Cəfər Cəfərov Yazıçılar İttifaqı İdarə Heyətinin qərarı ilə üzvlükdən kənar edildi... Onun haqqındakı bütün materiallar MK-nın mədəniyyət şöbəsindədir.*

Səməd Vurğun - *Cəfərov kosmopolitizmin ilhamçısı kimi Azərbaycan ədəbiyyatına və incəsənətinə böyük ziyan vurub. Bir vaxtlar bizim aramızda yaradıcılıq ixtilafları vardı, sonra bu ixtilaflar siyasi ideya mübarizəsinə çevrildi. Mən hələ 1952-ci ildə, Azərbaycan kommunistlərinin on doqquzuncu qurultayında demişdim ki, Azərbaycan KP MK-nın şöbə müdiri Cəfər Cəfərov Azərbaycan mədəniyyətini, bizim xalqı, Azərbaycan sovet ədəbiyyatının uğurlarını, Azərbaycan musiqisini inkar edir. O zaman Bağırov dedi ki, mən Cəfərovun diktəsi ilə işləmirəm. Doğrudur, mənim cəsarətim çatmadı ki, Bağırovun özü haqqında da danışım... Qeyd etməliyəm ki, burada əsas*

məsələ Cəfərovun şəxsiyyəti deyil, kosmopolitizm məsələsidir. Bu təmayül bütün xalq ədəbiyyatını inkar edir, hamını çoban hesab edir. Belə hesab edirəm ki, bizim partiya orqanları, ilk növbədə, Mərkəzi Komitə Cəfərovla mübarizə barəsində fikrini bildirməyib. Bu günlərdə Azərbaycan KP MK-nın orqanı olan "Kommunist" qəzeti Cəfərovun Şiller haqqında məqaləsini dərc edib. Belə çıxır ki, Yazıçılar İttifaqı boş-boş danışır, Cəfərov isə öz işindədir.

Yoldaşlar! Mən kosmopolit qruppa deyəndə Cəfər Cəfərovu, professor Mikayıl Rəfilini və bütün həyatı boyu Cəfərovun yaxın dostu olan Rəsul Rzanı nəzərdə tuturam. Mən deyə bilmərəm ki, Rəsul Rza bizim klassik irsi inkar edir, ancaq əsl xalq ədəbiyyatı yaradanlara qarşı hücum meydanında onunla birlikdədir. Bəstəkarlar içərisində isə, Cəfər Cəfərovun ən yaxın dostu Qara Qarayevdir, yalnız onu ön sırada görür...

1955-ci il iyul ayının 20-də Azərbaycan KP MK Bürosu "Sov.İKP üzvü Cəfər Haşım oğlu Cəfərovun ciddi səhvləri haqqında" qərar qəbul etdi. Qərarda C.Cəfərovdan tələb edilirdi ki, buraxdığı səhvlər barədə mətbuatda prinsipial tənqidi məqalə ilə çıxış etsin, səhvlərindən lazımi nəticələr çıxarsın və özünü əməli işdə doğrultsun.

C. Cəfərov qərarın "özünü əməli işdə doğrultsun" hissəsini ləyaqətlə yerinə yetirmişdir. Bu barədə alim və dövlət xadiminin özü 1967-ci il sentyabr ayının 26-da tərcümeyi-halında belə yazırdı:

"1954-cü ilin sonlarında Azərbaycan Dövlət Universitetində pedaqoji fəaliyyətə başlamışam. Burada 1955-ci ildə namizədlik dissertasiyası müdafiə etmişəm, dosent vəzifəsində işləmişəm. 1959-cu ildə Memarlıq və İncəsənət İnstitutunun Teatr və kino şöbəsinin müdiri olmuşam. Həmin institutda 1961-ci ildə sənətşünaslıq sahəsində doktorluq dissertasiyası müdafiə etmişəm. 1962-ci ildə professor elmi adını almışam. Həmin illərdə 15 kitab və külli miqdarda məqalə çap etdirmişəm".

1967-ci ildə isə möcüzə baş vermiş və bu, C. Cəfərovun bütün bədxahlarını məyus etmişdir. Bu möcüzəni yaradanın imzaladığı sənədlə tanış olun:

"Sov. İKP üzvü C.H.Cəfərov yoldaşa

XASİYYƏTNAMƏ

Cəfər Haşım oğlu Cəfərov yoldaş 1914-cü ildə Bakı şəhərində anadan olmuşdur. 1943-cü ildən Sov.İKP üzvüdür, ali təhsillidir, 1937-ci ildə Moskva Pedaqoji İnstitutunun ədəbiyyat fakültəsini bitirmişdir. 1938-ci ildən o, "Ədəbiyyat qəzeti"nin tənqid şöbəsinin müdiri, dram teatrında ədəbi hissə müdiri, Azərbaycan SSR Elmlər Akademiyası Filialının Ədəbiyyat və dil institutunun müdir müavini vəzifələrində çalışmışdır. 1940-cı ilin avqustundan 1947-ci ilin fevralınadək Sovet Ordusu sıralarında olmuş, cəbhə qəzeti redaktoru müavininin təlimatçı-ədəbi işçisi vəzifəsində işləmişdir. 1947-ci ilin fevral ayında Sovet Ordusu sıralarından tərxis olunan C.Cəfərov yoldaş Azərbaycan KP MK aparatına işləməyə dəvət olunmuş, Təbliğat və təşviqat şöbəsinin incəsənət bölməsinin müdiri vəzifəsində çalışmışlır. 1949-1951-ci illərdə C.Cəfərov yoldaş Azərbaycan SSR Elmlər Akademiyasında elmi fəaliyyətlə məşğul olmuş, sonra isə "Pravda" qəzetinin müxbiri vəzifəsində fəaliyyət göstərmişdir. Bütün bu illər ərzində C.Cəfərov yoldaş özünü Azərbaycanın ən istedadlı tənqidçilərindən biri kimi

göstərmişdir. Onun rus dilində "M.F.Axundovun dramaturgiyası" və "Əzizbəyov adına teatr" kitabları nəşr olunmuşdur. C.Cəfərov yoldaş həmçinin Azərbaycan, rus və Qərbi Avropa klassiklərinin yaradıcılığından bəhs edən bir neçə nəzəri əsərin müəllifidir.

1951-ci ilin noyabr ayında C.H.Cəfərov yoldaş Azərbaycan KP MK-nın Bədii ədəbiyyat və incəsənət şöbəsi müdirinin müavini, 1952-ci ilin iyulundan isə müdiri vəzifəsinə təsdiq olunmuşdur. 1953-1954-cü illərdə Azərbaycan SSR Mədəniyyət nazirinin birinci müavini vəzifəsində işləmişdir. 1954-cü ildən 1959-cu ilədək S.M.Kirov adına Azərbaycan Dövlət Universitetində pedaqoji fəaliyyət göstərmişdir. 1959-cu ildən Azərbaycan SSR Elmlər Akademiyası Memarlıq və İncəsənət İnstitutunda Teatr və kino şöbəsinin müdiri vəzifəsində böyük yaradıcılıq işi aparır. Onun elmi əsərləri respublika sənətşünaslığının inkişafına əhəmiyyətli töhfədir.

Bütün bunlarla bərabər, C.H.Cəfərov yoldaş Azərbaycan klassik ədəbiyyatı ənənələrinin, xüsusən folklorun dəyərləndirilməsi sahəsində bəzən səhvlərə yol vermişdir. 1955-ci ildə Azərbaycan KP MK bürosu C. Cəfərovun səhvlərini pisləmiş və ondan tələb etmişdir ki, əməli fəaliyyətində bu səhvləri aradan qaldırsın. C.H.Cəfərov yoldaşın bundan sonrakı ictimai-siyasi və yaradıcılıq fəaliyyəti göstərir ki, o, həqiqətən partiya tənqidini düzgün dərk etmiş, səmərəli elmi-tədqiqat işlərinə fəallıqla qoşulmuş, Azərbaycan və rus ədəbiyyatının mühüm problemlərinə, teatr və marksist estetikanın tarixi-nəzəri məsələlərinə həsr olunmuş sanballı əsərlər yaratmışdır.

1961-ci ildə Cəfərov yoldaş Moskvada doktorluq dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmiş və iki ildən sonra ona professor adı verilmişdir. 1963-cü ildə Cəfərov yoldaş Azərbaycan SSR Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir ki, bu da onun respublikada elmi-ictimai fəaliyyətinin qiymətləndirilməsinin meyarıdır.

C.Cəfərov yoldaşın elmi-tədqiqat əsərləri respublikanın hüdudlarından kənarda da yüksək qiymət almışdır. O, "SSRİ xalqlarının teatr tarixi" çoxcildli kitabının müəlliflərindən biridir.

Azərbaycan KP MK Cəfər Haşım oğlu Cəfərov yoldaşın ictimai-siyasi sahədə böyük iş təcrübəsini, dərin nəzəri hazırlığını və səmərəli elmi fəaliyyətini nəzərə alaraq, onun Azərbaycan KP MK-nın ideoloji işlər üzrə katibi vəzifəsinə təsdiq olunmasını xahiş edir.

Azərbaycan KP MK katibi V.Axundov
22 avqust 1967-ci il"

Beləliklə, Azərbaycan KP MK-nın birinci katibi Vəli Axundov özündən əvvəlki iki birinci katibin - Teymur Yaqubovun və İmam Mustafayevin imzaladıqları 6 fevral 1954-cü il və 20 iyul 1955-ci il tarixli qərarlarını qüvvədən salmışdır.

Mərkəzi Komitənin ideoloji işlər üzrə yeni katibi isə həmin vəzifədə öz sələfinin - üç ay əvvəl, may ayının 24-də stomatoloq kreslosunda həlak olmuş Şıxəli Qurbanovun işini layiqincə davam etdirmişdi.

C. Cəfərovun imzaladığı ilk qərarlardan biri də unudulmaz şəxsiyyətə aid idi: "Azərbaycan Dövlət Akademik Dram Teatrında "Sənsiz" tamaşasına görə əsərin müəllifi Şıxəli Qurbanova (ölümündən sonra) iki min beş yüz manat məbləğində mükafat verilsin".

Ümumiyyətlə, C. Cəfərov MK katibi işlədiyi bütün müddət ərzində ədəbiyyat və incəsənət xadimlərinə, xüsusən dünyasını dəyişmiş şəxsiyyətlərin xatirəsinə böyük diqqət və qayğı göstərmişdi.

Zəka sahibi C.Cəfərov nə "doğma anasının südünü ", nə də "telli sazı danmışdı". Arxivdə saxlanılan bir məktub ona vaxtilə "nihilist" deyənlərin nə qədər yanıldıqlarını göstərir. 1967-ci il avqust ayının 21-də Azərbaycan KP Qasım İsmayılov Rayon Komitəsinin katibi Q.Ş.Əhmədov Azərbaycan KP MK katibi C. Cəfərovun adına aşağıdakı məktubu göndərmişdir:

"Sizin şifahi sorğunuza cavab olaraq bildiririk ki, Əliyev Hüseyn (Cavan) Mikayıl oğlu 1916-cı ildə Cənubi Azərbaycanın Görmədüz mahalında anadan olmuşdur. 1918-ci ildən 1938-ci ilədək Qasım İsmayılov rayonunun Əzizbəyov kəndində yaşamış, 1938-ci ildə ailəsi ilə birlikdə Cənubi Azərbaycanın Təbriz şəhərinə köçmüşdür. 1941-ci ildə Azərbaycan Demokrat Firqəsi sıralarına daxil olmuş, 1946-cı ildə Azərbaycan SSR-ə gəlmişdir. 1947-48-ci illərdə Bakı şəhərində filarmoniyada sazçı qızlar ansamblına rəhbərlik etmiş, 1948-ci ildən hal-hazıradək Qasım İsmayılov Rayon Mədəniyyət Evində aşıqlar ansamblında işləyir.

Aşıq Hüseyn Cavan Göyçə mahalında Aşıq Ələsgərin oğlu Talıbın şagirdi olmuş, aşıqlıq sənətinə yiyələndikdən sonra, 1931-ci ildən yaradıcılıq fəaliyyətinə başlamışdır. O, Vətənimizin paytaxtı Moskvada, respublikamızın paytaxtı Bakıda keçirilən incəsənət ongünlüyündə dəfələrlə iştirak etmişdir. Başçılıq etdiyi aşıqlar ansamblı respublikamızın ayrı-ayrı rayonlarında və kolxozlarında zəhmətkeşlər qarşısında müntəzəm olaraq çıxış edir. Onun zəhməti, yaradıcılıq fəaliyyəti yüksək qiymətləndirilmişdir. Dəfələrlə Azərbaycan Demokrat Firqəsinin, Azərbaycan SSR Mədəniyyət Nazirliyinin, Ümumittifaq və Respublika Xalq Yaradıcılıq Evinin, komsomol və həmkarlar təşkilatlarının fəxri fərmanlarına layiq görülmüşdür. 1945-ci ildə Azərbaycan Demokrat Firqəsinin Mərkəzi Komitəsi tərəfindən "Səttarxan ordeni" və "21 Azər medalı", 1958-ci ildə SSRİ Ali Soveti Rəyasət Heyəti tərəfindən "Şərəf Nişanı" ordeni ilə təltif edilmişdir. 1948-ci ildən SSRİ Yazıçılar İttifaqının üzvüdür.

Aşıq Hüseyn Cavan aşıqlar ansamblının fəaliyyətinə və gənc istedadlar yetişdirilməsinə hərtərəfli yardım göstərir. O, istedadlı, bacarıqlı sənətkar kimi rayon zəhmətkeşlərinin hörmətini qazanmışdır. Aşıq Hüseyn Cavanın fəaliyyətini nəzərə alıb, anadan olmasının 50 illiyi və yaradıcılığını 35 illiyi ilə əlaqədar olaraq, onu dövlət mükafatına və yaxud fəxri ad verilməsinə təqdim etmənizi xahiş edirik".

İdeoloji işlər üzrə katib hələ mədəniyyət nazirinin birinci müavini işlədiyi vaxtdan yaxından tanıdığı, bir yaşında ikən atadan yetim qalmış acı taleli aşıq haqqında Vəli Axundova məlumat vermiş və birinci katibin xeyir-duası ilə Aşıq Hüseyn Cavana (Əliyev Hüseyn Mikayıl oğluna) Azərbaycan SSR Əməkdar mədəniyyət işçisi fəxri adı verilmişdir.

C. Cəfərov "Əzizbəyov adına Azərbaycan Dövlət Dram Teatrının 75 illiyi" (1949-cu il) və "Məşədi Əzizbəyov adına Qırmızı Əmək Bayrağı ordenli Azərbaycan Dövlət Dram Teatrı" (1951-ci il) adlı kitablarında Cəfər Cabbarlının sənət dünyasından geniş bəhs etmişdi. 1960-cı ildə "Cəfər Cabbarlı" adlı kitabı iki min beş yüz tirajla oxuculara çatdırılmışdı. İndi isə, 1967-ci ildə "Kirpi" jurnalının baş redaktoru, yazıçı-dramaturq, Cəfər Cabbarlının kürəkəni Seyfəddin Dağlının "Bahar oğlu" romanının əlyazması ideoloji katibin iş masasının üstündə idi. 1969-cu ildə işıq üzü görən kitab on il sonra, 1979-cu ildə təkrar nəşr olunmuşdu.

Həmin il görkəmli yazıçı və ədəbiyyatşünas Mir Cəlalın da 60 illik yubileyi dövlət səviyyəsində geniş miqyasda qeyd olunmuşdu. Cəfər Cəfərov kimi,

Mir Cəlal da 1953-56-cı illərdə, M. C. Bağırovun məhkəməsinə hazırlıq mərhələsində, digər qələm sahiblərindən fərqli olaraq, ona qaralar yaxmamış, görünür, bu səbəbdən də, 1958-ci ildə yazıçının 50 illik yubileyinin dövlət səviyyəsində keçirilməmişdir. C. Cəfərovun təşəbbüsü ilə Azərbaycan KP MK-nın birinci katibi Mir Cəlalı qəbul edərək onunla söhbət etmiş, yubileyinin dövlət səviyyəsində keçirilməsi üçün qərar qəbul olunmuşdu. Seçilmiş əsərlərinin dörd cildliyi, "Klassiklər və müasirlər" adlı məqalələr məcmuəsi, Əhəd Hüseynovun "Mir Cəlalın bədii nəsri" monoqrafiyası, Mir Cəlalın ədəbiyyatşünaslığa aid əsərləri rus dilində 30 çap vərəqi həcmində kitab halında nəşr olunmuşdu, ona Əməkdar elm xadimi fəxri adı verilmişdi.

C. Cəfərovun ideoloji katib işlədiyi illərin ən böyük tədbiri Nəriman Nərimanovun anadan olmasının 100 illiyinin hazırlanması olmuşdu.

1968-ci ilin aprel ayında, N. Nərimanovun anadan olmasının 98-ci ildönümündə C. Cəfərov V. Axundovun tövsiyəsi ilə Azərbaycan SSR Elmlər Akademiyası Tarix İnstitutunun direktoru Əlövsət Quliyevə və Sov.İKP MK yanında Marksizm-Leninizm İnstitutunun Azərbaycan filialının direktoru Xasay Vəzirova tapşırmışdı ki, 1970-ci ildə N.Nərimanovun anadan olmasının 100 illiyi ilə əlaqədar tədbirlər planı hazırlayıb, MK-ya təqdim etsinlər. 1968-ci il may ayının 30-da V. Axundovun adına göndərilmiş tədbirlər planını, yubileyin necə geniş miqyasda düşünüldüyünü göstərir.

1968 - ci il iyunun 18 - də “ Nəriman Nərimanovun anadan olmasının 100 illiyi barədə” məsələ Azərbaycan KP MK bürosunda müzakirə olundu və bu tərkibdə yubiley komissiyası yaradıldı:V. Y. Axundov (sədr), Ə.N.Əlixanov, M. Ə. İsgəndərov, C.H. Cəfərov (sədrin müavini), A. M. Qədirov, K. K. Dadaşov, E.M. Qafarova, T. S. Əliyev, A. İ. Məmmədov, E. F. Cəbrayılov, M.M. Mehdizadə, H. M. Həsənov, R. Q. İsmayılov, Z. İ. Hüseynova, R. S. Hacıyev, İ.İ.Nəzərov, M. K. Qurbanov, M.Ə. İbrahimov, X. H. Vəzirov. Kremldə Azərbaycandan V. Axundovun imzaladığı yubiley tədbirlərinin baxılmasına tələsmədilər, bu məktuba “millətçilik donu” geydirdilər… və N. Nərimanovun 100 yaşına bir il qalmlş, 1969 - cu ilin iyul ayında “hazırlıq komissiyasının” sədrini VƏZİFƏSİNDƏN AZAD EDƏRƏK, Azərbaycan SSR EA - nın vitse - prezidenti vəzifəsinə göndərdilər. C. Cəfərov isə, hələ iki il də ideoloji katib vəzifəsində işlədi, yalnız 1971 - ci il mart ayının 12 - də tutduğu vəzifədən azad edildi. Bundan sonra o, cəmi iki il yaşadı.

C. Cəfərov haqqında bu yazını onun haqqında yazılmış həzin bir xatirədən götürdüyüm bir neçə parça ilə tamamlamaq istəyirəm.

“Sənət yanğısı” adlı bu məqalə 1983- cü ildə "Azərbaycan" jurnalının 5-ci nömrəsində çap olunmuşdur.

"1973-cü ildə onun (Cəfər Cəfərovun - T. Q.) ağır, ümidsiz xəstəliyə düçar olduğunu biləndən sonra gündəliyimə bəzi söhbətlərini qeyd etmişəm. Həmin gündəlikdən müəyyən parçaları burada gətirmək istəyirəm:

“1973, 6 yanvar. Atamla, Qulam Məmmədli və Kazım Kazımzadəylə Cəfər əminin yanına getmişdik. “Semaşko”da ayrı palatadadır. Çox zəifdir, amma evlərində gördüyümüzdən zahirən yaxşıdır. Atamgil ona ürək-dirək verirdilər, zarafatlaşırdılar. Cəfər əmi bir zarafata cavab olaraq Hacı Qaranın replikasını yada saldı: “Mən onları yox, onlar məni əyləyiblər”. Özü də əvvəlki vaxtlardakı kimi uşaqtək uğunub getdi”.

“Onu operasiya eləmək üçün Moskvaya apardılar. Yanvarın 15-də Moskvayla telefonla danışdım. Həyat yoldaşı Zübeydə xanım dedi ki, bu gün Cəfər ayağa durub, öz əliylə məktub yazıb ki, yaxşıyam”.

Yanvarın 29-da Moskvada onu operasiya etdilər, başından yumruq boyda şiş çıxartdılar. Həkimlərdən biri deyib ki, bu, məsələni həll etmir,

olsun ki, şiş rişə verib artsın, Cəfərovun bəlkə də bir il, yarım il, üç ay ömrü qalıb. (Bundan sonra doqquz ay yaşadı).

Martın 2-də onu Bakıya gətirdilər. Qarşılamağa aeroporta getmişdik. Təyyarədən onu xərəkdə çıxartdılar, qarşılayanların çoxusu xısın-xısın ağlayırdı, o isə adamları tanıdıqca gülümsünür, gözüylə işarə edirdi... Onunla Moskvada olmuş işçilərindən biri aeroportdan qayıdarkən maşında danışırdı ki, Cəfərov Moskvada klinik ölüm keçirib, indi onunla gələn moskvalı tibb bacısı nəfəsiylə ona nəfəs verərək həyata qaytarıb. Vəsiyyət edib ki, nəvəmə mənim adımı qoyarsız, bir də teatrın yüz illiyini bayram edəndə məni unutmayın - deyib. "Axı, mən hər halda bu teatr üçün nə isə bir iş görmüşəm. 15 yaşımdan səhnəyə aşiq olmuşam, 35 ildir ki, ondan ayrılmıram. Mən çox şey istəmirəm, amma teatrın yubileyində yada salınmağa haqqım çatar" (həmin il Cəfər Cəfərova respublikanın əməkdar incəsənət xadimi fəxri adı verildi).

"13 mart. Dünən atamla anam Cəfərgilə gediblərmiş. Bu gün də mən getdim. Anam kəhrəba təsbeh verdi, dedi, Cəfərin sol əli işləmir, təsbeh istəyib ki, barmaqlarını hərəkətə alışdırsın. Axşam 6-da onlara gəldim. Sevindi: - Bu gün yaxşı gündür, - dedi - çox sevinmişəm. Həkim gəlmişdi, dedi ki, bir həftədən sonra, ən çoxu bir ay ərzində ayağa duracaqsan. Yoxsa belə yastığa yapışıb qalmaqdan lap ürəyim darıxır. - Sol əlini göstərdi - görürsən, hərəkətsizdir, belə tənbəl, şüursuz əl nəyimə gərəkdir?

Təsbehi verdim, gülümsündü: Axırı iqruşkalı oldum, - dedi.

"5 aprel. Cəfər əmiyə dəyməyə getmişdim. Məni görəndə kövrəldi. Ağlayıram, bu isə zəifliyimdir, - dedi. - Anam, qardaşım, bacılarım öləndə qəhər gəlib boğazıma tıxanırdı, amma bir damcı göz yaşım çıxmırdı. Heç vaxt ağlağan olmamışam. Amma indi yanıma adamlar gələndə özümü saxlaya bilmirəm".

...Ona dəyməyə müxtəlif adamlarla gedərdim - Ənvər Məmmədxanlıyla, Toğrul Nərimanbəyovla, Əkrəm Əylisliylə, Elçinlə, Maqsud və Rüstəm İbrahimbəyovlarla, Emin Sabitoğluyla. Hər müsahibiylə də məhz ona aid, ona yaxın mövzularda söhbətlər aparardı. Amma "ömrünün sarayından gündə bir kərpic düşdükcə", xəstəliyin mənfur məntiqi fikrini ara-sıra qarışdırır, yaddaşı faktları, hadisələri, adamları çaşbaş salır, dolaşdırırdı. Ölümünə aydan az qalırdı, yanına Araz Dadaşzadəylə getmişdik. Hər ikimizə dəqiq, dürüst suallar verirdi, amma birdən-birə xəbər aldı:

-Sabit necədir?

Arazla mat-mat bir-birimizə baxdıq - Sabit Rəhmanın ölümündən üç il keçmişdi. Söhbəti dəyişdik, ədəbiyyatdan, kinodan söz saldıq. Diqqətlə qulaq asır, yerli-yerində, münasib replikalar verirdi, amma yenə qəfildən soruşdu:

-Saat neçədir?

-Beşin yarısı, - dedik.

Gözləri harasa məchul bir nöqtəyə zilləndi, dalğın-dalğın:

-Beşin yarısı, - deyə təkrar etdi - Təbriz qatarının gəlməsinə bir saat qalıb...

Neçə illərin görüşlərində, söhbətlərində Cəfər əmidən eşitdiyim ən sirli, ən anlaşılmaz söz bu idi. Xəstəlik fikrini dumanlandırmışdı, ömrü boyu gördüyü adamların, yaşayan və itirdiyi dostlarının surətləri onun xəyal aləmindən pərakəndə kölgələr kimi keçib-gedirdi, amma bu Təbriz qatarı, həm də beşin yarısından bir saat sonra Bakıya gələsi Təbriz qatarı, hardan düşmüşdü beyninə? Bu obraz, bu anım - assosiasiya nəylə bağlı idi, hansı xatirələrlə, hafizəsinin hansı uzaq guşəsində ilişib qalmış, indi, ölüm yatağında, ömrünün son günlərində belə gözlənilməz şəkildə dilinə gəlmişdi?

1943-cü ildə çıxmış "Cəbhə qeydləri"ni vərəqləyirəm:

“Neçə illərdir Arazın o tayında vətənimin, zalım zamanların kəsib parçaladığı bir hissəsini, şairlər mərkəzi “dumanlı Təbrizi” görmək arzusunda idim. Sərhədi aşarkən gözlərim dörd olmuşdu. Hər bir şeyi görmək və gördükcə də qeyd etmək istəyirdim...

Doğrusu, mən Təbrizi böyük və gözəl görmək istərdim. O mənim üçün ən qədim bir paytaxt idi. Paytaxt, xalqa layiq Təbriz mənim xəyalım, diləyim idi. Nəhayət, bizi bürüyən toz-duman dağıldı, biz Təbrizi gördük. Tarixi qədim söylənən daş körpünü də keçdik. Yolun kənarına sancılmış, üzərində “Təbriz” yazılan gömgöy lövhə də artıq arxada qaldı. Təbrizin ilk küçələrinə girdik...”

Bu sətirlərin yazıldığı gündən otuz il sonra, ölüm ayağında o, bəlkə, yenə də Təbrizi düşünür, keçdiyi dumanlı-tozlu yollardan bir də keçir, gördüyü mənzərələri xəyalında bir də canlandırır, Təbrizdən gələsi kimisə gözləyirdi, Təbriz qatarının vaxtını ötürmək istəmirdi...

- Təbriz qatarı Bakıya hələ də gəlməyib, Cəfər əmi, haçan gələcəyini də heç birimiz bilmirik.

Amma bu gün, mən Sizi düşünəndə yalnız o ölüm yatağında dediyiniz qəribə sözləri deyil, 45-ci ilin yayını da xatırlayıram.

...İrandan təzə qayıtmışdınız. “Qaragilə” mahnısı da ordan qayıdanlara qoşulub bizə, Şimala gəlmişdi. Hələ hərbi libasda idiniz. Zübeydə xanımla bir yerdə bizə - atamgilin bağına qonaq gəlmişdiniz.

Buzovna çimərliyində uzanmışdıq. Hava isti, səma aydın-açıq, dəniz sakit və mülayim idi. Müharibə təzə qurtarmışdı, hamınız şən və nəşəli, nikbin və sağlam idiniz. Ömrünüzün neçə ili hələ qabaqda idi. Deyib gülürdünüz. “Qaragilə” mahnısını zümzümə edirdiniz:

Təbrizin yolları dolanba dolan, Qaragilə, dolanba dolan.

73-cü il hələ çox uzaq idi... 81-ci il ondan da uzaq...

Mavi göydə pərən-pərən düşmüş tək-tək buludlar vardı. Boz qayalardan sarı qumlara kölgələr düşürdü. Dünya əlvan idi, rəngbərəng idi. Dünya işıqla, ümidlə, gələcəklə dolu idi. Buzovnadan Mərdəkana, ya da, bəlkə, Mərdəkandan Buzovnaya gedən “kukuşkanın” fit səsi eşidilirdi.

Göydə paraşütçülər təlim keçirdi, göy dənizin üzərində açılan iri ağ paraşütlər böyük bəyaz çiçəklərə oxşayırdı...

1973-cü ilin sentyabrında atamla bir yerdə Moskvada Nəsimi yubileyindəydik. Fikrət Əmirovun “Nəsimi dastanı” baleti Bakıda Nəsimi yubileyində böyük uğur qazandı. Bu baletin librettosu mənim idi və odur ki, Moskvaya Nəsimi gecəsinə gedənlər siyahısına məni də salmışdılar.

Baletdə səhnə arxasından Nəsimi şeirləri səslənirdi. Bakı tamaşasında bu şeirləri oxuyan aktyor Moskvaya gəlməmişdi, odur ki, təklif etdilər bu misraları mən oxuyum.

Səhnə arxasından Nəsimi beytlərini oxudum:

Dünya duracaq yer deyil, ey can, səfər eylə,
Aldanma anın alına, ondan həzər eylə...
Varı möhnətdir cahanın, nə umarsan, ey könül,
Lənət olsun bu cahana və cahanın varına.

Tamaşadan sonra Fikrət Əmirovu təbrik edəndə mənə: - Axır Bolşoy teatrda da ürəyini boşaltdın, - dedi.

Həmin gecə Bakıda Cəfər Cəfərov vəfat edibmiş...

Moskvadan qatarla qayıdırdıq, atamla bir kupedəydik. Elə hey susurduq, hərdən-birdən danışanda da ancaq Cəfərdən danışırdıq."



Teyyub QURBAN

Yusif NƏĞMƏKAR

“SABİR POEZİYA GÜNLƏRİ”

Hər il
mayın son ziya günləri -
Rəsul Rza əmanəti
"Sabir poeziya günləri"...
təəssüflə, birtəhər deyirik
deyiləsi mümkünləri...
Rəsul Rzanın "günləri"ndən
deməzdim ki,
çox zadlar bilmirik...
Amma heç vaxt
Sabir kimi ağlaya-ağlaya
getmirik Şamaxıya,
Şamaxıdan da kirimişcə
Sabir kimi gəlmirik...
Şamaxılı Fikrət Sadığın da
fəxri gümüşü saçlarında
bəyaz bir telin
səfərimizin aydınlığına
defis olması,
Yunanlardan üzü bəri
uğurumuza uğrayan
Allahın Zevs olması
sardı bizi,
Sabir qədəminə apardı bizi.
Ötsək də, kirisək də,
Süvar olduq bu yola.
Daha nə ola-ola...
innən belə ümid bizim

arlı aran balası Əjdərə,
Pənah bizim
olacaq olan Ola!..

NÖQTƏSİNİ TAPMAYIB...

Nöqtə
ötənin
bitmək qanunuykən,
Sonun da sonuykən
heç sonlar nöqtələnmir,
Qanunlar nöqtələnmir.
Axar sular nöqtələnmir,
Arzular nöqtələnmir.
Füzulinin,
Bayronun ömrü
Allahın əmri nöqtələnmir.
Beləcə
Sonlanan nəticə
Sondan-sona yetincə
nədəndir ki,
bitirmir diktəsini?!
Nöqtələri qoyulmuş
diktələrin özü də
bu günədək
tapmayıb nöqtəsini...
Susmağı da,
Sonlamağı da bacaraq,
Bildiyimiztək bəşəriliyindən.
İşini, vəzifəsini bacarmayanı
Kabinetindən çıxara bilmədiyimiztək,
bəlkə, çıxaraq nöqtəni
durğu işarəliyindən?!

BÜTÜN İSTEDADSIZLAR

Bütün istedadsız adamlar
ayaqlarında,
ayaqlarından aşağı
ayaqlanmış qədəmlər
yeri gəldi-gəlmədi
qəlbinə buz bağlayıb,
üzünə üz bağlayıb,
tapdaq yol tapıb
bütün məclislərə
ya dürtülür,
ya daxil olurlar.
Özləri də dargöz,
paxıl olurlar.
İstedadsız adam var ki,
Səsi var,
Səsinin dəyəri yox.

Nəfəsi var,
ciyəri yox.
İstedadsız adam
təsadüfi şumluğa
yanlış səpilmiş
bir ovuc toxumdur,
bitə bilmir.
İçindəki mənzilə
Hamıdan yaxın ola-ola
yetə bilmir...
Bütün istedadsızlar
bütün bağlı qapıları
açə bilir.
Bütün istedadsızlar
bütün alçaqları
uca bilir.
Qanadları oldu-olmadı,
bütün istedadsızlar
uçə bilir.
Fəqət unutmasın
ayğır, köhlən atsızlar,
Unutmasın şöhrətlilər,
adsızlar -
"İstedadlı" adamlardır
bütün istedadsızlar...

BƏLKƏ, SÖNƏ...

Yoxluğuna dözməyən
dözümümə - əhsən - dedim!
Göz yaşlarımı
həsrətimə ehsan dedim...
Susamış mələklər -
qanadlı fəryadlılar
uçub ahımın göyündən
yerdə ehsan daddılar.
Bu həsrət də,
Bu ehsan da sənə həsrət.
Gəl, bax
yol çəkən gözlərimin
qara süfrəsində
verdiyim ehsanlara,
Bəlkə, sönə həsrət!..

İNANA-İNANA

Nə qədər
inam məktublarım var
Sənin yalanlarına göndərəcəyəm,
içimdəki doğma ah sovqatlarımı
gerçəkli - fanili
içdiyin andların

qalanlarına göndərəcəyəm.
Sənə inana-inana
Sənsizliyimi
tərəddüd yolundan
doğruya döndərəcəyəm...

BELƏMİ...

Sinəsində
həsəd adlı ələm,
Əlində yarıbarmaq boyda
yarımçıq qələm vardı...
Oğru şeiri -
Və doğru yeri
aşağıda olduğundan,
Adını
hamıdan yuxarıda yazdı -
İlahi, aşağı "yuxarı"lar
beləmi dayazdı?!.

TORPAQ - BİZİM KƏFƏNİMİZ

Torpaq - ulu dəfinəmiz -
O da yoxsa,
Harda olsun, bəs, dəfnimiz?!
Dəfnsizmi ölək biz?!
Ana torpaq - ana qucaq -
Əbədilik kəfənimiz;
Kəfənsizmi ölək biz?!
O zaman ki,
Zaman yanmır odumuza,
Onda gərək
Şəhidliyin atəşindən
Kəfən biçək adımıza!..

BİR OVUC

Dünyada bir ovuc torpaqdı dünya,
torpaq taptanırsa, tapdaqdı dünya!..
Bir ovuc torpaqlar yeriyib gedir.
Bir ovuc torpaqlar haray çəkirlər,
Bir ovuc torpaqlar kiriyib gedir...
Dərdi hər an, hər gün, hər ay çəkirlər...
İnsan da bir ovuc insandır elə,
Bir ovuc torpaqdır torpaq üstündə;
Ağlayan torpaqdır, gülən torpaqdır,
Yaşayan torpaqdır, ölən torpaqdır...
Ovuclar torpağı götürə bilir,
torpaq adamları sıxır ovuclar,
torpaqdan gözlərə baxır torpaqlar...
Ovuclara sığan yer üzü kimi,
Bu torpaq bizlərə baxır torpaqlar...

İki ovucumu açdım Tanrıya
Bir ovucluğuma şükrümdən ötrü.
Ruhun qanadında uçdum Tanrıya,
Əyildim ovcuma zikrimdən ötrü...
İstər yerə gömül, istər göyə uç,
Hər an bir ovuca aşiqdir insan.
Gözlərə səpilən elə bir ovuc
torpaq görkəmində işıqdır insan.

AND YERİM

Dillərdə yalan dolaşır,
Heç kəs heç kəsə inanmır.
Həqiqəti deyəndə də
Könül qızmır, ürək yanmır...

Dünyamı sıxan dünyanın
Sərt yolu, əyri düzü var...
Əlimdən çıxan dünyanın
Yerində yalan izi var...

Hara yazım bir kəlməmi?
Harda sözüm, şeirim qalsın?!
Əlini mənə ver, Rəbbim,
Əlimdə and yerim qalsın!..

NƏYİ YANSIN

Ah-ufundan çatlar sinə,
Dərd qanmışın nəyi yansın?!
Yüz hicranın tüstüsünə
Boyanmışın nəyi yansın?!

Qəm layladan üşüyəndə
Bələk yandı beşiyində.
Qəlb odunun keşiyində
dayanmışın nəyi yansın?!.

Şər önündə sipər, hasar,
Dəyanəti - sehr, əsrar.
Yuxusundan misra-misra
Oyanmışın nəyi yansın?!

Nəğməkarı düşün, an, dur,
Bir az kənar, bir az yan dur.
Kimi yandırırsan, yandır,
Mən yanmışın nəyi yansın?!

Rafiq YUSİFOĞLU

DÜNYANIN İŞİNDƏN BƏNDƏ BAŞ AÇMAZ

Qorxudan qaralıb çoxunun gözü -
Bərabər olacaq dərə dağ ilə.
Yamanca bərk imiş dünyanın üzü,
İşi də yox imiş dağılmaq ilə…

Qatara düzülüb aylar, fəsillər,
Yaza dönmək olmur ömrün qışından.
Dünyadan keçsə də neçə nəsillər,
Tük əskik olmayıb onun başından.

Həmişə yaşayır bir cavan kimi,
Hələ neçə körpə böyüdəcəkdir.
O, min il, milyon il dəyirman kimi
Gələni, gedəni üyüdəcəkdir.

Arabir çiçəyi, gülü solsa da,
Tükənmir söhbəti, sözü dünyanın.
Hamını qocaldıb yola salsa da,
Həmişə cavandı özü dünyanın…

Bəzən natəmizə qul etdi pakı,
Sevən qəlbimizi ağrıtdı dünya.
Özü dağılmadı, başımızdakı
Qiyamət xofunu dağıtdı dünya…

İstəsə, günəş də yerə nur salmaz,
Dərə neçə nəhəng dağ uda bilər.
Dünyanın işindən bəndə baş açmaz,
Dünyanı Yaradan dağıda bilər…

GÜZGÜDƏ GÖRDÜYÜM ADAM

Güzgüdən bir adam baxıb,
Elə bil bizi izləyir.
O güzgünün arxasında
Görən bizi nə gözləyir?

Güzgüdə gördüyüm adam,
Dikilib gözün gözümə.
Sənin üzünə baxanda
Yazığım gəlir özümə.

Dodağın niyə səyriyir?
Baxışların nə qəmlidi!
Niyə üzünə qəm çöküb,
Niyə gözlərin nəmlidi?!

Bu qədər yaxın olsaq da,
Duyuram ki, çox uzağıq.
Üz-üzə dayansaq belə,
İkimiz də yalquzağıq…

Bəbəklərinə baxanda
Vəlvələ düşür canıma.
Mən güzgüyə necə girim? -
Sən ordan çıx, gəl yanıma!

Güzgüdə gördüyüm adam,
Bu dünyaya heyrətimsən!
Mənmi sənin surətinəm,
Sənmi mənim surətimsən?

Güzgüdə gördüyüm adam,
Biz tuta bilsək əl-ələ,
Yer qopar öz mehvərindən,
Dünyada qopar vəlvələ.

Dərk eləmirəm özümü,
Mən nə qədər əzab çəkim?!
Keçib güzgü arxasına
Sənlə haqq-hesab çəkim?!

Güzgüdə gördüyüm adam,
Bir gün cana doyacağam,
Güzgüyə baxmayıb, səni
Yana-yana qoyacağam…

Sinəmə ayna çıxanda
Biz kamala dolduq, bəlkə?!
O güzgünün arxasında
Eyni adam olduq, bəlkə?!

GEDİRƏM

Altmış dörd qalıb arxada,
Altmış beş yaşa gedirəm.
Qəlbimdə bahar havası
Mən üzü qışa gedirəm.

Sevginin balını daddım…
Qədəm-qədəm, addım-addım
Nə tez bu zirvəyə çatdım? -
Dayanıb huşa gedirəm…

Sən varsansa, güləcəyəm,
Hara desən, gələcəyəm,
Xoşbəxtəm ki, gələcəyə
Səninlə qoşa gedirəm…

DÜNYANIN MİNNƏTİ OLSUN

Mən getsəm, dünyaya qaranlıq çökər,
Soyuyub buz olar qaynar bir ocaq.
Mənim kirpiklərim yumulsa əgər,
Dünya gözlərimdə dəfn olunacaq.

Ayrılıq möhnəti qəlbimi sarsa,
Dözməyib, fırtına qoparacağam.
Getsəm, bu dünyada yaxşı nə varsa,
Götürüb özümlə aparacağam…

Biganə qalarmı heç arı gülə?
Mənim gözəllərlə heç aram dəyər?!
Dünyanın minnəti olsun ki, hələ
O da ömür sürür mən varam deyə!

ŞAİRDƏN YAŞ SORUŞARLAR?!

Bardaş qurub bəbəyimdə,
Heç gözdən yaş soruşarlar?
Daş qədrini qaya bilər,
Kəsəkdən daş soruşarlar?

Gilənara nar deyirsən,
Ağ çiçəyə qar deyirsən,
Neçə yaşın var? - deyirsən, -
Şairdən yaş soruşarlar?!

* * *

Mən tarixin o başından
Süzülüb gələn işığam.

Saçım-saqqalım dümağdı,
Elə bilirəm uşağam…

Mənim yaşımı soruşma,
İşığın yaşı olmur ha!
İçində sevgi yaşayan
Ürəyin qışı olmur ha!

* * *

İynədən barmaq qoruyan
Bir adi üskük deyiləm.
Heç kimdən artıq deyiləm,
Heç kimdən əskik deyiləm.

Mənim də tale ülkərim,
Mənim də günüm, ayım var.
Mənim də ağrım, əzabım,
Mənim də sevinc payım var.

Hamı kimi yaşayıram,
Demirəm nadir insanam.
Ömrüm boyu əyilmədim,
Qüdrətli, qadir insanam…

* * *

Qəlbimdəki sevginin
Milyon-milyon yaşı var.
Mənim bəxt üzüyümün
Xoşbəxtlik tək qaşı var.

İlləri verdim yelə,
Ömrümü vurdum selə.
Ən hamar yolun belə
Kəsəyi var, daşı var.

Simsiz kaman, tar olmur,
Hər budaqda bar olmur,
Həmişə bahar olmur,
Ömrün yazı, qışı var.

Göz yaşım çiçək-çiçək,
Har damlası bir çiçək!
İnsanlıq ölməyəcək,
Neçə ki göz yaşı var!...

* * *

Yamanca kövrək olmuşam
Yaşın bu çağında,
bu vədəsində.

İndi duyğular,
düşüncələr
seli çağlayır
Xatirələr vadisində…

HEYVAN HEYKƏLLƏRİ

Üzü Nabrana
sarı gedirəm,
Bu, yol
Xaçmaz yoludu.
Şəhər dəvə ilə,
atla, pələnglə,
şirlə, ceyranla,
maralla doludu…
Təbiəti qorumağın
gərəkliyini
gec də olsa
duymuşuq.
Heyvanları öldürüb,
onlara heykəllər
qoymuşuq…

BUZ SARAY

Bezmişəm şaxtalı qışdan,
Ömrümdə yaz haçan olar?
Buzdan saray tikən kəsin
Sevinci yazacan olar…

ƏDƏBİ TƏNQİDİMİZİN RƏFİLİ ŞTATI



"Təbiət məni şair yaratmışdı, tale məni alim elədi".

M. Rəfili

XX əsrin 80-ci illərinin əvvəlləri idi. Ustadım və elmi rəhbərim, mütəfəkkir tənqidçi, nəzəriyyəçi - ədəbiyyatşünas Yaşar Qarayevlə Yazıçılar İttifaqında o zaman üçün çox adi olan növbəti ütülənmiş, tərif sığalı ilə süslənmiş müşavirədən çıxıb, indiki Sahil bağına gəldik. Yaşar müəllim qəfildən ayaq saxlayıb onu tanıyanların yaxşı xatırladığı müəmmalı baxışlarla xeyli üzümə baxdı və dedi: "Nizami, tənqidimizdə Rəfili ştatı çatışmır". Bu onun leksikonunda "Tənqidimizdə cəsarət çatışmır" demək idi. Və bu sözü Yaşar müəllim hər kəsdən artıq özünə deyir, mənə - gənc ümidverən tənqidçi Nizaməddin Babayevə həqiqi tənqidin yolunu göstərirdi.

İlk məqalələrimi yazdığım vaxt Yaşar Qarayevdən soruşdum:

- Yaşar müəllim, Siz bu yazıçıları niyə tənqid etmirsiniz?

O, çox kədərli və səmimi bir cavab verdi: "Əşi, tənqid etmək nədi, onları heç cərgəyə düzmək mümkün deyil, birini qabağa salırsan, o biri inciyir, incimək nədi, sənə düşmən kəsilir".

İstedadına, şəxsiyyətinə qibtə etdiyim, kumirim, mütəfəkkir Yaşar Qarayev bu sözləri deyəndə böyük ədəbiyyat tarixçisi, şair və tənqidçi Mikayıl Rəfili təxminən 30 ildi ki, dünyasını dəyişmişdi. Rəfili 1905-ci il aprelin 25-də anadan olmuş, 1958-ci il aprelin 25-də vəfat etmişdi. Bəli, Rəfili yox idi, ancaq Rəfili cəsarəti xatirələrdə yaşayırdı...

Cəsarət də istedad kimi böyük sərvətdir, şəxsiyyət olmağın şərti və əlamətidir.

Rəfili indiki Goranboy rayonunun Borsunlu kəndində varlı ailədə dünyaya gəlmiş, Gəncədə gimnaziyada təhsil alarkən (1919) - 14 yaşında M.Rəfizadə imzası ilə ilk şeirini, ilk hekayəsini və ilk məqaləsini yazmışdı. Öz kəndində müəllim işləyən istedadlı və inadkar gənc əvvəl Politexnik İnstitutuna daxil olur, sonra Azərbaycan Dövlət Universitetində şərqşünaslıq fakültəsində oxuyur (1924). Ədəbi prosesdə yeniliklə köhnəliyin amansız mübarizəsi gedən bir dövrdə (1926-27) M.Rəfili şair və tənqidçi, "Maarif və mədəniyyət" jurnalının ədəbi işçisi kimi imzasını təsdiq etməyə nail olur.

M.Rəfilinin ədəbi taleyində Moskva Dövlət Universitetində oxuduğu (1927), Kremldə redaktor işlədiyi illər xüsusi əhəmiyyət kəsb edir. Bu dövrdə o, ümumittifaq ədəbi və mədəni həyatı ilə yaxından tanış olur.

Azərbaycan Dövlət nəşriyyatında (şöbə müdiri), Azərbaycan Proletar Yazıçıları Cəmiyyətində çalışan istedadlı şair və tənqidçi az sonra Pedaqoji İnstitutda

rus ədəbiyyatı kafedrasında müəllim və dosent kimi maarifçilik fəaliyyəti göstərir. Çünki M.Rəfili 1935-36-cı illərdə Leninqradda SSRİ EA-nın aspiraturasını bitirib, "Azərbaycan ədəbiyyatının rus mədəniyyəti ilə əlaqələri" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdi. 8 ildən sonra (1944) o, böyük mübahisələrə səbəb olmuş doktorluq dissertasiyasını ortaya qoyur.

Bu zaman Mikayıl Rəfili Vladimir Mayakovski, Nazim Hikmət, Rəsul Rza ilə bərabər, yeni quruluşun istədiyi şeirin - sərbəst şeirin tanınmış nümayəndəsi idi. Ədəbi və elmi-nəzəri prosesin fəal, istedadlı və cəsarətli üzvü olan M.Rəfilinin "Pəncərə" (1929), "Lirik şeirlər" (1930), "Durna" (1934), "Yeni tarix" (1935) şeir kitabları, "M.Qorki" (1932), "V.Mayakovski" (1932), "T.Şevçenko" (1939), "A.P. Çexov" (1944) və s. monoqrafiyaları çap olunmuşdu.

Tarix XX əsrin 20-30-cu illərində ədəbi mübahisələrin burulğanında olan M.Rəfilini amansız sınaq qarşısında qoyur. MK-nın şöbə müdiri Ruhulla Axundovun tapşırığı ilə yeni mənzilə köçürülmüş qoca ər-arvad Medvedevlərin boşalmış mənzili gənc şair və alim M.Rəfiliyə verilir. 17 aprel 1937-ci ildə order alıb evə köçmək istərkən Medvedevlər qonşuları Ovanesov, Striqanov, Karapetyan, Arustamovların köməyi və şahidliyi ilə Rəfiliyə qarşı iş qaldırır və bu dövrdə sözü daha ötərgi olan rus-erməni qaragüruhu onu öz evinə buraxmır. Elə bu zaman Ruhullla Axundov həbs edilir və adı çəkilən adamların Azərbaycan Yazıçılar İttifaqının ünvanına yazdıqları ərizə əsasında Mikayıl Rəfilinin məsələsi müzakirə olunur. Fədakar tədqiqatçı Fazil Məmmədov "Mir Cəfər Bağırov Kreml ixtilafları burulğanında" (Bakı, "Şəms" nəşriyyatı, 2014) kitabında arxiv sənədləri əsasında bu prosesi təqdim edərək, Azərbaycan Sovet Yazıçılar İttifaqı İdarə Heyətinin 25 aprel 1937-ci il tarixli 7 saylı protokolundan belə bir çıxarış gətirir: "Mikayıl Rəfili bütün elmi və ədəbi yaradıcılığı boyu ədəbiyyatımızda və ədəbiyyatşünaslığımızda pantürkizmi propaqanda etmişdir. Firudun bəy Köçərlinin əsərlərindəki zərərli və təhlükəli cəhətlərin üstünü basdırmış və onu əsl bir ədəbiyyat tarixçisi kimi tanıtmağa çalışmışdır. M.Rəfili kontrrevolyusioner, xain və alçaq Ruhulla Axundovun ideoloji cəhətdən ən yaxın dostu olmuş, onunla sıx əlaqə saxlamış və öz elmi əsərlərini R.Axundova ithaf etmişdir. Bundan başqa, M.Rəfili Azərbaycan Sovet şeirinə formalizm kimi ən təhlükəli bir xəstə cərəyan gətirmiş və Azərbaycan xalq şeirinə qarşı çıxmışdır. İkiüzlülük, xəbərçilik, aravurmaq, yaltaqlıq kimi ən iyrənc və murdar hərəkətlər Mikayıl Rəfilinin peşəsi olmuşdur.

M.Rəfilinin atası məşhur mülkədar Hacı Həsən Gəncə üsyanında Sovet hökuməti əleyhinə çıxmış, inqilabçı fəhlələri qətl etmək kimi alçaq cinayətdə bulunmuşdur.

... Mikayıl Həsən oğlu Azərbaycan Sovet yazıçıları sırasından xaric edilsin" (s. 135).

Elə bilirik ki, 30-cu illər üçün səciyyəvi olan belə sənədlərin şərhə ehtiyacı yoxdur. Xalq arasında buna "Qaşınmayan yerdən qan çıxarmaq" deyirlər ...

Vəziyyəti belə görən istedadlı və cəsarətli M.Rəfili Mir Cəfər Bağırovun adına baş verənləri obyektiv şərh edən tutarlı bir ərizə yazır. Respublika rəhbərinin tələbi ilə Rəfiliyə dair bütün sənədlər ona təqdim olunur və zəhmli Mir Cəfər M.Rəfilini qəbul edir. M.Rəfilinin atasının həqiqətən Hacı Həsən olmasından başqa heç bir fakt təsdiq olunmur. Bağırov deyir: "Şəxsən sənin ərizənə gəlincə, başını aşağı sal, elminlə məşğul ol".

Mir Cəfər Bağırov ayağa qalxır, masanın arxasından əlini Rəfiliyə uzadır: - "İşində möhkəm ol! Hə, bir də Medvedevlə daha işin olmasın, alim adına layiq sənə başqa mənzil veriləcəkdir" (s. 138-139).

XX əsrin 20-30-cu illər nəzəri- estetik fikrinin, ədəbi mübahisələrin tədqiqatçı kimi mənə yaxşı tanış olan bu sətirləri oxuyur və "tənqidimizdə Rəfili ştatı" məfhumunun - Rəfili cəsarətinin haradan gəldiyini anlayıram. Mənim fikrimcə,

şəxsiyyəti olmayanın heç bir şeyi ola bilməz. Xüsusilə tənqidçi üçün lazım olan cəsarət və məsuliyyət onun şəxsiyyətindən nəşət edir. Zaman keçəcək, 50-ci illərdə öz şəxsiyyətinə, intellektinə və cəsarətinə görə təkcə Azərbaycanda yox, o dövrkü Ümumittifaq ədəbi mühitində qazandığı sərhədsiz nüfuz M.Rəfilinin (ümumən şəxsiyyətin və cəsarətin!) bədxahlarını yenidən narahat edəcək və o, Azərbaycan KP MK-ya və Moskvaya ünvanlanmış məktublarda, mətbuatda kosmopolit kimi günahlandırılacaq, satirik "Kirpi" jurnalında qoltuğuna xoruz verib şəklini çap etdirəcəklər....

Böyük şair Nazim Hikmətin onun ölüm xəbərini deyən adama dərhal telefonda söylədiyi "nəslimin yapraq tökümü başlandı, Rəfili" sözləri ilə başlayan şeiri sübut edir ki, M.Rəfili sağlam fikirli müasirləri içində nə qədər böyük nüfuz və sevgi sahibi imiş...

20-ci illərə qayıdaq. Bu dövrdə M.Rəfili Azərbaycanda (və SSRİ -də) sərbəst şeirin yaradıcılarından biri, nəinki yaradıcısı, həm də nəzəriyyəçisi idi. 1929-cu ildə "Maarif işçisi" jurnalında "Gülən adam" imzası ilə onun "Sərbəst şeir haqqında ilk söz" (1929) kimi çox maraqlı ədəbi-tənqidi və nəzəri məqaləsi çap olunmuşdu. Bu məqaləsində Rəfili yazırdı: "Azərbaycanda sərbəst şeir cərəyanını yaradan Türkiyə şairi Nazim Hikmətdi... sərbəst şeirin siması ilk dəfə olaraq Nazim Hikmətin yaradıcılığında öz bədii ifadəsini qurmuşdur... onların (sərbəst şeirçilərin - N.Ş) nəzərlərinə görə ədəbiyyat şəxsiyyətlər tarixi deyil, əsərlər, üslublar tarixidir və gələcək sosialist ədəbiyyatı müştərək yaradıcılıq şəklini almalı olacaqdır" ("Maarif işçisi", 1929, №1, səh. 76). Bu dövrdə Rəsul Rza, Səməd Vurğun, tənqidçi Əli Nazim də ilk sərbəst şeirlərini yazırdılar. 1927-ci ildə Bakıda Nazim Hikmətin sərbəst şeirlərdən ibarət "Günəşi içənlərin türküsü" adlı kitabı çap olunmuş, dövrün məşhur tənqidçisi Əli Nazim bu kitab haqqında" Günəşi içirik... günəşlənirik" (1928) məqaləsini yazmışdı. Bu kitab, Əli Nazim və Rəfilinin məqalələri habelə V.Mayakovskinin poeziyası Azərbaycanda sərbəst şeir hərəkatına güclü təkan vermişdi. Əli Nazim bir qədər də ifrata - vulqar sosiologizmə vararaq "Mayakovskini öyrənəlim" məqaləsində yazırdı: "Bu günkü şeirimizdə ilk sırada böyük Puşkin-Mayakovski şeirindən öyrənək şüarına qarşı gedənlər şüurlumu, şüursuzmu, bizi Şərq mistik ədəbiyyat meşəsinin meymunlarına çevirməkdən başqa bir iş görmürlər. Lakin eyni zamanda Puşkin və ya Mayakovski adı ilə masqalanaraq şeirimizə naturalizm korluğu və formalizm şilkütlüyü, eybəcərliyi gətirən şairlərin də bütün səhvləri göstərilməlidir". Beləliklə, 20-ci illərdə sərbəst şeir ətrafında mübahisələrdə sərbəst şeirə formalizm təzahürü kimi baxmaq meyli mövcud idi.

M.Rəfili Azərbaycan ədəbiyyatı tarixi üzrə görkəmli mütəxəssis olmuşdur. 1957-ci ildə onun "Mirzə Fətəli Axundov (həyat və yaradıcılığı)" adlı fundamental monoqrafiyası çap olunur. Çox dəyərli "Ədəbiyyat nəzəriyyəsinə giriş" (1958) adlı dərs vəsaitini görmək isə, böyük alimə qismət olmur.

M.Rəfili çox istedadlı, yorulmaq bilməyən tərcüməçi, Qərb ədəbiyyatının mahir bilicisi idi. O, 1927-35-ci illərdə Viktor Hüqonun 5 hissədən ibarət "Səfillər", "Gülən adam", "Paris Notrdam kilsəsi", L.Tolstoyun "Dirilmə", Balzakın "Qorio ata" romanlarını, A.S.Puşkinin poemalarını dilimizə tərcümə etmiş, "Səbuhi" filminin ssenarisini, bir neçə poema yazmışdır.

Bu il aprelin 25-də böyük şəxsiyyət, şair, peşəkar tənqidçi, ədəbiyyat tarixçisi, nəzəriyyəçi-ədəbiyyatşünas, mütərcim Mikayıl Rəfilinin anadan olmasının 110 illiyi tamam olur. 57 ildir ki, o, haqq dünyasına köçüb. Fəqət, şərəfli adı, tənqidçi cəsarəti bizimlədir. Çalışaq ki, ədəbi tənqidimizdə "Rəfili ştatı" boş qalmasın. Bu ştat çağdaş Azərbaycan tənqidinə çox lazımdır.

Nizaməddin ŞƏMSİZADƏ

Nazim HİKMƏT

M. RƏFİLİYƏ

Nəslimin yarpaq tökümü başlandı.
Çoxumuz qışa qalmayacağıq.
Dəliyə döndüm, Rəfili,
Ölüm xəbərini alanda...
Nə deyəcəkdim...
Yadındamı, Mikayıl,
Amma, hanı, yaddaşın yox,
əlin, ayağın, gözün, qaşın yox,
Qardaşım, bir sümük yığınısan
Bakıda,
bir məzarlıqda...
Nə deyəcəkdim,
Moskvada - bizdə yeni il gecəsi,
Bəzəkli şam ağacının altında bir süfrə
Yekəcə bir oyuncaq kimi atılır, düşürdün.
Gözlərin par - par
parıldayırdı
daz başın kimi,
Qarın da namxuda...
Çöldə gecəyə boyanmış qarlı bir meşə.
Sənə baxıb fikirləşirdim:
Köhnə şərab çəlləyi kimi nəşəli həzrət,
köhnə şərab çəlləyi kimi sağlam.
Düşünürəm, məndən çox sonra öləcək,
Dalımca bir məqalə də yazacaq,
Ya da bir şeir:
"Nazimlə Moskvada 24-də tanış olduq".
Elədir, Mikayıl, elə,
Şair ola bilərdin, professor oldun...
məsələ bunda deyil.
Görülən işin ya çox yaxşısı yaşayır bizdən sonra,
ya da çox pisi.
Sənin ki orta idi zənn edirəm,
mənimki də elədir.
Yəni səsimiz bu göy qübbəsinin altında qalacaq deyə
təsəllimiz yoxdur.
Mən ki, öz payıma buna kədərlənmirəm,
təsəllisiz yaşamağı bacardım.
Təsəllisiz ölməyi də bacararam
sənin kimi, Rəfili.

Praqa, 1958

* * *

Mikayıl Rəfiliyə həsr etdiyi essesində Xalq yazıçısı Anar yazır:

"Bir dəfə anam dedi: - "Elə adam olasan ki, olümünə Nazım özü şeir yazsın".

Doğrudan da, belə böyük sənətkarın Ağısı hər kəsin qisməti deyil. Bu "ağı" Mikayıl Rəfiliyə matəmin, onun gördüyü işlərə hörmətin, görə bilmədiklərinə həsrətin və təəssüfün ifadəsidir".

◆ P o e z i y a

Nazir RÜSTƏM

* * *

Bu dənizdən bu sahilə
atılan balıq kimiyəm.
Əriyirəm gilə-gilə,
quruyan bulaq kimiyəm.

Bu qovhaqov, qaçhaqaçda
Sabaha yolum tıxacda.
Xəzan vuran bir ağacda
yorulan yarpaq kimiyəm.

Bir kimsə yox məni ana,
Məni duya, məni ana.
Bu dərdə çarə yox, ana,
Anasız uşaq kimiyəm.

Dizimə qoydum üzümü,
Özümə yumdum gözümü,
Özüm söndürüb közümü,
Qaralan ocaq kimiyəm.

* * *

Qədir Rüstəmovun xatirəsinə

Səni də aldı bu torpaq
Sənə canında yer verdi.
Ömrünün süd kimi dümağ
Təmiz anında yer verdi.

O yollardan kimlər keçdi,
O sulardan kimlər içdi?!
Çox aradı, səni seçdi,
Tanrı yanında yer verdi.

* * *

Mikayıl Müşfiqin və başqa irtica qurbanları şairlərinin xatirəsinə

…Bax belə…
Burnumuzdan gətirdilər
gecəmizi,
Həmin gecə tutdular,
apardılar
neçəmizi -
neçəmizi güllələdilər,
neçəmizi itirdilər.
Sonra tabutumuzu
çiyinlərinə götürüb
köks ötürdülər,
nitq dedilər,
ağladılar çoxu da…
Amma mən
ağappaq yol görmüşdüm
həmin gecə yuxuda.

* * *

Payız tökür
yarpağını ağacların,
sonra yuyur,
təmizləyir budaqları
tərpətdiyi buludların
yağışına…
Deyərsən ki, yorğun ana
çimizdirib, əzizləyib körpəsini,
sonra sıxır
ağuşuna.

* * *

Bu yay da belə bitdi;
Ömrün əlli yaşıtək.
Göylərdə günəş itdi,
Sinəmin atəşitək.

Oxuyub son nəğməni,
Quşlar da uçdu getdi.
Susdu çölü, çəməni -
bu yay da belə bitdi.

Yerlər sarı boyanıb,
Göylər ulduzsuz, Aysız.

Yavaş-yavaş oyanıb
gözünü açdı payız.

Ömürdən bir il ötdü,
Qurtardı bu yay kimi.
Görünməz oldu, itdi
Buludlarda Ay kimi.

* * *

Gözlərimi tor, -
dizlərimi ağrı,
üzümü qırışlar aldı.
Başımın üstünü
"Sabaha inam"
şərqisi oxuyan
naçar quşlar aldı.
Amma…
Sabah gec idi…
Dünəndə oldum
və sevdim,
və sevdiklərimə şeirlər dedim,
şeirlər dedim
Yerdən,
Günəşdən,
Dənizdən…
Şeirlər dedim
Füzulidən,
Bəxtiyardan,
Ramizdən,
Sabah gec idi,
Dünəndə oldum…

* * *

Bilmirəm neçə il yaşayacam -
Beş il, on il, ya bir gün?
Amma, bir şeyi bilirəm
Dəqiq və düzgün:
mən öləndə gecə olacaq
və Ay qara buludların arxasında
batacaq o gecə.
Və onu da
lap dəqiq bilirəm ki,
dünyanın sonu
çatacaq o gecə.



Faiq HÜSEYNBƏYLİ

BİR AZ YAXIN OL MƏNƏ

Bir az yaxın ol mənə,
Bir az yaxın - ruh kimi.
Mən tufan qoparmışam
Bu sevgiyə Nuh kimi.

Göz yaşımı şərabtək
İçdim - məstəm bu eşqə.
Mən çaparaq gəlmişəm,
Mən... atüstü bu eşqə...

Ya çəkil get dumantək,
Ya da gəl, bir ömür qal.
Heç nə, heç nə demirəm,
Azca, azca yaxın ol...

Bir az yaxın ol mənə,
Qarışdırma fikrimi.
Bir az yaxın ol, nolar,
Yerdən Tanrıya kimi...

SÖZÜN XƏTRİNƏ

Ömrümü günbəgün düyünləyirəm,
Bir dilsiz-ağızsız sözün xətrinə.
Qələm qaşlarınla şeir yazıram,
Kirpiyin xətrinə, gözün xətrinə.

İçimdə həzin bir nəğmə mürgülər,
Üzümə sevdalı günlərim gülər.
Közü qurdalama, alışa bilər,
Közü qurdalama közün xətrinə.

Mən ölü ruhları sağdan ayırdım,
Bir ömür qaranı ağdan ayırdım.
Mən elə bu yolu addımlayırdım,
Ləpirin xətrinə, izin xətrinə...

Tanrımsan, arzumu ver, üzə salma,
Gecənin işini gündüzə salma.
Məni o dərəyə, bu düzə salma,
Dərənin xətrinə, düzün xətrinə.

DUR, GEDƏK...

Dünyanın ən kədərli
Vaxtı çatıb, dur gedək!
Dur gedək, ömrüm-günüm,
Ömrü başa vur, gedək!

Yol gedir uçuruma,
Uçurum önündə durma.
Xəyalımı uçurma,
Xəyalımı qur, gedək!

Yaşamaq da peşədi,
Bir az qəmdi, nəşədi...
Ürəyim saf şüşədi,
Ürəyimi qır, gedək.

Bir az da çıx özündən,
Tut Allahın sözündən.
Bu dünyanın üzündən,
Götür bir az nur, gedək!

HƏMİŞƏ SƏNİNLƏYƏM

Sanma ayaq altında
Yol olub itəcəyəm,
Öləcəyəm, yenidən
Gül olub bitəcəyəm.

Qayıdacam yanına,
Ağac kimi, ot kimi.
Qayıdacam sevdiyin
Pişik kimi, it kimi.

Bəlkə də bir göyərçin
Şəklində dönəcəyəm.
Eşqinlə qanadlanıb,
Eşqinlə enəcəyəm

Həzin küləyə dönüb
Qapını döyəcəyəm.
Sən "kimdir?" soruşanda,
Mən "mənəm" deyəcəyəm...

Həmişə sənindəyəm,
Heç vaxt səni atmaram.
Ölsəm, məni unutma,
Unutsan, qayıtmaram.

GECİKMİŞ MƏHƏBBƏT

Bax, yenə oyağam, yata bilmirəm,
Uymaq istəmirəm yuxularıma.
Sən gələn yuxuya "yuxudur" deyib,
Qıymaq istəmirəm yuxularıma.

Bir az tələsmisən ayrılıq üçün,
Bir az gecikmisən bu məhəbbətə.
Vədəsiz bar verən ağaclar kimi,
Bu sevgi sığmayır haqq-ədalətə.

Ruhum sorağına çıxıb min ildi,
Axtara-axtara itirdim səni.
Biz harda dost idik, harda yar olduq?
Niyə öz dünyama gətirdim səni?

Aşiqin dövranı olmur, əzizim,
Aşiq laməkandı, zamanı yoxdu.
Bizim bu sevginin, bu məhəbbətin
Bu gündən sabaha gümanı yoxdu.

Mən necə yaşayım didərgin eşqi,
Yoxmu bir əzizin, yaxının-yadın?
Mən hansı vicdana sığdırım səni,
Ruhuma, könlümə sığınan qadın?

HƏLƏ YAZIRAM

Qələmə-kağıza həyat verirəm,
Ömür kitabımı hələ yazıram.
Məni qınamasın qələm dostlarım,
Mən belə görürəm, belə yazıram.

Mən ki çeynəmirəm, yemirəm sözü,
İçini tökürəm, demirəm sözü...
Duyan könüllərə gömürəm sözü,
Dodağa yazıram, dilə yazıram.

Gecənin gözünə xumar çəkirəm,
Günəşin telinə tumar çəkirəm.
Mən öz qələmimlə nə var çəkirəm,
Alovun dərdini külə yazıram.

SÖZÜM QABAĞA DÜŞÜR

Üzü belə gedirəm,
Üzüm qabağa düşür.

Mən yolu tanımıram,
İzim qabağa düşür.

Ulduzum sönən yerdə,
Səmadan enən yerdə,
Səbrim tükənən yerdə
Dözüm qabağa düşür.

Yollar izimdən çıxır,
Çıxır, gözümdən çıxır.
"Öz"üm özümdən çıxır,
"Öz"üm qabağa düşür.

Hərdən dərimi soyur,
Hərdən gözümü oyur.
Məni geridə qoyur,
Sözüm qabağa düşür.

YEDDİ MƏHƏBBƏT MƏKTUBU

Məhəbbət məktubu yazıram sənə -
Küləyin nəğməsi... birinci məktub...
Məhəbbət məktubu yazıram yenə -
Bulaqların səsi... ikinci məktub...

Qərib quş kimiyəm elindən ayrı,
Güvənindən ayrı, dilindən ayrı.
Bələnib dərd-qəmə gülündən ayrı
Bülbülün naləsi... üçüncü məktub...

Günəşdən zərrə var yanaqlarında,
Bir sevgi gizlənib sınaqlarında.
Gör necə məst olur dodaqlarında
Şərab piyaləsi... dördüncü məktub...

Ruhumu zülmətdən çıxar işığa,
Sevənlər bu nurdan bir ovuc yığa...
Dağlar da heyrandı bu yaraşığa,
O dağlar laləsi... beşinci məktub...

Kama yetən bilməz nakam nə çəkdi,
Nakamlar əbədi tənhadı, təkdi...
Ətrin, təravətin gülə bəzəkdi,
Sübh şehi, jaləsi... altıncı məktub...

Ya yaşat Faiqi, öldür ya da sən,
Pərvanə canımı saldın oda sən.
Yaşamaq eşqisən bu dünyada sən,
Sonuncu nəfəsim... yeddinci məktub...

Pərviz AXUND

DOLANIMMI, DOLANIM

Gəlib durdun lap dilimin ucunda,
Söz, başına dolanımmı, dolanım.
Oxuyummu dərd əlindən yar deyə,
Saz, başına dolanımmı, dolanım.

Məhəbbət çiçəyim necə də solmuş,
Çisgindən, borandan pərişan olmuş.
Tamarzı könlümdən uzaqda qalmış
Yaz, başına dolanımmı, dolanım.

Ay sinəmdə hicran odu qalayan,
Günlərimi həftələrə calayan,
Məni eşqin barmağına dolayan
Qız, başına dolanımmı, dolanım.

GÖRÜŞ

Gəl görüşək bu axşam, gedək bulaq başına,
Küləklər sürmə çəksin kipriyinə, qaşına.

Qumruların dilindən xəfif nəğmə oxunsun,
Əllərim ilmələnsin, saçlarına toxunsun.

Sığal çəkib darayım pərişan tellərini,
Nəfəsimlə isidim üşüyən əllərini.

...Gülüm, məni ovundur məhəbbət laylasıyla,
Düşünüm ki, hər işim gedir öz qaydasıyla.

Düşünüm ki, bu ömür öz alın yazım deyil,
Düşünüm ki, kədərdən sevincə aparan yol
elə də uzun deyil.

FİKİR ÇƏKİRƏM

Fikir çəkirəm, gözəl - o gözlərin fikrini,
Lalə kimi qızaran bənizinin fikrini.

Səndəmi mənim kimi öz bəxtinə yağısan?
Səndəmi mənim kimi ömrün payız çağısan?

Aramsız göz yaşına səndəmi oldun vadar?
Sənindəmi gözlərin yol çəkməkdən yorulub,
Göz yaşında qovrulub,
Çatlayıb cadar-cadar?

Fikir çəkirəm, gözəl,
İncə barmaqlarıyla eşqin qapısın açan,
Zərif ayaqlarıyla mənim yanıma qaçan,
Gözümə işıq verən, nur saçan o gözəlin,
O adamın fikrini,
Şux qamətin fikrini,
Gül əndamın fikrini.

Bu gecə xəyalımda yarım mənə qonaqsa,
Yaradana min şükür.
Fikir çəkmək yasaqsa,
Bir də çəkmərəm fikir.

ONUN UCBATINDAN

Bir gözəl sevmişdim - qara bənizli,
Bu sevgi çox erkən qapımı döydü.
Bilərək özünü bəlaya salmaq
Qəlbimin birinci təşəbbüsüydü.

Zahirən elə də zəngin deyiləm,
Evim nə imarət, nə də saraydı.
Sonralar bildim ki, o qızın meyli
Son dəblə geyinən oğlanlaraydı.

Nə gərək "qaz vurub qazan doldurum",
O qıztək nə aciz, nə də saxtayam.
Onun ucbatından yoxsulluğuma
Dördəlli, beşəlli sarılmaqdayam.

Məhəbbət acısı, könül ağrısı
Onun ucbatından başıma gəldi.
Nə yalan söyləyim, sözün doğrusu,
Ondan hər nə gəlsə, mənə gözəldi...

TƏCNİSLƏR

YAXŞIYA XALI

Zərxara geysə də yaman yamandı,
Yaxşıca yaraşar yaxşıya xalı.
Sarını hüsnünə heyran edərmiş,
Gözünə sürmələr Yaxşı yaxalı.

İrəngim qaraldı, döndüm mən zilə,
Sən bəmdə dəm saxla, çəkim mən zilə.
Müsafir gələndə döşə mənzilə -
Yamana boz keçə, yaxşıya xalı.

Axundam, çağ olsun bu damaq gərək,
Qurumuş budağı budamaq gərək.
Bu bağ yaşıl gərək, bu dam ağ gərək,
Xalına-xalçana yaxşı yax alı.

AYAĞI MİNDİ

Gəldi yaman günüm xoş gün üstünə,
Qarışdı qaraya ay ağım indi.
Namərd yağmaladı mərdin evini,
İgid köhlənini a yağı mindi.

Yaxşını yamandan düz seç, düz ələ,
Əyrilik yaraşmaz bil ki, düz ələ.
Nanəcib, naxələf çətin düzələ,
Şeytanın başı yüz, ayağı mindi.

Fitnələr düzmüsən nədən yanına?
Nə axşam gələrəm, nə dan yanına.
Ölsən də, sənintək nadan yanına
Bir addım da atmaz ayağım indi.

AYAĞINDADI

(cığalı təcnis)

Bir zaman sevgimiz yağ-bal kimiydi,
Bal gedib, qalıbdı a yağın dadı.
Dedim, a yağın dadı,
Qalıb a yağın dadı.
Məni doğrayan qılınc,
İndi, aya, qındadı.
Şahmarla dost olub, aşnalıq edən,
Gün gələr zəhərin, ay ağın dadı.

Günbəgün çoxalır qırxa sarı sin,
Loğman axtarıram yaram sarısın.

Gəlsin, aman, sarısın,
Loğman yaram sarısın.
Bürün hicran kürkünə,
Yaxşı-yaman sar, isin.
Hüsnün xatırladır Günəş sarısın,
O zərif əllərin Ay ağındadı.

Soluxmuş baxçalar xara bazarmış,
Xar gülə ləlikmiş, xar aba zarmış.
Neynim, xar aba zarmış,
Bağlar xara bazarmış.
İlqarından dönəni
Sevmək xarab azarmış.
Axundam, ürəyim xarabazarmış,
Eşqim ayrılığın ayağındadı.

BAX, BAX, BAX

(mükərrər gəraylı)

Dedim bir bəri gəl, gəl, gəl,
Gəl də halıma bax, bax, bax.
Bağrım başını dəl, dəl, dəl,
Qeylü-qalıma bax, bax, bax.

Gördüm başında şal, şal, şal,
Qalmadı məndə hal, hal, hal.
Dedim, yanımda qal, qal, qal,
Bu əhvalıma bax, bax, bax.

Axundun bağrı şan, şan, şan,
Yara qurbandı can, can, can.
Getdi, qalmadı qan, qan, qan,
Axan alıma bax, bax, bax.

Şəkillər

Üçüncü şəkil:

"Altı qızın biri Pəri"



Məmməd Araz mənim üçün həmişə uzaqda olan şairdir. Uzaqda, yəni o mənada ki, həmişə ona tərəf getməyimə yer var. Əslində, aradakı bu məsafə onun istedadının əsas göstəricisidir. Ona doğru gedirəm, o, bir addım da irəli gedir; çata bilmirəm. Demək, böyük ədəbiyyat belə olurmuş; həmişə bir addım öndə.

Böyük hesab elədiyim şairlərə asanlıqla yanaşa bilməmişəm. Eləcə kənarda dayanıb baxmışam, kitablarından əlavə, onların hərəkət və davranışlarında da yeni şeirlərini oxumuşam. Məmməd Araz mənim belə şairim idi. Məmməd Araz hərəkət şairi idi.

Elələri var ki, çox vaxt bunun fərqinə varmırlar, yeri oldu - olmadı, özünü içəri soxur, özünü təqdim edir, tələm-tələsik şəkil çəkdirir, şeirlərinə ön söz yazdırırlar.

Sonra bu şəkillər, bu "ön söz"lər bütün mətbuatı başına götürür. Və bu cür adamlar yeni kitabını çap etdirərkən həmin "ön söz"lərdən bir-iki cümləni seçib hətta kitabının üz qabığında dərc etdirir, şəkillər də ki, kitabın hər yerində; içində də, çölündə də.

Kitablarına ön söz yazdıranlar və ya özləri haqqında məşhur şairlərə fikir dedizdirənlər sonra bu sözlərin arxasında dayanaraq oxucuya təsir edir və sözün geniş mənasında meydan sulayırlar. Oğulsan, belələrinə bir söz de, o saat Bəxtiyar Vahabzadənin, Məmməd Arazın onların haqqında dediyi sözü qoyurlar adamın qabağına. Amma həmin sözün tonundan hiss edirsən ki, bu, hansı məqamda, məsələn, deyək ki, tələsik, ayaqüstü bir vəziyyətdə deyilmiş bir cümlədir.

Son vaxtlar Məmməd Araz yaza bilmirdi, çətin danışırdı. Amma ona ön söz yazdıranlar vardı. Əlbəttə, bu, şairə böyük məhəbbətdən irəli gəlirdi və bundan istifadə edənlər də çox idi.

Bir dəfə görüşlərin birində həyat yoldaşı şairin dediyi sözləri Heydər Əliyevə "tərcümə" edəndə kövrəldim.

Məmməd Araz Allahın dilinə qayıtmışdı.

O daha çox başa düşülürdü, oxunurdu, mənsə, onunla heç tanış deyildim...

Mən Bəxtiyar Vahabzadəyə də yaxınlaşa bilməmişəm, Məmməd Arazda olduğu kimi; aramızda keçə bilmədiyim bir məsafə qalırdı və bəlkə də hər iki

şairi mənim üçün göydən yerə (yanıma) enməyə qoymayan o məsafədir və indiyə kimi mən həmin məsafəni oxumaqla məşğulam.

Necə ki, bir şeirində Məmməd Araz yazırdı:

Qaldı uzaqlarda Naxçıvan, Bakı,
Sən indi uyuyur, indi yatırsan.
Sən mənə o qədim nağıllardakı
Uzaq işıqları xatırladırsan.

Qədim nağıllardakı o işıq kimidir mənim sevdiklərim də. İşıq yaxında ümumi topluma çevrilir, amma uzaqda olanda sən ona rahat baxa bilirsən və həm də o işığın yanına getmək istəyirsən.

Məmməd Arazın çox sevdiyim bir şeiri var, "Altı qızın biri Pəri". Tələbə vaxtından əzbərləmişəm bu şeiri. Küçələri addımlayanda, pilləkənləri qalxanda və enəndə, ot çalanda, əsəbiləşəndə həmin şeiri əhvalıma çox üyğun bir şəkildə oxuyardım, səbəbini bilmirəm...

Dəryazı otlara vuranda içimdə və hətta ətrafda hiss ediləcək qədər deyirdim:

Altı qızın biri Pəri.

Pilləkənləri enəndə

Altı qızın biri Pəri

Əsəbiləşəndə

Altı qızın biri Pəri

İti dəryazım otların üstündə son akkordlarını vuranda artıq şeir də sürətlənirdi:

Altı qızın biri Pəri...
Altı qızın biri Pəri...
Heyf onu atıb əri.

Lap sonuncu gücdə başqa bu misra gəlirdi **"Pəri nədi, əri nədi"** artıq bunu əsəblə deyirdim. Artıq bu etiraz idi. Qaçırdım "Pəri nədi, əri nədi." Hirslənirdim. "Pəri nədi, əri nədi" bəlkə də bütün hərəkətlərimin və əsəbimin, sevməyimin və unutmağımın elm aləminə məlum olmayan vəzni idi bu misralar. Unutmaqla razılaşmıram, Pəri nədi, əri nədi, ölümə razılaşmıram, Pəri nədi, əri nədi. Və bəzən şeir yaza bilməyəndə kağız parçalarını cırıb atıram. “Pəri nədi, əri nədi”. Bu şeirin ritmi məni həmişə idarə eləyib.

Sevəndə "Altı qızın biri Pəri", təəssüflənəndə "Heyif onu atıb əri", hirslənəndə (və bəlkə də əsl sevgi burdadır) "Pəri nədi, əri nədi" söylədim...

Məmməd Araz uzun illərdi "Azərbaycan təbiəti" jurnalının baş redaktoru idi. Xəstə olmasına baxmayaraq, hər gün işə gəlirdi. "Azərbaycan" nəşriyyatının ikinci mərtəbəsində yerləşən iş otağına gəlməyinə sürücüsü Mais kömək eləyirdi. Qolundan tutub çıxarırdı. Hərdən mən də şairlə qarşılaşırdım. Yenə aramızda bir kitab qədər məsafə. Bir dəfə Mais bərk tələsirdi, şairi yuxarı tez aparmaq istəyirdi. Belə bir tələsik məqamda, pilləkəndə şairin qarşısından adamlar keçirdi. Şair adamlara, adamlar şairə baxırdılar. Görüşən də olurdu. Mais də şairin qolundan dartırdı ki, tez gəlsin. Birdən mənə elə gəldi ki, o, harasa çox uzağa baxır. Bəlkə də dodaqlarında bu misranı pıçıldayırdı: "Altı qızın biri Pəri". Sonra şair Maisin köməkliyi ilə pilləkənləri sürətlə çıxmağa başladı və, məncə, o, ürəyində deyirdi: "Pəri nədi, əri nədi...".

Qəşəm NƏCƏFZADƏ

Əlövsət BƏŞİRLİ

ETİRAF

Ola bilər ki, sən bu dünyada sadəcə bir insansan, könül verdiyin qadın üçünsə, bütöv bir dünyasan.

Q.Markes

Rəis onu hörmətlə qarşıladı; ayağa durub əl verdi, yer göstərdi. Sonra üzbəüz oturub hal-əhval tutdu, səhhətini soruşdu. Müsbət cavab alıb gülümsündü.

O, dünya görmüş həssas adamdı. Rəisin əl-ayağa düşməyində, hərəkətlərində nədənsə qəribə narahatlıq, bir qədər sünilik hiss etdi, elə təbəssümündə də… Onu yetərincə tanıyırdı, vaxtilə əlinin altında işlətmişdi. Özü isə bu idarədə rəis olmuşdu, sonra nazirliyə məsul vəzifəyə irəli çəkiləndə yerinə onu «oturtmuşdular». Etiraz eləyə bilməmişdi, çünki «yuxarılarda halına yananı» vardı…

Zaman ötmüş, aylar illərə sığınmışdı. O, yaşa dolub saç-saqqalını ağartmış, pillə-pillə yüksəldiyi vəzifələrdən mərtəbə-mərtəbə enməli olmuşdu. Nəhayət, vaxtilə rəisi olduğu bu idarəyə məsləhətçi göndərilmişdi. Etiraz etməmişdi. Zamanın qarışıq çağlarında onun qədir-qiymətini bilən, hörmətini saxlayan yetirməsi səlahiyyət sahibi olanda qayğısını əsirgəməmiş, «biz hamımız Araz müəllimin şinelindən çıxmışıq, ondan öyrənmişik, elə indi də öyrənməli, məsləhətlərindən yararlanmalıyıq», - demişdi.

Beləcə, yetərincə təcrübəsi, idarəçilik və təşkilatçılıq bacarığı olan Araz müəllim həm məsləhətçi işləmiş, həm də idarənin kadrları təkmilləşdirmə kurslarında dərs demişdi. Ciddi, tələbkar, həmçinin qayğıkeş, məqamı gələndə güzəştə getməyi, bağışlamağı bacaran təmənnasız insan kimi çoxsaylı kollektivin rəğbətini qazanmışdı.

İdarədə ona göstərilən hörmət-izzətə həsəd aparan, paxıllıq eləyənlər də az deyildi. Və məqamı düşəndə rəisin qulağını doldururdular. Şöhrətpərəst, «ad-sanını» heç kəslə bölüşmək istəməyən qısqanc rəis içərisində qovrulsa da, yuxarıdan çəkinib nazirin qorxusundan aşıb-daşan hikkəsini boğur, fürsət gözləyirdi. Ancaq… Sən saydığını say, gör fələk yox, təzə nazir nə sayır. Cavan nazir işə başlayanda o, əlaltı öyrəndi ki, «kişinin öz komandası» var. Biləndə ki, kadrlar şöbəsinin müdiri nazirlə yaxındır, dalağı sancdı. Elə sancmalıydı da. Özünə dost bildiyi, sirdaş sandığı kadrlar şöbəsinin müdiri idarədə baş verənləri, rəisin elədiyi qələt işləri təzə nazirin ovcuna qoymuşdu…

Araz müəllimin bütün bu pərdəarxası oyunlardan xəbəri yox idi, heç ola da bilməzdi. O, öz səlahiyyəti həddində çalışır, kənar işlərə qarışmır, abırını

gözləyirdi. İdarədə də, nazirlikdə də onu təmiz, düz, ləyaqətli kişi sayırdılar. Bununla belə, yuxarıda ab-hava dəyişəndə, aşağıda idarənin üstündən küləklər əsəndə, ərizəsini yazıb işdən çıxmağı qət etdi. Ərizəsini diqqətlə nəzərdən keçirib ona təəccüblə baxan rəisə:

- Hər işi öz vaxtında görmək gərəkdi, - dedi və sonra əlavə etdi, - Mənimsə vaxtım çoxdan yetişib.

Rəis bir qədər fikrə gedib ağızucu dilini sürüdü:

- Axı, siz gümrahsınız hələ.

- Yaşın yükü ağır olur ahıllaşanda. Qoy cavanlar işləsinlər.

Rəis dəstəyi qaldırıb kadrlar şöbəsilə danışdı. Çox keçmədi ki, qoşalaylı qapı açıldı. Kadrların müdiri salam verib rəisin işarəsilə onlarla yanaşı oturdu, qovluğunu açıb anket vərəqələrinə baxa-baxa arxayın səslə dedi:

- Düzü, bu yaxında hesablamışam, Araz müəllimin iş stajı yarım əsri ötüb, maşallah. - Ani olaraq susub köksünü ötürdü: - Odur ki, pensiyanı hesablayanda dolu rəqəm alınır…

- Təki olsun!

Rəisin qalın, xırıltılı səsində həsəd, qibtə hiss olunurdu. Əslində onun Araz müəllimə paxıllığı tuturdu. «Kaş mənim də axırım belə olaydı», - deyə düşündü və gözlərini qabağındakı açıq qovluğa zilləyən Kadrlar şöbəsinin müdirinə tərs-tərs baxdı: «Şeytan balası gündə neçə dona girir. Hardan biləydim dost sandığım, inandığım bu əclaf təzə nazirə yol tapacaq, sirlərimi faş eləyəcək. Sabah yoxlama olsa … üzümə duracaq»

* * *

İkinci mərtəbəyə qalxıb qapını açanda telefonla danışan arvadının səsini eşitdi:

- Sağ olun, xoş sözlərinizçin. Əlbəttə, inanıram, bilirəm ürəkdən deyirsiz. Evə gələn kimi mütləq çatdıraram özünə.

Dəstəyi yerinə qoyub, yaşına uyğun asta, xırda addımlarla astanada maraq dolu nəzərlərlə ona baxan ərinə yanaşdı. Qollarını boynuna dolayıb üzündən öpdü, ərkyana dedi:

- Göz dəyməsin, nə çox istəyən varmış səni işində, idarədə… - Sözünə ara verib, məhrəm nəzərlərlə ömür-gün sirdaşını süzdü: - Heç bilirsən nə qədər zəng eləyiblər, şəninə nələr deyiblər?! Vallah, yadımda qalmayıb çoxu. Hələ umu-küsü də elədilər.

Kişi təəccübləndi:

- Nəyə görə?

- Ona görə ki, deyirlər gərək yığıncağa qalaydı, sözümüzü deyib təntənəli «provod» eləyəydik.

O, əllərini yellədi:

- Sən ki, xasiyyətimi bilirsən. Zəhləm gedir biçili-ütülü, boğazdan yuxarı sözlərdən…

- İnsafən, zəng eləyənlər elə-belə yox, ürəkdən danışırdılar.

Kişi fikirli halda:

- Ola bilər, - dedi, - telefonda, ikilikdə, otaqda üzbəüz danışsınlar, ürəklərini boşaltsınlar, ancaq… - O, zənlə arvadına baxdı, - ancaq yığıncaqda, rəsmi yerdə hər adam bunu bacarmaz, öz sözünü kişi kimi deyə bilməz. Xüsusən, indiki halda, bizim idarədə.

Arvadının təəccüblə ona baxdığını görüb izah elədi:

- Həmişə yuxarıda dəyişiklik olanda aşağıda öz təsirini göstərir. Bizim də nazirimiz dəyişib. Tanımıram onu. Deyirlər ki, cavandır, komandası var,

köhnə işçiləri çıxarıb əvəzinə özününküləri qoyacaq. Bilmək olmur, bu söz-söhbət doğrudur, ya yalan. Ancaq hiss edirəm ki, çoxları təşvişə düşüb, elə bil idarəyə şübhə toxumu səpilib, göyərib sarmaşıq kimi işçilərin əl-qoluna dolaşıb. Başda oturan rəisin kürsüsü laxlayır, özü də çaş-baş qalıb.

- Axı, nəyə görə, vəzifəsi canından şirindir bəyəm? Madam belədir, ərizəsini versin, çıxsın pensiyaya, sənin kimi.

Arvadının sadəlöhvlüyünə içində gülsə də, üstünü vurmadı, dodağı qaçdı. Həlim səslə:

- Məsələ başqa cürdür, - dedi, - onun hələ pensiya yaşı çatmayıb. Üstəlik, işində də kəm-kəsiri, əyər-əskiyi var. Bunu nazirə çatdırıblar. Deyiblər ki, rəisin nəfsi qılıncdan itidir, idarənin anbarını tarmar eləyib.

Araya sükut çökdü. Araz kişi yan otağa keçib paltarını dəyişdi. Arvadı təzədəm çayı armudu stəkana süzüb mətbəxin küncündəki kiçik masanın üstünə qoydu. Kişi çayı ləzzətlə içib xanımını tərifledi:

- Sənin çayının ətri-tamı bambaşqadı, işdə belə dəmləyə bilmirlər.

Gülər xanımın dodağı qaçdı:

- Niyə, bu neçə ildə o qədər xanımdan biri sən bəyəndiyin kimi dəmləməyi öyrənmədi?

Arvadının xasiyyətinə yaxşı bələd olan, incə yumorundan xoşhallanan kişi özünü o yerə qoymadı:

- Mənə ləzzət eləyən çayı həmişə sən dəmləmisən, heç vaxt ətrindən doymamışam.

Xanımı «hücumunu» davam etdirdi, üstüörtülü zarafatından qalmadı:

- Çox qəribədir, bayaq qızlar telefonda dil-dil ötüb səni elə tərifləyirdilər ki, qulaqlarıma inana bilmədim. Məəttəl qaldım ki, səslərini eşidib üzlərini görmədiyim cavan xanımlar mənim qoca ərimi niyə belə odlu-alovlu mədh eləyirlər? Xeyir ola?!..

- Kimdir qoca, sənin kimi gözəl-göyçək, adı Gülər, üzü gülər xanımın əri heç qocalar?!

Kişisinin özünəməxsus yumorla hazırcavablığından qadın içində zorla boğduğu gülüşünü saxlaya bilməyib gözləri yaşarınca uğundu. Ona qoşulan ərinin ürəkdən gələn şaqraq qəhqəhəsindən elə bil mətbəxdəki qab-qacaq da titrəyib cingildədi…

* * *

Araz kişi həftəsonu - şənbə, bazar günləri bağda olurdu. Yazqabağı vaxtilə əkib-becərdiyi ağacları, tənəkləri budayır, kəsdiyi quru budaqları, çör-çöpü yığışdırıb darvazanın yanında üst-üstə qalaqlayır, fürsət düşən kimi yük maşını tutub daşıtdırırdı. Sonra birmərtəbəli, hündür kürsülü, geniş eyvanlı bağ evini sahmana salıb yay mövsümünə hazırlığını başa çatdırırdı.

Həmyaşıd bağ qonşuları ilə söhbəti tuturdu. Onlar bilirdilər ki, Araz kişi bağda, ağaclar arasında özünün təbirincə «qurdalanmaqdan» ləzzət alır, həftə ərzində idarədə gördüyü işin ağrı-acısı canından çıxır, əsəbləri sakitləşir, bir sözlə, rahat olurdu.

O, həvəskar bağban kimi ağaclara, tənəklərə qulluq etməkdən, əkib-becərməkdən zövq alırdı. Dağətəyi ucqar kəndlərində, rəhmətlik babasının yadigarı olan bağ-bağatı tez-tez xatırlayırdı. Uşaq yaşlarında ətəyindən tutub həndəvərində boy atdığı bağban babasından yeniyetmə, sütül çağlarında dünyanın ən qədim peşəsinin sirlərini öyrənməyə çalışır, görüb götürürdü. Sonra…

… Yayın cırhacırında Xəzərdən əsən meh bağ evinin eyvanına kölgə salan iri tut ağacının yarpaqlarını xəfif-xəfif titrətdi. Yetişib şirələnən gilələr ağacın altına təkəm-seyrək töküldü. O, başını qaldırıb budaqların yaxasında muncuq kimi asılıb sıralanan bəmbəyaz gilələrə baxdı. Yadına babasının bağından gətirib üstü qumlu torpağa basdırdığı, sonra günaşırı sulayıb nazını çəkdiyi sütül şivərək ting düşdü. Dərindən köksünü ötürdü… Ömürdən uçan illər… Ali təhsil, iş, ailə, övladlar, nəvələr… İndi də ahıl yaşlı baba. Birdən səksəndi, cingiltili səs eşitdi. Əlini ehmalca cibinə salıb telefonunun düyməsini basdı, üzü işıqlandı. Gülərin səsini eşitcək xoşhal oldu, əhvalını, uşaqları soruşdu.

- Hamımız yaxşıyıq, bəs, sən necəsən? Yuxumu qarışıq görmüşəm, birdən təzyiqin qalxar, dərmanını iç…

- Dərmana-zada ehtiyacım yoxdur bura gələndən. Sən də yığış gəl, nə var, axı, yayın bürküsündə oturmusan şəhərdə. Bir azdan uşaqlar da gələrlər, yəqin, məzuniyyətə çıxarlar.

- Hə, elədir, əvvəl mən gələcəyəm, sonra da onlar, darıxma.

O, bütün günü həyət-bacada, bağda başını qatsa da, dənizdə çimib, narın qumlu sahildə uzanıb sərinləsə də, qürub çağı pensiyaçı tay-tuşları ilə nərd, şahmat oynayıb, zarafatlaşıb gülsə də, evə dönəndə axşamın qaranlıq sükutunda Gülərsiz ürəyi sıxılırdı…

Ailə quran gündən buna alışmışdı: harada olur-olsun, işi başından aşsa belə, axşamlar özünü evinə çatdırmış, Gülərini yalqız qoymamışdı. Yayda məzuniyyətlərini götürüb səfalı kəndlərinə - Arazın ata-baba yurduna gedər, istirahət edirdilər.

Sonra uşaqlar dünyaya gəldi, ailə böyüdü, ləpədöyənin yaxınlığında bağları oldu. İllər ötdü, uşaqlar kamala yetdilər, təhsillərini başa vurub ailə qurdular. «Qız köçəri quş kimidir» , - deyiblər. Belə də oldu. Ancaq uzağa yox, lap yaxına qonşu evə köçdü ailənin ilki, yeganə qızı. Mehriban qonşular qohum oldular. Çox çəkmədi ki, oğlu da evləndi, birlikdə yaşadılar. Nəvələr dünyaya ayaq açanda baba-nənə evində tünlük oldu. Odur ki, Araz baba pensiyaya çıxan kimi Gülər nənə ilə bağ evinə köçməyi məsləhət bildi. Burada hər cür şərait olsa da, nənə nəvələrsiz darıxdı. Şəhərə gedib nəvələrini duz kimi yaladı, bağrına basıb əzizlədi, hey deyib güldü. Ancaq burada da çox qala bilmədi. Yenə darıxdı, bu dəfə «böyük uşaq» üçün. (Ərklə ərinə belə deyirdi, kişi ahıl yaşına çatandan sonra.)

«Görən mənsiz neynir, nə yeyib içir?». Tələm-tələsik özünü bağa yetirdi. Qaş qaralanda tut ağacının çətir tutduğu yerdə fikirli-fikirli gəzişən ərinin qabağında dayandı. Qollarını qoşalayıb boynuna sarıldı, sinəsinə qısıldı, kövrək səsi titrədi:

- Yaman darıxdım…

- Bəs, balacalar?..

- Balacalar şipşirindir, ancaq böyüksüz qala bilmirəm heç, - qadın etiraf etdi, kişi onun yanağında gilələnən göz yaşını qaranlıqda seçə bilmədi.

Qadın kövrək, həlim səslə heyrətini dilə gətirdi:

- Bilə bilməzdim heç bunu… ömrün epiloqunda belə olurmuş.

- Epiloq, ömrün epiloqu?..

- Hə də, demişəm, axı, sənə, insan həyatı da kitab kimidir: proloqu, fəsilləri və epiloqu var.

- Yadıma düşdü… deməli, ömrümüzün proloqu tələbə olanda başlayıb.

- Əslində, uşaq yaşından başlayır. Amma bizimki universitetdə oxuyanda, sən fizmatda, mən filfakda; tez-tez bizim auditoriyanın qabağında görür-

düm səni, - qadın ah çəkdi, - nə isə… bu yaxında bir şeir oxudum, yaman tərpətdi məni, xatırladım o günlərimizi:

Ətrinə uçduğun gülü əllərin dərə bildimi?
Ürəyin istəyənləri gözlərin görə bildimi?
Gözlərinin dediyini dilin söyləyə bildimi?
Baxışların izləyəni bəxtin əyləyə bildimi?*

Gülər şeiri birnəfəsə deyib köksünü ötürdü. Özünəməxsus incə yumorla:

- Sən riyaziyyatçısan axı, - dedi, - o zaman gözlərinin dediyini söyləmək istəyəndə dilin yaman dolaşırdı. Onda gözlərindən ürəyini oxuya bildim, bəxtin əylədi məni; indi açığını deyirəm, etiraf edirəm: nə yaxşı ki, elə mənim də bəxtim səni əyləyə bildi.

Araz köhnə kişilərsayağı açıq danışdı:

- Sənin-mənim yox, bizim bəxtimiz gətirdi, nə yaxşı ki, bir olduq.

- Hə, elədir… sonra «fəsillərimiz» başladı…

- İllər nə tez ötdü, bir göz qırpımında sanki…

- Fikirləşəndə ki, o gündən yarım əsrdən çox keçir, inana bilmirəm.

- Mən də sənin kimi… demək indi ömrümüzün epiloqunu yaşayırıq?!.

- Eh, bu hələ son deyil ki, məncə başqa bir aləmdir, nəvələr… bir azdan nəticəmiz də olar, inşallah.

- Hə, yaman istəyirəm nəticəmizi… nəticələrimizi görək.

- Təbiblər deyirlər ki, nikbin insanın arzusuna çatmaq istəyi ömrünü uzadır.

Onlar bağın ayağına qədər sıralanan ağacların altı ilə asta addımlarla , gəzə-gəzə ürək söhbətləri eləyirdilər.

Yayın bürkülü günündə kükrəyib coşan dəniz axşamüstü sakitləşmiş, bir-birini qovub sahilə çırpılan dalğalar xırdalanıb ləpələrə çevrilmişdi.

Səngiyən xəzri xəfif mehə dönüb əsdikcə sahilyanı bağlara sığal çəkir, ürəklərə sərinlik gətirirdi.

- Görürsən, xəzri də cavanlığımız kimi dövranını sürüb getdi, - deyə Gülər köksünü ötürdü, - öz aramızdır, elə meh də gözəldir...

Gülərin nisgilli sözləri Arazın ürəyini kövrəltdi, gözləri doldu…

** - Şeir Məhəmməd Astanbəylinindir*

Məmməd NAMAZ

QƏRİB AXŞAMLAR

Mənsur hekayə

- Alo!
Qadın onun üçün doğma və əziz səsi tanıdı. Əlləri əsdi.
- Sənsən? Hardasan?
- Lap yaxında, - dedi kişi. - Sənin iş yerinə yaxınam.
- Gəncədəsən? - soruşdu qadın, - doğrudan Gəncədəsən?
- İnanmırsan?
- Nə yaxşı! Onda düşürəm aşağı.
- Zarafat edirəm. Bir az uzaqdayam. Bir azdan düşərsən. Haçanacan işdəsən?
- Sən haçanacan istəsən.
- Sağ ol, - dedi kişi.
- İndi gəlirsən? - həyəcanla soruşdu qadın, - haçan gəlmisən?
- Elə bu dəqiqə. Gələn kimi sənə zəng vurdum. Qorxdum işdən çıxarsan. Görə bilmərəm.
- Yarım saatdan sonra aşağıdayam.
- Gəlirəm.
…. Onlar görüşdülər. Kişiyə elə gəlirdi ki, qadının sifəti işıqlanıb. Gözlərinə nur gəlib.
- Nə yaxşı təksən otağında?
- Mən həmişə təkəm, - dedi qadın.
- Ancaq səni görməyə gəldim, - dedi kişi, - Bacara bilmədim özümlə.
- Kiminlə gəlmisən?
- Yoldaşım da mənimlədir.
- Onu da gətirəydin özünlə.
- Gələn kimi qoydum anasıgildə. Tez sənə zəng vurub yanına qaçdım.
- Bilmədi?
- Ağlına gəlməz.
- Nə var, nə yox?
- Səndən başqa heç nə yoxdur dünyada. Sən varsan - hər şey var!
- Qəribədir, bir an da olsun yadımdan çıxmırsan. Axşamlar daha dəhşətli olur.
- Qürbətdə yeganə təsəllim sənsən.
- Haçan gedəcəksən? - sanki qadın onun dediklərinin fərqinə varmırdı.
- İndi gəlməmişəm? İstəyirsən bu saat çıxıb gedim?!
- Elə demədim.
- Axşamlar daha dəhşətli olur, - deyə kişi ürəyini boşaltmaq istədi. - Qərib axşamlar… xırmanın ətrafında böcəklər özlərinin əbədi nəğmələrini oxuyurlar. Mən də taxıl taylarının yanına uzanıram, əllərimi çarpazlayıb başımın altına qoyuram. Ulduzlara, aya tamaşa edə-edə səni düşünürəm. Bilirəm ki, həmin anlarda sən eyvanınızda oturub…

- "Səni düşünürəm…" - demək istədi qadın. Susub kişiyə qulaq asdı. "İlahi, bu kişilər necə də ürəklidirlər. Ürəklərinə nə gəlir, danışa bilirlər… hisslərini, duyğularını, istəklərini necə də açıb danışa bilirlər…"

- Haçan gedəcəksən? - soruşdu qadın.

- Bu saat. Deyəsən səni narahat etdim. Elə soruşursan ki, haçan gedəcəyəm.

- O mənada soruşmuram, - qadın köksünü ötürdü. - Axşam gələrsən bizə.

- Yox. Gələ bilmirəm, - dedi. - Ərindən utanıram.

Gəlmək istəsəm də gələ bilmərəm.

- Mən istəyirəm ki, gələsən. Çıxırsan sözümdən?

- Sözün mənim üçün əmrdir. Amma…

- Gələrsən, - dedi qadın. - istəyirəm ki, gələsən.

- Çox pis oldu, - dilləndi kişi.

- Çox pis oldu, - deyə qadın da köksünü ötürdü.

- Nə pis oldu? - soruşdu kişi.

- Elə pis oldu dediyin. Bilmirsən?

- Bildim. Gərək bu həddə gəlib çıxmayaydı. Mən, əvvəllər, etiraf edirəm, sənə elə-belə, adi bir qadın kimi baxırdım. Ötəri bir həvəslə… amma sonra...

- Sonra nə oldu?

- Sonra baxıb gördüm ki, … gördüm ki, sənsiz yaşamaq olmur…

- Pis oldu, - dedi qadın.

- Başqa qadınlara baxanda da səni görürəm. Çiçəyə, gülə, dağlara, daşlara baxanda da səni görürəm. İşləyə də bilmirəm.

- Və bezirsən, eləmi?

- Nə danışırsan? Heç demirsən ki, otur. Ayaq üstə saxlamısan məni.

- Ah… unutmuşam. Otur.

Amma oturmadı kişi.

- İcazə ver sənə bir söz deyim. Amma acığın tutmasın ha.

- Xahiş edirəm, lazım deyil, - dedi qadın.

- Guya bilirsən nə deyəcəyəm?

Qadın yaylığını çıxarıb üzünü sildi. Və kişiyə elə gəldi ki, qadının kirpikləri nəmlidir.

- Xətrinə dəydim? Bağışla, - dedi kişi. - Çıxıb gedirəm.

Hər şeyi açıb danışa bilmirlər yazıq qadınlar…

- Nə?!

- Hə! Yazıq pərvanələr özlərini çırağa atıb yanırlar. Amma çırağın heç bundan xəbəri belə olmur. İllər də belədir. Biri yanır, biri isə…

- Doğrudan? - güldü qadın. - Bəlkə, çıraq o pərvanələrdən də betər yanır?

- İnanmıram, - dedi kişi.

Qadın ayağa durdu. - Getmirsən?

- Haraya?

- Mən evə gedirəm. Sevinirəm ki, gəlmisən. Məni yorma, axşam gəl.

- Sağlıq olsun.

- Nə sağlıq? Gözləyəcəyəm.

- Hamı evdə olacaq?

- Bəs, necə? İstəyirsən heç kim olmasın?

- Elə demək istəmirəm… ərindən utanıram. Gəlmək istəyirəm. Amma, axı, ayıbdır. Hər dəfə Gəncəyə gələndə sizə gəlirəm. Onun taleyinə şərik çıxmaq istəmirəm.

- Bezmisən?

- Elə demədim.

Bayıra çıxdılar. Qadın ayrılarkən yenə dedi:

- Bax, gəl ha.

Kişi onun arxasınca addımladı:

- Gəl otur aparım. Maşınlayam.
- Xahiş edirəm, üz vurma. Sən deyirsən, sözündən çıxa bilmirəm. Çıxanda da … "əzabını çəkirəm" - demək istədi.
- Di sağ ol. - Sağ əlini uzatdı. Qadın əlini çəkdi.
- Amma həmişə sözümdən çıxmısan. Ürəyin daşdı.
Ayrıldılar.
Qadın xeyli getdikdən sonra sanki nəsə itirmiş kimi geri boylandı. Adamların arasında onu axtarmağa başladı.
Sanki uzun illərdi ki, onu görmürdü.
Geri qayıdıb kişini axtardı. Amma görə bilmirdi ki, bilmirdi.
- Xanlar!
Yad kişi ona baxa-baxa gülümsündü.
- Bağışlayın.
Elə bil ki, ən əziz adamını tapmış, ömürlük də itirmişdi. "Nə pis oldu. Nə pis oldu. Nə pis qarşıladım onu…"
Nəsə ürəyində yanır…Yanır…yanırdı.
İllərlə onun həsrətini çəkməmişdimi?
Onun sözlərini dinləmək həsrətilə yanmırdımı?
Onunla yağışlı-çiskinli günlərdə şəhərin küçələrini dolaşmaq istəmirdimi?
Yuxusunu, rahatlığını almamışdımı əlindən bu itirdiyi adam? O isə görünmürdü.
- Xanlar?!
Ürəyindəkiləri bir-bir ona danışmaq istəyirdi.
Amma o da başqasının idi. Bu da…
Amma biz ürəyimizdəkiləri həmişə danışa bilirikmi?
Ürəyimiz gözəl duyğuların, deyiləsi şirin sözlərin, şirin söhbətlərini qəbiristanlığına dönmürmü?!
-Xanlar!
- Noolub? Səhərdən sənə baxıram, məni görmürsən?
- Xanlar…
Kişini qucaqlamaq, onun sinəsinə sığınmaq istədi…
- Elə bildim getmisən, Xanlar…
- İstər-istəməz getməliyəm, axı…
- Xanlar! - qadın sağ əlini irəli uzatdı. - Salam! İncidin məndən? Küsmə. Di sıx əlimi. - Sol əlini də irəli uzatdı. - Al, bunu da sıx!
Onun əlləri qar üstə düşmüş qovaq yarpaqlarına oxşayırdı.
Kişi bu əlləri sinəsinə sıxdı. Sonra da dodaqlarına yaxınlaşdırdı.
Kimsə onlara baxıb gülə-gülə aralandı.
- Söz verirsənmi axşam gəlməyinə?
- Söz verirəm. Hər dəfə deyirsən. Sözündən çıxdığım vaxt olub?
- Qorxuram ki, gəlməyəsən. İstəyirəm ki, gələsən. Xanlar! İncidin məndən?
- Haqqım yox inciməyə… Axı, sən başqasınınsan…
- Qürbətdə çoxmu darıxırsan mənimçün, Xanlar? Çoxmu darıxırsan? "Məni də apar özünlə", - demək istədi. Söz boğazında qaldı.
- Sənin yolunda hər şeyə hazıram, - dedi kişi. - İşdən çıxmağa da, ailəmi dağıtmağa da. Hər şeyə hazıram. Amma sənin ailə səadətinə toxunmaq istəmirəm. Yadındamı, bir dəfə dedin: mənim xoşbəxtliyimə qıyma. Qıymadım. Qıymaram. Balalarına və ailənə…
- Demək, belə. Söz verdin axşam gəlməyinə.
- Sözsüz! Nə qədər demək olar, axı?
- Ürəyimə damıb ki, gəlmiyəcəksən. Mənsə istəyirəm gələsən.
- Dünya dağılsa da gələcəm.
Ayrıldılar.

Yağış çiləyirdi.

Yağış qadının saçlarına, əllərinə, ürəyinə yağırdı. Amma soyuda bilmirdi onun yanğısını. Qadın dönüb yenə geri baxdı. Gedə bilmirdi. Kişi də dayanıb onun arxasınca baxdı. Qadın dönüb kişiyə yaxınlaşdı:

- Sevirsən məni, Xanlar?!

- Soruşursan da?

- Bu yaşda sevgi?

- Sevgi insanın ömür dostudur. Su quşu. - Qadın bu sözdən xoşlandı. Həmişə kişi ona deyərdi ki, sən Su quşu kimi ürkək və qorxaqsan. - Sevgisiz yaşamaq ölmək deməkdir. Su quşu!

- Axşam tez gələrsən. Evə dəy və gəl!

- Vərəqə də evdədir?

-Yox! - dedi qadın. Sanki yüngülləşdi.

- Evdə olmayacaq. Bunu istəyirsən?

Kişi sanki sevindi.

- Haradadır o?

- Xəstəxanada. Kor bağırsağını kəsiblər dünən.

- Nə pis oldu… - dedi kişi. - Ərin evdə yox… məncə … bu daha pis…

- "Gəl. Gəl. Bilirsən bu günü nə qədər gözləmişəm. Gəl!" Amma demədi bu sözləri qadın. Yanan yanaqlarında yaş damlaları yağış damlalarına qarışmışdı. - "Apar məni özünlə, Xanlar".

Qadın xeyli aralanmışdı. İndi də kişi onun arxasınca düşdü. Onun çiyinlərindən yapışıb dedi:

- Sağ ol, Su quşu. Qoy sənə bir doyunca baxım.

- Noolub, axı, Xanlar?!

- Qoy doyunca baxım sənə.

- Ayrılırıq? Elə indi? Burada?

- Qoy doyunca baxım sənə, Su quşu. - Əlindəki keçmiş dırnaq izlərini göstərdi. Görürsən bunu? Sənin dırnaq izlərindir. Bunlardan ürəyimdə də var. Su quşu…

- Xanlar, xahiş edirəm…

- Sən başqasının xoşbəxtliyisən, Su quşu. Başqasının xoşbəxtliyinə şərik çıxmaq günahdan da betərdir. Qorx məndən, ürk, qaç məndən. Su quşu!

Qadın onun qoluna girdi.

- Yaman həyacanlanmısan, Xanlar. Bax, nə deyirsən edirəm. Qoşa gedək bizə. Sən yanımdasan və mən kimsədən qorxmuram. Qorxmuram, Xanlar. İnanırsan?

- Gəl səni maşında bir azca gəzdirim.

- Səninlə dünyanı dolaşmağa belə hazıram.

- Nə pis oldu, - dedi kişi.

- Elə lap, oldu, - dedi qadın, - yaxşı.

- İndi gedirsən mənimlə, ya axşam gələcəksən?

- Qoy doyunca baxım sənə, Su quşu… - Burax qolumu.

- Mən çıxıb gedəcəyəm. Axı, sənin üçün çətin olacaq. Söz edəcəklər.

- Qorxmuram. Səni çox incitmişəm. Bağışla məni…

- Elə demə... Sən həmişə mənə yaxşılıqlar etmisən…

- Axşam gəl. Gözləyəcəyəm.

- Gələcəyəm.

- Mütləq gəl, - dedi qadın. - Mütləq. "Evdə təkəm". - Son sözü deməyi qadın ləyaqətinə sığışdırmadı.

- Qoy doyunca baxım, - dedi kişi.

- Axşam. Mütləq gələrsən, - dedi qadın.

- Mütləq gələrəm, - dedi kişi.

Və getmədi…

Zemfira MƏHƏRRƏMLİ

Beş saniyənin hökmü

Hekayə Van zəlzələsi ilə bağlı fotosərgiyə baxandan sonra qələmə alınıb

Səmiha Karadumanın ana olmasına bircə ay qalmışdı. Bətnində gəzdirdiyi, canından bir can olan kiçicik varlığı indidən sevə-sevə əzizləyir, dünyaya göz açacağı günü səbirsizliklə gözləyirdi. Nəbzi ciyərparası ilə bir vurur, çöhrəsindən gülüş əskik olmurdu.

Bapbalaca ayaqları ilə ana bətnini döyəcləməsi, sürətli hərəkətlə qıvrılıb-aşılaraq müxtəlif vəziyyətlərə düşməsi və yenidən sakitləşib öz doğma "yuva"sında uyuması hər dəfə Səmihanı sevindirir, qəlbini munis hislər bürüyürdü. "Tezliklə balam doğulacaq, gül ətrini doyunca qoxulayacağam", - deyə düşünür, özünü dünyanın ən xoşbəxt qadını sanırdı. Həkimlərin dediyinə görə, qızı olmalıydı.

Vaxt yaxınlaşdıqca qayğıları da artırdı. Körpəyə verəcəkləri addan tutmuş ona ilk günlərdə qulluq göstərilməsinədək bütün incəlikləri ölçüb-biçir, götür-qoy edirdi.

Həyat yoldaşı uşağa baxmaqda öz anasının yardımçı olmasını istəyirdi. "Anam altı uşaq böyüdüb, bizim balamıza da kömək əli uzadar", - deyirdi.

Səmiha bu təklifdən çox məmnun olmuşdu. Erciş mahalında yaşayan, ixtisasca həkim olan qayınatası zəng vurub vəziyyəti soruşmuş, gəlininə məsləhət görmüşdü ki, uşağı dünyaya gətirməkçün Ercişə gəlsin.

Gənc ailə bu məsləhətə qulaq asaraq, az sonra valideynlərin ziyarətinə gəlmişdi. Körpənin doğulacağı klinika artıq müəyyən edilmiş, hazırlıq görülmüşdü.

Vaxt-vədə tamam oldu; gəlişi ilə ata-anasına, nənə-babasına bir dünya sevinc bəxş etmiş balaca Əzranı gül - çiçəklə qarşıladılar. Körpənin bir müddət baba evində qalmasını qərara aldılar.

"Yaman günün ömrü az olar", - deyiblər. Amma bu dəfə xoş günlər uzun sürmədi.

...Səmiha körpəsinə təzəcə süd verib qolları üstündə uyutmuşdu. Gözünü balasından ayıra, qoxusundan doya bilmir, üzünün zəif cizgilərinə tamaşa edirdi. Birdən elə bil ayaqları altından yer qaçdı. Körpəsini köksünə sıxıb qapıya sarı qaçmaq istədi. Yeraltı təkanlar davam etdikcə güclü zəlzələ baş verdiyini başa düşdü.

Var qüvvəsi ilə çölə çıxmağa, mənzili tərk etməyə can atdı. Dəhşətli uğultu, gurultu, müxtəlif mərtəbələrdə çaş-baş qalmış insanların çığırtısı, ah-naləsi aləmi bürümüşdü. Sanki indicə dam-daş, mənzillərin divarları, pəncərələr, eyvanlar çartıltı ilə bir-birindən aralanıb dağılacaqdı.

Özünü toplayıb qapıya yaxınlaşanda bina çökdü. Ananın və on dörd günlük körpənin ətrafına beton yığınları, daş qalaqları uçub tökülürdü. Allahın rəhmi gəlmişdi onlara, hər ikisi darısqal bir boşluqda qalmışdı; rahat nəfəs ala bilirdilər. Amma toz-torpaq, vahimə doğuran qatı qaranlıq göz açmağa imkan vermirdi.

Beşcə saniyə ərzində hər şey alt-üst olmuşdu. Səmiha özündən çox, balasını düşünürdü; bu məsum yavrucığazın günahı nəydi? Dəqiqələr, saatlar ötdükcə Əzranın əhvalı qarışır, üşüyür, qızdırırdı. Daş-kəsək, taxta parçaları Səmihanın qollarını qanatmış, ayaqlarını yaralamışdı.

Ana körpəsini əmizdirir, onu ovundurmağa çalışırdı. Dodaqları qupquru qurumuş, taqətdən düşmüşdü. Artıq iki gün idi ki, ac-susuz qalmışdı, südü artıran heç nə yoxuydu.

Bəs, vəziyyətdən necə çıxsın, körpəsinə nə versin? Ağlına qəribə bir fikir gəldi və ağız boşluğunda udquna-udquna yaratdığı tüpürcəyi ilə balasını yedizdirməyə başladı.

Susuzluqdan yanan qızcığaz azca duruxdu. Ağzına düşən damcıların ana südü olmadığının fərqində idi, deyəsən. Ən təhlükəlisi o idi ki, xırda - xırda beton, daş parçaları aşağı yuvarlanırdı. Səmiha göz-gözü görməyən zülmətdə əllərinin yüngül təması ilə balasını yoxlayır, onun zədələnmədiyindən arxayın olmaq istəyirdi. Çocuğu aramla yedizdirir, başına sığal çəkir, soyuqdan buz kimi olan yumru ayaqlarını ehmalca ovuşdurur, titrək əllərini ovcuna alıb dodaqlarına yaxınlaşdırır, nəfəsi ilə isidirdi.

Günün hansı vədəsi--gecə yaxud gündüz olduğunu dərk edə bilmirdi. Bir sözlə, vaxt məfhumunu itirmişdi. İtirilməyən isə təkcə ümid idi. Axıradək çarpışan, sonadək duruş gətirən ümid.

Körpə Əzrası ilə xilas olacağına inanırdı. Dağıntılar altında qaldıqları ilk dəqiqələrdən bu inam onu nədənsə tərk etməmişdi. Uca yaradana üz tutub kömək diləyirdi.

Darısqal arakəsmədə hərəkət etməyə, addım atmağa, oturmağa imkan yoxuydu. Elə düşdüyü vəziyyətdə də qalmışdı; ayaq üstə, uşaq da qucağında. Ayaqları, qolları keyiyib az qala odun parçasına dönmüşdü. Sağ qalmaları üçün bütün gücünü toplayıb olumla ölüm arasında çarpışırdı.

Bu arada Əzra bərk ağlamağa başladı. Anası onu kiridə bilmirdi. Körpə heç cür aram olmur, qıyya çəkib elə bil yeri-göyü köməyə çağırırdı.

Səmiha sağına-soluna səpələnmiş daş-kəsəyə əlləri ilə, bəlkə, yüzüncü dəfə toxunur, bu keçilməz səddi, nə olur - olsun, yarmaq, övladını ölümdən qurtarmaq istəyirdi.

Birdən lap yaxından danışıq səsləri və itlərin hürüşməsini eşitdi. Ona elə gəldi ki, beton qalıqları təmizləyib itkin düşənləri axtarırlar. Arxaya qanrılanda isə .... kiçik bir dəlikdən işıq düşdüyünü gördü. Bu həyat işığı Əzranın çöhrəsini də aydınlatdı.

Səmihanın qurtularkən ucadan dediyi: “Nə böyük xoşbəxtlik! Uca tanrım, Sənə minnətdaram!” - nidaları dağa-daşa yayılmış, ətrafdakılar onları görməyə tələsmişdi. Sonrakı olaylar isə zəlzələ bölgəsindəki xilasediciləri və həkimləri şoka salmışdı. Onlar dağıntılar altından sağ-salamat çıxarılmış anaya və onun ciyərparasına heyrətlə baxırdılar. Bu, əsl möcüzə idi! Həyat verən və qoruyan Allah onları hifz etmişdi.

Əzranı həkim nəzarətinə götürüb, 14 günlük qızcığazın qidalanması və müalicəsi qayğısına qalmışdılar. Ananı da müayinə edib yaralarına məlhəm, sarğı qoymuşdular.

Az sonra ana və balanı müalicə üçün vertolyotla Ercişdən Vana, oradan da təyyarə ilə Ankaraya gətirdilər. Ailə üzvləri onlarla paytaxtda görüşəcəkdi.

...Təyyarədə Səmiha bir an belə gözünü balasından çəkmir, həkimdən onun sağlıq durumunu xəbər alırdı.

Bütün olub-keçənlər dəhşətli bir filmin gərgin epizodları kimi xatırlayırdı. O ümid dolu saatların hər saniyəsi, bəlkə, bir insan ömrünə bərabər idi.

Nə yaxşı ki, özündə təpər tapıb balasının sağ qalması üçün ağlı kəsən hər şeyə əl atmışdı. Nə yaxşı ki, Əzra vaxtından iki həftə əvvəl doğulmuşdu; ana bətnindəykən zəlzələnin qurbanına çevrilsəydi, onda taleyi necə olardı? Dağıntılar arasında qalıb doğuş ağrıları çəkən hamilə qadına kim kömək edəcəkdi? Şükürlər olsun ki, artıq hər şey geridə qalmışdı.

Təyyarədə onlarla birgə uçan sərnişinlər Vanda 7,2 bal gücündə baş vermiş zəlzələnin dəhşətlərindən danışırdılar.

Səmiha bu üzüntülü olayları eşitdikcə bir daha sarsılır, için-için ağlayır, göz yaşları yanağı boyunca süzülürdü. Dünyaya gəlişinin on dördüncü günü başı müsibətlər çəkmiş, ölümdən qayıtmış körpə Əzra isə isti bələkdə rahatca uyuyurdu...

İstanbul - Bakı, 2012

Tahir MÖHLƏT

Uşaq qəlbi



Qəflətən xəstələnmişdim. Mərkəzi şəhər xəstəxanasına göndəriş almışdım.

Təcili yola düşməli idim. Ailəmdən, balaca qızımdan bir müddət ayrılmaq mənə ağır gəlirdi. Təşviş, həyəcan içində idim.

Yol çantamı hazırlamağa başladım. Bu zaman qızım mənə yanaşıb:

- Ata, hara gedirsən?- soruşdu.

Mən gülümsəyərək:

- Ezamiyyətə gedirəm, qızım, - dedim.

- Tez qayıdacaqsan?

-Hə, amma, bax ha ... dəcəllik eləmə, ananı incitmə. Söz verirsən?

Qızım kövrək - kövrək başını tərpətdi: - Hə, ata ...

Arvadım təəccüblə başını bulayıb, o biri otağa getdi.

Birlikdə evdən çıxıb əvvəlcə uşağı bağçaya apardıq. Sonra vağzala yollandıq. Yolda arvadım soruşdu:

-Niyə uşağa düzünü demədin?

Mən kövrəlmişdim. Titrək, yavaş səslə:

-Səbrli ol, səbəbini deyəcəm ... - dedim.

Avtobusdan düşüb qatar dayanacağına gəldik. Saata baxdım. Qatarın yola düşməsinə xeyli vaxt qalmışdı. Gəlib bir skamyada əyləşdik. Bir qədər susduqdan sonra arvadıma çoxdan olmuş bir əhvalatı danışdım ...

Orta məktəbin 6-cı sinifində oxuyurdum. Məktəbimiz dağın ətəyində yerləşirdi. Mən dağlarda gəzməyi çox xoşlayırdım. Tez-tez yoldaşlarımla birlikdə dağa dırmaşır, yüksəklikdən məktəbin həyətini, ətrafı seyr edirdik.

Bir gun böyük tənəffüs zamanı biz yenə dağa çıxdıq. O qədər maraqlı idi ki, vaxtın necə keçdiyini hiss etmədik. Məktəbə qayıdanda artıq dərs başlamışdı.

Dərsin sonunda müəllim bizə:

-Alpinistlər, sabah valideynləriniz mütləq məktəbə gəlsinlər! - xəbərdarlıq etdi.

Ertəsi gün məktəbə anamın xahişi ilə babam gəldi. Əhvalatdan xəbərdar olan babam tərs-tərs mənə sarı baxıb bir söz demədi, sağollaşıb getdi.

Məktəbdən qayıdıb evə girəndə babamın oturub anamla söhbət elədiyini gördüm. O, məni görən kimi cəld ayağa qalxdı, yaxınlaşıb heç bir söz demədən üzümə bir sillə vurdu. Mən ağlaya-ağlaya həyətə qaçdım. Yalnız babam gedəndən sonra evə qayıtdım. O gündən babamdan küsdüm. Hər

dəfə babamı görəndə qaçıb gizlənirdiın. Anam dəfələrlə bizi barışdırmağa cəhd etsə də, mən razılaşmırdım.

Bir gün anam yenə məni dilə tutmağa çalışdı:

-Oğlum, - dedi, - babanla barış. O, səni çox istədiyinə görə vurub. Qorxurdu ki, yüksəklikdən yıxılıb xəsarət alarsan.

Mən narazılığımı bildirdim:

-Mütləq vurmalı idi?! Sözlə başa sala bilməzdi?

Anam isə gülümsəyərək:

-Oğlum, bir sillə nədir ki, unut gedsin ... kin saxlama ... - dedi.

Mən isə o silləni unuda bilmirdim, hər dəfə xatırlayanda babama bərk acığım tuturdu.

Son vaxtlar babam nədənsə bizə gəlmirdi. Tez-tez anam ona baş çəkirdi.

Bir gün dərsdən qayıdanda anamın yataq otağında için-için ağladığını gördüm. Yaxınlaşıb:

-Ana, niyə ağlayırsan? - soruşdum.

Anam göz yaşlarını silərək:

-Baban ağır xəstədir - dedi. - Səni görmək istəyir. Onu xəstəxanaya müalicəyə göndərirlər, o, isə getmir, deyir ki: "Nəvəmi görüb barışmasam, getmərəm!" Oğlum, gəl babanın yanına birlikdə gedək.

-Getmək istəmirəm, ana, - deyə etiraz etdim.

Anam ağlaya-ağlaya:

-Oğlum, - dedi, - bax sən babanı görmək istəmirsən ... amma o, sənə görə həyatını təhlükəyə atmışdı. ..

-Təhlükəyə? - soruşdum.

Anam kədərli halda başını tərpətdi:

-Bu, keçən il olub. Baban tramvayla gedərkən birdən küçədə iki uşağın dalaşdığını görmüşdü. O, nədənsə döyülən uşağı sənə oxşadıb, tələsik özünü tramvaydan yerə atmışdı. Nəticədə başından ciddi zədə almışdı. İndi həkimlər deyirlər ki, o zədənin nəticəsində həmin yerdə şiş əmələ gəlib.

Bu xəbərdən çox kədərləndim, kövrəldim. Bir az fikrə getdikdən sonra: - Ana, məni də babamın yanına apar, - dedim.

Babam məni görüb çox sevindi:

-Yaxın gəl, əziz balam, - dedi.

Mən gəlib babamın çarpayısı yanında oturdum. Babam zahirən çox dəyişmişdi: arıqlamış, gözləri çuxura düşmüş, sifəti avazımışdı. Gözləri yaşarmış babam əlimdən tutdu, sonra qucaqlayıb üzümdən öpdü, astadan:

-Daha barışdıq sənlə, - dedi.

O gündən sonra mən bir daha babamı görmədim. Babamı soruşanda mənə deyirdilər ki, onu xəstəxanadan sanatoriyaya uzunmüddətli müalicəyə göndəriblər. İllər keçəndən sonra bildim ki, babam xəstəxanada vəfat edib. Tapşırmışdı ki, mənə deməsinlər. "Qoy nəvəm bilməsin - demişdi. - Uşaq qəlbi kövrək olur."

Qatara minik başlamışdı. Mən arvadımla sağollaşıb, qatara sarı addımladım.

Mənsurə ELDARQIZI

Qanlı kəmər

Tankların, topların, tüfənglərin səsindən şəhər lərzəyə gəldi. Dünyadan qopub aralandı, parçalandı. Nə göylərə yol tapa bildi, nə dünyaya dönə bildi. Yer üzündən silindi.

Ana … A-n-a-a-a … saçını erməni əsgərlərinin əlindən xilas etmək üçün çırpınan qızın köməyinə gələn ananı güllələdilər. Ağappaq qarın üstünə ananın qanı axdı: "Ana!!!" - qızın fəryadına dünyanın qulağı kar oldu. Ermənilər qəhqəhə ilə qadının meyitini təpiklədilər. Qızı sürüyə - sürüyə maşına tərəf apardılar. Ermənilərdən biri rus dilində: "Ey, komandir, götür, sənə hədiyyə edirik bu türk qancığını"- deyə qızı onlara yaxınlaşan rus zabitinin üstünə itələdi. Rus zabiti qıza heyrətlə baxdı. Ömründə belə gözəl görməmişdi. Qızın iri, ala gözlərinə, gözəl üzünə, qəddqamətinə baxıb: "Aman Allah, bu nə gözəllikdir?!" - dedi.

Zorlamadı. Könüllü təslim olmasını arzuladı. Döydü, söydü, ac qoydu. Qız isgəncələrə dözərək susdu. Nifrətli baxışları ilə elə hey rus zabitini qamçıladı:

"Baxma, mənə elə baxma…"- deyə bağıraraq onun çiyinlərindən tutub bərk-bərk silkələdi. Zabitin əlindən çıxmaq ücün çırpınan qız onun üzünə tüpürdü. Rus zabiti geri cəkilərək kəmərini çıxartdı və qızı yenidən döydü. Sonra hirslə kəməri beton döşəməyə çırparaq otaqdan çıxdı. İçdi, kefləndi, "zorlayacağam," - deyə otağa qayıtdı və gördüyü mənzərədən dəhşətə gəldi. Qız özünü kəmərlə boğmuşdu.

Vətənə döndü. Rusiyanın bir sıra şəhərlərini gəzdi. Bir müddət əyalətdə yaşayan qohumlarının yanında qaldı. Gecə-gündüz çalışdı. Ermənilərin Qarabağda göstərdiyi "şücaətlərə" görə ona verdikləri pulun üstünə pul qoydu. Bir müddətdən sonra isə, Moskvaya üz tutdu. İş qurdu, ev aldı, evləndi. Qızı dünyaya gəldi. Körpəni ilk dəfə qucağına alarkən bərk həyəcanlandı. İçini təlatüm bürüdü.

Vaxt keçdikcə qızı böyüyürdü. Zaman ona Qarabağda törətdiklərini, hətta gecələr yuxusuna girib qanlı kəmərlə üstünə yeriyən türk qızını da unutdurdu. Kabus dolu yuxular arvadı avtomobil qəzasında həlak olandan sonra yenidən onu ağuşuna aldı.

Ata narahat idi. Qızının gözəl və cazibədar olması onu qorxudurdu. Yeganə qızını qorumaq üçün dünyanı ayaqları altına almağa hazır olan ata onun hər addımını izləyir, az qala, dostlarını da özü seçirdi.

Qız bezdi. Bir gün qışqırdı, bağırdı, hönkür-hönkür ağladi.

Övladının üsyanları qarşısında: yazıq-yazıq - "Səni qoruyuram": - dedi. Qızının: - "Kimdən? Nədən? Niyə?"- suallarının qarşısında susdu, lal dayandı.

Qız atasından xəbərsiz bir gün erməni oğlanla tanış oldu. Onunla içdi, əyləncəli məclislərdə, qumarxanalarda gəzdi.

Ata evə gec və içkili gələn qızına bərk əsəbiləşdi. Canından cox sevdiyi qızını döydü. Qız evdən qaçdı.

Səhəri masasında bir kağız parçası tapdı. Qızının "tüpürüm sənin kimi ataya" kəlmələrindən sarsıldı. Evdən qacmış qızını böyük şəhərdə xeyli aradı, pul xərclədi.

Uzun müddət keçdi. Nəhayət, meyitxanaların birindən xəbər gəldi. Zorlanmış, döyülmüş və kəmərlə boğularaq öldürülmüş qızının meyitini tapdı. Böyük ağrı və əzab içində onu torpağa tapşırdı. Zaman onun ücün dayandı. Hər sey qaraya büründü. Yuxusunda ala gözlü türk qızını gördü. Ağappaq qarın üstündə oturub gülümsəyən türk qızının başına öz qızı, əlində qanlı kəmər, pərvanətək fırlanırdı. Çığıraraq yuxudan ayıldı. Evi ələk-vələk etdi. Zirzəmiyə düşdü. Əlinə keçəni sındırdı. Hər tərəfi dağıtdı. Axtardıgını tapıb götürdü.

Ermənistana, oradan da Qarabağa - köhnə dostlarının yanına gəldi. Gəzib-dolandı. Darmadağın olunmuş Azərbaycan ellərinə baxdı.

Donuz kəsdilər. Köhnə dostlar məclis qurdular. Yemədi, içmədi. Bir qədər dolaşmaq bəhanəsi ilə erməni dostlarından aralandı. İllər uzunu gizlətdiyi kəməri belindən cıxarıb hönkür-hönkür ağladı və əlləri titrəyə-titrəyə boynuna keçirtdi.

Ad gününün sevinci

İşsiz idim. Hər gün evdən çıxıb iş tapmaq üçün qul bazarına gedir, axşama qədər boynumu büküb ümidlə gözləyirdim. Arıq vücudum "xozeyin"lərin gözünə zəif göründüyündən, yanımdan ötüb cüssəli yekəpərləri seçirdilər.

Hər dəfə evə əliboş dönəndə özüm kimi zəif, arıq balalarımın üzünə baxmağa utanırdım.

Dükandan çörəyi nisyə alırdım. Təzə çörək almağa gücüm çatmadığından yarı qiymətə boyat çörək götürürdüm. Nisyə dəftəri dolsa da, satıcı: "Darıxma, iş tapıb ödəyərsən," - deyə mənə təsəlli verirdi.

Bir gün bir köhnə tanışımla rastlaşdım. Qonşumun bağında bağbanlıq edirdi. Yalvardım, vəziyyətimi ona danışıb iş istədim. Tanışım: "filan vaxtı gələrsən, iş olmalıdır", - deyə mənə söz verdi.

Deyilən vaxtda varlı qonşumun bahalı darvazasının önündə dayanıb həyəcanla gözləyirdim. Qapını döyməyə cürət etmirdim. Birdən xarici maşınların bir-birinin ardınca qonşumun evinə yan aldığını görüb kənara çəkildim. Taybatay açılan darvazadan məni görən tanışım özünü qaranəfəs yanıma çatdırıb:" Xozeyin bu gün itinə ad günü, keçirir. Qonaqları çoxdur, get, sabah gələrsən", - dedi və dönüb getmək istəyəndə kövrəldiyimi görüb duruxdu. Quru çörəyə möhtac olan uşaqlarım artıq neçə gün idi ki, xəstə yatırdı. Utana-utana ondan borc istədim. Gözləməyimi tapşırıb içəri keçdi. Bir qədər sonra tanışım dolu zənbillərlə gəldi: "Kişinin kefi kökdür. Ala bunları apar uşaqlara, qoy ad gününün sevincini onlar da yaşasın "- deyə cibimə bir-iki manat pul basaraq geri döndü.

Qanadlarım olsaydı evə uça-uça gedərdim. Yol boyu zənbillərin ağırlığını hiss edirdim. Özümü qaranəfəs içəri salıb gətirdiklərimi masanın üstünə tökdüm. Arvad-uşaq bir müddət heyrət içində donub qaldı. Sevinə-sevinə şirniyyatlardan götürüb balalarıma uzatdım: "Yeyin, yeyin, götürün," - dedim. Uşaqlar acgözlüklə şirniyyatları qamarladı. Arvadım sevinə-sevinə əti, kolbasaları soyuducuya yığdı. Zəmbillərin birindən üstündə it şəkli olan bir neçə dəmir qab çıxdı. Təəccüblə bir-birimizə baxdıq. Qabları götürüb soyuducuya yığdım və həyətə cıxıb bir küncdə əyləşdim. Göz yaşlarımı saxlaya bilməyib hönkür - hönkür ağladım.

Seyran SÜLEYMAN

1979-cu ildə Özbəkistanın Fərqanə vilayətindəki Kuva şəhərində doğulub. 1991-ci ildən Krımda, Karasuvbazar (Beloqorsk) bölgəsində yaşayır. 1994-1996-cı illərdə Krımda Kurman özəl türk liseyində təhsil alıb. 2001-ci ildə Krım Mühəndislik ve Pedaqoji Universitetinin filologiya fakültəsini bitirib.

"Yanıdünya" Krım cümhuriyyət qəzetində yazı işləri müdiri çalışır.

Ukrayna Yazıçılar Milli Birliyi, Avrasiya Yazıçıları Birliyi, Dünya Gənc Türk Yazıçıları Birliyinin üzvüdür. Türkiyədə keçirilən Mahmud Kaşqari adına dövlətlərarası hekayə yarışmasının qaliblərindən biri olub.

"Uç, qalbim", "Senin közlerin deyıl dizlar kördim" və "Cemden bir avuç" adlı şeir kitablarının müəllifidir.

TILSIMCI RESSAM

(verlibr)

Ressam qaldırdı fırçasın,
Semada peyda oldu Ay.
Baxam, keçer-keçmez bir an -
Ay bin yıldız ortasında.
Alem yuxlay şu vaxıtta,
Alem mücizeni körmey.
Ressam buna yazıq sına,
Ressam - Gece.
O fırçasını uzata,
Ressam - Güne...

QIRIMA...

Yurtum, evlatların,
Ne zaman birleşir?
Niye teseninle
Birge irişir?
Senin qıymetini,
Kim bilir, aytçı?
Bağrı nasaplanan
Bu kimin haçı?
Canım, oğlun seni,
Ölse de satmaz.

Vatanı gönlünden
Çıqarıp atmaz!
Sen, baqma, Qırımım,
Köz yaşın silip.
Yurtum, barsın, demek
Olmamız ğayıp.
Daha barbilekte
Attiladan küç.
Qalsaq da eskiden -
Cemden bir avuç.

DÜNYA EDİN...

Ustadıma

Dünya edin, hayat edin, feza edin,
Seni qayb eden halqına ey hatendi.
Güneş edin, rüzgar edin, ziya edin,
Derde düşen milletisə eyhat endi.

Gemi edin, demir edin, devir edin,
Sensiz qalan denizine eyhat endi.
Qaya edin, qartal edin, meşal edin,
Sensiz yanan her izine eyhat endi.

Şair edin, Mevlam şahid, şair edin,
Sana muhtac qalemine eyhat endi.
Şiir sahrasında güller yetiştirdin,
Aciz göz yaş-nalemime eyhat endi.

BİRER KİNLİK DUYARIM

'Canı darağaçta olan bir adam için duanın güçü büyüktür'

C. Dağcı

1.
Canım bu gün
Yine dar ağaçta.
Kim onu asan?! Sen değilsin, gök,
Sen değilsin, ana, sen değilsin, baba.
Özüm, özümü astım,
Bilmez, ister-istemezden
Soğuk bataqlara batıp.
Bin kereyanılıp, yaqılıp, dirilip...
Yoruldum. De qalqmak, de batmaq.
Aldım qalem. Düştüm sözler deryasına.
Dım qaranlıqta ne yaza bilem?!
İnlemese, ağlamasa yürek,
Anlarmı nedir - bu ğavlı yürmek!

2.
Canım bu gün
Yine darağaçta.
Yine müşahit gökteki güneş,

Quşlar yine doyunca öte.
Yine ruzgar uzaqtan kele,
Yol-izlerde toz-çöpnü toparlap,
Kenara bıraqıp, yolun devam ete.

3.
Canım yarın
Olmaz dar ağaçta.
Şafaq uyandığı zaman,
Canım secde etmez bataqlara.
Meni gamdan azat eyler
Serin hava. Nurlu sahar.
O an
Bütün darağaçları unutup,
Sınırsız bir erkinlik duyarım...

SENİN KÖZLERİNDE

Senin közlerinde
Yıldızlar kördüm,
Denizler kördüm,
Bulutlar kördüm.
Yeşil-yeşil ormanlar,
Güzel yansılar kördüm.

Körmese edim-
Yaşamaze dim,
Qıvanmaz edim,
Yazamaz edim.

Senin közlerinde
Ağrılar kördüm.
Tamçı-tamçı köz yaşlar,
Sual-nidalar kördüm.
Bazan bir güneş,
Bazan bir aynı kördüm.

Körmese edim -
Ağlamaz edim,
Güneşe, aya
Qıvanmaz edim.

Senin közlerinde
Seni köremana.
Kerek değil sözler
Közlerin olanda.

İNANDI

İnandı o terekke*,
Terek yandı, küloldu.
İnandı o güllere,

* - *terek - ağac*

Güller sarardı, soldu.
İnandı o yellere,
Yeller toqtamay keçti.
İnandı sevgiline,
O da başqasın seçti.
İnandı dost sözüne,
Ne dost qaldı, ne sözü.
Endi inanmayadam,
Hatta özüne-özü.

DÖRTLÜKLER

Gitsem eger men yurtum danıraq,
Dertli gönlüm nitutamam ferah.
Yüksek sözlerge artıq yok lüzum -
Vatandır ilki ve son ki sözüm.

* * *

- Anam, ne içün köz yaşın tamlay?
- Balam, yurtumnı düşmanlar talay,
Elimni-qolumnı kişenlep bağlay,
Bu - közler degil, yüregim ağlay.

* * *

İnsan bar anlı, insan bar ansız,
Biri pek dindar, biri imansız.
Ah çekemiz, dünya vefasız,
Kimi zevq süre, kimi sefasız.

* * *

Bin türlü ses arasında
Qayb olursa sesin -
Tek anan eşitir seni,
Yanında dersi?.

* * *

Yürek içün oqtır nefret,
Safyürek teyoqtır nefret.
Yürek içün yüktür nefret,
Zerre qadar- çoqtır nefret.

* * *

Dünya degen degirmende
Bin bürtükten biri men de:
Arman qazıq hüküminde,
Birsöz - şiir türküminde.

Qəzənfər PAŞAYEV



HÜSEYN KÜRDOĞLUNUN POETİK DÜNYASI

Qədim romalıların "natiqlər yetişir, şairlər doğulur" müdrik kəlamı sanki onun boyuna biçilmişdi. O, yaza-yaza şair olmamışdı, şair doğulmuşdu. Bədii yaradıcılığa erkən başlamışdı. İlk şeirləri hələ V sinifdə oxuyarkən, Laçın rayonunda çıxan "Sovet Kürdüstanı" qəzetində çap edilmişdi. Onun "Gözəldir" rədifli qoşması isə 1950-ci ildə "Azərbaycan gəncləri" qəzetində dərc olunmuşdu.

Gözdən uzaq, könüldən iraq, ucqar dağ kəndində oxuyan orta məktəb şagirdinin tələbkar mərkəzi mətbuatda şeirinin çıxması əlamətdar hadisə idi.

Poeziyaya vurğunluq onu Bakı Dövlət Universitetinin filologiya fakültəsinə gətirib çıxarmışdı. Elə I kursdan şairlik istedadı ilə seçilən, dağlar oğlu kimi tanınan, dağlar kimi vəfalı, bulaq kimi saf, pak, təvazökar (ömrünün axırına qədər o, elə beləcə də qalmışdı) Hüseyn Alışanov dağ çayıtək gurladı. "Bilmirəm", "Bulaq", xüsusən də Səməd Vurğuna həsr etdiyi "Görüş xatirəsi" şeirləri, onu şair kimi tanıtdı, şeirləri tələbələrin dillər əzbərinə çevrildi:

Salonun qapısı açılır bu an,
Sanki dağ zirvəli bir dağ görünür.
Talıstan cüssəli sadə bir insan,
Dalğalı saçları dümağ görünür.

Bakı Dövlət Universitetində Ədəbiyyat dərnəyinə rəhbərlik edən məşhur şair Bəxtiyar Vahabzadə günlərin birində üzünü Hüseyn Alışanova tutaraq deyir ki, sən artıq şairsən. Qalır təxəllüs götürməyin. Bildiyimə görə, Laçındansan. Məsləhət görürəm "Kürdoğlu" təxəllüsünü götürəsən. Gənc şair müəlliminin sözünü yerə salmır. Lakin bu təxəllüs sonralar ona ədəbi mühitdə ikili münasibətə gətirib çıxardı. Bu, necə deyərlər, ayrı söhbətin mövzusudur. İndilikdə isə müəlliminin xeyir-duası, necə deyərlər, ilhamının üstünə ilham gətirdi.

II kursda oxuyanda o, bir şair kimi təqdim olunmağa başladı.

Hüseyn Kürdoğlu III kursda oxuyarkən (1956), nəğməyə çevrilən, sevimli müğənni Qulu Əsgərovun ifasında geniş yayılan "Bəyənmir məni" ("Bir leyli gözlünün oduna yandım, Saralıb-soluram, bəyənmir məni") və "Könül bağladım" ("Maral gəzər dağ üstə; Bülbül uçar bağ üstə") kimi şeirlərini yazır və ölkədə şair kimi tanınır. Hələ tələbəykən yazdığı "Mənim", "Qoy dolanım bu dağların başına", "Titrədi", "Kəklik" və s. şeirləri ədəbiyyatımıza istedadlı bir şairin gəldiyindən xəbər verirdi.

Mətbuatda onun yaradıcılığını, ayrı-ayrı şeirlərini təhlil edir, yüksək qiymətləndirirdilər. Bu baxımdan "Literaturnıy Azerbaydjan" jurnalında (1956, №2, s.82) "Gənc poeziya" adlı məqalə maraq doğurur. Məqalə gənclərin yaradıcılığında məhəbbət mövzusuna həsr olunmuşdu: "...Xəlil Xəlilovun "Qopmuş düymə", Hüseyn Kürdoğlunun "Ünvanım olsun", Əli Kərimovun "İki məhəbbət", Şükür Xanlarovun

"Sürücü", Rüfət Axundovun "Baxış" şeirləri bu köhnə və həmişəyaşar mövzuya həsr olunub.

Mənim fikrimcə, onların içində ən uğurlusu Hüseyn Kürdoğlunun "Ünvanım olsun" şeiridir. Lirik şeirin məzmunundan söz açmaq və onun bütün cazibəsini, poetik tapıntılarının gözəlliyini təsvir etmək çox çətindir. Bütün bunlar isə adı çəkilən və, təəssüf ki, rus dilinə tərcümə olunmayan şeirdə var.

"Ünvanım olsun" böyük incəliklə, ölçü hissi ilə yazılıb. Əfsus ki, bu cəhətə bir çox lirik şeirlərdə rast gəlmirik. Onlarda "bülbül cəhcəhi" və digər sentimentallıq var, lakin əsl lirikaya xas olan zövq və duyğu yoxdur".

Ədəbi aləmə keçən əsrin 50-ci illərinin ikinci yarısında gələn, yaradıcılığı şifahi xalq ədəbiyyatı, aşıq yaradıcılığı və klassik şeir ənənələri zəminində formalaşan, əsasən milli heca vəznində yazan Hüseyn Kürdoğlu bənzərsiz şair idi. O, zəngin irs qoyub gedib. Dördlükləri, cinaslı və cinassız bayatıları, təcnisləri, qoşmaları, gəraylıları, qəzəlləri, lirik poemaları və s. ilə könülləri fəth edib.

Hüseyn Kürdoğlunun ilk kitabı - "Səhər nəğmələri" 1963-cü ildə görkəmli şair Əhməd Cəmilin redaktəsi ilə "Azərnəşr"də çap olunub. Bu, o dövr üçün inanılması mümkün olmayan bir iş idi. Adətən o vaxt gənc şairlərin ilk kitabları kiçik həcmdə, həm də kiçik tirajla "Gənclik" nəşriyyatında çap olunardı. Şairin ilk kitabının "Azərnəşr"də, özü də Əhməd Cəmil kimi bir şairin redaktəsi ilə işıq üzü görməsi hadisə idi. Gənc şairə bu böyük etimad idi. O, bu etimadı doğrultdu. Kitabları dalbadal çıxmağa başladı və oxucu rəğbəti qazandı. "Yurdumu gəzə-gəzə" (1968), "Qaya çiçəkləri" (1970), "Doğma diyarım" (1973), "Çiçək təbəssümü" (1975), "Ata yurdum" (1978), "Dördtelli durna" (1979), "Toy karvanı" (1981) və s. kimi bir-birindən maraqlı kitabları çıxdı. Yeri gəlmişkən, şairin Özbəkistanda da professor Həmdulla Baltabayevin "Dərdli elin dərdmənd şairi" adlı geniş ön sözü ilə "Seçilmiş əsərləri" gözəl tərtibdə çap olunmuşdur. Tərcüməçi keçən əsrin 70-ci illərindən Azərbaycan ədəbiyyatını özbək dilinə çevirən tanınmış şair Osman Qoşqardır.

Kürdoğlunun sovet quruluşunun dayaqları laxlamağa başlayandan və dağılandan sonra daha çox kitabları çap olundu. "Durna səsi", "Bu dünya bir karvan yolu", "Yaralı torpağım, yaralı sevgim", "Min bir bayatı", "Tovuzum mənim, Oğuzum mənim", "İmana-dinə gəldim", "Hər şəhid bir nəğmədir", "Yurduma qurbandır sözüm", 2 cilddə "Seçilmiş əsərləri" oxucuların stolüstü kitabına çevrildi. Şairin ədəbi taleyi ilk gündən bu günə kimi ədəbi prosesin istiqamətlənməsində xidmətləri olan görkəmli ədəbiyyatşünas alimlər və ədəbiyyatımızı yaradanların diqqət mərkəzində olmuşdur. Akademiklər Bəkir Nəbiyev, Tofiq Hacıyev, Yaşar Qarayev, Teymur Kərimli, professor Camal Mustafayev, filologiya elmləri doktorları Şamil Salmanov, Əli Saləddin, Cavanşir Əliyev, Qurban Bayramov, Nadir Cabbarlı, Südabə Ağabalayeva, Günay Qarayeva, Aygün Bağırlı, Xalq şairi Nəriman Həsənzadə, İlyas Tapdıq, Adil Cəmil və bir çox başqaları onun yaradıcılığına sanballı məqalələr həsr etmiş, poeziyamıza gətirdiyi yeniliklərdən söz açmışlar.

Şairin poetika aləminə daxil olanda sanki möcüzələr aləminə düşdüm. Bütün vücudumla hiss etdim ki, bu böyük şairin poeziya gülzarında insan qəlbinə məlhəm olan, sevincinə, kədərinə həyan olan hər şey var. Dərk etdim ki, bu istedadlı şair sözün intəhasız imkanlarından istifadə edərək öz poetik dünyasını yarada bilib; bu, hər kəsə nəsib olmur. Onun dördlükləri bir kitaba sığmaz. Onlar Azərbaycan ədəbiyyatında əhəmiyyətli yer tutur. Akademik Bəkir Nəbiyev bir az şərti də olsa, belə bir bölgü aparmışdır: "Çağdaş ədəbiyyatımızda qəzəl Ə.Vahidin, süjetli lirika Ə.Cəmilin, sonet A.Babayevin, səkkizliklər T.Bayramın, rübai Qabilin, mənzum təmsil H.Ziyanın, bayatı isə H.Kürdoğlunun adı və yaradıcılığı ilə qırılmaz tellərlə bağlıdır".

Bəli, ədəbiyyatımızda ilk olaraq o, bir kitab dördlük yazıb və onları "Qaya çiçəkləri" (Bakı, 1970) adı altında çap etdirib. Aramsız poetik axtarışların, bədii təfəkkürün gəzişmələrinin nəticəsi olan dördlüklər təzə-tər, orijinal bənzətmələr, mətləblər, poetik fikir tapıntıları ilə dərhal diqqəti çəkir. Təsadüfi deyil ki, şairin dördlüklərinə şair-alim Qasım Qasımzadə və ədəbiyyatşünaslıq elmimizin iftixarı Yaşar Qarayev məqalələr həsr etmişlər. Yaşar Qarayev yazır: "Hüseyn Kürdoğlunun dördlükləri klassik rübai,

bayatı, təcnis, qoşma və gəraylı zəminində yaransa da, bugünki şeir təcrübəmizin hadisəsi kimi müasir çalar kəsb edir".

Aşağıdakı dördlük alimin sözlərinə şübhə yeri qoymur:

Göy çəmənə yaraşıqdır ağ davar,
Hər nə varsa, qırmızıda, ağda var.
Üç rəngdədir yurdumuzun qızılı -
Qara da var, sarı da var, ağ da var.

Göründüyü kimi, şair cinaslardan məharətlə istifadə edərək vətənimizin var-dövlətindən: "qara qızılı"ndan - neftindən, "ağ qızıl"ından - pambığından , "sarı qızıl"ından - taxıl zəmilərindən iftixarla söz açıb.

Klassik janrlara yenilik gətirməyi ilə şair özü də qürurlanırdı:

Saz tutub, dərdimi saza deyirəm,
Sözü şax deyirəm, üzə deyirəm.
Şeirimin əynində öz donumuz var,
Bu donda hər şeyi təzə deyirəm.

Alman alimi Leybnisin bütün zamanlar və xalqlar üçün gərəkli olan bir kəlamı var: "Mənə mükəmməl dil verin, sizə mükəmməl mədəniyyət verim". Bu baxımdan Kürdoğlunun yaradıcılığına nəzər salsaq, görərik ki, şairin heyrət doğuran dili zəngin xalq dilini yaşadan bir örnəkdir. Dilimizin saf, təmiz, duzlu, şirin olmasında şairin zəhməti az deyildir.

Çəkinmədən deyə bilərik ki, Kürdoğlu xalq dili ilə ədəbi dilin qovşağında sözdən heyrətamiz bir abidə ucaltmışdır. Buradan vətənimizin hər guşəsi - şəhərləri, kəndləri, dağları, ormanları, çayları, şəlalələri, çəmənləri, bulaqları, əməksevər insanları, qürur mənbəyi olan görkəmli şəxsiyyətləri apaydın görünür. Ümumiyyətlə, Kürdoğlu yaradıcılığında dünyanın on bir iqlim zonasından doqquzunu özündə cəm edən vətənimizin füsunkar gözəllikləri incə bədii boyalarla vəsf edilmişdir. Şairin "ölməz şah əsəri təbiət idi" - deyənlər yanılmayıblar.

Bu bir həqiqətdir ki, Hüseyn Kürdoğlunun poeziyası insanla təbiətin vəhdətindən yaranıb.

İllərlə poeziyamın gözəl nümunələrini mütaliə etdikcə, mən aydın şəkildə dərk etdim ki, şairin hər sözü, hər misrası ürəklərə od salmırsa, könüllərdə məskən salmırsa, o, şair deyil. Deyirlər Tanrı peyğəmbərləri vəhylə, əsl şairləri ilhamla şərəfləndirir. Sevimli və unudulmaz şairimiz Müşfiq demişkən,"şairə ilhamdan mayə gərəkdir" ki, o da Kürdoğluda var idi. Hələ biz onun fitri istedadını demirik.

Hüseyn Kürdoğlunun poeziyası yayın cırhacır vaxtı içilən, cana məlhəm olan bulaq suyu kimidir:

Anasız böyüyən körpə qız kimi,
Neçin yad olmusan naza, bənövşə.

və ya:

Divanədən betər divanə mənəm,
Görəndə yan gəzir divanə məndən.

- deyən şair çəkinmədən özünü Aşıq Ələsgərin varisi adlandırır:

Ələsgər varisi mənəm, ey sənəm,
İstərəm dünyaya söz qala məndən.

Bu misraları oxuyandan sonra Kürdoğlu yaradıcılığına aşıq sənəti, aşıq poeziyasının güclü təsirinin haradan qaynaqlandığı aydın olur. Və şairin gəraylı və aşıq poeziyasının zirvəsi hesab edilən təcnislərə müraciət etməsi təəccüb doğurmur.

Kürdoğlunun "Yaylaq nəğməsi", "Gecikmişəm", "Yaz rəngi", "Məhəbbət yetim qalanda", "Ölmərəm" kimi gəraylıları və "Dağıstan gözəlinə", "Şirin bağın bəhrəsinə söz olmaz", "Nə çatım", "Çiləsən" kimi təcnis və qoşmatəcnisləri çox mətləblərdən söz açır.

Məlumdur ki, gəraylılar klassik və çağdaş şairlərimizin yaradıcılığına təsir etmişdir. Nəsimi və Füzulinin daxili qafiyəli qəzəlləri heca vəzninə yaxın bəhrdə yazıldığına görə onları asanlıqla "gəraylı" şəklinə salmaq mümkündür. Bu barədə ilk dəfə S.Vurğun söhbət açmış, "20 bahar" adlı şeirində Füzulinin qəzəlini gəraylı şəklinə salaraq öz şeirinin vəzninə uyğunlaşdırmışdır:

Möhnət çəmənindən gül dərə-dərə
Ucaldı şairin ahı göylərə:
"Şəbi-hicran yanar canım,
Tökər qan çeşmi-giryanım,
Oyadar xalqı əfqanım,
Qara bəxtim oyanmazmı?"

Füzuli yurdunun qəm səsidir bu,
Pərişan bir elin naləsidir bu.

Nəsiminin:

Allahu əkbər, ey sənəm, hüsnünə heyran olmuşam,
Qövs-i qüzəhdi qaşların, yayinə qurban olmuşam. -

mətləli bu və ya bir çox başqa qəzəllərini gəraylıya çevirmək olur:

Allahu əkbər, ey sənəm,
Hüsnünə heyran olmuşam.
Qövs-i qüzəhdi qaşların,
Yayinə qurban olmuşam.

Bunu Hüseyn Kürdoğlunun yaradıcılığında da görmək olur. Lakin şair qəzəli birbaşa gəraylı şəklində yazıb:

Gəl ey səadət mələyi,
Eşqinə heyran olmuşam.
Dörd yanımda gül əkmisən,
Əhli-gülüstan olmuşam və s.

Bununla belə, cəsarətlə deyə bilərik ki, Kürdoğlunun ən çox hər birində bir dünya fikir olan, hər biri ayrı-ayrılıqda bitkin bədii əsər olan, məna ilə bərabər fəlsəfi fikrin yığcamlığı, əxlaqi və ictimai fikrin dərinliyi ilə seçilən, heyrət doğuran bayatılardan bəhrələnib. Şairin bayatılara dərin məhəbbəti, bəlkə də Sarı Aşıqdan qaynaqlanır. Məlum olduğu kimi, o, əvvəlcə Sarı Aşığın bayatılarını toplayaraq çap etdirib Yalnız bundan sonra öz bayatılarını yazmağa başlayıb və uğur da qazanıb. Xüsusi vurğulamaq lazımdır ki, Hüseyn Kürdoğlu bayatı janrında poema yazmış ilk və yeganə şairimizdir. Şairin bayatı-xoyrat janrında yazdığı iki lirik poeması var: "Aşıq və Yaxşı" (1993) və "Tovuzum mənim, Oğuzum mənim" (1998). Bu poemalara qədər şair Kərkük xoyratlarından ilhamlanaraq çox sayda bayatılar yazmış, "Min bir bayatı" (1992, 224 səh.) kitabını nəşr etdirmişdir. Kitabda "Yolları daşlı Kərkük" bölümü də vardır. Onlar poetik quruluşuna görə heç də Kərkük xoyratlarından fərqlənmir:

El sözü urvat imiş,
Qənd imiş, nabat imiş.
Bayatının bacısı
Kərkükdə xoyrat imiş.

Sovu yox;
Qılıncımın sovu yox.
Minmişəm qəm atına,
Başında cilovu yox.

Onu da demək lazımdır ki, H.Kürdoğlunun bayatı-xoyrat yaradıcılığı Kərkük ellərində sevilir və yüksək qiymətləndirilir. Çünki Kürdoğlunun yaratdığı, yüksək bədii təfəkkür məhsulu olan , dərin məna tutumu ilə fərqlənən cinaslı bayatı möcüzəsinə yalnız Kərkük dolaylarında rast gəlmək olur:

Qara dərdim,
Ağ səpdim, qara dərdim.
Dağlarda qarmı qalar,
Söyləsəm qara dərdim?
(H.Kürdoğlu)

Oda yandı;
Ürəyim oda yandı.
Su tökdüm oda sönsün,
Səpdiyim su da yandı.
(Kərkük)

Bunlar da Hüseyn Kürdoğlunun böyük Füzuliyə həsr etdiyi bayatı və Kərkük xoyratıdır:

Dünyadan keçdi, getdi,
Yaratdı, köçdü, getdi.
O xoyrat bulağından
Füzulim içdi getdi.

Barı var;
Qəm daşından barı var.
Əkmişəm dərd ağacı,
Hər fəsildə barı var.

Hüseyn Kürdoğlunun bir neçə gözəl poeması vardır. Bu yazıda biz onun yalnız bayatı üstündə yazılmış iki lirik poemasından - "Aşıq və Yaxşı" və "Tovuzum mənim, Oğuzum mənim" poemalarından söz açmaq istərdik.

Şairin "Aşıq və Yaxşı" lirik poeması Sarı Aşığa həsr olunub. Şair "Bağbansan, bağında boy atam gərək" - deyərək Sarı Aşığın davamçısı olduğunu etiraf edir.

"Aşıq və Yaxşı" poeması qoşma və bayatılarla yazılıb. Bu o deməkdir ki, şair bütövlükdə ustadını təkrar etmək fikrində deyil. Aşağıdakı bənd deyilənləri təsdiqləyir:

Bir dağam, başımın qarı təzədir,
Şeirimə bal çəkən arı təzədir.
Kökləri uludur, barı təzədir,
Olmasın bir dənə boyatım mənim.

Şairin mənim 60 illik yubileyimə həsr etdiyi, tamamilə bayatı janrında yazdığı "Tovuzum mənim, Oğuzum mənim" lirik poeması Tovuzun təbii gözəllikləri, adlı-sanlı adamları, adət-ənənələri incə bədii boyalarla, məhəbbətlə vəsf olunur. Bəs, poema niyə mənə həsr olunub düşündüm; Tovuzdan nə çox adlı - sanlı adam, ziyalı çıxıb?! Şairin poemaya yazdığı ön sözü oxuyandan sonra səbəbini anladım: "Qəzənfər müəllimin Kərkük bayatılarına həsr olunmuş kitabları mənim bayatı yaradıcılığımda böyük bir dönüş yaratdı, bu doğma qədim şeir janrına məndə sonsuz inam hissi oyatdı... Lakin bayatını vaxtı keçmiş bir janr hesab edən bəzi ədəbiyyatçıların yanlış mülahizələrinə görə çox narahat idim. Qəzənfərin tədqiqatları əyani şəkildə göstərdi ki, bayatı bütün türk dünyasının ölməz şeiridir və çağdaş şairlərin də bu biçimdə yazıb-yaratmağı son dərəcə gərəklidir. Fədakar folklorçumuzun bu sahədəki misilsiz fəaliyyəti yoluma gur işıq saldığına görə ona ömürlük minnətdaram. Ona ithaf etdiyim poema da həmin minnətdarlıq duyğularının ifadəsidir".

Aşıq yaradıcılığında təcnis sınaq meydanı hesab olunduğu kimi, bayatılarda da belədir. Hər ikisində sənətkardan böyük istedad, az sözlə dərin məna ifadə etmək, zəngin söz ehtiyatına malik olmaq, sözləri seçərək cinas yaratmaq tələb olunur. Hüseyn Kürdoğlu yaradıcılığının böyük qismini heyrətamiz poetik güc və zənginliyi ilə seçilən, lirikanın bədii cəhətdən kamil növü olan, ölməz sənət əsərləri səviyyəsinə yüksələn bayatılara həsr etməklə həm sınaq meydanında at çapmış, həm də göstərmişdir ki, folklorun bu qədim janrı belə yeni dövrün fikrini ifadə etməkdə münasib formadır.

Akademik Tofiq Hacıyev yazır ki, H.Kürdoğlunun poeziya xəmiri həzinliklə mayalanıb. Ədəbiyyatımızda bu kədər olmayıb. Buna sovet dövründə bədbinlik deyirdilər. Ona görə də üstünə yasaq qoymuşdular. Bu kədər bayatı xasiyyətidir - deyə fikrini tamamlayır.

Burada həqiqət vardır. Bayatıda qəm, qüssə, kədər - xüsusən də bayatı biçimində olan ağılarda - çox güclüdür. Lakin hörmətli alimin çox doğru olaraq göstərdiyi kimi, bu həzinlik Kürdoğlu poeziyasında vətən-torpaq həsrətinin yanğısıdır. Qarabağ

hadisələrinə, xüsusən də Laçın düşmən tapdağı altına düşənə qədər şairin poeziyasında şairlərə xas bədbinliyə az təsadüf edilirdi. Qarabağ hadisələrindən sonra şairin poeziyasındakı həzinlik ah-naləyə çevrildi:

Möhlət ver, ey Tanrı, möhlət ver bir az,
Laçın azad olsun, ölüm Laçında.
Öpüm torpağını ölümdən əvvəl,
Bir dinə-imana gəlim Laçında.

Deyirlər göz yaşının nə olduğunu əvvəllər ağlamış adam bilər ("Yetim yanağı bilir, göz yaşı necə dağlar" - Kərkük bayatısından). El-oba həsrəti, el-oba möhnəti çəkmiş, doğma yerlərdən didərgin düşmüş adamlar bilər göz yaşının nə olduğunu. O da olsun "Vətəndə vətən gəzmək" zorunda qalan, Kürdoğlu kimi kövrək qəlbli bir şair. Nə edəsən ki, dünya bina olandan qəm yükünü daşımaq şairlərin alın yazısı, "qismət payı" olmuşdur.Təəssüf ki, böyük Yaradan bu "payı" Hüseyn Kürdoğludan da əsirgəməmişdir. "Meşələrində düşmən mərmisinin səsindən bənövşə qorxa-qorxa çiçək açdığı" Laçının yüzdən artıq şəhidinin qəhrəmanlığından, şəhidlik zirvəsinə yüksəlməsindən bəhs edən "Hər şəhid bir nəğmədir" kitabı da şairin üzüntüləri, ürək ağrısı və göz yaşları ilə yazılıb. Şair kitabdakı "Hələ son sözüm deyil" adlı elə ilk şeirində deyir ki, yüzlərlə başqa şəhidlərdən söz açа bilməyib, onlar qarşısında günahkardır:

Ey mənim kitabıma adı düşməyən igid,
Bağışla bu qocanı, keç sonsuz günahından.
Son mənzilin hardasa mənim qibləgahımdır,
Qəbrinə nur çilənsin xaliqin dərgahından.

Şəhid nəğmələrinin bəziləri döyüş və zəfər marşlarını xatırlatsa da, əksəriyyəti ağı və laylalardır. "Hər şəhid bir nəğmədir" kitabı şəhid ata-analarına, qardaş-bacılarına, qohum, dost, tanışlarına, ümumən, oxuculara təsəlli və təskinlik baxımından böyük dəyər kəsb edir.

"Torpaqsız da ümid gülü bitərmi?" - deyən Hüseyn Kürdoğlu ümidini, dəyanətini, inam və etiqadını itirmədi. Ölümünə dörd il qalmış çap etdirdiyi "İmana-dinə gəldim" (1999) əsəri onun böyük imanının bəhrəsidir. Yaradana, Peyğəmbərimizə, islami dəyərlərə, Laçın rayonunun Mollaəhmədli kəndində yaşayıb dünyasını dəyişmiş Seyyid Əmir ağa kimi müqəddəs saydığı insanlara həsr olunan şeirlər insanı düşündürür, şairin özü kimi saf, pak, halal olmağa, nəfsini boğmağı bacarmağa, qəlbinə hakim olmağa, dünya malına hərislik göstərməməyə səsləyir:

Ölərəm, mən sənə haram qatmaram,
Ömrümün mayası halal çörəyim.

Onun halallığına, səmimiyyətinə inanmaya bilmirsən. Çağdaşımız olduğundan hamı yaxşı bilir ki, Kürdoğlu, könlü-gözü tox, təmtəraqsız, iddiasız həyat sürən ləyaqətli insan idi. Aşıq Şəmşir təsadüfi demirdi: "Görmədim nəfsinin nökəri səni".

Hamıya qayğı göstərən, qiymətləndirən şairə, təəssüf ki, sağlığında layiq olduğu qiymət verilməmişdi. Gileyini "Mən vətənin qayğısından hələ paysız vətəndaşam" misrasında dilə gətirmişdi.

Dostluq edirdik. Sovet quruluşu dağılmış, həyat dəyişmişdi. Bir gün şəhərdə gəzirdik. Bakının mərkəzində, "Pasaj" deyilən yerdən keçəndə gördük ki, sovetin orden və medalları kütləvi şəkildə satılır. İnsanlar onlara baxır, təbəssüm və laqeydliklə keçib gedirlər. Zarafatla dedim: "Qağa, qoy sənə bir-iki orden alım, döşünə tax, baxaq qürrələnək". Nəyə işarə etdiyimə təbəssümlə, şeirlə cavab verdi:

Çox olaydı könlü-gözü tox olan,
Yox olaydı ölməmişdən yox olan.
Olmayaydı gərək qələm əhlində
Medalları əsərindən çox olan.

Həyatda hər şey nisbi, keçəri imiş. Həyatda başlıca məsələ xalqın azadlığı, müstəqilliyi, torpağın bütövlüyü və insanın ailəsindən, övladlarından yarıması imiş - dedi.

Hüseyn Kürdoğlu haqqında ürək sözlərimi yazmazdan əvvəl yaradıcılığını diqqətlə bir də nəzərdən keçirdim. Heç bir əsərində partiyaya, saxta dəyərlərə, ideologiyaya məddahlıq görmədim. Əksinə, bu xoşagəlməyən hala qarşı səsini ucaltdığını gördüm:

Qələm əhli, dünya sənə göz dikir,
Sənsən əzəl şərəf-şanı dünyanın.
Mədhiyyələr oxutmasın özünə
Hər kralı, hər sultanı dünyanın.

Lakin o, layiqli, ləyaqətli, xalqa başucalığı gətirən şəxsiyyətlər haqqında yazmaqdan da yorulmadı. "Ziyalımız-ziyamız" kitabını nəşr etdirdi (1999). "Oxucuya sözüm" adlı müqəddimədə məramını açıqladı: "Sevdiyim, tərənnüm etdiyim, bədii portretini yaratmağa çalışdığım bu unudulmaz vətən övladlarının bəziləri ali məktəb müəllimlərim, bəziləri iş yoldaşlarım, bəziləri də əsərlərini sevə-sevə oxuduğum, şəxsiyyətinə pərəstiş etdiyim qocaman sənət bahadırlarıdır. Yaşayanlarına uzun ömür dilədiyim, dünyadan köçənlərinə rəhmət oxuduğum bu nadir insanların yüksək vətəndaşlıq qayələrini, yüksək əməllərini, mənəvi-əxlaqi məziyyətlərini poeziya dili, poeziya rəngləri ilə canlandırmaq mənim üçün şərəfli şair borcu, şair vəzifəsidir".

Hər şeydən əvvəl onu deyim ki, "Ziyalımız-ziyamız" şeirlər toplusu görkəmli şəxsiyyətlər haqqında şairin qəlbində boy atan qürur nəğmələridir. Şairin şəxsiyyətinə və əvəzsiz əməllərinə pərəstiş etdiyi sənət bahadırları isə bunlardır: müəllimlərindən Həmid Araslı, Mir Cəlal, Əli Sultanlı, Məmməd Cəfər Cəfərov, eləcə də Həsən Əliyev, Ziya Bünyadov, Bəkir Nəbiyev, Yaşar Qarayev və s., yazıçı və şairlərdən Səməd Vurğun, Şəhriyar, Mikayıl Müşfiq, Süleyman Rəhimov, Rəsul Rza, Osman Sarıvəlli, İlyas Əfəndiyev, Qasım Qasımzadə, Hüseyn Arif, Məmməd Araz, Nəriman Həsənzadə və s. Şair hər bir şəxsiyyətin özünəməxsus xüsusiyyətlərini elə yaratmışdır ki, oxuyanda heyran olursan; Səməd Vurğunun 90 illiyinə həsr etdiyi "Yenə sən" şeirində şairin yenilməz obrazını yaratdığı kimi:

Zaman səni bulandıra bilmədi,
Büllur qaya bulağısan yenə sən.
Boz təpələr vüqarına ah çəkir,
Şeirimizin Şahdağısan yenə sən.

Nə gizlədim, xalqın iftixarı olan, çoxunu şəxsən tanıdığım bu dahi və görkəmli şəxsiyyətlərə ithafları oxuduqca qürur hissi keçirdim və şairi xoş duyğularla yad etdim.

Təəssüf hissi ilə deməliyəm ki, şair Kürdoğlu təxəllüsünə görə ədəbi ictimaiyyət tərəfindən birmənalı qarşılanmamışdı. Bəzən eyhamla, bəzən aşkar onu soy-kökünə biganə kimi qələmə verirdilər. Bu qeyri-sağlam, əsası olmayan gedişat, hardasa onun yaradıcılığına münasibətdə də özünü göstərirdi. Məsələnin nə yerdə olduğuna kürd kökəmli Əhməd Həponun Hüseyn Kürdoğlunun əziz xatirəsinə həsr etdiyi "Ürək zərbəsi" məqaləsi aydınlıq gətirir. O, yazır ki, yerli hökumətdən məktub gəlmişdi. Məktubda bir sıra məsələlərlə yanaşı, yazılırdı ki, icazə verməyin Hüseyn Kürdoğlu imzası ilə hər hansı bir yazı çap olunsun. Bunu Hüseyn Kürdoğluya necə deyim, bu dövlət sirri idi. Duz-çörək yediyim dostum, kürdşünaslıq üçün bu qədər iş görən insana bu xəbəri deməmək mənə ölümdən də betər idi. Bir müddət keçdi, bir gün o, mənə zəng edib, titrək səslə dedi:

–Əhməd müəllim, şeirlərimi qəzetə, jurnala verirəm, götürmürlər. Heç bir nöqsan da tutmurlar. Ancaq bir nəfər mənə deyib "Qlavlit"ə müraciət edim.

Bu yerdə dilim dolaşdı. Həmin dəqiqə o, başa düşdü... Qərəz, biz qərara gəldik ki, sabah Akademiyada görüşək. Bu haqda mən "Qlavlit"in rəhbərliyi ilə məsləhətləşdim və qərara gəldik ki, bundan sonra Hüseyn Kürdoğlu "Hüseyn Alışanov" imzası ilə yazsın. Lakin şair bu təkliflə razılaşmadı. Qərara gəldik ki, o, "Hüseyn K." imzası ilə yazsın. Belə də oldu. Bir müddət şairin şeirləri "Hüseyn K." imzası ilə çap olundu.

Əhməd Həpo məsələyə belə xitam verir: "Öyünmək olmasın, Hüseyn Kürdoğluya qarşı olan bu qadağanı sonralar götürtdürə bildik, amma ürəyinə düşən xalı götürə bilmədik".

Hüseyn Kürdoğlu dostunun bu yaxşılığını heç vaxt unutmamış, Əhməd Həponun oğlu Niyazinin toyunda minnətdarlığını bildirmişdir. Şeirdən şairin milli kimliyi də məlum olur:

Dar gündə ayrılmamış azəri qardaşından,
Dağlar oğlu dostuna dağ kimi dayaq olmuş.

Şair bir neçə şeirində də bu məsələyə qayıtmışdır:

Adəm ilə Həvvanın ülfət qıldığı çağdan,
Bəlkə də türk diliymiş əzəl insanın dili.
Qurban olum Allaha, gör necə dil yaratmış,
Türk dili olmazmıdı bütün cahanın dili?!

və ya:

Saz dilim, tar-kaman dilim,
Mənim Azərbaycan dilim.

Bu da şair Mirsədi Mirlərin şeirindən götürdüyümüz iki misra:

Koroğlusan, Kürdoğlusan,
Ən qeyrətli türk oğlusan.

Şairin qardaşı, görkəmli ədəbiyyatşünas alim, professor Şirindil Alışanovun dedikləri ilə bu mövzuya nöqtə qoymaq istərdim: "Nə babalarımız Həsən və Alışan, nə də ulu babamız Musa kişi kürd olmayıblar" (Bax: "Azərbaycan" ədəbi-bədii jurnalı, 2014, №8, s.168).

Bütün bunlar öz yerində.

Əsas məsələ odur ki, Hüseyn Kürdoğlu təbin, ilhamın, fitri istedadın, elə-obaya, vətənə sonsuz məhəbbətin sayəsində əsl poeziya nümunələri yaradan Azərbaycan poeziya bağçasında məxsusi yeri olan şairdir. Bu laləzar bağçada şairin kimliyi soruşulmur.

Kürdoğlunun əsərlərini diqqətlə nəzərdən keçirəndə gördüm ki, hər şeiri ilk misrasından son misrasına qədər sənət nümunəsidir. Hələ I kursda oxuyarkən yazdığı "Bulaq" şeiri deyilənləri isbatlayır:

Şeirimdən hər yanda min soraq olsun,
Ellərin yanında üzüm ağ olsun.
Qoy ürək sinəmdə bir bulaq olsun
Axıb tükənməsin sözüm, ey bulaq!

Bir şeirlə Yazıçılar Birliyinə üzv olan görmüşük. Ədası yerə-göyə sığmayan belə "şairlər" gəlib gediblər. İzləri də qalmayıb. Lakin Hüseyn Kürdoğlunun hər birində dərin mənalar, orijinal fikirlər olan, kiçik həcmli ikicə şeiri - "Həyat ağacı" və "Gəlib-getmişəm" kifayətdir ki, o, ədəbiyyat tarixinə düşsün. Şairin gücü, qüdrəti, əzəməti, möcüzəsi, həyata baxışı, zaman, insan probleminə münasibəti bu poetik nümunələrdə özünü bariz şəkildə göstərir:

Barlıdır, ucadır həyat ağacı,
Bəhəri həm şirin, həm də ki acı.
Dırmanıb çıxırıq, ucalırıq biz,
Başına çatmamış qocalırıq biz.
Ordan xəyal kimi düşürük bir-bir,
Ağacın dibində ölüm müntəzir.
Göydə tutur bizi, gömür torpağa,
Təzə gələnlərsə çıxır budağa.
Bu cür ülfətdədir ölümlə həyat,
Ağacın başına çıxan yox, heyhat!

Şairin "Gəlib-getmişəm" şeirindəki həyat həqiqətləri adamı heyrətə gətirir. Əslində şairin yaradıcılığının şah damarını həyat həqiqətləri təşkil edir. Bu şeirdəki fəlsəfi fikirlər, tarixə ekskurs, həyat həqiqətləri öz yerində, şeirdəki axıcılıq, şairin xalq dilindən məharətlə istifadə etməsi adamı heyran edir. Çox böyük həcmli bu şeirdən müəyyən parçaları verməklə kifayətləndik:

Bu dünyaya neçə kərə gəlib-getmişəm,
Gəlib Adəm övladına gülüb getmişəm.
Gəldim əzəl daş əyyamı - əllərində daş,
Vəhşi kimi öldürürdü qardaşı-qardaş...

Bir də gəldim, mis əyyamı, dəmir əyyamı,
Gözlərimə ilk baxışda xoş gəldi hamı.
Aldadırmış gözüm məni, baxıb nə gördüm,
Yer üzünün yarısını viranə gördüm.

Qılınc-qalxan, ox və kaman, mizraq və nizə,
Gecə-gündüz işə düşür, qan çıxır dizə...

Hüseyn Kürdoğlunun aşıq sazı üstə köklendiyini, folklor və klassik poeziyamızla pərvazlandığını yazanlar haqlıdırlar. Lakin unutmaq olmaz ki, onun "Aytənin nəğmələri" (Bakı, 2009, 172 səh.) adlı bir kitab uşaq şeirləri var.

Şair poeziyamızın bütün janr və vəznlərində qələmini sınayıb, hətta sərbəst şeirlər də yazıb. "Yolum tarladan keçir" və başqa sərbəst şeirləri Rəsul Rzanın şeirlərinə bənzəyir:

Tarladan keçir yolum,
Tarladan.
Qara torpağı kotan parladan, -
İçindən keçir qara şumların,
Şum narın-narın,
Məst olmuşam mən
torpaq ətrindən,
Şeir səpirəm şumlara dən-dən... və s.

Hüseyn Kürdoğlunun elə şeirləri də var ki, prof. T.Hacıyevin doğru olaraq göstərdiyi kimi, hecaların düzülüşü, misraların bölgüsü tamam yenidir:

Oxuma, kəklik, oxuma,
Qarşıda yağı gizlənib.
Səni də vurur, məni də,
Əldə yarağı gizlənib.
O, qanlı daşın dalında
Ac qurd sayağı gizlənib,
Oxuma kəklik, oxuma!

Şairin 1980-ci ildə çap etdirdiyi çox maraqlı "Qaraqoyunluda" adlı şeiri (şeir indiki Ermənistan ərazisində Azərbaycan kəndinə həsr olunub) məni sanki qəflət yuxusundan oyatdı. Yadıma sovet dövründə kənd və şəhərin yaxınlaşmasını təlqin edən siyasi iqtisad fənni və müəllimlərimi saldı. O yaxınlaşmanın aqibəti elə Hüseyn Kürdoğlunun təsvir etdiyi kimi olacaqmış. Şeirdə təsvir edilən həyat həqiqətləri insanı düşünməyə vadar edir:

Qaraqoyunluda qoyun görmədim,
Sanki heç tanımır qoyunu bu kənd.
Elə tarixə də bu adla düşüb,
Danırmı əslini-soyunu bu kənd?!

Təndirlər qalanıb, çörək yapılmır,
Qarmaqdan asılıb, cəmdək çapılmır.
İlan vuran olsa, qatıq tapılmır,
Özü yaxşı tutub toyunu bu kənd!

Həyat həqiqətləri şairin "Yol gedə bilmirəm oğlumla qoşa" şeirində də özünü bariz şəkildə göstərir. Əlavə sözə, təhlilə ehtiyac duyulmur:

Mən qara deyirəm, oğlum ağ deyir,
Damla sandığıma, gur bulaq deyir.
Hər şeyi təzədən yaradaq deyir,
Yoldaşlıq yaramır yaz ilə qışa,
Yol gedə bilmirəm oğlumla qoşa.

Beş bəndlik "Qar düşür" qoşmasının hər bəndi sanki bir rübaidir:

Bahara gül-çiçək, yaya bar-bəhər,
Son bahara qırov, qışa qar düşür.
İnsan da belədir, ömür-gün gedir,
Altmışı keçincə başa qar düşür.

Klassik ənənəyə sadiq qalan şairin bir kitablıq qəzəlləri vardır. Kürdoğlu qəzəllərində güldən, bülbüldən, gözəldən, gözəllikdən ilham almaqla bərabər, vətənə, soykökə bağlılıqdan, ustadı Füzulidən, XX əsrin qəzəlxanı Vahiddən, musiqi

səcdəgahı, şeir bulağı Nardarandan, şairlərin ilham mənbəyi Xəzərdən, zəmanəmizin keşməkeşlərindən söz açır. Burada şairin qəzəllərinin hər birindən bir beyt olmaqla dörd nümunə verməyi münasib bildik:

Hər gülün min nazını min şövq ilə bülbül çəkər,
Qönçədir güllər hələ, bülbül xəyalən gül çəkər.

Dərdinə dərman tapılmaz yığsalar loğmanları,
Bağrıqan Kürdoğluya ustad Füzuliymiş demə.

Kaş dəyişsin qanımız, qan tökməyə qan qalmasın,
Aləmi qansız görüb, Tanrı nigaran qalmasın.

Təzə bir şövq ilə şah pərdədə dinsin qəzəlim,
Nankor övlad olaram, çıxsa yadımdan əzəlim.

Hüseyn Kürdoğlu yaradıcılığında az da olsa, Azərbaycan poeziyasında az işlənən, satirik səciyyəli "bəhri təvil"ə (ərəbcədir: bəhr - dəniz, təvil - uzun, ucsuz - bucaqsız, sahilsiz deməkdir) də rast gəlinir. Şairin "Bir neçə fövqəldövlət" bəhri-təvili keşməkeşli dünyamızda dövrün taleyüklü olaylarını, ədalətsizliyi, eybəcərlikləri, haqsızlıqları tam çılpaqlığı ilə açıb göstərir. Şeirdən bir parçanı oxucuların nəzərinə çatdırmağı münasib bildik:

Tanrının hökmü ilə böylə yazılmış əlbət
Dünyanın sahibi olsun da gərək
Bir neçə fövqəldövlət -
Yekə dövlət,
Əkə dövlət.
Təkə dövlət.
Qalanı xırda-para,
Bəxti qara -
Tikə dövlət, kökə dövlət.
Yekələr xırdaları
Bir-birinə saldırsın,
Malını, sərvətini
Göz görəsi çaldırsın... və s.

Hüseyn Kürdoğlu haqqında bir çox ziyalılarımız, alimlərimiz, yazıçı və şairlərimiz xatirə yazaraq çap etdirmişlər. Onların arasında akademik Teymur Bünyadov və onun həyat yoldaşı Zivər xanım, Ağa Laçınlı, Şamil Əsgərov, Əli Qurbanov (Dastançı Əli), Əhməd Həpo, Zümrüd Şəfiyeva, şairin həyat yoldaşı Fəridə xanım Alışanova və bir çox başqaları vardır.

Xatirələr Hüseyn Kürdoğlunun bir insan və şair kimi bir çox keyfiyyətlərini üzə çıxarır və onun portretinin bütöv və kamil yaranmasına yardımçı olur. Zivər xanımın yazdıqları deyilənlərə dayaq olur: "Onunla beş il Universitetdə (BDU-da) bir sinifdə oxumuşam. Yaşar Qarayev, Tofiq Hacıyev kimi, Hüseyn də yaxşı oxuyurdu. Gecə-gündüz universitetin kitabxanasından çıxmırdı. Müdam fikirli görünərdi. Elə bil bu zəmanənin adamı deyildi, başqa planetdən gəlmişdi. Görünür, təbiəti ilə yanaşı, şairliyi də onu bu günə qoymuşdu. (Bax: "Bir şeir bulağıydım", Bakı, "Sabah", 2014, s.177-178).

Akademik Mirzə İbrahimov bu münasibətlə yazmışdır:

"Bütün fikri-xəyalı yaradıcılıqda olan adam çox şeyi və o cümlədən özünü unudur, ancaq yaratmaq ehtirası ilə yaşayır, çalışır ki, yaratdığı insanlar üçün faydalı olsun". Xalq yazıçısının bu qiymətli sözləri, sanki:

Mən sözün üstündə can qoymuşam ki,
Şeirim kal görünər, Sözə söz gələr -

deyən Hüseyn Kürdoğlunun boyuna biçilmişdi.

İZTİRAB ÇƏKƏN RUHUN DRAMI



Əqrəb zərrə-zərrə ruhumu sancmış,
Fəsildən-fəsilə girdim beləcə.
Gördüm ki, alovda, atəşdə yoxmuş
Fikir əzabından böyük işgəncə.

Nəcib Fazil Qısakürək (1904-1983) insan ruhunun metafizik dərinliklərini özünəməxsus şəkildə ifadə edən böyük bir sənətkar olmuşdur. Onun yaradıcılıq axtarışlarının sayəsində müasir türk şeiri, türk dramaturgiyası yeni yüksəliş mərhələsinə qədəm qoymuşdur. Nəcib Fazil, yeni fikir cərəyanlarının yarandığı, ədəbiyyatın sürətlə inkişaf etməyə başladığı bir zamanda, çoxsahəli yaradıcılığı, əsərlərinin özünəməxsus poetik mükəmməlliyi, dərin lirizmi ilə əks-səda doğurmuş, cərəyanların fövqündə duran qüdrətli bir sənətkar kimi yetişmişdir.

Böyük şair 26 may 1904-cü ildə İstanbulda dünyaya göz açmış, valideynlərindən daha çox, babası Mehmet Hilmi əfəndinin himayəsi altında böyümüş, kiçik yaşlarından sərbəst oxuyub-yazmağı öyrənmişdi.

17 yaşında (1921) İstanbul universitetinin Ədəbiyyat fakültəsinə daxil olan Nəcib Fazil sufi-fəlsəfi təlimlərini hələ lisə illərində müəllimi İbrahim Eşqi əfəndidən almış, Berqson fəlsəfəsinin incəliklərini isə böyük filosof Mustafa Şəkib Tuncdan öyrənmişdir.

1924-cü ildə universitetin axırıncı kursunda oxuyarkən, Qısakürək Sorbonna universitetinin fəlsəfə şöbəsində oxumaq üçün Parisə göndərilir. Burada, Parisin "bohem həyatı"nı yaşayaraq, qumar oynamaq xəstəliyinə tutulan ədib xatirələrində yazır ki, bir gün sanki yuxudaymışım kimi, silkələnib ayıldım. Və ucları kir dolu dırnaqlarımla üzümü cıraraq, "Allahım, məni özümdən qoru" deyib ağlamağa başladım. Beləliklə, şair Sorbonna universitetindəki təhsilini yarıda qoyub geri qayıdır.

Gənc şair bir müddət müxtəlif banklarda müfəttişlik etməyə başlayır. 1925-ci ildə isə onun ilk şeir kitabı "Hörümçək toru", daha sonra isə 64 səhifədən ibarət "Səkilər" şeir kitabı nəşr olunur.

1930-cu illər artıq böyük şair kimi tanınan Nəcib Fazilin ruhi iztirablar içində qovrulduğu, həyatının ən dəhşətli illərini keçirdiyi bir mərhələ olur. Fikir girdabında boğulan, nəhayət, "Allahım, məni özümdən qoru" deyib, çarə axtaran şairin həyatında, hətta düşüncə sistemində dönüş yaradacaq böyük bir hadisə baş verir. Nəqşibəndi şeyxi Əbdülhakim Ərvasi ilə tanışlıq və səmimi dostluq onun kamil bir insan kimi yetişməsində, sufi-fəlsəfi təlimlərini mənimsəməsində önəmli rol oynayır. Hətta, şair:

Tam otuz il saatım işləmiş mən durmuşam;
Göy üzündən xəbərsiz, çərpələng uçurtmuşam...

- deyərək, şeyxi tanımamışdan öncəki həyatını heç hesab edərək, "O və mən" avtobioqrafik əsərində yazır ki,

"Həyatım başından bəri müəzzəm bir şeyi axtarıb tapmanın cərəyanı içində axıb gedirdi. Bu və ya digər miskin vəsilənin həssaslığı içində birini axtarırdım. Birini... O kimdi? Allahın sevgilisi... Sonsuzluq iqliminin batmayan günəşi və əbədilik sarayının paslanmaz tacı..."

Beləcə axtardığını tapan Nəcibin həyatında yeni səhifələr açılmağa başlayır. Şeyx Əbdülhakim Ərvasi ilə tanış olub əsl gerçəyi, həyatın mənalar aləmini dərk edən sənətkarın yaradıcılıq yolu bu baxımdan bir-birindən kəskin şəkildə fərqlənən iki mühüm mərhələyə ayrılır. Hətta, şair özü də "O və mən" adlı avtobioqrafik əsərində bunu etiraf

edərək, həyatınının onu tanımamışdan öncəki və sonrakı deyə iki dövrdən ibarət olduğunu qeyd edir.

Həyatının sonuna qədər kəskin ictimai-siyasi publisistik fəaliyyəti, alovlu çıxışları ilə öz mübarizəsini əzmlə davam etdirən, eyni zamanda, ədəbiyyatın bütün sahələrində ən gözəl sənət inciləri yaradan Nəcib Fazil, 1983-cü il may ayının 26-da bal rəngli gözlərini uzaqlara dikərək "deməli, belə ölürlərmiş" son kəlimələrini deyərək həyata vida edir.

Əsasən böyük bir şair kimi tanınan Nəcib Fazil Qısakürək, eyni zamanda çox istedadlı dramaturq idi. "Toxum", "Yunus Əmrə", "Səbr daşı", "Müqəddəs əmanət" və s. kimi pyeslər qələmə alan Qısakürəyin dramaturgiyasının zirvəsini "Bir adam yaratmaq" təşkil edir. O, bu əsərində iztirab çəkən insan ruhunun dramını sərgiləyir. Xatırladaq ki, onun dram sahəsində ilk qələm təcrübəsi "Toxum" idi. Bu əsər geniş şöhrət qazansa da, müəllifin ümidlərini bir o qədər də doğrultmamış, səhnədə uğur qazana bilməmişdir. Bundan təsirlənən dramaturq, dünya miqyasına çıxa bilən bir əsər yazmağı qərara alır. Beləliklə, 2 il fasilələrlə üzərində işlədiyi "Bir adam yaratmaq" pyesi ərsəyə gəlir. Əsər 1937-38-ci illərdə İstanbul şəhər teatrında səhnəyə qoyulur və böyük uğur qazanır.

"Bir adam yaratmaq" pyesinin əsas qəhrəmanı Xosrovdur. Məşhur bir dramaturq olan Xosrov "Ölüm qorxusu" adlı pyes yazır. Burada atası intihar etmiş bir dramaturqun ölüm fəlsəfəsindən, iztirab çəkən əzabkeş ruhundan, ölümdən qurtulmaq istəyərkən ölümün ağuşuna atılmağından bəhs edilir. Gördüyümüz kimi, dramaturq pyes içində pyes yazır.

Nəcib Fazil Xosrov obrazı vasitəsi ilə ruhi əzablar içində qovrulan, qəlbindəki suallara cavab axtarmağa çalışan dolğun bir obraz yaradır. Sufi-fəlsəfi ideyaların təcəssümü, olum ya ölüm fəlsəfəsi onun timsalında təqdim edilir. Əsərdə ən dəhşətli işgəncə olan fikir böhranı dilə gətirilir. Xosrov yazdığı əsərlə, daxili dünyasıyla, eyni zamanda ətrafıyla gərgin konfliktdədir. Dramaturq göstərir ki, Xosrov, "Ölüm qorxusu" əsərini yazdıqdan sonra öz faniliyini, öz acizliyini dərk edir. Əsərdə heçlikdən qaçmaq, qurtulmaq, əbədiyyən yaşaya bilmək ehtirası əks olunur. Xosrovun hayqıraraq "Allahım, mən yox ola bilmərəm! Hər şey olaram, yox ola bilmərəm!" sözlərində bu açıq-aydın görünür. Əslində bu sözlər Xosrovun özünün deyil, "Ölüm qorxusu" pyesinin qəhrəmanının sözləridir. Xosrov yazdığı pyesin qəhrəmanının varlığında əriyir, yox olur. O, özü də çaş-baş qalır, "Axı, mən kiməm?" deyə fəryad qoparır. Əsərdə çox önəmli bir mövzuya, alın yazısı məsələsinə də toxunulur. Nəcib Fazilə görə, qədər - tale elə incə məsələdir ki, ən bəsit cizgisinə belə heç bir xəyal nüfuz edə bilməz. Yalnız Allahın dediyi və onun yazdığından daha gözəl, daha doğru və daha yaxşı heç nə ola bilməz. Əsərdəki alın yazısı məsələsi isə Allahla insan arasındakı münasibətin ifadəsi şəklində üzə çıxır. Xosrov öz pyesini yazmaqla pyesdəki insana tale yazmış olur. Xosrov çılğınlıqla "Bir adam yaratmağa qalxdım. Bir adam yaratmaq... Bu adama bir də tale yazmaq lazımdır" deyə əzab içində qovrulur.

Bu sözlər "Bir adam yaratmaq" həqiqətinin şifrəsi rolunu oynayır. Xosrov qadağan olunmuş sərhədləri aşmaq istədiyini başa düşür, Allah qarşısındakı acizliyini anlayır. Elə əsərin əsas ideyası da budur.

N.Fazil bu əsəriylə oxucu qarşısında Allah və insan, alın yazısı, ölüm, fanilik kimi mühüm məsələlər qoyaraq, onun fəlsəfi mahiyyətini açıqlamağa çalışır.

Ölüm hər birimizi düşündürən cavabsız suallardan biridir. Həssas şairi isə bu daha çox düşündürür. Hələ uşaq vaxtı, körpəliyindən bəri daim divarlara yapışa-yapışa, ortalıqda ona-buna əngəl olmaqdan ürkə-ürkə, bəyazı damar-damar görünən ala gözləriylə hey öləcəyi günü gözləyən bacısı Səlmanın, daha sonra isə "Evimizin ruhu babam, babamın ruhu isə mən idim" deyə bəhs etdiyi sevimli babasının ölümü onun yaddaşında silinməz izlər buraxmışdır. Əlbəttə ki, bu hadisələr "Bir adam yaratmaq" pyesində də özünü göstərirdi. Hələ pyesin əvvəlində bəlli olur ki, Xosrovun əsərinin adı "Ölüm qorxusu"dur. Heç şübhəsiz ki, bu bir təsadüf deyil. Atasının intihar etməsi balaca Xosrovun şüuraltına yerləşərək, onda bu qorxunu yaradır. Əslində "Ölüm qorxusu" pyesinin meydana gəlməsi də Xosrovun şüuraltı istəkləri ilə bağlıdır. Buna görə də əsərdəki hadisələr onun şəxsi həyatı ilə üst-üstə düşür. Xosrovun yazdığı bu əsər onu atasının intihar səbəbini düşünməyə sövq edir. Atasının qeyd kitabçasında "Ölümə əlac ölüm"dür sözlərinin altından xətt çəkilmişdir. Deməli, intiharın səbəbi də elə bu idi.

Ölüm əsərin leytmotivini təşkil etsə də, yavaş-yavaş məcrasını dəyişərək qorxu, vahimə, daha sonra isə yaratma düşüncəsinə, ordan da Allah qarşısında çarəsiz qalan

insanın sirlər aləminə dönür. Elə Xosrovun daxilindəki konfliktin səbəbləri də bu idi. Beləcə, ölüm qorxusu və qarabasmalar, üstəlik də bir adam yaratmanın xofu Xosrovu bir çarəsizliyə doğru sürükləyir. Bəli, bu cavabsız suallar, fanilik duyğusu, vicdan əzabı onun həyatını cəhənnəmə çevirir. O, özü-özünə düşmən kəsilir.

Əsərdə diqqəti cəlb edən maraqlı məqamlardan biri də əncir ağacıyla bağlıdır. "Ölüm qorxusu" pyesinin qəhrəmanı və atası, eləcə də Xosrovun atası özünü əncir ağacından asır. Niyə əncir ağacı?! Niyə yazar öz əsərini bu motivlə başlayıb bu motivlə bitirir. Deməli, bu bir təsadüf deyil, əsərin əsas məqsədiylə bağlıdır. Əsərə nəzər salsaq, elə ilk pərdədən Xosrovun heç kəsə demədiyi bütün mənliyini möhürləyən gizli bir sirri olduğunu görürük. Bu "gizli sirr" Xosrov obrazının bütün davranışlarını həyata keçirərək, əsərin onurğasını təşkil edən böyük əzaba da mənbə olur. Əsərdən bəlli olur ki, o balacaykən, atası özünü əncir ağacından asır. Bir sözlə, onun uşaqlığı əncir ağacının uğursuzluq gətirən hekayətlərini dinləməklə keçir. Bu köklü-köməcli ağac onun sirrinin bir parçasına çevrilir. Bu ağaca bağlılıq şüuraltı olaraq beyninə hopur. Bəlkə, elə ölüm düşüncəsini də bu köklü-köməcli əncir ağacından alır. Bilirik ki, dində də əncir ağacının əhəmiyyətli yeri vardır. Simvolik xarakter daşıyan bu ağac, Nəcib Fazilin ən uğurlu tapıntılarından biridir. Dramaturq əsərin sonunda xatirələrlə dolu bu ağacın ətrafını "yasaq və sirli bir bölgə" kimi təqdim edir. Ağacın kəsilməsi, Xosrovun mənəviyyatına ağır zərbə vurur. Xosrov fəryad qoparır, anasına "Axı, niyə? Niyə?" deyə suallar yağdırır. Anasının "Oğlum, bu qədər pis xatirəsi olan ağacı niyə sevirsən?" sualına, "Çünki o, atam idi. Özüm idim. Uşaqlığım idi. O, səndən sonra ən çox sevdiyim varlıq idi. Ən çox sevdiyim varlıqdan ən böyük pisliyi gördüm. Atam özünü ondan asdı. O, mənim yenə də ən çox bağlı olduğum varlıq olaraq qaldı. İndi onu kəsdiniz. Düz dibindən kəsdiniz. Beləcə dünyamı da kəsmiş oldunuz" - deyə cavab verir.

Mükalimədən də aydın olur ki, bu ağac maddilikdən çıxaraq, mənəvi xarakter qazanır. Əslində, əsərin əncir ağacıyla nöqtələnməsi, onun saxta, mənasız, insan gerçəkliklərinə sığmayan fani bir dünyadan, əsl qurtuluşa qovuşduğunu göstərir. Elə buna görə də əsər Xosrovun "Nə edim, ana, kəsdiniz əncir ağacını?" təsiredici, düşündürücü sözləriylə bitir.

Xosrov özünü dost kimi göstərən ikiüzlülərin, öz şəxsi mənafeyini güdən Şərəflərin, Nevzadların yaşadığı bu cəmiyyətdə sıxılır, tənhalaşır və o, bu dəhşətli cəmiyyətin qurbanına çevrilir. Xosrov onsuz da onun xəyal dünyasından xəbərsiz olan bu insanlarla bir mühitdə yaşamaqdansa, dəlilərlə bərabər dəlixanada qalmağa üstünlük verir.

Bu əsər bizə Norveç yazıçısı Henrix İbsenin "Vahimə" əsərini xatırladır . Əsərin əsas qəhrəmanı Osvald Alvinq də Xosrov kimi evin bütün sirlərindən uzaq tutulur. Əyyaş atasının ölümünün səbəblərini oğlundan gizlədən ana bu hadisənin ona psixoloji təsir etməsindən ehtiyatlanır və ərini ona ideal bir insan kimi təqdim edir. Amma şüuraltına hopmuş bəzi nüanslar Osvald Alvinqi düşünməyə sövq edir. O da eynən Xosrov kimi işgəncələrə düçar olur, Manderslərin olduğu cəmiyyətə məğlub olur. Gördüyümüz kimi, hər iki əsərdə şəxsiyyət və cəmiyyət məsələsi dayanır. Təbii ki, bu tipoloji səsləşmələr, bənzər mövzulara müraciət müxtəlif ədəbi axınların təsiri ilə izah oluna bilər.

Xosrov obrazı dolğunluq baxımından Şekspirin "Hamlet"ini də yada salır. "Hamlet"in ana mövzusunu təşkil edən məşhur "Olum, ya ölüm?" fəlsəfi düşüncəsi bu əsərdə də xüsusi yer tutur. Hər iki qəhrəman, atanın ölümündən təsirlənir. Hər iki qəhrəmanın beynini "ölüm" düşüncəsi məşğul edir. Çünki ətraflarında cərəyan edən hadisələr onları bu cür düşünməyə sövq edir. Hər iki qəhrəman həyatın faniliyini dilə gətirir. Hamlet məzarlıq səhnəsində Yorcikin kəlləsini əlinə alıb deyir:

"Yazıq, zavallı Yorcik! Azı min dəfə məni çiyinlərində gəzdirib, indi isə gör necə də iyrənc olub, ona baxdıqca ürəyim ağzımdan gəlir. Burada dodaqları vardı. Bu dodaqlardan neçə dəfə öpdüyüm yadımda deyil. Ah, biçarə, sənin lağlağıların, sənin məzhəkələrin, sənin nəğmələrin indi harada qalıb?"

Xosrov da çılğınlıqla xidmətçisi Osmana "Hardadır, bu adam Osman? Gözü, üzü, əlləri bir tərəfə, bütün tərkibiylə, tərkibinin tək və yeganə mənasıyla haradadır, bu adam?" deyə soruşur. Elə Xosrovla Hamleti bir-birinə yaxınlaşdıran da bu fəlsəfi düşüncə sistemidir.

Türkiyəli tədqiqatçı Dərya Şenol "Səhnənin iki üzü" adlı araşdırmasında bu əsərləri müqayisə edərək belə nəticəyə gəlir ki, Nəcib Fazil "Bir adam yaratmaq"da öz təcrübələrini "Hamlet"lə zənginləşdirərək, özünəməxsus fərdi üslubuyla yeni bir əsər

meydana gətirmişdir. Doğrudur, şairin xatirələrindən onun Şekspir yaradıcılığına yaxından bələd olduğunu bilirik, amma bütün bunlar ustadın bu əsəri "Hamlet"in təsiriylə yazdığı iddiasını irəli sürməyə qətiyyən əsas vermir. Milli kontekst məsələsini və müəllifin düşüncə tipini nəzərə aldıqda, türk ədəbiyyatında yeni bir hadisə olan bu əsərin, əminliklə orijinal bir əsər olduğunu söyləyə bilərik. Sufi ideyaları özündə təcəssüm etdirən dramaturqun düşüncələrinə o dövrdə Qərb ədəbi axınlarının, xüsusən də həyatın mənasızlığı konsepsiyasına əsaslanan ekzistensializm ədəbi-fəlsəfi cərəyanının təsiri olmuşdur. Ekzistensializm təsdiq edir ki, cəmiyyətin hər bir üzvü fərd olaraq yalqızdır və yalqız olduğu qədər qapalıdır. İnsanlar qarşılıqlı anlaşılmazlığa məhkumdurlar. Hər adam-bütöv bir dünyadır. Lakin bu dünyalar arasında körpülər yoxdur. Adamların ünsiyyəti üzə görədir və insan qəlbinin dərinliyinə nüfuz etmir, buna görə də o, yalqızlığı unutdurmur.

Ümumiyyətlə, Nəcib Fazil Qısakürəyin yaradıcılığında, özəlliklə də "Bir adam yaratmaq" əsərində müasirlərindən fərqli olaraq, həm modern Qərb ənənələrinin, o cümlədən, ekzistensializm ədəbi cərəyanının, həm də sufi-fəlsəfi ideyalarının təsiri vardır. Dramaturq Şərq-Qərb ənənələrini özündə ehtiva edərək bu əsərində təkcə ölümün deyil, alın yazısının eşqin, kədərin, göz yaşının, məyusluğun, bir sözlə, insanlığın fəlsəfi mahiyyətini açır.

Daha dərin qatlara ensək, bu əsərdə Nəcib Fazilin vaxtıyla çəkdiyi fikir böhranının, ruhi sarsıntılarının, iztirab dolu ruhunun təcəssüm olunduğunu görərik. Şair, həyatının fırtınalı illərində keçirdiyi hissləri "Çilə" şeirində verirdisə, bu duyğuların dramatik faciəsini "Bir adam yaratmaq"da dramlaşdırırdı. Əslində bu əsərdə iç-içə iki deyil, üç dram sərgilənir. Oxucu qarşısında üç əsas obraz canlanır: "Bir adam yaratmaq" dramının qəhrəmanı Xosrovun, "Ölüm qorxusu" pyesinin qəhrəmanının, bir də Nəcib Fazilin obrazı. O, öz metafizik axtarışlarını, ruhi məşəqqətlərini yaratdığı bu obrazların, özəlliklə də Xosrovun timsalında əridərək, təqdim edir.

Budur, iztirab çəkən ruhun dramı "Bir adam yaratmaq"...

Məhz, iztirab çəkən ruhun, Nəcib Fazil ruhunun dramı!..

Eşqanə BABAYEVA

OXUCULARIN NƏZƏRİNƏ!

2015-ci İL ÜÇÜN

"AZƏRBAYCAN"

jurnalına abunə yazılışı davam edir.

"AZƏRBAYCAN"

jurnalının bir nüsxəsinin qiyməti 1 manat 50 qəpik,

illik abunə qiyməti 18 manatdır.

İNDEKS: 76300

Əlyazmalar İnstitutunun yeni nəşrləri

Dəyərli təzkirənin ilk nəşri
Nəcəfqulu bəy Şeyda. "Gülşəni-maarif" təzkirəsi.
Nəşrə hazırlayan və ön sözün müəllifi: Paşa Kərimov. Bakı: "Elm və təhsil", 2014

XIX əsrin sonları - XX əsrin əvvəllərində yaşamış, şeirlərində çar Rusiyasının və Sovet rejiminin müstəmləkə siyasətini cəsarətlə ifşa etmiş Nəcəfqulu bəy Şeydanın "Gülşəni-maarif" təzkirəsinin əlyazması Əlyazmalar İnstitutuna təqdim edilib. Burada 24 şairimiz haqqında məlumat, əsərlərindən nümunələr verilir. Bu şairlər aşağıdakılardır: Azər Buzovnalı, Əşrəf Nəzərli, Mir Bədrəddin Bədri, Məhəmməd Hadi Bakuvi Sabit, Əbdülxaliq Cənnəti, Hacıağa Hacı, Mirzə Möhsün Xəyali, Ağa Hüseyn Rəsulzadə, Mirzə Əbdüləli Səməndər, Həsən Səyyar, Mir Əbdülvəhhab Seyid Zəngər, Hacı Səlim Səyyah, Nəcəfqulu bəy Şeyda, Mikayıl Seydi, Sadiq bəy Sadiq, Mirzə Məhəmməd bəy Ziya, Mirzə Həsib Qüdsi, Ağadadaş Müniri, Əliabbas Müznib, Səməd Mənsur, Əbdüləli Hilali, Məhəmməd Hadi Şirvani, Məhəmməd ağa Müştəri, Əbdülxaliq Yusif. Əsasən klassik janrlarda yazıb-yaradan, sovet ideologiyasının tələblərinə uyğunlaşmayan bu sənətkarlar Bakı, Şirvan, Qarabağ, Quba, Dağıstan ədəbi mühitlərinin yetirmələridirlər. Kitab ədəbiyyat tariximiz barədə yeni məlumatlarla zəngindir.

Redaktorlar: Arif Ramazanov və Əkrəm Bağırov.

Əfşar və Qacar ellərinin şanlı övladları
Tahirə Həsənzadə. XVIII-XIX əsr Əfşarlar və Qacarlar dövrünün görkəmli Azərbaycan türkləri. Bakı: "Elm və təhsil", 2014

Kitabda Səfəvilərdən sonra İran və Azərbaycana hakim olmuş Əfşarlar və Qacarlar imperatorluqlarının yaradılmasında və inkişafında iştirak etmiş dövlət xadimləri, siyasətçilər, hərbçilər, həkimlər və başqa peşə sahiblərindən danışılır. Nadir şah Əfşar, Təhmasibqulu xan Cəlayir, Baba xan Çavuşlu, Rzaqulu xan Şamlu, Məhəmmədhəsən xan Qacar, Ağa Məhəmməd şah Qacar, Mirzə Hüseyn xan Qəzvini, Mirzə Nəzərəli Həkimbaşı, Abbas Mirzə Naibüssəltənə və bir sıra digər görkəmli Azərbaycan türkləri barədə geniş məlumat verilir.

Redaktor: Şahin Fərzəliyev

Görkəmli şair və tarixçi barədə kitab
Raqub Kərimov. Mirmehdi Xəzainin həyat və yaradıcılığı. Əsərləri. Bakı: "Elm və təhsil", 2014

Kitab XIX əsr poeziyamızın nümayəndəsi, "Kitabi-tarixi-Qarabağ" əsərinin müəllifi Mir Mehdi Xəzaninin həyat və yaradıcılığı barədə tədqiqatdan və şairin şeirlərindən ibarətdir. M.M.Xəzaninin şeirlər toplusuna onun qəzəl, qəsidə, növhə, münacat, müxəmməs, müstəzad, müəşşər, müşairə, deyişmə, qoşma, gəraylı, bayatı, tapmaca və mənzum məktubları daxildir.

Redaktorlar: Zaman Əsgərli və Möhsün Nağısoylu.

Bu günün gözü ilə Y.V.Çəmənzəminli
Şəlalə Ana Hümmətli. Yusif Vəzir Çəmənzəminlinin elmi-ədəbi irsi yeni faktların işığında. Bakı: "Elm və təhsil", 2014

Kitabda Y.V.Çəmənzəminlinin elmi-ədəbi irsi son vaxtlar aşkar edilən faktların işığında, sənədlərin dili ilə şərh edilir. Yusif Vəzirin çəmənzəminlişünaslığa, elm aləminə məlum olmayan əsərlərinin əlyazmalarından, "Zərəsb" gizli imzası ilə qələmə aldığı məqalələrdən və s. söz açılır.

Elmi redaktoru: Tofiq Hüseynov.

Qarabağlı Sədinin ədəbi irsi
Sədi Sami Qarabaği. Əsərləri. Nəşrə hazırlayanlar və ön söz müəllifləri: Raqub Kərimov, İlahə Vəliyeva. Bakı: "Elm və təhsil", 2014

Sədi Ocaqqulu oğlu Qarabaği 1841-ci ildə Cinli kəndində anadan olmuş, "Məclisi-fəramuşan" ədəbi məclisində iştirak etmiş, sonradan Türkiyənin Amasya şəhərinə getmiş, Seyid Həmzə Nigarinin şagirdi olmuş, 1879-cu ildə, 37-38 yaşlarında burada vəfat etmişdir. Kitabda şairin həyat və yaradıcılığı barədə geniş məlumat verilmiş, onun qəzəl, qəsidə, müstəzad, tərcibənd, müxəmməs, təxmis, qoşma, təcnis və mənzum məktublardan ibarət ədəbi irsi oxuculara təqdim edilmişdir.

Elmi redaktorlar: AMEA-nın müxbir üzvü Möhsün Nağısoylu və professor Zaman Əsgərli.

Misirdəki mənəvi sərvətimiz
Kamandar Şərifli. Misirin "Dərül-kutub vəl-vəsaiqül-qaumiyyə" kitabxanasındakı Azərbaycan əlyazmaları. Bakı: "Elm və təhsil", 2014

Müəllif Misirin Qahirə şəhərindəki "Dərül-kutub" və Ərəb Əlyazmaları İnstitutu, eləcə də İskəndəriyyə və Tanta şəhərləri kitabxanasında saxlanan çoxsaylı Azərbaycan əlyazmaları barədə məlumat verir. Kitabdan öyrənirik ki, Misir kitabxanalarında Xətib Təbrizi, Xaqani Şirvani, Nizami Gəncəvi, Şəms Təbrizi, Nəsirəddin Tusi, Əssar Təbrizi, Şeyx Mahmud Şəbüstəri, Nəsimi, Sührəverdi, Füzuli, Saib Təbrizi və bir çox digər klassiklərimizin əsərlərinin əlyazmaları qorunur.

Redaktor: Azadə Musabəyli.

Ən iri həcmli tibb ensiklopediyalarından biri
Nəcməddin Mahmud ibn Sainəddin İlyas Təbrizli.
"Orta əsr tibb ensiklopediyası" (Tibb elmi və müalicə üsullarına dair hər şeyi əhatə edən kitab"). Ərəb dilindən tərcümə edən: Hacı Müzafəddin Əzizov. Bakı: "Qanun", 2014

844 səhifədən ibarət olan bu kitab, demək olar ki, orta əsrlərdə movcud olmuş bütün tibbi bilikləri əhatə edir. XIII-XIV əsrlərdə Təbriz və Şiraz şəhərlərində yaşayıb-yaratmış Azərbaycan alimi İlyas Təbrizlinin bu əsərində daxili xəstəliklərdən, insan orqanizmində gedən müxtəlif proseslərdən, zəhərlərin insan bədənində törətdikləri dəyişikliklərdən və onların müalicəsindən, qida məhsullarının, bitkilərin sağlamlığa təsirindən bəhs olunur.

Redaktor: Zülfiyyə Abusəttar.

Paşa ƏLİOĞLU

◆ K i t a b r ə f i



ƏLİ KƏRİM
SEÇİLMİŞ ƏSƏRLƏRİ (İKİ CİLDDƏ, I CİLD)
BAKI, «ŞƏRQ-QƏRB» NƏŞRİYYATI EVİ, 2014

XX əsr Azərbaycan poeziyasında özünəməxsus yeri olan bənzərsiz şairimiz Əli Kərimin ikicildlik seçilmiş əsərlərinin I cildinə onun şeirləri, poemaları («İlk simfoniya», «Üçüncü atlı», «O mənə danışdı ki...», «Bir santimetr haqqında ballada», «Heykəl və heykəlin qardaşı», «Ölülər ordusu» və uşaqlar üçün qələmə aldığı «Uşaqların loğmanı», «Paşa, ulduzlar və uşaqlar», «Dənizdə şəhər», «Qız və kəpənək», «Tənbəl ayı balası» və «Artist çəpiş balladası» daxil edilmişdir.

Kitabın tərtibçisi və redaktoru - şairin oğlu, filologiya elmləri doktoru Paşa Əlioğlu, «Əli Kərim sevgisi, yaxud ayrılıq zamanında anladım ki, bir sözük» adlı müqəddimənin müəllifi filologiya elmləri doktoru Cavanşir Yusiflidir.



ANAR
AĞ QOÇ, QARA QOÇ
UKRAYNA, KİYEV, «YAROSLAVİV VAL»
NƏŞRİYYATI, 2015

Azərbaycanın Xalq yazıçısı, Yazıçılar Birliyinin sədri Anarın əsərlərindən ibarət kitab Kiyevdə Ukrayna dilində çapdan çıxıb. Ukraynanın «Yaroslaviv Val» nəşriyyatında işıq üzü görən kitaba Çingiz Aytmatovun Anar haqqında yazdığı «Taleyin müasiri» məqaləsi ön söz kimi verilib. «Ağ qoç, qara qoç» kitabına ədibin eyni adlı əsəri, «Dantenin yubileyi» və «Ağ liman» povestləri, «Zəncir», «Mən, sən, o və telefon», «Gürcü familiyası» və «Gecənin səhəri» hekayələri, «Saflaşdıran kamança naləsi» essesi, yazıçı-publisist Günel Anarqızının «Mükəmməl insan Anar» müsahibəsi daxildir.

Ukraynanın görkəmli elm, mədəniyyət və incəsənət adamlarının adları olan kitaba Ukrayna ədəbiyyatşünası, tənqidçisi və ictimai xadimi Mixail Slaboşpitski Anarın dərin milli ruhlu, beynəlmiləl yazıçı olduğundan bəhs edən “Sərhədlər tanımayan Anar” adlı son söz yazmışdır.

KƏMALƏDDİN QƏDİM
DAHA SONUMU YAZIRAM
Bakı, "Elm və təhsil", 2014

"Türk ədəbiyyatına xidmət" (Türkiyə) və Şahmar Əkbərzadə adına Beynəlxalq Ədəbiyyat Mükafatı laureatı Kəmaləddin Qədim 80-ci illər ədəbi nəslinin nümayəndələrindəndir. "Daha sonumu yazıram" onun oxucularla sək-kizinci görüşüdür. K.Qədimin son illərdə müxtəlif mövzularda qələmə aldığı əsərləri "Gündə dörd dolanır əcəl başıma, hələ ki, özümü naza tuturam", "Qoymayın düşsün yerə, girin sözün altına", "Gəlib dar eyləyib yerini, tanrım, çıxar bu qadını, çıxar içimdən" və s. başlıqlar altında təqdim olunur.

Redaktoru Səlim Cəfərovdur.

HÜSEYN HƏŞİMLİ
SƏİD SƏLMASİ
BAKI, «ELM VƏ TƏHSİL» NƏŞRİYYATI, 2014

Səid Səlmasi (1887-1909) nakam taleli bir ömür yaşamış istedadlı şairlərimizdəndir. O, qısa ömür sürsə də, Azərbaycan ədəbiyyatı tarixində özünəməxsus iz qoymuş sənətkarlardandır. Əməkdar Elm Xadimi, filologiya elmləri doktoru Hüseyn Həşimlinin bu monoqrafiyasında S.Səlmasinin mühiti, ömür yolu və yaradıcılığı çoxsaylı materiallar əsasında ilk dəfə olaraq araşdırılır.

Kitaba Səid Səlmasinin əsərlərindən seçmələr də daxil edilmişdir.



VAQİF BƏHMƏNLİ
BELƏ YAXŞIDI...
BAKI, «YAZIÇI» NƏŞRİYYATI, 2015

Tanınmış şair Vaqif Bəhmənli «Belə yaxşıdı...» yeni şeirlər kitabı ilə oxucuların görüşünə gəlib. Kitabda onun müxtəlif illərdə yazdığı şeirləri toplanmışdır - bu şeirlərin əsas mövzusu sevgi, Vətən məhəbbəti, insanın mənəvi dünyası, həyat eşqi, gerçəkliyin reallıqlarıdır.

«Ön söz əvəzi» olaraq V.Bəhmənli ilə müsahibə təqdim olunur.

Kitab Azərbaycan Yazıçılar Birliyinin aybKitab layihəsinin nəşridir.

ƏNVƏR ƏHMƏD
SEÇİLMİŞ ƏSƏRLƏRİ (DÖRD CİLDDƏ)
BAKI, «YAZIÇI» NƏŞRİYYATI, 2014

Tanınmış şair-publisist Ənvər Əhmədin seçilmiş əsərlərinin dörd cildliyinə onun əlli illik yaradıcılığının seçmə nümunələri daxil edilmişdir. I və II cildlərdə onun müxtəlif mövzularda yazdığı şeirləri, III cilddə «Tərəkəmə», «Xarı bülbül», «Şəhriyara salam», «Daş qanı», «Bu yara köz bağlamaz», «İttiham», «Vətən» və s. poemaları, IV cilddə isə «Qanlı torpaq», «Baharın göz yaşları», «Ruhların fəryadı» mənzum dramları təqdim olunur.

Filologiya elmləri doktoru Vaqif Yusifli dördcildliyə «Ənvər Əhmədin şair dünyası» adlı müqəddimə yazmışdır.



GÜLXANİ PƏNAH, SALATIN ƏHMƏDLİ
AZƏRBAYCAN ƏDƏBİYYATI MƏSƏLƏLƏRİ
BAKI, «UNİPRİNT», 2014

Kitabda Azərbaycan Yazıçılar Birliyinin yaradılmasının 80 ili ərzində poeziyamızın, nəsrimizin, dramaturgiyamızın, ədəbi tənqidimizin, publisistikamızın, bədii tərcüməmizin əldə etdiyi uğurlar, Azərbaycan ədəbiyyatının inkişafından, Yazıçılar Birliyinin fəaliyyətindən söz açılır.

AMEA-nın Folklor İnstitutunun Elmi Şurasının qərarı ilə çap olunan kitabın redaktorları professorlar Qara Namazov, Seyfəddin Rzasoy və Ramin Əhmədovdur.

ADİL CƏMİL
SEÇİLMİŞ ƏSƏRLƏRİ (2 CİLDDƏ, II CİLD)
BAKI, «ELM VƏ TƏHSİL» NƏŞRİYYATI, 2014

Adil Cəmil müasir Azərbaycan poeziyasının səksəninci illər ədəbi nəslinə mənsubdur. Onun bu vaxta kimi ondan artıq şeir, publisistika və elmi yaradıcılığını əks etdirən kitabları çap olunmuşdur. Şairin seçilmiş əsərlərinin II cildinə onun müxtəlif illərdə yazdığı şeirlər və «İşıq şəhəri», «Ayrılıq səndən oldu», «Şəkilsiz bilet», «Zirvədə göl», «Qan borcu», «Kölgəsiz şöhrət», «Dədə ocağının odqoruyanı» poemaları daxil edilmişdir.

Kitabın redaktoru şair Çingiz Əlioğludur.


Tofiq Mütəllibov

TOFİQ MÜTƏLLİBOV HAQQINDA
BAKI, «BAKI UNİVERSİTETİ» NƏŞRİYYATI, 2014

Kitaba tanınmış şair, Əməkdar İncəsənət Xadimi Tofiq Mütəllibov haqqında xatirələr və məqalələr daxil edilmişdir. Burada Təhsin Mütəllimovun, Qabilin, Nəriman Həsənzadənin, Fikrət Qocanın, Xanımana Əlibəylinin, Nahid Hacızadənin, Famil Mehdinin, Süleyman Vəliyevin, Ramiz Heydərin, Cəlal Abdullayevin, İsmayıl Cəfərpurun, Tofiq Mahmudun və b.-nın yazıları ilə tanış ola bilərsiniz.

Kitabın tərtibçisi Təhsin Mütəllimov, redaktoru isə Aqşin Babayevdir.

TƏRANƏ ABDULLAYEVA
AZƏRBAYCAN ƏDƏBİ FİKRİNDƏ
QƏRBÇİLİK MEYİLLƏRİ
BAKI, «AVROPA» NƏŞRİYYATI, 2014

Kitabda XX əsrin əvvəlləri Azərbaycan ədəbi fikrində qərbçilik meyilləri tədqiq olunur. XX əsrin əvvəllərində tənqidi realizm və romantizm ədəbi cərəyanları, maarifçilik ideyaları Qərblə müqayisədə təhlil edilir, müasir Azərbaycan mədəniyyətinin Avropa və dünya mədəniyyətinə inteqrasiya olunmasında XX əsrin əvvəllərindəki qərbçilik meyillərinin elmi qiyməti verilir.

Monoqrafiyanın elmi redaktoru filologiya elmləri doktoru, professor Zaman Əsgərlidir.

ELBƏYİ CƏLALOĞLU
HAQQ MƏNDƏDİ
BAKI, «3 SAYLI BAKI MƏTBƏƏSİ», 2015

Elbəyi Cəlaloğlunun «Haqq məndədi» kitabında onun son illərdə yazdığı şeirləri təqdim olunur. Əsasən klassik sufi şeirlərinin təsiri ilə yazılan bu yazıların mövzusu insanın haqq, ədalət axtarışları, Ulu Tanrıya sevgilər və xalqın adət-ənənələrinin təbliği motivləri üstə köklənib. Bu kitab şairin oxucularla yeddinci görüşüdür.

AĞASƏN BƏLƏDZADƏ
HƏLƏ YAŞAMAĞA DƏYƏR DÜNYADA

BAKI, "ELM VƏ TƏHSİL" NƏŞRİYYATI, 2014

Ağasən Bələdzadə ədəbiyyata 60-cı illərin sonlarında gəlmişdir. Xalq şairi Bəxtiyar Vahabzadə onun ilk şeirləri haqqında mətbuatda xoş əryini bildirmişdir. A.Bədəlzadənin bu vaxta qədər "Yanmaq ona deyərəm ki", "Payızda məhəbbət", "Hayıf, a dünya, səndən", "Qorxuram bu dünya sevgisiz qala", "Zamanın üzü, yazıçının sözü", "Bu dünyanın hər üzünü görmüşəm" şeir kitabları çap olunub. "Hələ yaşamağa dəyər dünyada" kitabında isə onun son 10 illik yaradıcılığı əks olunur.

Kitabın redaktoru filologiya elmləri doktoru Məhərrəm Hüseynovdur.

RƏFAİL LAÇINLI
VƏTƏN YANĞISI
BAKI, "ELM VƏ TƏHSİL", 2014

"Vüsal həsrəti", "Şəhriyarnamə" və "Rübailər" kitablarının müəllifi Rəfail laçınlı oxucuları ilə yeni - "Vətən nəğməsi" toplusu ilə oxucularının görüşünə gəlib. Kitabda müəllifin müxtəlif illərdə, xüsusən də ürəyinin, könlünün ilk çırpıntısı olan Laçınla bağlı poetik duyğuları, eləcə də son illərdə qələmə aldığı və müxtəlif mövzulu şeirləri daxil edilmişdir.

Kitabın redaktoru və "Vətən yanğılı şair" adlı ön sözün müəllifi İlyas Tapdıqdır.